

**«AZƏRBAYCANDA KORRUPSİYAYA VƏ RÜŞVƏTXORLUĞA YER OLMAMALIDIR. BÜTÜN DÖVLƏT MƏMURLARI BUNU EŞİTSİNLƏR, BİLSİNLƏR VƏ ELƏ İŞLƏSİNLƏR Kİ, HƏMİŞƏ DÖVLƏT VƏ XALQ QARŞISINDA ALNIAÇIQ, ÜZÜAĞ OLSUNLAR»**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

AZƏRBAYCAN PROKURORLUĞU
ELMİ-PRAKTİKİ JURNAL

№ 1(45)

YANVAR- MART 2014-cü il

Təsisçi: Azərbaycan Respublikasının Baş Prokurorluğu

REDAKSİYA HEYƏTİ:
Baş redaktor:
Namiq Əsgərov
Baş redaktorun müavini:
Nazir Bayramov
nazirbairamov@mail.ru
Redaksiya heyətinin üzvləri:
Bəhruz Mahmudov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov
Məsul katib: Eldar Əfəndiyev

Redaksiyanın ünvanı:
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, N.Rəfibəyli küçəsi, 7.
Tel.: 492-25-17, Faks: 492-25-17
www.genprosecutor.gov.az

***

«Kütləvi informasiya vasitələri haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

***

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövriliklə dərc edilir.

***

Azərbaycan Respublikası Baş prokurorun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli «Azərbaycan Prokurorluğu» elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan «Azərbaycan Respublikası Prokurorluğu» jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

***

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsulliyyət daşımır.

***

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

***

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində yığılaraq səhifələnmiş və çap edilmişdir.

***

Çapa imzalanmışdır 13.06.2014
60x84 1/8 formatda 108 səhifə həcmində çap olunmuşdur. Tiraj: 1350 nüsxə.

© «Azərbaycan Prokurorluğu», 2014

## MÜNDƏRİCAT

**I. İctimai-siyasi tədbirlər**
- Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir ........ 3
- Prezident İlham Əliyev Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimində iştirak etmişdir ........ 14
- Prezident İlham Əliyev Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənlikdə iştirak etmişdir ........ 16

**II. Rəsmi tədbirlər**
- Baş Prokurorluqda 2013-cü ildə prokurorluq orqanları tərəfindən görülmüş işləri və qarşıda duran vəzifələrin mü zakirəsinə həsr olunmuş Kollegiya iclası keçirilmişdir... 21
- Baş Prokurorluqda cinayətkarlığa qarşı mübarizə məsələlərinə həsr edilmiş əməliyyat müşavirəsi keçirmişdir........ 26
- Respublika Hərbi Prokurorluğunda Muzey açılmışdır........ 28
- Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir ........ 30
- Baş prokuror Zakir Qaralovun AzərTAc-a müsahibəsi..... 33
- Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir ........ 35
- Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 2013-cü ildə görülmüş işlərə və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir ........ 37

**III. Təhlillər, təkliflər**
N.Bayramov - İşin prokurora qaytarılması: institusional problemlər, praktiki nəticələr ........ 39

**IV. Diskussiya klubu**
N.Bayramov - "Qəsdən sağlamlığa yüngül zərər vurma" əməlinin dekriminalizasiyası prespektivləri barədə........ 65
N.Bayramov - Cinayət məsuliyyətindən azad etmənin maddi-hüquqi əsaslarının dairəsi genişləndirilə bilər ........ 67

**V. Məhkəmə-istintaq təcrübəsi**
E.Əsgərov - Müşahidə video sistemlərinin kriminalistikada tətbiqi barədə ........ 69

**VI. İctimaiyyətə hesabat**
- "SUMQAYIT 1988: CİNAYƏT VƏ CƏZA" kitabının təqdimatı keçirilmişdir ........ 71
- Prokurorluq orqanlarına qulluğa qəbulla bağlı test imtahanı keçirilmişdir ........ 74
- Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsində 2013-cü il ərzində görülmüş işlərin müzakirəsinə və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Üçüncü Dəyərləndirmə Raundu ilə əlaqədar qəbul etdiyi hesabatın təqdimatına həsr edilmiş tədbir keçirilmişdir ........ 75
- Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində rayon, şəhər və ərazi hərbi prokurorlarının iştirakı ilə seminar keçirilmişdir ........ 80
- Baş Prokurorluqda MONEYVAL Komitəsinin Dəyərləndirmə missiyası ilə görüş keçirilmişdir........ 81
- Tabe rayon prokurorluqlarının əməkdaşları üçün «Arxiv işinin təşkili» mövzusunda seminarlar keçirilmişdir ....... 82
- Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə məşqlərin keçirilməsi davam edir ........ 82

**VII. Prokurorluğun beynəlxalq əlaqələri**........ 83

**VIII. Kadrlarla iş**
Təyinatlar ........ 84

**IX. Normativ hüquqi aktlar.**
Baş Prokurorluq üzrə normativ xarakterli akt........ 85
Qanunvericiliyə dəyişikliklər ........ 86
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı........ 103

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

Dövlətimizin başçısı iclasda giriş nitqi söylədi.

## PREZİDENT İLHAM ƏLİYEVİN GİRİŞ NİTQİ



-Nazirlər Kabinetinin bugünkü toplantısında biz 2013-cü ilin yekunlarını müzakirə edəcək, 2014-cü ildə qarşıda duran vəzifələr haqqında danışacağıq.

Deyə bilərəm ki, keçən il bütövlükdə ölkəmiz üçün uğurlu il olmuşdur. Azərbaycanda böyük işlər görülmüşdür. Bu işlərin hamısını sadalamaq üçün bir neçə saat vaxt lazım olacaqdır. Biz bu gün əsas məsələlər ətrafında fikir mübadiləsi aparacağıq. Ancaq bir daha demək istəyirəm ki, 2013-cü ildə ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Azərbaycanda böyük layihələr icra edilmişdir, ölkəmizin beynəlxalq nüfuzu artmışdır. Ölkədə aparılan islahatlar daha da dərinləşmişdir. Bir sözlə, biz ölkəmizin uğurlu inkişafını təmin edə bildik.

Azərbaycanın beynəlxalq nüfuzu artdı. Beynəlxalq əlaqələrimizin inkişafı üçün gözəl imkanlar vardır. Biz bu imkanlardan səmərəli şəkildə istifadə edirik. 2013-cü ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasındakı fəaliyyəti başa çatdı. İki il ərzində Azərbaycan öz mövqeyini ortaya qoydu. Mən bəyan etdiyim kimi, BMT Təhlükəsizlik Şurasında biz beynəlxalq hüququ və ədaləti müdafiə etmişik, hər bir məsələ ilə bağlı konkret mövqe sərgiləmişik, prinsipial mövqe tutmuşuq. Deyə bilərəm ki, bu iki il ərzində beynəlxalq birlik tərəfindən Azərbaycana olan inam və dəstək daha da artdı. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurasına seçiləndə 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir.

Hazırda hesab edirəm ki, bu dəstək daha da böyükdür. Bu, onu göstərir ki, beynəlxalq aləm dövlətimizin mövqeyini müdafiə edir, dəstəkləyir, addımlarımızı təqdir edir. Çünki Azərbaycan bütün beynəlxalq təşkilatlarda özünü ləyaqətlə aparır, prinsipial mövqeyini və öz milli maraqlarını hər şeydən üstün tutur. Şübhəsiz ki, beynəlxalq birlik bu amilləri nəzərə alaraq Azərbaycana dəstəyini daha da artıracaqdır.

2013-cü ilin əvvəlində Avropa Şurası Parlament Assambleyasında da əlamətdar hadisə baş vermişdir. Yanvar ayında sessiyada Azərbaycana qarşı əsassız, qərəzli, ikili standartlar əsasında təşkil edilmiş hücum fiaskoya uğramışdır. Assambleyada böyük əksəriyyət antiazərbaycan kampaniyasına qoşulmamışdır, bu, kampaniyanın təşəbbüskarlarını, o cümlədən pərdəarxası təşəbbüskarlarını məyus etmişdir və Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir. Siyasi amillərlə şərtlənən qətnamənin layihəsi keçmədi, Azərbaycanın mövqeyi üstünlük təşkil etdi. Beləliklə, Azərbaycan beynəlxalq arenada növbəti qələbə qazanmışdır.

Bu hadisə bir də onu göstərmişdir ki, haqq-ədalət həmişə zəfər çalmalıdır. Azərbaycan öz prinsipial, ədalətli mövqeyini nümayiş etdirdi və Assambleyanın qərarı antiazərbaycan qüvvələrinə vurulan ən böyük zərbələrdən biridir. Hesab edirəm ki, bundan sonra onlar və onların arxasında dayanan antiazərbaycan qruplaşmalar özləri üçün nəticə çıxaracaqlar.

2013-cü ildə Azərbaycanda bir sıra beynəlxalq tədbir keçirilmişdir. Mən onlardan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Fələstinə yardım məqsədilə konfransı qeyd etmək istəyirəm. Azərbaycan bu konfransın keçirilməsində təşəbbüskar kimi çıxış etmişdir. Hesab edirəm ki, bu, bizim mövqeyimizi əks etdirir. Fələstinli qardaşlarımıza olan dəstəyi biz bir daha nümayiş etdirdik. Bakıda İslam Əməkdaşlıq Təşkilatının, üzv ölkələrin nazirlərinin iştirakı ilə böyük donor konfransı keçirilmişdir və Azərbaycan öz

tərəfindən Fələstinə maddi yardım da etmişdir.

Keçən il Avropa İttifaqı ilə vizaların sadələşdirilməsi istiqamətində önəmli saziş imzalandı. Bu, bizim Avropa İttifaqı ilə olan münasibətlərimizin təzahürüdür. Bu münasibətlər gələcəkdə də inkişaf edəcəkdir. Hazırda - təbii ki, 2014-cü ildə Avropa İttifaqı-Azərbaycan strateji əlaqələrinin gələcək formatı müəyyən edilməlidir.

Mən dəfələrlə bəyan etmişəm ki, biz Avropa İttifaqı ilə və üzv olmadığımız bütün başqa təşkilatlarla səmərəli işgüzar münasibətlər qurmaq istəyirik. Biz buna nail ola bilmişik. Üzv olmadığımız bütün təşkilatlarla münasibətlərimizin prinsipləri açıqdır, aydındır və beynəlxalq prinsiplərdən kənarda deyildir, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq, qarşılıqlı dəstək, anlaşma və hərtərəfli əməkdaşlıq prinsipləridir. Əminəm ki, biz növbəti illərdə Avropa İttifaqı ilə daha da səmərəli formatın yaradılmasına nail olacağıq.

Bakıda III Beynəlxalq Humanitar Forum keçirilmişdir. Bu, artıq gözəl ənənədir və dünya ictimaiyyətinin diqqətini çəkir. Tanınmış siyasətçilər, elm xadimləri, 10-dan çox Nobel mükafatı laureatı bu tədbirdə iştirak etmişlər. Artıq Azərbaycan dünya gündəliyində dözümlülük, tolerantlıq, humanitar əməkdaşlıq məsələləri ətrafında öz böyük rolunu ortaya qoymuşdur. Bakı və Azərbaycan artıq dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük mərkəzlərindən birinə çevrilibdir. Artıq beynəlxalq ictimaiyyət də bunu qəbul edir, dəstəkləyir.

İkinci Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Təxminən bu forumun da gündəliyi oxşardır. Yəni, bir sözlə, Azərbaycanda keçirilən çoxsaylı tədbirlər, o cümlədən dünyanın bir nömrəli iqtisadi qurumu olan Dünya İqtisadi Forumunun - Davos Forumunun toplantısının Bakıda keçirilməsi ölkəmizin önəmini artırdı, beynəlxalq imicini möhkəmləndirdi və Azərbaycanı dinamik, müasir dövlət kimi bir daha dünya ictimaiyyətinə təqdim etdi. Yəni, mən bu gün sadəcə olaraq cəmi bir il ərzində keçirilən əsas beynəlxalq tədbirləri sadalamışam. Görün, nə qədər böyük işlər görülmüşdür və Azərbaycanın mövqeyi nə qədər möhkəmləndirilmişdir.

Bizim başqa ölkələrlə ikitərəfli formatda münasibətlərimiz də inkişaf etmişdir. Mənim çoxsaylı xarici səfərlərim, xarici qonaqların Azərbaycana səfərləri bu əlaqələri daha da möhkəmləndirmişdir. Əminəm ki, bu il də bu meyl davam etdiriləcəkdir.

Xarici siyasətimizin əsas məsələsi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində, əfsuslar ki, heç bir irəliləyiş olmamışdır. Ermənistan tərəfi il ərzində danışıqlar prosesini yenə də müxtəlif bəhanələrlə uzatmaq taktikasını seçmişdir. Demək olar ki, il ərzində danışıqlar prosesində heç bir irəliləyiş olmamışdır, durğunluq hökm sürmüşdür. Sadəcə olaraq ilin sonunda müəyyən canlanma müşahidə edilib. Görərik, əgər Ermənistan məsələnin həlli ilə bağlı konstruktiv mövqe nümayiş etdirərsə, qısa müddət ərzində razılaşmaya gəlmək mümkün olacaqdır. Müəyyən ümidlər, müəyyən nikbin məqamlar vardır, ancaq 2014-cü ildə biz bunları araşdıracağıq. Hər halda 2014-cü ildə Ermənistanın həqiqi niyyəti tam bəlli olacaqdır. Sözün düzü, keçən dövr nikbinliyə o qədər də əsas vermir. Çünki Ermənistan bütün danışıqlar prosesi zamanı qeyri-konstruktiv mövqe sərgiləmişdir, vaxtı uzatmaq taktikasını seçmiş və beləliklə, danışıqlar prosesini iflic vəziyyətə salmışdır.

Ancaq əgər Ermənistanda realist yanaşmalar üstünlük təşkil edərsə, hesab edirəm ki, qısa müddət ərzində münaqişə ilə bağlı irəliləyiş ola bilər. Realist yanaşma isə gerçəyə, real güclər nisbətinə söykənməlidir. Azərbaycanın artan gücü də burada öz rolunu oynayır və oynayacaqdır. Bu gün Ermənistan ilə Azərbaycan arasında müqayisə apardıqda bizim üstünlüyümüz hər bir sahədə açıq-aydın özünü büruzə verir. Bizim dövlət büdcəmiz Ermənistanın dövlət büdcəsindən 10 dəfə böyükdür. Ümumi daxili məhsul 8 dəfə, əhali 6 dəfə çoxdur. Bizim bütün potensialımız güclənir, böyüyür, artır, Ermənistanda isə həm çox ağır iqtisadi, həm də demoqrafik vəziyyət yaşanır. Deyə bilərəm ki, demoqrafik fəlakət yaşanır və bunu Ermənistanın rəsmi orqanları da təsdiq edir. Ona görə əgər Ermənistan rəhbərliyi məsələyə ciddi yanaşarsa və Ermənistan dövlətinin maraqlarını üstün tutarsa, açıq-aydın anlayar ki, Azərbaycan ilə bundan sonra rəqabət aparmaq üçün onlarda nə imkanlar var, nə də ki, potensial.

Hesab etmirəm ki, hansısa bir ölkə üçün ancaq xarici yardıma arxalanmaq böyük şərəf gətirir. Hər bir ölkə hər halda çalışmalıdır ki, öz müstəqilliyini qorusun, öz seçimini müdafiə etsin, öz dövlətinin gələcəyi haqqında düşünsün. Hər halda güclər nisbəti çox ciddi şəkildə Azərbaycanın xeyrinə dəyişildi. Mən bu barədə hələ 5-6 il bundan əvvəl demişəm, öz fikirlərimi bildirmişəm. Artıq biz buna nail ola bilmişik və bundan sonrakı dövr də şübhəsiz, Azərbaycan dövləti üstünlüyünü daha da möhkəmləndirəcəkdir.

Ümid edirik ki, danışıqlar prosesində müsbət dəyişikliklər olacaqdır. Beynəlxalq vasitəçilər çalışır-

lar ki, burada irəliləyiş olsun. Ancaq mən bunu qeyd etməliyəm, onların fəaliyyətinin hələ ki, heç bir nəticəsi olmamışdır. Bu da reallıqdır. Biz vasitəçilər tərəfindən, onların dövlət başçıları tərəfindən müsbət bəyanatları eşidirik. Onların içində xüsusilə qeyd etməliyəm ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının birgə bəyanatlarında status-kvonun qəbuledilməzliyi haqqında sözlər deyilmişdir. Bu, çox müsbət haldır. Eyni zamanda, onlar daim təkrarlayırlar ki, danışıqlara alternativ yoxdur. Bilirsiniz, müasir dünyada hər bir sahədə kifayət qədər alternativ vardır. Sadəcə olaraq biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll edilsin. Azərbaycan öz konstruktiv mövqeyini ortaya qoyur və ümid edirəm ki, danışıqlarla bağlı prosesdə vasitəçilər daha da fəal rol oynayacaqlar. Sadəcə olaraq Ermənistan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməlidir, işğal edilmiş torpaqlardan çıxmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Razılaşmanın prinsipləri bundan ibarətdir.

Azərbaycan heç vaxt öz tarixi torpağında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəkdir. Məsələ Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və həll ediləcəkdir. Mən buna şübhə etmirəm və buna nail olmaq üçün biz hələ ki, danışıqları davam etdirəcəyik, ancaq öz gücümüzü də artıracağıq.

O cümlədən hərbi gücümüz də artır. 2013-cü ildə ordu quruculuğu ilə bağlı önəmli addımlar atılmışdır. Biz çox ciddi islahatlara başladıq. Bu islahatlar öz nəticəsini verməkdədir. Bizim döyüş qabiliyyətimiz artır, 2014-cü ildə böyük dərəcədə artacaqdır. Qeyd etməliyəm ki, bizim hərbi potensialımız, orduda aparılan islahatlar, yeni prinsiplər, döyüş taktikası ilə bağlı yeni yanaşmalar tamamilə yeni bir situasiyanın yaranmasına gətirib çıxarır. Nəzərə alsaq ki, son illərdə Azərbaycan böyük həcmdə silah-sursat, texnika almışdır, - ən müasir texnikadır, - bizim döyüş qabiliyyətimiz böyük dərəcədə artacaq, artır və bu, danışıqlar prosesinə ancaq müsbət təsir göstərəcəkdir.

Bəzi hallarda bu məsələ ilə əlaqəsi olmayan qurumlar, yaxud da, Ermənistanın dəyirmanına su tökən siyasətçilər bizi tənqid etməyə çalışırlar ki, nə üçün Azərbaycan hərbi büdcəsini artırır. O ölkələrin nümayəndələri bunu deyir ki, onların hərbi büdcəsi göylərə qalxıbdır. Bizim təbii hüququmuzdur, biz öz hərbi potensialımızı artırırıq, artıracağıq. Dağlıq Qarabağ məsələsinin ədalətli, beynəlxalq normalara uyğun şəkildə həll edilməsi üçün bizim hərbi gücümüz həlledici rol oynayacaqdır. Biz bu gün güclü ordu yaradırıq. Bizim ordumuz dünyanın ən güclü orduları sırasındadır. Əlbəttə ki, ordu quruculuğu işi davam etdiriləcəkdir.

Erməni işğalından əziyyət çəkən soydaşlarımızın problemləri də keçən il həll olunmuşdur, 20 min köçkün yeni evlərə, mənzillərə köçürülmüşdür. Bu il də ən azı 20 min köçkünün yeni evlərə köçürülməsi nəzərdə tutulur. Faktiki olaraq, biz il ərzində bir şəhər yaradırıq və bu siyasəti davam etdirəcəyik. Çünki hələ ki, məktəblərdə, uşaq bağçalarında, hərbi hissələrin ərazilərində, yataqxanalarda ağır vəziyyətdə yaşayan köçkünlər kifayət qədərdir. Artıq bu proses də başlamışdır və davam etdiriləcəkdir.

Əlbəttə ki, ölkəmizin əsas inkişaf dinamikasını iqtisadi gücümüz müəyyən edir və iqtisadi islahatların dərinləşməsində Azərbaycan böyük uğurlara imza atıb. Əgər biz güclü iqtisadiyyat yaratmasaydıq, əminəm ki, nə beynəlxalq aləmdə, nə də regionda bu uğurlara nail ola bilməzdik. 2013-cü ildə iqtisadiyyatımız inkişafını davam etdirmişdir. Ümumi daxili məhsul təxminən 6 faiz artmışdır. Bu, çox böyük göstəricidir. Nəzərə alsaq ki, bu gün dünyanın əksər ölkələrində ümumi daxili məhsul yarım faiz, 1 faiz, 1,5 faiz artır, təxminən 6 faiz səviyyəsində artan ümumi daxili məhsul böyük nəticədir. Ən sevindirici məsələ ondan ibarətdir ki, qeyri-neft sektorumuz 9,8 faiz artmışdır. Yəni, təxminən 10 faiz artmışdır və bu da son illərdə aparılan islahatların nəticəsidir. Aparılan islahatlar bunu təmin edibdir. Qeyri-neft sektorunun gələcək illərdə də inkişafını təmin etmək üçün indi ciddi proqramlar icra edilir və növbəti illərdə icra ediləcəkdir. Əminəm ki, biz bu dinamikanı saxlayacağıq. Əhalinin pul gəlirləri 8 faiz artmışdır. İnflyasiya isə cəmi 2,4 faizdir. Bu da çox gözəl göstəricidir. Əhalinin pul gəlirləri inflyasiyanı 3 dəfədən çox üstələyir. Bu, onu deməyə əsas verir ki, vətəndaşların rifah halı yaxşılaşır və müsbət dinamika burada da özünü göstərir.

İl ərzində ölkə iqtisadiyyatına 28 milyard dollar investisiya qoyulmuşdur. Bu, rekord göstəricidir. Heç vaxt il ərzində bu qədər investisiya qoyulmamışdır. Son bir neçə il ərzində orta hesabla 20-21-22 milyard dollar investisiya qoyulurdu, artıq 28 milyard dollar investisiya qoyulur. Onun 17,5 milyard dolları daxili sərmayədir. Bu da artıq neçə ildir ki, davam edən tendensiyadır. Daxili sərmayə xarici sərmayəni üstələyir. Bu, hesab edirəm ki, müsbət haldır. Əlbəttə ki, daxili sərmayənin içində əsas sərmayə dövlət sərmayəsidir. Ancaq özəl sektor da Azərbaycan iqtisadiyyatına böyük yatırımlar edir.

Bizim valyuta ehtiyatlarımız da rekord həddə

çatmışdır. Mən dəfələrlə demişəm, yenə də qeyd etmək istəyirəm ki, bizim valyuta ehtiyatlarımız ildən-ilə artmalıdır və artır. Son illər ərzində elə bir il olmamışdır ki, valyuta ehtiyatlarımız aşağı düşsün. Baxmayaraq ki, çoxlu investisiya layihələri icra edilir, keçən il də artmışdır. Hazırda Azərbaycanın valyuta ehtiyatları 50 milyard dollara çatmışdır. Bu da ümumi daxili məhsulun 70 faizini təşkil edir. Dünya miqyasında bu göstəriciyə görə Azərbaycan ən qabaqcıl yerlərdədir. Bunu biz yaratmışıq, bunu bizim siyasət, bizim iqtidar yaradıbdır. Bu, Azərbaycanın böyük üstünlüyüdür, bizə əminlik, inam və imkan verir ki, bundan sonra da ölkəmizin inkişafı ilə bağlı böyük layihələri icra edək.

Keçən il işsizliklə bağlı olan problemlər öz həllini tapmışdır. 110 min yeni iş yeri açılmışdır ki, onlardan 80 mini daimi iş yeridir. İşsizliyin səviyyəsi 5 faizə düşmüşdür. Yoxsulluğun səviyyəsi də aşağı düşmüşdür, 5,3 faizdir. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 8 faizini təşkil edir. Bu da dünya miqyasında ən gözəl göstəricilərdən biridir. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə 39-cu yerə layiq görmüşdür. Budur bizim əsas iqtisadi göstəricilərimiz. Şübhə etmirəm ki, biz iqtisadi inkişafı gələcək illərdə də təmin edəcəyik. Bu barədə biz bir qədər sonra danışacağıq ki, 2014-cü il də ölkəmiz üçün uğurlu olsun.

Keçən il sosial məsələlərin həlli işində önəmli addımlar atılmışdır. İlk növbədə, sovet vaxtından qalan əmanətlərin qaytarılması, daha doğrusu, kompensasiya şəkilində əhaliyə verilməsi prosesi başa çatmışdır. Deyə bilərəm ki, MDB məkanında bu əmanətlərin kompensasiya şəklində verilməsində Azərbaycan təcrübəsi birinci yerdədir. Biz bunu ən qısa müddətdə - iki il ərzində təmin etmişik. Biz bu vəsaiti əhaliyə ən böyük əmsalla çatdırmışıq. Baxmayaraq ki, müstəqil Azərbaycan dövləti bu məsələ ilə bağlı heç bir məsuliyyət daşımırdı – nə hüquqi, nə mənəvi məsuliyyət. Ancaq siyasətimizin təməlində Azərbaycan vətəndaşı dayandığı üçün biz bunu etdik. Böyük vəsait ayırdıq və qısa müddət ərzində bu məsələni həll edə bildik.

Keçən il maaşlar və pensiyalar qaldırılmışdır. Bu da müsbət haldır. Biz yaxşı bilirik ki, bəzi ölkələrdə pensiyalar, maaşlar kəsilir, iş yerləri, xərclər ixtisar edilir. Azərbaycanda heç bir sosial proqrama toxunulmadı, əksinə biz insanların rifah halının yaxşılaşması üçün əlavə tədbirlər gördük. Həm sosial yönümlü, həm investisiya yönümlü. Əlbəttə ki, bu, özünü real həyatda da göstərir.

2013-cü ildə qeyri-neft sektorunun inkişafı ilə bağlı çox ciddi addımlar atılmışdır və statistik göstəricilər də bunu təsdiqləyir. Mən onların içində kosmik sənayenin yaranmasını qeyd etmək istəyirəm. 2013-cü il Azərbaycanda kosmik sənayenin yaranması ili kimi tarixdə qalacaqdır. Təsadüfi deyil ki, biz ilin əvvəlində 2013-cü ili "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan etdik.

Birinci Azərbaycan peyki "Azərspace-1" fəzaya qaldırılmışdır. Bu, xalqımızın, dövlətimizin böyük tarixi nailiyyətidir. Biz kosmik kluba üzv olmuşuq.

Turizmin inkişafı ilə bağlı böyük addımlar atılmışdır. Xüsusilə bölgələrdə bir neçə beşulduzlu otel istifadəyə verilmişdir. Yeni turizm mərkəzləri açılır. Azərbaycanın turizm potensialı artıq ölkəmizin inkişafına, xalqımızın rifah halının yaxşılaşmasına xidmət göstərir. Əminəm ki, Azərbaycan vətəndaşları getdikcə daha çox ölkə daxilində istirahətə üstünlük verəcəklər. Çünki Azərbaycanda yaradılan imkanlar dünya səviyyəsindədir. Bunu bizim vətəndaşlar da, xaricdən gələn turistlər də qeyd edirlər. Yəni, qeyri-neft sektorunun inkişafı ilə bağlı bu istiqamət də çox önəmlidir.

Əlbəttə, kənd təsərrüfatının inkişafı qeyri-neft sektorunun deyə bilərəm ki, əsas istiqamətlərindən biridir. Keçən il kənd təsərrüfatı təxminən 5 faiz artmışdır. Ancaq potensial daha da böyükdür. Mən hesab edirəm ki, 2014-cü ildə və ondan sonrakı illərdə kənd təsərrüfatının inkişafı ilə bağlı daha da böyük işlər görüləcəkdir. Böyük proqramlarımız, planlarımız vardır. Həm struktur xarakterli islahatlar, idarəçilikdə təkmilləşmə getməlidir. İndi subsidiyalarla bağlı yeni təkliflər müzakirə edilir. Əlbəttə ki, dövlət investisiyaları, infrastruktur layihələri, xüsusilə suvarma ilə bağlı olan layihələr hesab edirəm ki, kənd təsərrüfatının inkişafına yeni təkan verəcəkdir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə ən böyük vəsait fermerlərə verilir. Bu il də bu, davam etdiriləcəkdir. Yəni, qeyri-neft sektorunun inkişafı bu il də bizim iqtisadi sahədə prioritet olaraq qalır.

Ancaq biz əlbəttə ki, neft sektorunu da, nəqliyyat sektorunu da unutmamalıyıq. Nəqliyyat sektorunda da böyük işlər görülmüşdür. Beş yüz kilometr yol çəkilmişdir. Həm magistral yollar, həm də dörd yüz yaşayış məntəqəsini birləşdirən kənd yolları çəkilmişdir. Həm dövlət büdcəsinin, həm də Prezidentin ehtiyat fondu hesabına. Yəni, bu sahəyə də böyük önəm verilir. Qlobal nəqliyyat layihələri icra edilir. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi gedir. Bu il də bu işin böyük hissəsi görüləcəkdir. Ümid edirəm ki, biz 2015-ci ildə artıq yolun açılışını qeyd edə bilərik. Gəmiqayırma zavodunun açılışı.

Bu da həm sənaye, həm qeyri-neft, həm də nəqliyyat sektorunun güclənməsinə xidmət göstərəcəkdir. Ələt Dəniz Ticarət Limanı tikilir. Bu il biz onun birinci mərhələsinin açılışını gözləyirik. Dəmir yolunun, hava nəqliyyatının yenilənməsi prosesi gedir. Yəni, bütün nəqliyyat sektoru inkişaf edir.

Əlbəttə ki, neft-qaz sektorunda da 2013-cü il tarixdə qalacaqdır. 2013-cü ildə Azərbaycanın neft-qaz potensialının inkişafı və möhkəmləndirilməsi üçün tarixi sazişlər bağlanmışdır. 2012-ci ildə TANAP layihəsi ilə bağlı sazişin imzalanması buna gətirib çıxardı ki, 2013-cü ilin iyun ayında Trans-Adriatik boru xətti əsas marşrut kimi seçilmişdir. Ondan sonra müvafiq kontraktlar bağlanmışdır. Artıq Azərbaycan qazının 2018-ci ildən sonra Avropada satılması ilə bağlı bütün kontraktlar bağlanmışdır. Bu da çox önəmli bir hadisə idi. Nəhayət, ilin sonunda - dekabrın 17-də Bakıda “Şahdəniz-2” investisiya Sazişi bağlanmışdır. Bu tarixi nailiyyətdir, tarixi qələbəmizdir. Bu layihə XXI əsrin layihəsidir.

Bu layihə Azərbaycana böyük dividendlər gətirəcəkdir - həm iqtisadi, həm siyasi. Ölkəmizin nüfuzu, bizim iqtisadi gücümüz artacaqdır. Ölkəmizə böyük həcmdə investisiyalar gətiriləcəkdir. “Şahdəniz-2”, TANAP, TAP - yəni, bu məsələ ilə bağlı olan layihələrin icrası ancaq ilkin hesablamalara görə, 45 milyard dollar investisiyanın cəlb edilməsinə xidmət göstərəcəkdir. Nəzərə alsaq ki, artıq Azərbaycanda tikinti sektorunda, infrastruktur layihələrinin icrasında, neft-qaz əməliyyatlarının aparılmasında böyük təcrübə toplamış həm dövlət, həm özəl qurumlar, şirkətlər vardır, əlbəttə, bu şirkətlərə böyük sifarişlər veriləcəkdir. Beləliklə, bizim biznesimizdə qeyri-neft sektorumuz yeni imkanlara çatacaqdır. Əlbəttə, biz çalışacağıq və bunu artıq demişik ki, harada mümkündür, harada bizdə standartlara uyğun işlər görülür bütün kontraktlar Azərbaycan şirkətlərinə verilsin və onlara şərait yaradılsın. Yəni, bu layihə Azərbaycanı dünyaya əvəzolunmaz bir qaz ixrac edən ölkə kimi təqdim edir.

Yaxşı bilirsiniz ki, bu layihə beynəlxalq birliyin də böyük dəstəyini qazanmışdır. Azərbaycanda aparıcı ölkələrin, yüksək vəzifəli şəxslərin iştirakı ilə təntənəli mərasim keçirilmişdir. Azərbaycan “Cənub” qaz dəhlizinin təşəbbüskarı kimi burada da öz həlledici rolunu oynadı. Mən tam əminliklə deyə bilərəm ki, əgər Azərbaycan bu tarixi məsuliyyəti öz üzərinə götürməsəydi və həlledici anlarda cəsarət, uzaqgörənlik, prinsipial mövqe göstərməsəydi, bu layihə icra edilməzdi. Biz “Cənub” qaz dəhlizi ilə bağlı artıq 10 ilə yaxındır ki, müxtəlif tədbirlərdə iştirak edirdik. Mən şəxsən bəlkə 10-a yaxın beynəlxalq konfransda, tədbirdə, müşavirədə iştirak etmişdim. Ancaq görürdük ki, bu məsələ inkişaf etmir, yəni, elə yerində sayır, tərpənmir, qabağa getmir. Ona görə, biz yenə də məsuliyyəti öz üzərimizə götürdük. Biz anlayırdıq ki, bu layihənin lideri olmalıdır və liderlik funksiyasını öz üzərimizə götürdük. Bu, böyük məsuliyyətdir. Həm siyasi məsuliyyətdir, həm maliyyə məsuliyyətidir. Ancaq son illər ərzində yaratdığımız güclü iqtisadiyyat bu gün imkan verir ki, biz bu layihələrdə də, qlobal xarakter daşıyan layihələrdə də liderlik keyfiyyətlərimizi ortaya qoyaq. Bu gün Avropanın enerji təhlükəsizliyi məsələlərinin bir hissəsi Azərbaycan tərəfindən irəli sürülmüş layihələr hesabına təmin ediləcəkdir. Bu layihənin əhəmiyyəti o qədər böyükdür ki, gələcək illər mənim sözlərimi bir daha təsdiqləyəcəkdir.

Nəhayət, 2013-cü ildə Azərbaycanda ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə baş vermişdir - prezident seçkiləri keçirilmişdir. Azərbaycan xalqı bir daha öz səsini bizim siyasətimizə, real siyasətə vermişdir, boşboğazlığa, boş vədlərə yox, real siyasətə, real işlərə öz səsini vermişdir. Doğma xalqıma bir daha minnətdarlığımı bildirmək istəyirəm ki, on illik fəaliyyətimi yüksək qiymətləndirərək mənə yenidən böyük etimad göstərmişdir. Bildiyiniz kimi, seçkiləri müşahidə edən bütün mötəbər təşkilatlar seçkilərə çox müsbət qiymət vermişlər. Avropa Şurası, Avropa İttifaqı, ATƏT Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, MDB və digər mötəbər təşkilatlar, yəni, qlobal təşkilatlar seçkilərin keçirilməsini birmənalı olaraq yüksək qiymətləndirmişlər və öz bəyanatlarında seçkilərin azad, ədalətli, şəffaf keçirilməsi haqqında rəsmi rəy ortaya qoymuşlar. Ancaq bir daha demək istəyirəm ki, əsas rəyi Azərbaycan xalqı vermişdir. Səsvermə günü və səsvermədən sonrakı dövrdə cəmiyyətdə hökm sürən vəziyyət bir daha seçkilərin nə qədər şəffaf, ədalətli keçirilməsini təsdiqləyir. Əlbəttə ki, bu böyük etimad bizim hamımızı yeni işlərin görülməsinə sövq edir, sövq etməlidir. Biz bundan sonra da fəal işləməliyik, ölkəmizi gücləndirməliyik, Azərbaycan xalqının rifah halını təmin etməliyik.

***

Prezident çıxışını yekunlaşdırdı və müzakirələrin aparılması üçün natiqlərə söz verdi.

Maliyyə naziri Samir Şərifov, Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, Səhiyyə naziri Oqtay Şirəliyev məruzə ilə çıxış etdilər.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YEKUN NİTQİ



2014-cü ildə ölkəmizin dinamik inkişafı təmin edilməlidir. Hesab edirəm ki, əvvəlki illərdə qəbul edilmiş qərarlar və 2014-cü ildə görüləcək işlər imkan verəcək ki, biz cari ili də uğurla başa vuraq.

İnvestisiya proqramı kifayət qədər böyük olacaqdır. İnvestisiya proqramında əsas infrastruktur layihələri öz əksini tapıb. Hələ infrastruktur layihələrinin icrasına böyük ehtiyac vardır. Düzdür, son illərdə böyük işlər görülmüşdür, ancaq hələ ki, görülləsi işlər çoxdur. İstisna edilmir ki, Azərbaycana 2014-cü ildə qoyulacaq investisiyalar keçən ildə qoyulan investisiyaların səviyyəsində olacaqdır. Belə olan halda əlbəttə ki, makroiqtisadi vəziyyətin sabitliyi əsas şərtdir.

Azərbaycanda iqtisadi islahatların aparılmasında böyük təcrübə toplanmışdır. Hətta maaşların qaldırılması, əmanətlərin verilməsi və milyardlarla dollar həcmində qoyulan sərmayə makroiqtisadi sabitliyə mənfi təsir göstərmir. Keçən il inflyasiyanın cəmi 2,4 faiz səviyyəsində olması bunu göstərir. Bu, çox müsbət göstəricidir.

Çalışmalıyıq ki, bu il də inflyasiya lazımi səviyyədə olsun. Biz həmişə deyirik ki, birrəqəmli inflyasiya olmalıdır. Ancaq doqquz da birrəqəmli ədəddir. Ancaq keçən il ölkədə inflyasiyanın 2,4 faiz səviyyəsi əlbəttə ki, bizi çox sevindirir.

Çalışmalıyıq ki, təxminən bu səviyyə bu il də saxlanılsın. Belə olan halda əlbəttə ki, insanların rifahının yaxşılaşması üçün daha da gözəl imkanlar olacaqdır. Beləliklə, investisiya proqramının icrası, xarici investisiyaların cəlb edilməsi, makroiqtisadi sabitlik, onun qorunması - bütün bu amillər ölkəmizin uğurlu inkişafını təmin edəcəkdir. Əminəm ki, 2014-cü ildə bizim statistik göstəricilərimiz də, ümumi daxili məhsul da, qeyri-neft sektorunun inkişafı da yüksək səviyyədə olacaqdır.

Sahibkarlara dəstək davam etdiriləcəkdir. Burada rəqəmlər səsləndi ki, keçən il sahibkarlara güzəştli şərtlərlə 275 milyon manat kredit verilmişdir. Bu, həm də iqtisadiyyatımızın real sektoruna qoyulan əlavə sərmayədir. Çünki bu kreditlərin ancaq iqtisadiyyatın real sektoruna verilməsi nəzərdə tutulur. Eyni zamanda, bu, yerli sahibkarlığın inkişafı üçün də böyük dəstəkdir. Çünki həm bu pul vəsaitidir, eyni zamanda, İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən tərtib edilən tövsiyə proqramları da vardır ki, sahibkarlar onlardan da səmərəli şəkildə istifadə edirlər. Ancaq gəlirli sahələrə, gəlir gətirə biləcək layihələrə vəsaitin ayrılması nəzərdə tutulur. Məhz bunun nəticəsidir ki, verilən bütün kreditlər demək olar, vaxtında qaytarılır. Bu gün Sahibkarlığa Kömək Milli Fondunun portfelində qaytarılmış kreditlər də önəmli bir hissə təşkil edir. Bu il biz üçüncü Regional İnkişaf Proqramını qəbul edəcəyik. Keçən il ikinci proqram icra edilmişdir. Artıq onun icrası başa çatmışdır. Bu iki proqramın icrası, onların qəbul edilməsi deyə bilərəm ki, bölgələrdə ciddi dönüşün yaranmasına səbəb olmuşdur. Biz

bunu həm statistik göstəricilərdə, həm də həyatda əyani görürük. Bölgələr canlandı, abadlaşdı, müasir infrastruktur yaradıldı. O cümlədən sosial infrastruktur obyektlərinin tikintisi geniş vüsət almışdır.

Bölgələrdə iş yerləri açılmışdır. Son on il ərzində Azərbaycanda 1 milyon 200 min yeni iş yeri açılmışdır. Onların böyük hissəsi bölgələrin payına düşür. Bu, həm bölgələrdə gedən canlanmaya müsbət təsir göstərir, şəhərlərə miqrasiya meyllərinin qabağını alır, yerli istehsalın artımına imkan yaradır, həm də idxaldan asılılığımızı azaldır. Bir sözlə, bu sahədəki fəaliyyət cari ildə də davam etdiriləcəkdir. Konkret layihələr vardır və sahibkarlara kömək dövlət tərəfindən davam etdiriləcəkdir.

Əlbəttə ki, qəbul ediləcək regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının birinci ilinin fəaliyyət planı da təsdiq ediləcəkdir. İnvestisiya proqramı bütövlükdə təsdiq edildikdə əlbəttə ki, regional proqram da nəzərə alınıbdır.

Eyni zamanda, bu il - yəqin ki, yaxın günlərdə Bakı və onun ətraf qəsəbələrinin inkişafı ilə bağlı yeni proqram qəbul ediləcəkdir. 2013-cü ildə bu proqram başa çatmışdır və yeni proqram hazırlanır. Hesab edirəm ki, növbəti üç illik Proqramın icrası nəticəsində Bakı qəsəbələrində mövcud olan bütün problemlər öz həllini tapmalıdır. İnfrastruktur, sosial infrastruktur, məktəblər, tibb məntəqələri, yollar, su xətləri, kanalizasiya, qaz, işıq - yəni, bütün əsas məsələlərin həlli, o cümlədən iş yerlərinin yaradılması nəzərdə tutulur. Ümid edirəm ki, biz növbəti 3 il ərzində bu proqramın tam şəkildə icra edilməsinə nail ola biləcəyik.

Kənd təsərrüfatının inkişafı ilə bağlı mən giriş sözümdə fikirlərimi bildirdim. Bir daha demək istəyirəm ki, bu, növbəti illər üçün qeyri-neft sektorunun inkişafı istiqamətində prioritetlərdən biri olacaqdır. Ərzaq təhlükəsizliyinin təmin edilməsi proqramı da icra edilir. Son illərdə bu istiqamətdə böyük addımlar atılmışdır, idxaldan asılılığımız böyük dərəcədə azalmışdır. Bu gün Azərbaycanda bütün əsas ərzaq məhsulları istehsal edilir, bəzi məhsulların istehsalı tələbatımızı tam ödəyir, bəzi sahələrdə hələ ki, idxaldan asılıyıq. Ancaq, bildiyiniz kimi, mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim. Bu gün də demək istəyirəm ki, Azərbaycanda bütün əsas ərzaq məhsulları tam şəkildə öz tələbatımızı təmin etməlidir. Yəni, bizdə istehsal olunan ərzaq məhsulları tam şəkildə tələbatımızı təmin etməlidir. Biz buna yaxınlaşırıq və çalışmalıyıq ki, növbəti 5 il ərzində, bəlkə də ondan da tez bir müddətdə 3-cü regional inkişaf Proqramının icrası başa çatanda artıq ərzaq təhlükəsizliyi ilə bağlı olan bütün məsələlər öz həllini tapsın.

Bu məsələlər elə həll edilməlidir ki, biz perspektivi də nəzərə alaq. Çünki burada da səsləndi və biz hamımız yaxşı bilirik ki, Azərbaycanda demoqrafik vəziyyət çox müsbətdir. Bu göstəriciyə görə biz Avropada birinci yerdəyik və getdikcə Azərbaycan əhalisi daha da artacaqdır. Əhalinin artımı birbaşa iqtisadi inkişafla bağlıdır. Əgər biz iqtisadi inkişafın dinamikasına nəzər salsaq görərik ki, bunun əhalinin artımı ilə birbaşa bağlılığı vardır. Ona görə, ərzaq təhlükəsizliyimizlə bağlı məsələlər indiki əhaliyə hesablanmamalıdır, gələcəyə hesablanmalıdır. Əlbəttə ki, kənd təsərrüfatının intensiv inkişafı prioritetdir.

Eyni zamanda, meliorasiya və irriqasiya layihələri nəticəsində on minlərlə hektar torpaq sahəsi dövriyyəyə buraxılacaqdır. Artıq Taxtakörpü Su Anbarı istifadəyə verilmişdir, Şəmkirçay su anbarının tikintisi gedir. Ona görə, burada ən qabaqcıl texnologiyalar tətbiq edilməlidir, inkişaf etmiş ölkələrin təcrübəsi dərindən öyrənilməlidir. Biz indi görürük ki, bəzi fermer təsərrüfatlarında məhsuldarlıq ənənəvi məhsuldarlıqdan ən azı 2 dəfə çoxdur. Ona görə biz mövcud torpaq fondundan səmərəli şəkildə istifadə etsək, məhsuldarlığı daha da artıra bilərik. Hesab edirəm ki, lazım olan bütün əsas ərzaq məhsullarını biz yüz faiz Azərbaycanda istehsal edə bilərik.

Ancaq burada gələcəkdə əlbəttə ki, böyük ixrac potensialı yaranacaqdır və biz əhalinin artımını da nəzərə almalıyıq. İslahatlara gəldikdə, burada struktur islahatlarının aparılmasına ehtiyac vardır və daha da səmərəli struktur formalaşmalıdır. Subsidiyaların verilməsi ilə bağlı məsələlər vardır. Mən bu barədə dəfələrlə öz fikirlərimi bildirmişəm. Hesab edirəm ki, biz bu sahədə də tam işlək mexanizm yaradacağıq, şəffaflığı tam şəkildə təmin edəcəyik. Beləliklə, bu, bizə imkan verəcək ki, bundan sonra da kənd təsərrüfatının artımına nail ola bilək.

Eyni zamanda, taxılçılıq üzrə iri fermer təsərrüfatlarının yaradılması prosesi də getməlidir. Artıq birinci təcrübə vardır. Təcrübə müsbətdir və biz bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik.

Kənd təsərrüfatı texnikasının alınması və Azərbaycanda istehsalı ilə bağlı konkret fikirlər, təkliflər vardır. Biz texnika parkımızı yeniləşdiririk, yeniləşdirəcəyik. Dövlət vəsait ayırır və ayıracaqdır. Şəmkirçay su anbarının tikintisi bu il başa

çatmalıdır. Bu, qərb zonasında kənd təsərrüfatının inkişafına böyük təkan verəcəkdir. Qeyd etdiyim kimi, on minlərlə hektar torpaq suvarılacaqdır. Artıq suvarılacaq torpaqların konturları müəyyən edilməlidir. Biz dəqiq bilməliyik ki, artıq neçə min hektar torpaq sahəsi suvarılacaqdır. Ona görə, torpaq fondunun uçotu aparılmalıdır. Biz bu layihəni başa çatdırmalıyıq. Bir daha demək istəyirəm ki, dünyada mövcud olan ən müasir praktika tətbiq edilməlidir. Biz öz imkanlarımızı tam dəqiqliyi ilə bilməliyik və buna görə də fəaliyyət planımızı da tutmalıyıq.

2013-cü ildə, eyni zamanda, yüzdən çox kənddə subartezian quyuları qazılmışdır. Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Bu il hesab edirəm ki, ən azı iki yüz kənddə subartezian quyuları qazılmalıdır. Əhalinin içməli su ilə təmin edilməsi işində bu layihənin də böyük əhəmiyyəti olacaqdır. Bu il infrastruktur layihələrinin icrası davam etdiriləcəkdir.

Elektrik enerjisi ilə bağlı əsas məsələlər öz həllini tapıb. Burada qeyd edildi ki, biz keçən il "Cənub" Elektrik Stansiyasının istifadəyə verilməsini qeyd etdik. Təxminən 800 meqavata yaxın gücü olan elektrik stansiyası bütün cənub zonasının tələbatını təmin edəcəkdir. Hazırda Bakıda "Şimal-2" Elektrik Stansiyasının tikintisi davam etdirilir, yəqin ki, bu il istifadəyə veriləcəkdir. Orada da təqribən 400 meqavata yaxın elektrik gücü yaranacaqdır. Son illərdə biz öz enerji potensialımızı böyük dərəcədə möhkəmləndirə bilmişik, ancaq tələbat artır. Biz iqtisadiyyatın və sənayenin inkişafını, gələcək inkişafı nəzərə alaraq bundan sonra da generasiya layihələrinə investisiya cəlb etməliyik. Yəqin ki, Bakıda yeni böyük elektrik stansiyasının tikintisi məsələsi öz həllini tapacaqdır. Buna ehtiyac vardır. Bizim enerji potensialımız bütün dövrlərdə tələbatdan artıq olmalıdır. Bu gün bu, belədir və gələcəkdə də belə olmalıdır.

Ona görə, gələcək illərdə generasiya işlərinə diqqət azalmamalıdır. Ancaq əlbəttə ki, biz bu layihələri icra edəcəyik. O cümlədən bərpa olunan enerji mənbələrinin yaradılması ilə bağlı işlər daha da ciddi getməlidir. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Artıq əlbəttə ki, müəyyən layihələr icra edilir, xüsusilə su elektrik stansiyaları tikilir, həm də Naxçıvanda. İndi demək olar ki, Naxçıvanın elektrik enerjisinə olan bütün tələbatının, təxminən yüz faizi su elektrik stansiyaları tərəfindən təmin edilir. Bu, Naxçıvanın enerji təhlükəsizliyinə də böyük dəstəkdir, töhfədir. Ölkəmizin digər bölgələrində - Füzulidə 25 meqavatlıq su elektrik stansiyası tikilmişdir. Ondan sonra Taxtakörpü Su Anbarında təxminən 25 meqavatlıq su elektrik stansiyası inşa edilmişdir. Şəmkirçayda da o həcmdə olacaqdır. Balaxanı məişət tullantıları zavodunda da alternativ enerji mənbələri yaranıbdır. Kiçik çaylarda stansiyalar da tikilir. Bu işlər daha da sürətlə getməlidir. Mən dəfələrlə demişəm ki, bizdə bütün su mənbələrimizin xəritəsi vardır və bilirik ki, harada nə qədər güc götürə bilərik. Sadəcə olaraq investisiyalar daha da çox qoyulmalıdır.

Günəş, külək enerji növlərinin inkişafı ilə bağlı işlər daha da sürətlə getməlidir. Mən bu barədə öz fikirlərimi bir neçə dəfə bildirmişəm. Hətta indi Azərbaycanda günəş panelləri istehsal edən müəssisələr də vardır. Ancaq günəş enerjisinin inkişafı ilə bağlı işlər ləng gedir. 2014-cü ildə burada düzəlişlər edilməlidir, işlər daha da sürətlə getməlidir. Nəzərə alsaq ki, Azərbaycanda günəşli günlər kifayət qədər çoxdur, bu imkanlardan istifadə etməmək əlbəttə ki, böyük səhv olardı.

Qazlaşdırma ilə bağlı olan layihələr davam etdirilir. Mənə mütəmadi qaydada məlumatlar verilir. Demək olar ki, hər ay bir neçə kənddə qazlaşdırma işləri başa çatır, Bakıda 96 faizə çatmışdır. Yaxın aylarda əminəm ki, yüz faiz olacaqdır.

Bütövlükdə ölkə üzrə qazlaşdırmanın səviyyəsini 95 faizə çatdırmalıyıq və biz növbəti illərdə buna nail olacağıq.

Kənd yollarının tikintisi keçən il xüsusilə geniş vüsət almışdır. Həm Prezidentin ehtiyat fondundan, dövlət büdcəsindən böyük vəsait ayrılmışdır. Bu il də o sahəyə xüsusi diqqət göstəriləcəkdir. Bunun çox böyük mənası, faydası vardır.

Kəndlərdə yaşayan vətəndaşlar üçün biz gözəl imkanlar yaradırıq və bu il də bu məqsədlər üçün vəsait nəzərdə tutulur. İlk növbədə, başlanan layihələr sona çatmalıdır, çünki bəzi layihələrin icrası yarımçıqdır. Yeni layihələr vardır. İndi yerlərdən təkliflər gəlir. Yerli icra orqanları və mənim bölgələrə səfərlərim zamanı vətəndaşların müraciətləri əsasında biz bu işləri görürük və əminəm ki, bu il də yaxşı nəticələr olacaqdır.

İnfrastruktur layihələrinin içində deyə bilərəm ki, hazırda ən böyük önəm daşıyan layihələr içməli su, kanalizasiya layihələridir. Keçən il mən bir neçə şəhərdə içməli su layihələrinin açılışında iştirak etmişəm və bu il də bu proses davam etdiriləcəkdir. Bütövlükdə respublika üzrə əhalinin 55 faizi 24 saat ərzində içməli su ilə təmin edilir. Əlbəttə ki, bu, çox aşağı bir göstəricidir. O da həqiqətdir ki, içməli su, kanalizasiya məsələləri bütün dövrlərdə

çox kəskin problem olmuşdur. Bölgələrimizdə kanalizasiya xətləri ümumiyyətlə olmamışdır. Bakının kanalizasiya xətləri köhnəlmişdir, bugünkü standartlara uyğun deyildir. Ona görə, bu, böyük maliyyə və texniki resurslar tələb edən layihələrdir. Biz artıq bu layihələrə başlamışıq və işlər uğurla gedir.

Hazırda Bakıda əhalinin 78 faizi 24 saat ərzində içməli su ilə təmin edilir. Bu, böyük irəliləyişdir. Biz bu layihələrə başlayanda həmin rəqəm 50 faizdən aşağı idi. Əlli faizdən az əhali 24 saat ərzində su alırdı. İndi 78 faizdir. Yaxşı irəliləyişdir. Amma Bakı kimi gözəl şəhərdə bu təminat 100 faiz olmalıdır. Bakıda və bizim bütün şəhər və qəsəbələrimizdə əhaliyə keyfiyyətli, təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun su verilməlidir.

Əlbəttə ki, burada əsas işləri “Azərsu” Açıq Səhmdar Cəmiyyəti icra edir. Eyni zamanda, qeyd etdiyim kimi, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin xətti ilə subartezian quyularının qazılması işləri də aparılmalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də çaylar boyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğuların quraşdırılmasını təmin edir. Artıq yüzlərlə kənd o layihələrlə əhatə edilir. Artıq keçən il birinci pilot layihəsi icra edilmişdir. Bu da ilk növbədə, suvarma məqsədləri üçün Xəzər dənizinin suyunun şirinləşdirilməsi layihəsidir. Artıq bu pilot layihəsi icra edilibdir. Biz bu praktikanı genişləndirməliyik. Gələcəkdə isə, lazım gəldikdə Xəzər dənizinin suyundan içməli su kimi istifadə etmək üçün də imkan olacaqdır. Yəni, bu layihələr deyə bilərəm ki, bu gün sosial infrastruktur layihələri arasında prioritet yerlərdən birindədir. Mən bu layihələrə ona görə infrastruktur layihələri deyirəm ki, bu layihələr sırf sosial məna daşıyır və vəsaitlər ancaq insanların sağlamlığı, rahatlığı üçün qoyulur.

Nəqliyyat sektorunda bu il yol tikintisi layihələri davam etdiriləcəkdir. Bütün bu layihələrin siyahısı artıq təsdiq edilib. Avtomobil yollarının tikintisi davam etdirilir. Mən hesab edirəm ki, biz Bakı-Astara yolunun tikintisinə xüsusi diqqət yetirməliyik, orada işlər bir az ləng gedir. Bakı-Qazax–Gürcüstan sərhədi, ondan sonra Bakı-Rusiya sərhədi yollarında işlər daha sürətlə gedir. Ancaq biz Bakı-Astara-İran sərhədi yolunun tikintisində lazımi tempi əldə edə bilməmişik. Ona görə, bu il bu layihəyə üstünlük daha çox verilməlidir.

Qeyd etdiyim kimi, Ələt Dəniz Ticarət Limanının birinci mərhələsi bu il icra edilməlidir. Beləliklə, hesab edirəm ki, bu il biz şəhərin mərkəzində yerləşən Bakı Ticarət Limanının köçürülməsinə nail ola bilərik. Beləliklə, şəhər sakinləri üçün yeni gözəl ictimai zonalar yaranacaqdır. O ərazilərdə ictimai yerlər, parklar, bağçalar, gəzinti yerləri salınacaqdır. Bulvar uzadılacaq, Dəniz vağzalından sonra “Ağ şəhər” istiqamətində tikilən bulvarla birləşəcək və beləliklə, gəzinti üçün bir neçə kilometri əhatə edən gözəl bulvar yaranacaqdır.

Bakı–Tbilisi-Qars dəmir yolunun tikintisi qrafik üzrə gedir. Hesab edirəm ki, vaxtında icra ediləcəkdir. Biz bu yolun əhəmiyyəti haqqında dəfələrlə danışmışıq. Əlavə etməyə ehtiyac görmürəm. Sadəcə olaraq burada da əlbəttə ki, üç ölkənin əməkdaşlığı bir daha özünü göstərir. Azərbaycan-Gürcüstan-Türkiyə həm enerji, həm nəqliyyat sahələrində artıq uzun illərdir ki, uğurlu əməkdaşlıq edirlər. Hesab edirəm ki, Bakı–Tbilisi-Qars dəmir yolunun tikintisi də bu əməkdaşlığın gözəl nəticəsi olacaqdır.

Bakı şəhərində metro tikintisi gedir. Bir neçə stansiya tikilir. Metro ilə bağlı biz əvvəlki dövrdə böyük proqram qəbul etmişik. Əlliyə yaxın yeni stansiya tikiləcəkdir. İnvestisiya proqramında əlbəttə ki, bu məsələlər öz həllini tapacaqdır.

Sənaye istehsalının artırılması ilə bağlı texnoparkların fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə artıq ilkin nəticələr vardır. Sumqayıt Texnoparkı fəaliyyət göstərir. Yeni Kimya Texnologiya Parkı artıq fəaliyyətə başlayır. Digər şəhərlərdə, Mingəçevirdə texnoparkın yaradılması nəzərdə tutulur. Balaxanı Texnoparkının yaradılması prosesi gedir. Bu istiqamətdə bu il daha da ciddi addımlar atılmalıdır. Ümumiyyətlə, mən dəfələrlə demişəm ki, bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir. Ümumi daxili məhsulumuzun artımı da sənaye istehsalının hesabına mümkün olacaqdır.

2014-cü ildə metallurgiya sənayesinin inkişafı ilə bağlı ciddi addımlar atılmalıdır. Bu, çox perspektivli bir sahədir. Xüsusilə nəzərə alsaq ki, metallurgiya sənayesinin inkişafı üçün bizdə kifayət qədər yerli xammal, təbii resurslar vardır. Müasir metallurgiya kombinatının tikintisi əlbəttə ki, çox böyük bir nailiyyət olacaqdır. Hesab edirəm ki, bu il bu sahəyə xüsusi diqqət göstərilməlidir.

Ekoloji vəziyyətin yaxşılaşdırılması işləri hər il diqqət mərkəzindədir. Kompleks tədbirlər görülür. Daha da ciddi tədbirlər görülməlidir. Xüsusilə havanı çirkləndirən amillər bir daha təftiş edilməlidir. Əlbəttə ki, “Avro-3” standartına keçid sürətləndirilməlidir. “Avro-3” də son hədd deyildir.

"Avro-4", "Avro-5" ilə bağlı işlər daha da sürətlə getməlidir. Əlbəttə ki, bu işlərdə Azərbaycanda fəaliyyət göstərən neftayırma zavodlarının da böyük rolu vardır. Orada da yenidənqurma aparılmalıdır. Bakıda yeni neftayırma zavodunun tikintisi nəzərdə tutulur. Ancaq o tikilənə qədər mövcud zavodlarda ekoloji tədbirlər görülməlidir. Ümumiyyətlə, havanı çirkləndirən amillərə qarşı ciddi mübarizə aparılmalıdır.

Mənə verilən məlumata görə, əsas amil minik maşınlarıdır. Keçən il Azərbaycana yüz mindən çox avtomobil idxal edilibdir. Bu, əlbəttə ki, vətəndaşların rifah halının yaxşılaşmasını təsdiqləyən bir faktdır. Ancaq, eyni zamanda, bizim yol infrastrukturumuza nə qədər böyük yükdür. Biz yollar çəkirik, qovşaqlar, tunellər tikirik. Bəlkə də Bakıda, Azərbaycanda olan bu layihələr heç bir başqa ölkədə yoxdur. Nə qədər yollar, tunellər tikilib və tikilir. Nə qədər vəsait ayrılır. Ancaq yüz min maşının – onların da böyük hissəsinin Bakıya gəlməsi, əlbəttə ki, tıxac problemlərini yaradır, ekoloji vəziyyəti pisləşdirir. Ona görə, vaxtilə biz ekoloji standartlara, yaxud da ki, texniki şərtlərə uyğun olmayan maşınların idxalını dayandırmışıq. Hesab edirəm ki, bu il Ekologiya və Təbii Sərvətlər Nazirliyi, digər aidiyyəti qurumlar və Nazirlər Kabineti bütövlükdə bu məsələyə bir də baxmalıdır. Ekologiyanı çirkləndirən maşınlar Azərbaycana buraxılmamalıdır. Sıradan çıxmış maşınlar, ümumiyyətlə, gətirilməməlidir və mənə konkret təkliflər verilməlidir ki, biz bu məsələni birdəfəlik həll edək.

Havanı çirkləndirən müəssisələrdə ciddi yoxlamalar aparılmalıdır. İqtisadiyyat və Sənaye Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, digər aidiyyəti qurumlar belə müəssisələrin siyahısını mənə təqdim etsinlər və orada ciddi tədbirlər görülməlidir. Ya o müəssisələri işlədənlər, - istər dövlət, istər özəl qurumlar - lazım olan təmizləyici qurğuları quraşdıracaqlar, ya da ki, o müəssisələr bağlanmalıdır. Birmənalı şəkildə. Havanı çirklədən, insanları zəhərləyən müəssisələr lazım deyildir. Deyə bilərəm ki, cərimələr burada işləmir. Çünki cərimələrin tutulması prosesi çox mürəkkəbdir. Bir də ki, indi cərimələrin məbləği də o qədər böyük deyil ki, bu cərimələrə görə kimsə öz fəaliyyətini dayandırsın. Ona görə, ya təmizləyici qurğular quraşdırılmalıdır, ya müəssisə bağlanmalıdır. Heç bir tərəddüdsüz. Hesab edirəm ki, bu, ekoloji vəziyyətin yaxşılaşmasına böyük təsir göstərəcəkdir. Biz milyonlarla ağac əkirik, ictimai zonalar yaradırıq, içməli su, kanalizasiya xətləri çəkirik. Ancaq havanı çirkləndirən müəssisələr bizim bütün bu işlərimizin üstündən elə bil ki, xətt çəkir. Ona görə bu, çox ciddi məsələdir. Bu, hər bir Azərbaycan vətəndaşının sağlamlığı məsələsidir. Sağlamlıq isə birinci yerdədir.

Digər ekoloji tədbirlər də görüləcəkdir. Böyükşor gölünün təmizlənməsi layihəsi bu il başlanacaq və gələn il onun birinci mərhələsi başa çatmalıdır. Artıq İqtisadiyyat və Sənaye Nazirliyi mənə bu barədə məlumat veribdir. İşlər bu il başlayacaq və Böyükşor gölünün üçdəbir hissəsi bəndlə ayrılacaq, orada ekoloji tədbirlər görüləcəkdir. Əminəm ki, bu təcrübə uğurlu olacaqdır. Ondan sonra qalan hissə təmizlənəcəkdir. Böyükşor gölünün ümumi ərazisi min hektardan çoxdur. Çox böyük bir göldür. Şəhərin mərkəzində yerləşir və bilirsiniz ki, o gölə axıdılan çirkab suları, lay suları, neftlə çirklənmiş sular Bakının ekoloji vəziyyətini böyük dərəcədə pisləşdirir. Ona görə, bu layihələr də icra edilməlidir və digər göllərlə bağlı vaxt gəlib çatıb ki, biz ciddi məşğul olaq. Mən bir neçə il bundan əvvəl bu barədə öz fikirlərimi bildirmişəm. Hətta o göllərin hamısının adlarını da sadalamışam. Ona görə, vaxt gəlib çatıb. Bütün göllərin təmizlənməsi, haradakı bu, mümkün deyil, onların qurudulması, yəni, kompleks tədbirlər planı olmalıdır. Biz xüsusi proqram da qəbul edə bilərik və edəcəyik.

Burada digər sahələrlə bağlı məlumat verildi. Kosmik sənayenin inkişafı ilə bağlı. Birinci peykin orbitə çıxarılması, qeyd etdiyim kimi, böyük tarixi məsələdir. Ancaq ikinci, üçüncü peyklərin də hazırlanması ilə bağlı bu il konkret addımlar atılmalıdır. Yəqin ki, tender prosedurları açılmalıdır. Bizimlə əməkdaşlıq etmək istəyən şirkətlərin sayı kifayət qədər çoxdur. Ona görə, Azərbaycanda kosmik sənaye inkişaf edəcəkdir. Bu il növbəti peyklərin fəaliyyəti üçün konkret addımlar atılmalıdır.

Sosial obyektlərin tikintisi davam etdiriləcəkdir. Bütün bunlar investisiya proqramının tərkib hissəsidir. Deyə bilərəm ki, keçən il 300-ə yaxın məktəbdə, 80-dən çox tibb müəssisəsində təmir-tikinti işləri aparılmışdır. Bu istiqamətdə işlərin böyük əksəriyyəti görülübdür. Ancaq hələ ki, görüləsi işlər çoxdur.

Keçən ildə olduğu kimi, bu il də korrupsiyaya və rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılacaqdır. Bu mübarizənin gözəl nəticələri vardır. Kompleks tədbirlər görülür. Keçən ilin əvvəlində "ASAN xidmət"in fəaliyyətə başlaması bu sahədə böyük bir dönüş yaratdı, bir yenilik gətirdi. "ASAN xidmət"

Azərbaycan məhsuludur, Azərbaycan ixtirasıdır, Azərbaycan brendidir. Qısa müddət ərzində yüz minlərlə insan bu xidmətə müraciət etmişdir. Bu günə qədər eşitməmişəm ki, hər hansı bir şikayət və ya narazılıq olsun. Bütün xidmətlər şəffaf, mədəni şəkildə göstərilir. “ASAN xidmət”də göstəriləcək xidmətlərin sayı artırılmalıdır və bu il regional mərkəzlər də yaranmalıdır. Artıq Gəncə, Sumqayıt şəhərlərində mərkəzlər vardır və səyyar xidmət də göstərilir. Biz bu il bölgələrdə ən azı dörd, bəlkə də beş “ASAN xidmət” mərkəzi tikməliyik, yaratmalıyıq və bu, investisiya proqramında da öz əksini tapmalıdır.

Ancaq korrupsiyaya qarşı mübarizə “ASAN xidmət”in fəaliyyəti ilə bitmir. Bütün dövlət idarələrində, xüsusilə vətəndaşlarla təmasda olan dövlət qurumlarında korrupsiyaya, rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparılmalıdır. Biz bilirik yaralı yerlərimiz haradadır. Bu yaraları sağaltmaq üçün nə etməyin lazım olduğunu da bilirik. Siyasi iradə də vardır. Kifayət qədər güclü iradədir. Yerlərdə, mərkəzi icra orqanlarında, yerli icra orqanlarında korrupsiyaya bulaşmış şəxslər vəzifədən kənarlaşdırılmalıdır. Onlara qarşı cinayət işləri açılmalıdır. Düzdür, indi Korrupsiyaya Qarşı Mübarizə İdarəsində bu işlər gedir, cinayət işləri açılır. Daha da ciddi tədbirlər görülməlidir ki, biz bu bəladan özümüzü xilas edək. 2014-cü ildə bu sahədə, hesab edirəm ki, daha da böyük addımlar atılacaqdır.

Neft-qaz sektorunda işlər yaxşı gedir. Giriş sözümdə dediyim kimi, “Şahdəniz-2”, TANAP, Trans-Adriatik boru kəmərləri layihəsi tarixi qələbəmizdir. Bu, Avropanın ən böyük infrastruktur layihəsidir və bunun icrası artıq başlanıbdır. Hesab edirəm ki, bütün işlər vaxtında görüləcəkdir.

Biz Avropa Oyunlarına hazırlıq üçün həlledici ilə qədəm qoyuruq. Bildiyiniz kimi, Avropa Oyunları 2015-ci ildə keçiriləcəkdir. Hazırlıq üçün bizə cəmi iki il yarım vaxt verilmişdir. Baxmayaraq ki, Olimpiya Oyunlarına hazırlıq 7-8 il davam edir. Biz iki il yarım ərzində Yay Olimpiya Oyunları səviyyəsində Avropa Oyunlarını keçirmək niyyətindəyik. Əminəm ki, buna nail olacağıq. Təşkilat Komitəsi formalaşıb, fəaliyyət göstərir. Bütün aidiyyəti qurumlar bu işlərə daha da böyük diqqət yetirməlidir ki, biz hazırlıq işlərinin əsas hissəsini bu il başa çatdıraq. İdman obyektlərinin böyük əksəriyyətinin tikintisi bu il başa çatmalıdır. Olimpiya stadionu, gimnastika mərkəzi, su idman növləri sarayı, stend atıcılığı mərkəzi – onların tikintisi gedir. Heydər Əliyev İdman Kompleksi, Əl Oyunları Sarayı əsaslı təmir edilir, digər idman obyektləri yaradılır.

Bir sözlə, əminəm ki, bu istiqamətdə heç bir problemimiz olmayacaqdır. Ancaq bu Oyunların hazırlanması təkcə olimpiya obyektlərinin tikintisi ilə məhdudlaşmır. Burada təhlükəsizlik məsələləri çox böyük əhəmiyyət daşıyır. Nəqliyyat məsələləri, qonaqların, idmançıların yerləşməsi, Olimpiya şəhərciyinin yaranması və digər məsələlər çox ciddi diqqət tələb edir. Bu il, bir daha demək istəyirəm ki, Oyunlara hazırlıq üçün həlledici il olacaqdır. Mən əminəm ki, biz bu Oyunları ən yüksək səviyyədə keçirəcəyik. Nəzərə alsaq ki, bu, birinci Oyunlardır, Azərbaycanda qoyulan standartlar bundan sonra Avropa Oyunları üçün bir standart kimi qəbul ediləcəkdir.

Keçən il Azərbaycanda “İnformasiya-kommunikasiya texnologiyaları ili” elan edilmişdi. Bunun əsas səbəbi ondan ibarət idi ki, keçən il biz birinci peyki orbitə buraxdıq və bütövlükdə İKT sahəsinə böyük diqqət verilmişdir. Hesab edirəm ki, bu il ölkəmizin gələcək inkişaf dinamikasını müəyyən edən sənaye sahəsinə daha da böyük diqqət verilməlidir. Texnoparklar, yeni sənaye müəssisələri, ixrac yönümlü sənaye məhsullarının istehsalı, emal müəssisələrinin, böyük sənaye komplekslərinin yaranması – bütün bu işlər ölkəmizin gələcək inkişafını təmin edəcək, neft-qaz amilindən asılılığı daha da azaldacaq və ölkə iqtisadiyyatının dayanıqlı şəkildə inkişafını müəyyən edəcəkdir.

Bütün bu amilləri nəzərə alaraq, mən hesab edirəm ki, biz 2014-cü ili “Sənaye ili” elan edək. Müvafiq Sərəncam imzalanacaqdır. “Sənaye ili”ndə sənayenin inkişafı ilə bağlı görüləcək konkret tədbirlər planı tərtib və təsdiq ediləcəkdir.

2014-cü il başlayır. İlin birinci həftəsində artıq iki böyük obyektin açılışı olmuşdur. Qəbələdə “Tufan” Dağ-Xizək Mərkəzi, Bakıda müstəqillik dövründə tikilmiş ən böyük tibb ocağı – Bakı Sağlamlıq Mərkəzi artıq açılmışdır. Yəni, biz ili artıq gözəl hadisələrlə başlayırıq. Əminəm ki, 2014-cü il də ölkəmiz, xalqımız üçün uğurlu olacaqdır.

Sağ olun.

# İLHAM ƏLİYEV XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR




İyirmi iki il əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran soyqırımı törətmişlər.

Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.

Abidənin yanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.

Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.

***

Azərbaycanın tarixinə qanlı hərflərlə yazılmış həmin gecə erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşmiş, şəxsi heyətinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayın zirehli texnikasının və hərbçilərinin köməyi ilə qədim Xocalı şəhərini yerlə-yeksan etmişlər.

Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirilmiş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 155 nəfərin taleyi isə hələ də məlum deyildir. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini itirmişdir.

Xocalı faciəsi 200 ilə yaxın bir müddətdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin davamıdır. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülmüş, 3 nəfər diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, bədən əzaları və başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə yarılmışdır. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir.

İnsanlığa qarşı törədilmiş bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Prezident İlham Əliyev Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi qiymətləndirmişdir.

Bu qanlı gecədə erməni təcavüzkarlarının törətdikləri vəhşilik yaddaşlardan heç zaman silinməyəcəkdir. Çünki həmin gecə baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyildi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayət idi. Buna baxmayaraq, o zamankı Azərbaycan hakimiyyəti bu dəhşətli hadisəyə siyasi qiymət verilməsi, qanlı qırğın barədə obyektiv məlumatların dünya




ictimaiyyətinə çatdırılması üçün heç bir iş görməmişdir.

Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra bu qanlı faciəyə hüquqi-siyasi qiymət verilmişdir. 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan parlamenti 26 fevralı Xocalı soyqırımı günü kimi elan etmişdir.

Hər il bu müdhiş faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və digər dost xalqların nümayəndələri tərəfindən ürəkağrısı ilə qeyd olunur.

Bu günlərdə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş etdirilir. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radio kanallarında verilişlər yayımlanır.

Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri vardır. Fondun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya ədalət!" kampaniyası uğurla davam edir.

Kampaniyanın məqsədi Xocalı qətliamının insanlığa qarşı törədilmiş ən böyük cinayət kimi beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır.

Görülən işlərin nəticəsidir ki, yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur. Artıq dünya ictimaiyyəti Xocalı həqiqətlərini qəbul etməyə başlayır. Xocalı faciəsinin soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin və beynəlxalq təşkilatların qərarlarında, qətnamələrində əksini tapır. Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya və Honduras parlamentləri, eləcə də ABŞ-ın Massaçusets, Texas, Nyu-Cersi, Men, Nyu-Meksiko, Arkanzas, Corciya, Oklahoma, Tennesi, Pensilvaniya, Qərbi Virciniya, Konnektikut, Florida, Missisipi ştatlarının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanımışlar

Beynəlxalq hüquqa görə, soyqırımı sülh və bəşəriyyət əleyhinə yönələn əməldir və ən ağır beynəlxalq cinayət sayılır. BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən Konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit edilən soyqırımı cinayətinə aid bütün əməllər tətbiq olunmuşdur. Bu işğalçı ölkənin terrorçuluq siyasəti uzun illərdir dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüquq normalarına, BMT və ATƏT-in prinsiplərinə görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir. Ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi haqqında 4 qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ ki, yerinə yetirmir.

Xocalı soyqırımını törətməklə erməni millətçiləri Azərbaycan xalqını qorxutmaq, vahimə yaratmaq, onun mübarizə əzmini qırmaq, torpaqlarının işğalı faktı ilə barışmağa məcbur etmək kimi məkrli məqsədlər güdmüşdür. Amma hiyləgər və amansız düşmənin niyyətləri baş tutmadı, xalqımız dövlətin suverenliyinin müdafiəsində yüksək qəhrəmanlıq nümunəsi göstərdi.

Azərbaycan xalqı qəti əmindir ki, hazırda Cənubi Qafqazın iqtisadi güc mərkəzinə çevrilmiş, dünyada mövqeyini daha da möhkəmləndirmiş, hərbi qüdrətini təmin etmiş dövlətimiz düşmən tapdağı altında olan torpaqlarını istənilən yolla azad edəcək, şəhidlərimizin qanı yerdə, günahkarlar isə cəzasız qalmayacaqdır.

# İLHAM ƏLİYEV BAKIDA NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK ETMİŞDİR

Martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı - Novruz münasibətilə ümumxalq şənliyi keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Novruz şənliyində iştirak etmişlər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Qız qalasının qarşısındakı meydana gəldilər.

Milli geyimli uşaqlar Azərbaycan Prezidentinə bayram xonçası təqdim etdilər. Uşaqlar Prezident İlham Əliyevi və Mehriban xanım Əliyevanı Novruz bayramı münasibətilə təbrik etdilər.

İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.

Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Milli geyimli uşaqlar meydanda rəqs edirdilər. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıları ətrafa yayılır, bayram şənliyinin iştirakçılarında xoş ovqat doğururdu.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı.

Dövlətimizin başçısı bayram şənliyində nitq söylədi.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ



- Əziz dostlar, mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Novruz bayramı münasibə tilə ürəkdən təbrik edirəm. Bütün Azərbaycan xalqına yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Novruz bayramı Azərbaycan xalqının ən sevimli bayramlarından biridir.

Novruz bayramı bizim milli dəyərimizdir, sərvətimizdir. Əsrlər boyu Azərbaycan xalqı bu bayramı qeyd edirdi. Bu gün müstəqil Azərbaycanda Novruz bayramı dövlət bayramıdır.

Biz öz milli dəyərlərimizə həmişə sadiq olmuşuq, həmişə onları qorumuşuq. Bu gün müstəqillik şəraitində milli dəyərlər, Azərbaycan dəyərləri bizim üçün əsas dəyərlərdir. Azərbaycan dəyərləri ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Azərbaycan xalqı həmişə ənənələrə, milli dəyərlərə sadiq olmuşdur. Bu gün müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulubdur.

Biz müstəqillik şəraitində yaşayarıq.

Müstəqilliyimizin banisi Heydər Əliyev bütün sahələrdə olduğu kimi, müstəqil Azərbaycanın ideoloji əsaslarını da qoymuşdur. 1993-cü ildə bütün istiqamətlər üzrə strateji xətt müəyyən edilmişdir. Azərbaycan bu gün bu istiqamətlər üzrə inkişaf edir. Bizim strategiyamız dəyişməz olaraq qalır. Milli ideologiyamız möhkəm əsaslar üzərində qurulubdur.

Müstəqillik, azərbaycançılıq, müasirlik, vətənpərvərlik, milli və dini dözümlülük. Bizim əsas ideoloji dayaqlarımız bunlardır.

Müstəqil Azərbaycanın uğurlu inkişafı onu göstərir ki, taleyimiz öz əlimizdə olduğu halda xalqımız böyük zirvələrə çata bilər və çatmışdır. Bu gün müstəqil Azərbaycan istənilən sahə üzrə uğurla, inamla inkişaf edir. Biz müstəqilliyimizi qoruyuruq, qoruyacağıq və ildən-ilə müstəqilliyimiz möhkəmlənir.

Xarici siyasətlə bağlı addımlarımız beynəlxalq hüquqa və ədalətə söykənir. Bu iki anlayış bizim üçün əsasdır. Bəzi hallarda beynəlxalq münasibətlərdə beynəlxalq hüquq və ədalət ziddiyyət təşkil edir. Ancaq buna baxmayaraq, Azərbaycan bütün məsələlərdə öz prinsipial mövqeyini ifadə edir, bu mövqeyə sadiqdir. Bundan sonra da Azərbaycan bütün məsələlərin beynəlxalq hüquq çərçivəsində ədalətli şəkildə həll edilməsində öz sözünü deyəcəkdir.

Bizim xarici siyasətimiz tam müstəqildir, Azərbaycan xalqının milli maraqlarına söykənir. Biz milli



maraqlarımızı şərəflə, uğurla qoruyuruq. Deyə bilərəm ki, bu gün bölgədə gedən proseslərdə Azərbaycan dövlətinin təsiri artır. Bir çox hallarda beynəlxalq layihələrin təşəbbüskarı da məhz Azərbaycan dövlətidir.

Xarici siyasətimizin uğurlu olmasını BMT-də iki il bundan əvvəl aparılmış seçkilər də təsdiqləyir. Azərbaycan dünya ictimaiyyətinin mütləq əksəriyyətinin, 155 ölkənin dəstəyi ilə dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına üzv olmuşdur. İki il ərzində bu təşkilatda ləyaqətlə iştirak edirdi. Dediyim kimi, beynəlxalq hüququ, ədaləti müdafiə edirdi.

Xarici siyasətlə bağlı əsas problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Uzun illərdir ki, beynəlxalq hüquq, ədalət pozulur. Çünki Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bizim tarixi, əzəli torpağımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşamışdır, yaratmışdır. Dağlıq Qarabağda bütün toponimlər Azərbaycan xalqının mədəniyyətini, tarixini əks etdirir. Nəinki Dağlıq Qarabağ, indiki Ermənistanın böyük bir hissəsi qədim Azərbaycan torpaqlarıdır.

Tarixi ədalət, beynəlxalq hüquq pozulub. Çünki bütün dünya ictimaiyyəti Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və Azərbaycanın ərazi bütövlüyü bu məsələnin həllində əsas rol oynayacaqdır. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Ölkələrin ərazi bütövlüyü ölkələrin razılığı olmadan dəyişdirilə bilməz. Bu, beynəlxalq hüququn əsas baza prinsipləridir və Helsinki Yekun Aktında məhz bu prinsiplər əsas götürülmüşdür.

Mən əminəm ki, bu münaqişə ədalətli və beynəlxalq hüquq əsasında öz həllini tapacaq, Azərbaycan ərazi bütövlüyünü, suverenliyini bərpa edəcəkdir. Biz azərbaycanlılar Dağlıq Qarabağa, işğal edilmiş digər torpaqlara və bütün tarixi Azərbaycan torpaqlarına qayıdacağıq. Mən buna əminəm, buna şübhə etmirəm və buna nail olmaq üçün biz daha da güclü olmalıyıq.

Bu gün dünyada beynəlxalq münasibətlərin həllində beynəlxalq hüquq, eyni zamanda, güc amili də ön plana çıxır. Belə olan halda hər bir ölkə öz gücünü artırmalıdır. Biz bu məsələlərlə uz-un illərdir ki, məşğuluq. Uzun illərdir ki, güclü iqtisadi potensialımızı yaradırıq. Bu potensial bizə imkan verir ki, müstəqil siyasət aparaq. Çünki iqtisadi müstəqillik, hərbi güc olmadan müstəqil siyasət aparmaq çox çətindir.

Ona görə son illərdə ordu quruculuğuna çox böyük diqqət göstərilmişdir. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti, nizam-intizam artır. Ordumuz hərbi texnika ilə təchiz edilir və hərbi büdcəmiz ildən-ilə artaraq böyük rəqəmlərə çatmışdır. Təkcə onu demək kifayətdir ki, bu gün bizim hərbi büdcəmiz Ermənistanın bütün dövlət büdcəsindən iki dəfə çoxdur. Hərbi büdcə, döyüş hazırlığı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas rol oynayacaqdır.

Bizim ideoloji əsaslarımız aydındır. Bu barədə mən artıq öz fikirlərimi bildirdim. Ermənistan isə faşist dövlətdir. Onların milli ideologiyası faşizmdir, ayrıseçkilikdir, millətçilikdir. Bu ideologiyanın qurbanları məhz erməni xalqıdır ki, öz müstəqil inkişafından məhrumdur. Müstəqillik böyük bir şans, böyük bir



nemət, sərvət idi. Azərbaycan bu gün bu imkanlardan tam şəkildə istifadə etmişdir. Ermənistan haqqında isə müstəqil dövlət sözünü ifadə etmək çox çətindir. Çünki nə müstəqil siyasəti, nə müstəqil iqtisadiyyatı vardır.

Azərbaycan isə öz prinsipial mövqeyi ilə bütün dövrlərdə seçilmişdir. Bir daha demək istəyirəm ki, hər bir məsələ ilə bağlı bizim prinsipial, birmənalı mövqeyimiz vardır. Biz şərəflə yaşayırıq, biz ləyaqətli siyasət aparırıq və bizim siyasətimiz, bir daha demək istəyirəm ki, ümumbəşəri prinsiplər üzərində qurulubdur.

Ermənistan-Azərbaycan münaqişəsi həll olunandan sonra əminəm ki, Ermənistan üçün də müstəqil ölkə kimi yaşamaq imkanları yaranacaqdır. İnanmıram ki, erməni xalqı indiki vəziyyətlə razılaşa bilsin. Çünki hər bir xalq azad, hər bir dövlət müstəqil olmaq istəyir. Bu gün Ermənistan haqqında bunu demək mümkün deyildir. Çünki Ermənistan ən yaxşı halda forpost kimi özünü göstərir. Bölgə təhlükə mənbəyidir və bütün bölgədə xoşagəlməz proseslərin təşəbbüskarı da Ermənistandır.

Mən tam əminəm ki, Azərbaycanın artan gücü, bizim potensialımız və xarici siyasətlə bağlı apardığımız düşünülmüş, ölçülüb-biçilmiş siyasət bizə imkan verəcək ki, ərazi bütövlüyümüzü bərpa edə bilək. Bunun başqa yolu yoxdur. Tarixin gedişatı, bizim demoqrafik inkişafımız, iqtisadi potensialımız bunu deməyə əsas verir ki, Azərbaycanın milli bayrağının Şuşada, Xankəndidə dalğalanacağı gün uzaqda deyildir.

Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq. Çünki biz görürük ki, beynəlxalq aləmdə ikili standartlar mövcuddur. Biz də ikili standartların qurbanıyıq. Beynəlxalq münasibətlərin həllində güc amili ön plana çıxır. Biz daha da güclü olmalıyıq, daha da güclü olacağıq.

Əlbəttə ki, əsas məsələ burada iqtisadi potensialdır. Son on il ərzində Azərbaycan kimi iqtisadi sahədə sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. Bu, böyük tarixi nailiyyətimizdir. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir, iqtisadi potensialımız artır, iqtisadiyyat üç dəfədən çox artmışdır. Ölkədə böyük sosial layihələr, sosial proqramlar icra edilir, iqtisadi islahatlar, eyni zamanda, sosial məsələlərin həllində də bizə kömək göstərir.

Bu gün sosial cəhətdən az təmin edilmiş vətəndaşlara da Azərbaycan dövləti öz yardımını əsirgəmir.

İqtisadi potensialımızın artırılması üçün daha da gözəl imkanlar vardır. Çünki biz artıq iqtisadiyyatımızı şaxələndirə bilmişik. Keçən il qeyri-neft sektorumuz təxminən 10 faiz, bu ilin iki ayında təxminən 9 faiz artmışdır. Yəni, bu, onu göstərir ki, iqtisadiyyatla bağlı qarşıda duran əsas vəzifələr uğurla icra edilir. Gələcək illərdə bu sahədə islahatlar davam etdiriləcəkdir. Azərbaycanda çox güclü sənaye potensialı yaradılacaqdır. Bundan sonra Azərbaycan iqtisadiyyatı qeyri-neft sektoru hesabına inkişaf edəcəkdir. Artıq biz bunu görürük və bölgələrdə aparılan işlər, sənayenin, kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı olan təşəbbüslər öz səmərəsini verməkdədir.

Biz iqtisadi sahədə apardığımız islahatlarla dünyanın aparıcı iqtisadi qurumlarının da yüksək qiymətlərinə layiq ola bilmişik. Bu gün dünyanın aparıcı iqtisadi qurumu olan Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 39-cu yerə layiq görmüşdür. Bu, islahatlar nəticəsində əldə edilmiş uğurlardır. Ancaq istənilən islahat ilk növbədə, insanların həyat şəraitinin yaxşılaşmasında özünü büruzə verməlidir və bu, özünü göstərir. Bu gün yoxsulluq şəraitində yaşayan soydaşlarımızın sayı getdikcə azalır, işsizlik aradan götürülür. Ölkə iqtisadiyyatı inkişaf edir və inkişaf edəcəkdir.

Əlbəttə, Azərbaycan dünyada çox önəmli enerji təchizatçısı kimi öz rolunu oynayır. Biz keçən ilin sonunda Avropanın ən böyük infrastruktur layihəsinə Bakı şəhərində start verdik. Azərbaycan bu sahədə də liderlik göstərə bilmişdir, nəhəng, qlobal layihənin təşəbbüskarıdır, aparıcı qüvvəsidir. Uzun illərdir ki, “Cənub” qaz dəhlizinin yaradılması ilə bağlı danışıqlar gedirdi. Mən təqribən son 7-8 il ərzində ondan çox beynəlxalq tədbirdə iştirak etmişəm. Ancaq bu tədbirlərin nəticəsi olmamışdır. Bəyanatdan başqa

heç bir praktiki addımlar atılmamışdır. Azərbaycan dövləti bu sahədə də liderliyi, bütün məsuliyyəti, siyasi, iqtisadi, maliyyə məsuliyyətini üzərinə götürərək bu layihəyə də start verdi. Bu layihə bizim uğurlu gələcəyimizi təmin edəcək, Azərbaycanda sosial problemlərin həllinə kömək göstərəcəkdir. Bu layihə Azərbaycanı dünya miqyasında önəmli güc mərkəzi kimi təqdim edəcək və bizim uzunmüddətli, dayanıqlı inkişafımızı şərtləndirəcəkdir.

Azərbaycan bütün bu məsələlərdə prinsipial mövqe sərgiləyir. Əgər bizim prinsipial mövqeyimiz olmasaydı, əgər kimdənsə asılılığımız olsaydı və kimdənsə çəkinsəydik biz heç vaxt bu böyük layihələrə imza atmazdıq. Bizim siyasətimizin təməlində müstəqillik dayanır, ədalət dayanır, cəsarət dayanır. Biz bütün addımlarımızı Azərbaycan xalqının maraqlına xidmət etmək üçün atırıq. Azərbaycanın maraqları hər şeydən üstündür, hər bir vətəndaş üçün də hər şeydən üstün olmalıdır. Bir sözlə, ölkəmizin gələcək inkişafı ilə bağlı bizim çox nikbin fikirlərimiz vardır. Əslində bu gələcəyi biz yaradırıq.

Son illər ərzində aparılan siyasi, iqtisadi islahatlar, enerji siyasətimiz bu reallığı mümkün etmişdir. Gələcək inkişafımızla bağlı bu ilin əvvəlində də önəmli addımlar atılmışdır. Keçən ay regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilmişdir. Qalan sosial və iqtisadi məsələlər də 2018-ci ilə qədər bu proqramın icrası nəticəsində öz həllini tapmalıdır.

Beləliklə, Azərbaycan bundan sonra da inamla inkişaf edəcəkdir. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı da icra edilir. 2016-cı ilə qədər bu proqram tam şəkildə icra edilməlidir və beləliklə Bakıda bir dənə də olsun sosial infrastruktur problemi, iqtisadi problem qalmamalıdır. Qarşıya məhz belə vəzifə qoyulmuşdur. Bu proqramların icrası nəticəsində ölkəmiz daha da sürətlə inkişaf edəcəkdir. Proqramların icrası təmin ediləcəkdir. Bu günə qədər verdiyimiz bütün vədlərə sadiq olmuşuq, bütün proqramları icra etmişik və bundan sonra da bu yolla gedəcəyik.

Bakımız da gözəlləşir, abadlaşır. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bunu Bakı sakinləri, digər bölgələrdən gələn qonaqlar görürlər, xarici qonaqlar bunu qeyd edirlər. Bakının gələcək inkişafı ilə bağlı bizim böyük planlarımız vardır. Bakıda ictimai yerlərin yaradılması, yeni infrastruktur layihələrinin icra edilməsi, şəhər nəqliyyatı ilə bağlı böyük planlarımız vardır. Artıq onların bir hissəsi icra edilir. Bakının ən cəlbedici yerlərindən biri olan milli parkımız, bulvarımız gözəlləşir, abadlaşır, bulvarın ənənəvi hissəsi ən yüksək səviyyədə təmir edilmişdir. İndi yüz minlərlə insan xüsusilə yaz-yay aylarında bu imkanlardan istifadə edir. Bayraq Meydanına qədər uzanan yeni bulvar istifadəyə verilmişdir. Bayraq Meydanından Bibiheybət istiqamətinə gedən bulvar tikilir, ümid edirəm ki, ilin sonuna qədər o hissə də ictimaiyyət üçün açıq olacaqdır. Orada yeni şəhərciklər - “Bakı Art City” adlanan incəsənət şəhərciyi, idman şəhərciyi yaradılır. Yəni, o hissə bir ildən sonra şəhərimizin ən gözəl yerlərindən birinə çevriləcəkdir.



Bulvarın əks istiqamətində işlər aparılır, “Ağ şəhər bulvarı” tikilir. Bu ilin sonuna qədər o istiqamətdə də əlavə 2 kilometr bulvar, avtomobil yolu, ictimai yerlər, parklar salınacaqdır. Beləliklə, bulvarın uzunluğu “Ağ şəhər”dən Bibiheybətə qədər uzanacaqdır. Bu da təqribən 16 kilometr məsafədir. Bu məqsədlə artıq göstəriş verilmişdir ki, bulvarda ekoloji cəhətdən təmiz kiçik xüsusi avtobuslar da fəaliyyətə başlasın. Çünki bu 16 kilometri piyada qət etmək o qədər də asan olmayacaqdır.

Xalça Muzeyi tikilir, yaxın zamanlarda istifadəyə veriləcəkdir. Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni, möhtəşəm binası tikilir, bu yaxınlarda istifadəyə veriləcəkdir. Bir sözlə, Bakının inkişafı, abadlaşması, tarixi abidələrimizin bərpası ilə bağlı çox ciddi işlər aparılır. Bakının simvolu olan Qız qalasının təmiri bu yaxınlarda başa çatmışdır. Bir neçə gün bundan əvvəl




digər tarixi yerimiz – Şirvanşahlar Sarayında aparılan təmir işlərindən sonra artıq açılış olmuşdur.

Bir sözlə, Bakı bizim paytaxtımızdır, gözəl, sevimli şəhərimizdir. Şəhərimizin gələcək inkişafı, infrastruktur, abadlıq işlərinin aparılması ilə bağlı konkret tapşırıqlar verilmişdir və biz birinci Avropa Oyunlarına hazırlaşırıq, böyük hazırlıq gedir. Bu oyunlar Azərbaycanı bir daha dünyaya müasir, dinamik inkişaf edən ölkə kimi təqdim edəcək, Azərbaycanın potensialını nümayiş etdirəcək, xalqımızın istedadını göstərəcəkdir. Biz bu oyunları Yay Olimpiya Oyunlarının səviyyəsində keçirmək əzmindəyik. Əminəm ki, biz buna nail olacağıq.

Əziz dostlar, bu gözəl gündə, gözəl bayram ərəfəsində bir daha bütün Azərbaycan xalqına öz hörmətimi, məhəbbətimi ifadə edirəm. Dünyada yaşayan bütün azərbaycanlıları bu gözəl bayram münasibətilə təbrik edirəm, bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dənizkənarı Milli Parka gəldilər.

Dövlətimizin başçısını və xanımını Novruz bayramının əsas personajları olan Kosa və Keçəl qarşıladılar.

Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər, dövlətimizin başçısı ilə yumurta döyüşdürdülər.

Daha sonra Prezident İlham Əliyev və Mehriban Əliyeva aşıqların, muğam ifaçılarının çıxışlarını dinlədilər.

Milli Parkda təşkil edilən “Şərq bazarı” bayram şənliyinə xüsusi çalar qatırdı. Burada ölkəmizin müxtəlif bölgələrini təmsil edən özfəaliyyət kollektivlərinin çıxışları və hazırlanmış sənətkarlıq nümunələri maraqla qarşılandı. Bir tərəfdə isə gənc pəhləvanlar xalça üzərində qurşaq tutur, idmançılar məharətlərini göstərirdilər.

Dövlətimizin başçısı və xanımı zorxana güləşçiləri ilə xatirə şəkli çəkdirdilər.

Azərbaycan Prezidenti və xanımı manqalda bişirilən kababın dadına baxdılar. Ulu babalarımızdan bugünkü nəslə yadigar qalan qədim el sənətlərinin nümayiş olunduğu mərasimdə, həmçinin Novruz bayramının rəmzi olan müxtəlif şirniyyat nümunələri də təqdim edilirdi.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və şənliyin digər iştirakçıları bu səhnələri maraqla izlədilər, qədim el sənətlərinin nümunələrinə baxdılar.

Dövlətimizin başçısı və xanımı burada nümayiş etdirilən Azərbaycan xalçalarının nümunələri ilə tanış oldular.

Prezident İlham Əliyev və Mehriban Əliyeva, həmçinin gənc rəssamların, modelyerlərin və el sənətkarlarının əl işlərinə tamaşa etdilər.

Dövlətimizin başçısı və xanımı bərəkətli Azərbaycan torpağında yetişdirilmiş məhsulların bayram şənliyi çərçivəsində təşkil edilmiş sərgisi ilə tanış oldular. Müxtəlif rayonlardan gətirilmiş Novruz mətbəxinin nümunələri də şənlik iştirakçılarında maraq doğurdu.

Azərbaycan Prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya hədiyyələr təqdim edildi.

Prezident və xanımı bayram şənliyində nümayiş etdirilən “Bakı-2015” Birinci Avropa Oyunları ilə bağlı təqdimata baxdılar, idmanın müxtəlif növləri üzrə idmançıların çıxışlarını izlədilər.

Azərbaycan Prezidenti onun pişvazına və bayram gəzintisinə çıxmış Bakı sakinlərinə və paytaxtımızın qonaqlarına Novruz münasibətilə bir daha xoş arzularını yetirdi.

Novruz bayramı münasibətilə keçirilən şənliklərdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.

# Baş Prokurorluqda 2013-cü ildə «Prokurorluq haqqında» Qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş Kollegiya iclası keçirilmişdir



Fevralın 7-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda Mərkəzi aparatın, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon və şəhər, ərazi hərbi prokurorlarının iştirakı ilə prokurorluq orqanları tərəfindən 2013-cü ildə «Prokurorluq haqqında» qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş Kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasında giriş nitqi ilə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, 2013-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan müasir məzmunlu siyasət tədbirləri nəticəsində ölkə həyatının bütün sahələrində böyük irəliləyişlərə, müstəqil dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə, vətənimizin iqtisadi qüdrətinin artırılması ilə nəticələnən möhtəşəm sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunmuş, hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində görülən işlər yeni müstəviyə qaldırılmışdır. 2013-cü ildə ümumi daxili məhsulun 6 faiz, qeyri-neft sektorunun 9,8 faiz, əhalinin pul gəlirlərinin 8 faiz artması, 80 mini daimi olmaqla 110 min yeni iş yerlərinin yaradılması, ölkə iqtisadiyyatına rekord miqdarda – 28 milyard dollar investisiya qoyulması, ölkənin valyuta ehtiyyatlarının 50 milyard dollara çatmaqla ümumi daxili məhsulun 70 faizini təşkil edərək dünya miqyasında ən qabaqcıl göstəricilərdən biri olması xüsusi vurğulanmışdır.

Qeyd edilmişdir ki, ötən ilin bir sıra mühüm tarixi hadisələri içərisində xalqımızın bu günü və gələcəyi üçün taleyüklü əhəmiyyətə malik olan ictimai-siyasi tədbirin – Azərbaycan Respublikası Prezidentinin seçkilərinin nəticələri xalqla dövlətin vəhdətinin və birliyinin əyani təsdiqi və bariz nümunəsi olmuşdur. 2013-cü ildə demokratik prinsiplərə və beynəlxalq standartlara uyğun olaraq keçirilmiş Prezident seçkilərində xalqımız yekdilliklə cənab İlham Əliyevi növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçməklə ölkədə mövcud əmin amanlığın və həyata keçirilən sosial-iqtisadi siyasətin davamlılığına, hərtərəfli inkişaf dinamikasının sürətlənməsinə, xalqın rifahının və gələcəyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının sistemli və ardıcıl olaraq qorunmasına səs vermişdir.

Bildirilmişdir ki, 2013-cü ildə prokurorluq orqanlarının fəaliyyəti ilk növbədə qanunla müəyyən edilmiş, Azərbaycan Respublikası Prezidentinin göstəriş və tövsiyələrindən irəli gələn vəzifələrin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsinə, prokurorluğun müasir beynəlxalq standartlar səviyyəsində təkmilləşdirilməsi prosesinin daha intensiv şəkildə davam etdirilməsinə, yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunmasına, bütün fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin daha da artırılmasına yönəlmişdir.

Hesabat dövründə prokurorluq orqanları digər hüquq



mühafizə orqanları, ilk növbədə Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri ilə əlaqəli şəkildə fəaliyyət göstərərək ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa, xüsusən də onun mütəşəkkil təzahürlərinə qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin görülməsini təmin etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin yeni inzibati binasının açılışında, Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında korrupsiyaya qarşı mübarizə ilə bağlı verdiyi tapşırıqlar bu istiqamətdə fəaliyyətin səmərəliliyinin daha da artırılaraq ən yüksək tələblər səviyyəsində həyata keçirilməsinin təmin olunmasına zəmin yaratmışdır.

Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması korrupsiyaya şərait yaradan halların aradan qaldırılması istiqamətində mühüm addım olmuşdur.

2013-cü ildə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin fəaliyyəti daha uğurlu olmuşdur ki, bu da qanunla müəyyən edilmiş digər səlahiyyətlərlə yanaşı, idarəyə korrupsiya ilə bağlı olan cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək hüququnun verilməsi, idarənin yüksək təşkilati əsaslara və çevik struktura malik ixtisaslaşmış mühüm dövlət qurumu kimi formalaşması ilə əlaqədar olmuşdur. İdarənin “Qaynar xətt” əlaqə mərkəzinin fəaliyyətinin düzgün qurulması müsbət nəticələr vermişdir.

Dövlət başçısı cənab İlham Əliyevin ötən ilin yanvarında imzaladığı “İnformasiya kommunikasiya texnologiyaları ili” elan edilməsi haqqında” sərəncamının icrasının təmin edilməsi məqsədi ilə Baş Prokurorluq üzrə təsdiq edilmiş geniş Tədbirlər planının vaxtında icrası təmin olunmaqla prokurorluqda informasiya kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsinin yüksəldilməsinə, bu sahədə həyata keçirilən işin səmərəliliyinin xeyli dərəcədə artırılmasına nail olunmuş, “Elektron Sənəd Dövriyyəsi Proqramı”nın və “Elektron Cinayət” İnformasiya Proqramının tətbiqi ilə əlaqədar zəruri tədbirlər görülmüşdür.

Diqqətə çatdırılmışdır ki, 2013-cü ildə ədalətli və şəffaf kadr siyasətinin həyata keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilməklə, bu sahədə görülən sistemli iş və məqsədyönlü tədbirlər davam etdirilmiş, kadrların demokratik əsaslarla müsabiqə yolu ilə seçilməsi prosesinin ardıcıllığı, fəaliyyətlərində uğurlar əldə etmiş işçilərin həvəsləndirilməsi, ciddi nizam-intizam şəraitinin mövcudluğu üçün tələbkarlığın artırılması, müvafiq peşəkarlıq səviyyəsinə malik şəxslərin vəzifədə irəli çəkilməsi, işçilərin fəaliyyətinin obyektiv qiymətləndirilməsi, stajorluq və sınaq dövrünü keçən gənc mütəxəssislərin hərtərəfli hazırlıqlı prokurorluq işçiləri kimi yetişmələri üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Azərbaycan Respublikasında həyata keçirilən dövlət gənclər siyasətinin tələblərinə, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması və ictimai həyatımızın müxtəlif istiqamətlərində onların fəal iştirakının stimullaşdırılması barədə Dövlət başçısı cənab İlham Əliyevin tövsiyələri və göstərişlərinə müvafiq olaraq 31 yanvar 2014-cü il tarixdə prokurorluq orqanlarına işə qəbul olunmaq arzusunda olan şəxslər üçün 100 ştat vahidi üzrə elan edilmiş müsabiqənin birinci

mərhələsi olan test imtahanı keçirilmiş və müvəffəqiyyət qazanmış 105 nəfər müsabiqənin növbəti yazılı imtahan mərhələsinə buraxılmışdır.

Xidməti fəaliyyətlərində müsbət iş göstəricilərinə nail olmaqla təşkilatçılıq bacarığı nümayiş etdirmiş 15 nəfər, o cümlədən 8 nəfər, ilk dəfə müstəqil vəzifəyə irəli çəkilərək rayon prokuroru vəzifələsinə təyin edilmiş, 111 prokurorluq işçisi yuxarı təsnifatlar üzrə müxtəlif vəzifələrə irəli çəkilmiş, xidmətdə fərqləndiklərinə görə 193 işçi mükafatlandırılmışdır. Təqdirəlayiq haldır ki, rəhbər vəzifələrə irəli çəkilən şəxslər içərisində müsabiqə yolu ilə qulluğa qəbul edilən gənc hüquqşünasların nisbi çəkisi artmışdır.

Qeyd olunmuşdur ki, prokurorluq orqanlarında ciddi tələbkarlıq şəraitinin formalaşdırılması istiqamətində həyata keçirilən qətiyyətli tədbirlərin nəticəsi olaraq, 2013-cü ildə icra və əmək intizamının pozuntusuna, işində və xidmətdən kənar fəaliyyətində kobud qanunsuzluqlara yol verdiklərinə görə 49 əməkdaş intizam məsuliyyətinə cəlb edilməklə, 32 nəfərə şiddətli töhmət və töhmət elan olunmuş, 3 əməkdaş tutduğu vəzifələrdən azad edilmiş, prokurorluq işçisinə yaraşmayan və prokurorluqda xidmətlə bir araya sığmayan hərəkətlərə yol verdiklərinə görə 3 əməkdaş prokurorluq orqanlarından xaric olunmuşdur. Baş Prokurorluğun Təşkilat-analitik və Kadrlar idarələri, habelə Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının müvafiq qurumları, habelə bütün strukturların rəhbərləri və tabe prokurorlardan, bundan sonra da bütün neqativ təzahürlərə qarşı barışmaz mübarizə xəttinin qətiyyətlə davam etdirilməsi, xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi məsələlərində prinsipiallığın daha da artırılması tələb edilmişdir.

Dövlətin həyata keçirdiyi sosial yönümlü siyasətin prioritetlərinə uyğun olaraq prokurorluq orqanlarında əvvəlki illərdə olduğu kimi, 2013-cü ildə də vətəndaşların müraciətlərinə və qəbulu məsələlərinə xüsusi diqqətlə yanaşılmışdır.

Qeyd edilmişdir ki, hesabat dövründə prokurorluqda vətəndaşların müraciətlərinə baxılması işinin səmərəliliyin artırılması üzrə ardıcıl və sistemli tədbirlərin görülməsi təmin edilmişdir. Vətəndaşların müraciət etmək imkanlarının genişləndirilməsi və asanlaşdırılması, buna əvvəlkindən daha az vaxt sərf olunması, daxil olmuş müraciətlərə daha diqqətlə yanaşılaraq qaldırılan məsələlərin həlli istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi, bu sahədə müasir informasiya kommunikasiya texnologiyalarından istifadə edilməsi, vətəndaşların yaşayış yerlərində qəbulunun prosedurları hazırlanaraq təcrübədə səmərəli tətbiqi həyata keçirilmişdir. Eyni zamanda, bu sahədə işin təşkilində müəyyən çatışmazlıqların hələ də mövcudluğu diqqətə çatdırılmaqla, tələb edilmişdir ki, müraciətlərə baxılması və vətəndaşların qəbulu işi gündəlik nəzarətdə saxlanılmaqla, "Azərbaycan Respublikası Prokurorluğu orqanlarında müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyinin artırılması haqqında" əmrin qeyd-şərtsiz icrası, həmin fəaliyyət istiqaməti üzrə işin düzgün təşkili, bu sahəyə cavabdeh əməkdaşların məsuliyyətinin artırılması təmin olunsun.

Dövlət başçısının tapşırıq və tövsiyələrinə müvafiq olaraq Baş prokuror tərəfindən respublikanın müxtəlif bölgələrində prokurorluğun rəhbər işçilərinin iştirakı ilə vətəndaşların qəbulu keçirilməklə, qaldırılan məsələlərin yerində həll edilməsi və əsaslı müraciətlərin təmin olunması istiqamətində hərtərəfli tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər mütəmadi xarakter daşımaqla, hesabat ilində Ağstafada - 199, Lənkəranda - 100, Qubada - 87, Şəkidə - 71, Ağsuda - 56, Ağcabədidə - 58 və Şirvanda – 41, cəmi 612 vətəndaş qəbul edilməklə müraciətlərinə baxılmışdır.

Diqqətə çatdırılmışdır ki, 2013-cü ildə prokurorluğun maddi-texniki təminatının gücləndirilməsi sahəsində də əhəmiyyətli işlər görülməklə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin milli memarlıq üslubunda müasir dövrün yüksək standartları səviyyəsində yeni inzibati binasının tikintisi yekunlaşdırılaraq istifadəyə verilməsi təmin edilmiş, Bakı şəhər prokurorluğunun inzibati binası əsaslı təmir edilmiş, Zaqatala hərbi, Bakı şəhərinin Yasamal və Sabunçu rayon prokurorluqlarının inzibati binalarının tikintisi başa çatdırılmışdır.

Kollegiyada hesabat məruzəsi ilə çıxış edən Baş prokurorun birinci müavini Rüstəm Usubov bildirmişdir ki, prokurorluq orqanları tərəfindən hesabat dövrü ərzində digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkarlığa qarşı aparılan mübarizə nəticəsində respublika üzrə qeydə alınmış ağır və xüsusilə ağır cinayətlərin sayı, ilk növbədə adam oğurluğu, adamları girov götürmə, banditizm, cinayətkar birlik yaratma cinayətləri əhəmiyyətli dərəcədə azalmışdır.

2013-cü ildə prokurorluq orqanlarında istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən məqsədyönülü tədbirlər, bu sahədə müsbət iş göstəricilərinin əldə edilməsi, işin təşkilinə cavabdeh olan əməkdaşların məsuliyyətinin artırılması ilə nəticələnmişdir.

Qeyd edilmişdir ki, Prokurorluq, Daxili İşlər, Ədliyyə, Vergilər və Fövqaladə Hallar nazirlikləri, Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidmətinin istintaq qurumları

tərəfindən hesabat dövründə 14.090 cinayət işinin istintaqı yekunlaşdırılmaqla, ittiham aktları və ya qərarlar təsdiq olunan 9.950 iş aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilmişdir.

Prokurorluq orqanlarının icraatında olmuş cinayət işləri üzrə ümumi göstəricinin 40,7 faizini təşkil edən 26.0 milyon manatdan artıq miqdarda maddi ziyan ödətdirilmişdir.Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi tərəfindən istintaqı tamamlanmış işlər üzrə vurulmuş ziyanın 98,6 faizi və ya 7.2 milyon manatın, Daxili işlər orqanları üzrə 42.3 milyon manatın və ya 73,4 fazinin, Milli Təhlükəsizlik Nazirliyi üzrə isə 85,9 faizinin ödətdirilməsi təmin edilmişdir.

İbtidai araşdırmaya prosessual rəhbərliyin və istintaq üzərində prokuror nəzarətinin gücləndirilməsinə yönəldilmiş tədbirlərin nəticəsi olaraq, hesabat ilində 340 cinayət işi üzrə icraata xitam verilməsi və 881 iş üzrə icraatın dayandırılması barədə qanunsuz və əsassız qərarlar ləğv edilmiş, bu fəaliyyət sahəsi üzrə yol verilmiş qanunsuzluq hallarının aradan qaldırılması və pozuntulara yol vermiş əməkdaşların cəzalandırılması məqsədi ilə 707 təqdimat verilmişdir.

2013-cü ildə qəsdən adam öldürmə və qəsdən adam öldürməyə cəhd cinayətlərinin açılması, bu cinayətləri törətmiş şəxslərin müəyyən olunaraq məsuliyyətə cəlb edilməsi istiqamətində fəaliyyətin səmərəliliyinin artırılması üçün zəruri tədbirlər həyat keçirilmiş, qeyri-aşkar şəraitdə törədilmiş cinayətlərlə əlaqədar Baş Prokurorluğun müvafiq idarələrinin əməkdaşları yerlərə ezam olunmaqla, lazımi istintaq hərəkətlərinin aparılmasına əməli köməklik göstərilmiş, bu sahədə digər hüquq mühafizə orqanlarının köməyindən istifadə olunmuşdur.

Həmin tədbirlərin, habelə prokurorluğun Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin əməliyyat qurumları ilə həyata keçirdikləri əlaqəli işinin nəticəsidir ki, 2013-cü ildə qeydə alınmış 206 qəsdən adam öldürmə cinayətinin (2012-ci ildə 198 hadisə) 194-nün, o cümlədən qeyri-aşkar şəraitdə törədilmiş iki və daha çox şəxsin ölümü ilə nəticələnən qəsdən adam öldürmə cinayətindən 69-nun isti izlərlə, qeydə alınmış 56qəsdənadam öldürməyə cəhd cinayətindən (2012-ci ildə 53 hadisə) isə 55-nin açılması təmin olunmuşdur.

Həyata keçirilmiş təxirəsalınmaz istintaq-əməliyyat tədbirlərinə baxmayaraq, 2013-cü ildə baş vermiş 12 (2012-ci ildə 8) qəsdən adam öldürmə və 1 (2012-ci ildə 2) qəsdən adam öldürməyə cəhd cinayətləri açılmamış qalmışdır.

Hesabat dövründə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi tərəfindən cəmiyyətdə böyük rezonansa səbəb olan bir neçə ağır və xüsusilə ağır cinayətlərə dair işlərin istintaqı aparılmışdır.

Belə ki, 23-24 yanvar 2013-cü il tarixlərdə İsmayıllı şəhərində baş vermiş kütləvi iğtişaş, özgə əmlakının qəsdən məhv edilib zədələnməsi, hakimiyyət nümayəndəsinə zor tətbiq edilməsi və sair faktlarla, həmçinin 7 mart 2013-cü il tarixdə "Nida" adlı qurumun bir qrup üzvlərinin yaşadıqları ünvanlarda Bakı şəhərində kütləfi iğtişaşlar törətmək məqsədilə kütləvi aksiyada insanların həlak olmasına yönələn partlayışların törədilməsində istifadə üçün əldə olunmuş "Molotov kokteyli" adlanan partlayıcı qurğuların aşkar edilməsi faktları ilə bağlı başlanmış cinayət işləri üzrə ümumilikdə 28 nəfər təqsirləndirilən şəxs barəsində cinayət işlərinin ibtidai istintaqı tamamlanmaqla baxılması üçün aidiyyəti üzrə Ağır Cinayətlər Məhkəmələrinə göndərilmiş və hazırda həmin cinayət işləri məhkəmə baxışında olmaqla yekunlaşmaq üzrədir.

İdarədə həmçinin böyük ictimai rezonansa səbəb olan digər cinayət işlərinin, o cümlədən Qusar rayonunda vəhhabilik təriqətinə mənsub bir qrup şəxsin banditizm, polis əməkdaşlarının qəsdən öldürülməsi, Zaqatala rayonunda cinayətkar qruplaşmalar arasında cinayət aləmində üstünlük əldə etmək məqsədilə aralarında baş vermiş münaqişə, Sumqayıt şəhərində çay evində odlu və soyuq silahlar, partlayıcı qurğular tətbiq edilməklə törədilmiş hadisələrlə əlaqədar istintaqı davam etdirilir.

Bildirilmişdir ki, Baş Prokurorluğun rəhbərliyinin daim diqqət mərkəzində olmaqla və ciddi narahatlıq doğuran məsələlərdən biri kimi qaz sızması və partlayışı, habelə dəm qazından zəhərlənmə ilə əlaqədar insanların ölümü və sağlamlığına zərər vurulması, ölkə iqtisadiyyatına və vətəndaşlara əhəmiyyətli ziyan dəyməsi ilə nəticələnən hadisələrlə bağlı digər aidiyyəti qurumlarla əlaqəli şəkildə məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Cinayətkarlığa qarşı mübarizə sahəsində terrorçuluq, müxtəlif xarakterli ekstremizm təzahürlərinə qarşı mübarizə məsələləri də daim diqqət mərkəzində saxlanılmaqla, bu qəbldən olan cinayət işlərinin istintaqı zamanı bütün təqsirli şəxslərin ifşa olunaraq məhkəmə məsuliyyətinə verilməsi ilə yanaşı, cinayəti doğuran səbəb və şəraitlərin aşkarlanaraq qabaqlayıcı və profilaktiki tədbirlərin görülməsi təmin edilmişdir.

Son illər aktuallığı və narahatlığı ilə diqqəti çəkən məsələlərdən biri də yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma cinayətləri və bu hadisələr zamanı ölən və yaralananların sayının yüksək olmasıdır.

2012-ci illə müqayisədə respublikada dövlət qeydiyyatına alınmış nəqliyyat vasitələrinin sayı 102

min ədəd artaraq 2013-cü ilin sonuna təqribən 1 milyon 300 minə çatması fonunda yol-nəqliyyat hadisələrinin sayının 1,6 faiz, qəzalarda həlak olan şəxslərin sayının 0,3 faiz, yaralanların sayının isə 1,6 faiz azalması müşahidə edilmişdir.

2013-cü ildə 16 ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi açılmamış qalmışdır ki, bu da 2012-ci illə müqayisədə 7 hadisə və ya 30,4 % azdır. Açılmayan ölümlə nəticələnən yol-nəqliyyat hadisələrindən 6-sı Bakı şəhərində, 10-u isə respublikanın digər şəhər və rayonlarında qeydə alınmışdır.

Açılmamış ölümlə nəticələnən yol nəqliyyat hadisələri ilə bağlı istintaqı aparılan cinayət işləri Baş Prokurorluğun müvafiq idarələri tərəfindən öyrənilməklə müzakirələri aparılmış, cinayətlərin açılması istiqamətində Daxili İşlər Nazirliyi ilə əlaqəli şəkildə zəruri tədbirlər davam etdirilir.

Baş prokurorun müavini-Respublika Hərbi prokuroru Xanlar Vəliyev, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Bakı şəhər prokuroru Əziz Seyidov, Laçın rayon prokuroru Ceyhun Almasov çıxışlarında 2013-cü il ərzində cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi sahəsində müvafiq tabe struktur qurumlar tərəfindən görülmüş işlər barədə ətraflı məlumatlar verməklə, "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş istiqamətlər üzrə fəaliyyətin səmərəliliyinin daha da artırılması, prokurorluq orqanlarının işinin müasir məzmunda təkmilləşdirilməsi və mövcud çatışmazlıqların aradan qaldırılmasına yönəldilmiş konkret təkliflər irəli sürmüşlər.

Kollegiya iclasına yekun vuran Baş prokuror Zakir Qaralov Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2012-ci il tarixli "Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar yol-nəqliyyat hadisələrinin təhqiqatında və istintaqında, açılması təmin edilməmiş ölümlə nəticələnən yol-nəqliyyat hadisələri ilə bağlı əməliyyat-axtarış və istintaq hərəkətlərinin həyata keçirilməsində qanunların icrasına nəzarətin gücləndirilməsi, yol-nəqliyyat hadisələri ilə bağlı aparılan təhqiqat, istintaq və ekspertizalar zamanı korrupsiya və digər sui-istifadə hallarına yol verən şəxslərin məsuliyyətə cəlb edilməsinin təmin olunması ilə bağlı zəruri tədbirlərin görülməsinə dair konkret göstərişlər vermişdir.

İclasda həmçinin, korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin daha da gücləndirilməsi barədə Dövlət başçısı cənab İlham Əliyevin verdiyi tapşırıqlara müvafiq olaraq, cari ildə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi, əlaqədar struktur qurumlar və tabe prokurorluqlar tərəfindən digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə korrupsiya və rüşvətxorluğa qarşı daha geniş miqyasda qətiyyətli və sistemli mübarizə aparılması, mütəşəkkil cinayətkarlığın bu təhlükəli təzahürlərinin qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin həyata keçirilməsi barədə tapşırıqlar verilmişdir.

"Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2009-cu il tarixli Fərmanının qeyd-şərtsiz icrası prokurorluq orqanlarının qarşısında duran əsas vəzifələrdən biri kimi müəyyənləşdirilməklə, Baş Prokurorluğun əlaqədar qurumları və bütün tabe prokurorlara həmin Fərmanın və Baş Prokurorluq üzrə müvafiq əmrin yerinə yetirilməsi istiqamətində zəruri işlərin davam etdirilməsi, aşkarlanan korrupsiya hüquqpozmaları üzrə qətiyyətli tədbirlərin görülməsi və qabaqlayıcı tədbirlərin səmərəliliyinin artırılması hər bir prokurorluq əməkdaşından tələb edilmişdir.

Görülmüş müsbət işlərlə yanaşı, həmçinin fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsində, cinayətkar hərəkətlər nəticəsində hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilində yol verilən çatışmazlıqların qısa müddətlər ərzində aradan qaldırılması üçün konkret tapşırıqlar verilmişdir.

Kollegiya iclasında əminlik ifadə edildi ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi öz qüvvələrini səfərbərliyə almaqla bundan sonra da fəal vətəndaşlıq mövqeyi nümayiş etdirməklə Azərbaycan Respublikası Prezidentinin həyata keçiridiyi uzaqgörən və müdrik dövlət siyasətinə tam sadiq qalaraq, ölkəmizdə aparılan möhtəşəm quruculuq işlərində, digər əlaqədar dövlət orqanları ilə birlikdə dövlətçiliyimizin maraqlarının, bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində zəruri tədbirlərin görülməsini təmin edəcək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi və Azərbaycanın daha da qüdrətlənməsi yolunda öz xidmətlərini göstərəcəkdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Azərbaycanın prokurorluq orqanları cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəruri tədbirlər həyata keçirmişdir



Yanvarın 10-da Baş Prokurorluqda 2013-cü ildə prokurorluq orqanları tərəfindən görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilmişdir.

Müşavirədə çıxış edən Baş prokuror Zakir Qaralov bildirmişdir ki, ötən il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən müdrik dövlət siyasətinin nəticəsi olaraq ölkə həyatının bütün sahələrində əhəmiyyətli uğurlar əldə edilmiş, dövlətçiliyimiz daha da möhkəmləndirilmiş, respublikamızın iqtisadi qüdrəti artmışdır.

Ölkəmizin sosial-iqtisadi inkişafında daha yüksək göstəricilərə nail olunmaqla, hüquqi, demokratik dövlət quruculuğu prosesində mühüm uğurlar əldə edilmiş, dünya dövlətləri birliyinə inteqrasiya güclənmişdir.

Dövlət başçısının Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə Azərbaycan xalqına ünvanlanmış təbrikində qeyd olunduğu kimi, 2013-cü il ölkəmiz üçün çox uğurlu bir il olmaqla qarşıda duran bütün vəzifələr müvəffəqiyyətlə icra edilmiş, iqtisadiyyatın, əhalinin pul gəlirlərinin əhəmiyyətli artımına nail olunmuş, mühüm infrastruktur layihələri reallaşdırılmış, ölkəmizin dünya dövlətləri üzrə reytinqinin yüksəlməsi və nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən hərtərəfli dəstəklənməsi ilə nəticələnən makroiqtisadi göstəricilərə nail olunmuşdur.

Bildirilmişdir ki, ölkənin ictimai-siyasi həyatında mühüm hadisələrlə zəngin olan 2013-cü ildə Azərbaycanın prokurorluq orqanları digər hüquq mühafizə orqanları, ilk növbədə Daxili İşlər və Milli Təhlükəsizlik nazirlikləri ilə qarşılıqlı əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, dövlət müstəqilliyinin və vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəruri tədbirlərin görülməsini təmin etmişdir. Hesabat dövrü ərzində prokurorluq orqanlarının səyləri dövlət başçısının göstərişlərindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə, həyata keçirilən islahatların yeni məzmunda davam etdirilməsinə, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinin daha

da artırılmasına, mövcud olan çatışmazlıq və mənfi təzahürlərin təxirəsalınmadan aradan qaldırılmasına yönəldilmişdir.

Son illər Prezident cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində daha qətiyyətli və effektli tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran Baş prokuror, korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin kəsərliliyinin daha da artırılması, həmin sahədə ciddi tədbirlərin görülməsi, bu sosial bəlanın aradan qaldırılması, ona qarşı həyata keçirilən preventiv tədbirlərin səmərəliliyininin artırılması üzrə fəaliyyətin daha intensiv, ardıcıl və sistemli aparılmasının təmin ediləcəyini vurğulamışdır.

Əməliyyat müşavirəsində 2013-cü il ərzində cinayətkarlığa qarşı mübarizənin, istintaq işinin və ibtidai araşdırmaya prosessual rəhbərliyin təşkili, cinayət təqibi çərçivəsində insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr, Baş Prokurorluğun 2013-cü il iş planının icrası və cari ilin iş planı barədə Baş prokurorun birinci müavini Rüstəm Usubovun, Prokurorluq orqanlarında qulluğa qəbulla bağlı 2013-cü ildə elan edilmiş müsabiqənin təşkili və keçirilməsi istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr barədə Baş prokurorun müavini Namiq Əsgərovun, 2013-cü ildə Prokurorluq orqanlarında informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar görülmüş işlər barədə Baş Prokurorluğun idarə rəisi Natiq Hüseynovun məlumatları dinlənilərək müvafiq qərarlar qəbul edilmişdir.

Əməliyyat müşavirəsində Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin daha da gücləndirilməsi barədə Dövlət başçısı cənab İlham Əliyevin verdiyi tapşırıqlara müvafiq olaraq, cari ildə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi, əlaqədar struktur qurumlar və tabe prokurorluqlar tərəfindən digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə korrupsiya və rüşvətxorluğa qarşı daha geniş miqyasda qətiyyətli və sistemli mübarizə aparılması, mütəşəkkil cinayətkarlığın bu təhlükəli təzahürlərinin qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin həyata keçirilməsi barədə tapşırıqlar verilmişdir.

Müşavirədə həmçinin, Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2012-ci il tarixli "Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar yol-nəqliyyat hadisələrinin təhqiqatında və istintaqında, açılması təmin edilməmiş ölümlə nəticələnən yol-nəqliyyat hadisələri ilə bağlı əməliyyat-axtarış və istintaq hərəkətlərinin həyata keçirilməsində qanunların icrasına nəzarətin gücləndirilməsi, yol-nəqliyyat hadisələri ilə bağlı aparılan təhqiqat, istintaq və ekspertizalar zamanı korrupsiya və digər sui-istifadə hallarına yol verən şəxslərin məsuliyyətə cəlb edilməsinin təmin olunması ilə bağlı zəruri tədbirlərin görülməsinə dair konkret göstərişlər verilmişdir.

Eyni zamanda, 2013-cü il ərzində görülmüş işlərin vəziyyəti ümumiləşdirilməklə nəticələrinin təsdiq edilmiş cədvələ uyğun olaraq, Baş Prokurorluğun idarə və şöbələrində müzakirələrin aparılması, habelə Baş Prokurorluğun geniş kollegiya iclasının keçirilməsinə hazırlıqla əlaqədar müvafiq tapşırlar verilmişdir.

Əməliyyat müşavirəsində inam ifadə olunmuşdur ki, Azərbaycan Respublikası Prokurorluğunun kollektivi 2014-cü ildə də öz səlahiyyət hədləri daxilində Prezident cənab İlham Əliyevin rəhbəliyi altında həyata keçirilən yeni məzmunlu siyasi tədbirlərin reallaşdırılmasında, digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə cinayətkardlığa qarşı mübarizənin gücləndirilməsində, dövlətçiliyimizin maraqlarının və insan hüquq və azadlıqlarının qorunmasında bütün zəruri tədbilərin görülməsini təmin edəcəkdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Respublika Hərbi Prokurorluğunda Muzey açılmışdır

Son illərdə Azərbaycan həqiqətlərinin dünyada yayılması istiqamətində görülən işlərin miqyası daha da artmaqdadır. Bu işin təməlini ümummilli lider Heydər Əliyev qoymuş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilir. Bu məsələdə Azərbaycan dövləti ilə yanaşı, Heydər Əliyev Fondu da çox mühüm və tarixi işlər görür. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond istər ölkədən kənarda, istərsə də respublikamızda bu istiqamətdə çox vacib layihələr reallaşdırır.

Fevralın 24-də Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında Memorial Soyqırımı Muzeyinin açılışı olmuşdur.

Muzeyin açılışında Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov, İnsan Hüquqları üzrə müvəkkil (Ombudsman) Elmira Süleymanova, işğal olunmuş rayonlarımızın icra hakimiyyətlərinin başçıları, Milli Məclisin deputatları, xarici ölkələrin və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Azərbaycan Respublikasının Hərbi Prokuroru Xanlar Vəliyev mərasim iştirakçılarını salamlayaraq bildirmişdir ki, bu gün biz Respublika Hərbi Prokurorluğunda Memorial Soyqırımı Muzeyinin açılışına toplaşmışıq. XX əsrin əvvəllərində erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində xalqımıza qarşı soyqırımı törətmişlər. Erməni millətçilərinin xüsusi amansızlıqla və qəddarlıqla törətdikləri kütləvi qırğınların, bəşəriyyət və sülh əleyhinə cinayətlərin tarixin yaddaşına həkk olunması, bütövlükdə Qarabağ hadisələri ilə bağlı obyektiv həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, bu barədə gələcək nəsillərin ixtiyarına tutarlı dəlillərin və ətraflı məlumatların verilməsi məqsədi ilə Respublika Hərbi Prokurorluğunun təşəbbüsü bəyənilərək 2013-cü il iyulun 19-da Baş prokuror Zakir Qaralov tərəfindən Azərbaycan Respublikası Hərbi Prokurorluğunda Memorial Soyqırımı Muzeyinin yaradılması barədə əmr imzalanmışdır. Həmin əmrin icrası ilə əlaqədar Respublika Hərbi Prokurorunun müvafiq Sərəncamına əsasən işçi qrupu yaradılmışdır. İşçi qrupu tərəfindən qısa müddətdə toplanmış zəngin tarixi sənədlər, faktlar və istintaq materialları əsasında Memorial Soyqırımı Muzeyi yaradılmışdır. Muzey XX əsrin əvvəllərindən bəri bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə həsr edilmişdir.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov muzeyin yaradılmasının tarixi hadisə olduğunu bildirərək onun açılışının ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətlərin dünyada tanıdılması istiqamətində əhəmiyyətini vurğulamışdır. Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı aktlarının beynəlxalq aləmdə tanıdılması üçün görülmüş işlərin bundan sonra da davam etdirilməsinin vacibliyini qeyd edən Baş prokuror xalqımıza qarşı qətliamlar törədilməsini təsdiqləyən bir çox faktların göz önündə olduğunu vurğulamışdır. Bildirilmişdir ki, bu cinayətləri törədənlər ədalət mühakiməsi qarşısında əməllərinə görə cavab verməlidirlər.

Sonra tədbir iştirakçıları muzeylə tanış olmuşlar.

Muzey 4 bölmədən - tarix, deportasiya-repressiya, soyqırımı və terror bölməsindən ibarət olmaqla 320 kvadratmetr sahədə yerləşmişdir.

Muzeyin girişində asılmış rəsm əsərləri ürəkləri parçalayan şiddətli ağrıları təcəssüm etdirir. Bu rəsmlər həqiqəti gizlətməyin mümkün olmadığını göstərir. Rəsm əsərləri soyqırımı qurbanlarının matəm sükutunu özündə əks etdirir. “Xocalı fəryadı” adlı rəsm əsəri buna əyani sübutdur. Muzey xalqımıza qarşı törədilmiş soyqırımı, deportasiya, hərbi cinayətlər barədə xarici və Azərbaycan müəlliflərinin kitablarından ibarət zəngin ədəbiyyat fondu ilə təchiz olunmuşdur. Bütün bölmələrdə məlumat mərkəzi quraşdırılmışdır. Həmçinin muzeyin girişində Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar 2012-ci il fevralın 26-da Prezident cənab İlham Əliyevin rəhbərliyi altında 100 mindən artıq insanın Xətai rayonu ərazisində

ucaldılmış "Ana fəryadı" abidəsinə keçirilmiş yürüşünün irihəcmli fotoşəkli yerləşdirilmişdir.

Muzeyin tarix və deportasiya-repressiya bölmələrində XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif ərazilərinin dağıdılıb viranə qoyulmuş görüntüləri, əhalinin həyat tərzi haqqında fotolar vardır. Muzeydə quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı ölkəmizin müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür. Burada ümummilli lider Heydər Əliyevin və Prezident cənab İlham Əliyevin azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasətinin ifşa olunaraq dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördükləri işlərin və imzaladıqları sərəncamların nümayiş etdirildiyi guşə də yaradılmışdır. Həmçinin muzeydə Quba, Cavad, Göyçay, Şamaxı və Bakı qəzaları barədə və bu qəzalarda ermənilərin törətdikləri vəhşiliklər haqqında dolğun məlumatlar vardır. Bu guşələrdə həm də qəzaların əhalisi, müdafiəçiləri, müsəlman qırğınları üzrə Fövqəladə Təhqiqat Komissiyasının məlumatları, sənədləri, Rusiya imperiyası və İran dövləti arasında bağlanmış və Azərbaycanı ikiyə bölən Gülüstan və Türkmənçay müqavilələri, "Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırım siyasətinin deportasiya və sürgün mərhələsi" kompozisiyası, 1930-cu illərdə repressiya qurbanı olmuş Azərbaycan ziyalıları və görkəmli şəxsiyyətləri haqqında cinayət işlərindən götürülmüş fraqmentlər, azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından son deportasiyasını əks etdirən fotoşəkillər sərgilənir.

Muzeyin soyqırım və terror bölmələrində erməni silahlı birləşmələri və keçmiş sovet ordusunun 366-cı alayının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə birgə hücumunu əks etdirən maket və fotolar, habelə digər eksponatlar yerləşdirilmişdir.

Həmin bölmədə 1992-ci il fevralın 26-da Xocalını və ətraf əraziləri özündə əks etdirən 1:7500 miqyasında maket qurulmuşdur. Respublika Hərbi Prokurorluğu tərəfindən aparılmış ibtidai istintaq materiallarına uyğun olaraq hücum zamanı erməni silahlı birləşmələri və 366-cı alayın bölmələrinin yerləşdiyi ərazilər və onlar tərəfindən xüsusi amansızlıqla kütləvi qətlə yetirilmiş dinc əhalinin meyitlərinin olduğu yerlər də maketdə öz əksini tapmışdır.

2005-ci il mayın 5-dən etibarən Respublika Hərbi Prokurorluğu tərəfindən istintaq olunan həmin iş üzrə sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətmiş şəxslərin təqsirləndirilən şəxs qismində cəlb olunmalarına dair qərarlar çıxarılmaqla barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmiş və axtarışları elan edilmişdir.

Bölmədə fakt üzrə aparılan cinayət işinin cildləri, hadisə yerinə baxış protokolları, erməni təcavüzkarlarının törətdikləri vəhşilikləri sübut edən əşyalar, ekspert rəyləri, ifadələr, meyitlərin fotoşəkilləri və eləcə də Xocalıda, Meşəlidə, Qaradağlıda və digər yaşayış məntəqələrində cinayətin izlərini özündə əks etdirən əşyalar yer almışdır. Həmin əşyalar sırasında Meşəlidə bütünlüklə qətlə yetirilmiş Novruzovlar ailəsinə məxsus fotoşəkillər, əşyalar, üst geyim paltarları, yarımçıq qalmış toxuma da vardır. Muzeyin eksponatları arasında bütünlüklə qətlə yetirilmiş ailələrin, eləcə də qadınların, qocaların, uşaqların fotoşəkilləri və əşyaları da yer almışdır.

Erməni terrorçularının istifadə etdikləri partladıcı qurğuların, güllə başlıqlarının hadisə yerindən götürülmüş nümunələri də muzeydə saxlanılır.

Tədbirin sonunda mərasim iştirakçıları ümummilli lider Heydər Əliyevin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin azərbaycanlıların soyqırımı və deportasiyası ilə bağlı çıxışlarını, sərəncamlarını, habelə həmin faktları özündə əks etdirən sənədli filmlərdən ibarət videoçarxa baxmışlar.

Respublika Hərbi Prokurorluğunda yaradılmış bu muzey Azərbaycan xalqının gələcək nəsillərinin qan yaddaşının qorunmasına və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət edən ağır bir tarixi hadisəni özündə əks etdirən nümunədir. Müstəqilliyimizin bizə bəxş etdiyi töhfələrdən biri də tarixi həqiqətlərimizi, tariximizi obyektiv şəkildə araşdırmaq, bu faktları gələcək nəsillərə olduğu kimi çatdırmaq və əcnəbiləri məlumatlandırmaqdan ibarətdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Beynəlxalq Prokurorlar Assosiasiyas ilə əməkdaşlıq uğurla davam etdirilir



1995-ci ildə Birləşmiş Millətlər Təşkilatının Vyana ofisində təsis edilərək akkreditasiyadan keçmiş, dünya prokurorlarının ilk və yeganə dünya təşkilatı olan, əsas məqsədi transmilli cinayətkarlıq, narkotiklərin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması və korrupsiyaya qarşı mübarizə sahəsində prokurorlar arasında daha sürətli, səmərəli və işgüzar əlaqələrin qurulmasında vasitəçilik etmək olan 140-dan çox təşkilatın, 2000-dən çox prokurorluq əməkdaşının isə fərdi üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası ilə ölkəmiz arasında əməkdaşlıq uğurla davam etdirilir.

Azərbaycan Respublikası təşkilat yarandığı gündən onunla işgüzar münasibətlər yaratmış, Baş Prokurorluq və Azərbaycan Respublikasının Hərbi Prokurorluğu 1998-ci ildə Assosiasiyaya təşkilati üzv kimi qəbul edilmişlər. Azərbaycan Respublikasının ədliyyə naziri, Beynəlxalq Prokurorlar Assosiasiyasının senatoru Fikrət Məmmədov uzun illər Assosiasiyanın rəhbər qurumu olan İcraiyyə Komitəsində ölkəmizi layiqincə təmsil etmişdir. 2002-ci ilin mayında Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin iclasının Bakı şəhərində keçirilməsi, həmçinin 2011-ci ildə Assosiasiyanın prezidenti, İrlandiya Respublikasının həmin dövrdəki Baş prokuroru Ceyms Hamiltonun Azərbaycan Respublikasına işgüzar səfəri qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynamışdır.

Ötən illər ərzində Beynəlxalq Prokurorlar Assosiasiyasının ölkəmizdən olan üzvlərinin sayı 200-ü keçərək fərdi üzvlərin sayına görə Azərbaycan Respublikası digər ölkələr ilə müqayisədə birinci yeri tutur.

Yanvarın 21-dən 24-dək ölkəmizdə səfərdə olan Beynəlxalq Prokurorlar Assosiasiyasının baş müşaviri, Böyük Britaniya Kr lığının böyük prokuroru xanım Elizabet Hou Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşdur.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılmış, məzarı üzərinə tər çiçəklər qoyulmuşdur.

Qonaq Şəhidlər xiyabanını da ziyarət edərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anmış, məzarları üzərinə güllər, “Əbədi məşəl” abidəsinin önünə əklil qoymuşdur.

Səfər çərçivəsində xanım Elizabet Hou Bakının müasir simvollarından olan Heydər Əliyev Mərkəzi ilə tanış olmuşdur. Nadir memarlıq nümunələrindən biri olan və çoxfunksiyalılığı ilə seçilən Mərkəzdə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanışlıq qonaqda xoş təəssürat yaratmışdır.

Xanım Elizabet Hou daha sonra Azərbaycan Respublikasının Baş Prokurorluğuna gələrək Baş prokuror Zakir Qaralov ilə görüşmüşdür.

Görüşdə qonağa son illər Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən islahatlar, qanunverici və praktiki tədbirlər, əldə olunan

nailiyyətlər, həmçinin ölkəmizin "Transparency International" təşkilatının illik hesabatına əsasən əhəmiyyətli irəliləməsi, habelə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) qəbul etdiyi hesabata əsasən 3-cü raund dəyərləndirilməsindən müvəffəqiyyətlə keçən ilk dövlət olması barədə ətraflı məlumat verilmişdir.

Görüşdə ölkəmizdə uğurla reallaşan məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ hüquqi bazanın yaradılması, prokurorluq orqanlarında köklü islahatların aparılması, o cümlədən müasir informasiya texnologiyalarının tətbiqi və kadr korpusunun gənc mütəxəssislər hesabına komplektləşdirilməsi, korrupsiya ilə mübarizə sahəsində görülən konkret tədbirlər, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun tərkibində "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti diqqətə çatdırılmışdır.

Beynəlxalq Prokurorlar Assosiasiyası ilə Azərbaycan Respublikası arasında sıx əməkdaşlıqdan məmnunluğunu ifadə edən Elizabet Hou təmsil etdiyi qurumun fəaliyyətinə ölkəmizin verdiyi mühüm töhfələri və görülən digər səmərəli tədbirləri yüksək qiymətləndirmişdir. Korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə görülən işlərin əhəmiyyəti nəzərə alınaraq quruma üzv dövlətlərin ədliyyə, prokurorluq və digər hüquq mühafizə orqanlarının rəhbərləri ilə işgüzar görüşlərin, habelə Assosiasiya ilə birgə regional tədbirlərin keçirilməsinin vacibliyi xüsusi qeyd edilmişdir.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

Səfər zamanı xanım Elizabet Hou, həmçinin milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin yeni inzibati binasına gələrək beynəlxalq tədbirlərin, mətbuat konfranslarının keçirilməsi üçün nəzərdə tutulmuş konfrans zalları, müasir hüquq ədəbiyyatı, normativ hüquqi aktlarla zənginləşdirilmiş, digər dövlət qurumlarının elektron kitabxanalarına çıxışla təmin edilmiş kitabxana, müasir proqram təminatı ilə təchiz edilmiş "Qaynar xətt" əlaqə mərkəzi, digər dövlət qurumlarının məlumat bazalarına çıxışı olan informasiya-kommunikasiya şəbəkəsi və əməliyyatların idarə edilməsi mərkəzi ilə tanış olmuşdur.

Daha sonra xanım Elizabet Hou Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin üzvü olan idarə rəisi Kamran Əliyev, habelə Beynəlxalq Prokurorlar Assosiasiyasının gənc üzvləri ilə görüşmüşdür.

Görüşdə qonaq tərəfindən Böyük Britaniya Krallığı Prokurorluğunun və Beynəlxalq Prokurorlar Assosiasiyasının fəaliyyət istiqamətləri barədə məlumat verilmiş, gənc prokurorlar onları maraqlandıran aktual məsələlərə, o cümlədən çirkli pulların yuyulması və cinayət yolu ilə əldə edilmiş aktivlərin qaytarılması, terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizə məsələlərinə dair suallar verməklə qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Səfər proqramı çərçivəsində xanım Elizabet Hou Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin fəxri üzvü, qurumun senatoru, Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovla görüşmüşdür.

Görüşdə qonağa məhkəmə və ədliyyə sistemində aparılan islahatlar, infrastrukturun müasirləşdirilməsi, hakimlərin mütərəqqi və şəffaf üsullarla müsabiqə əsasında işə qəbulu, Ədliyyə Akademiyasının potensialının gücləndirilməsi üzrə görülən işlər, penitensiar sistemdə və digər sahələrdə Azərbaycanın artıq dünyada geniş yayılan nümunəvi təcrübəsi barədə ətraflı məlumat verilmişdir.

Məhkəmə infrastrukturunun müasirləşdirilməsi istiqamətində aparılan işlərlə tanışlıq çərçivəsində xanım Elizabet Hou Bakı şəhərinin Yasamal və Oğuz rayon məhkəmələrinin yeni inzibati binaları, Şəki Penitensiar Kompleksi, Şəki Regional Ədliyyə Şöbəsi, habelə Şəki şəhərində inşa edilən və özündə dörd məhkəməni

birləşdirəcək Şəki Məhkəmə Kompleksi ilə tanış olmuş, həmçinin Qəbələ rayon məhkəməsinin təməlqoyma mərasimində iştirak etmişdir.

Bundan əlavə, xanım Elizabet Hou Ali Məhkəmənin sədri Ramiz Rzayev ilə görüş-ərkən qonağa ölkəmizdə həyata keçirilməkdə olan məhkəmə sistemindəki islahatlar barədə ətraflı məlumat verilməklə qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Xanım Hou hüquq mühafizə orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülmüş işləri və yaradılmış şəraiti yüksək qiymətləndirərək ölkə rəhbərliyi tərəfindən bu istiqamətdə aparılan tədbirlərdən məmnunluğunu ifadə etmişdir.

Səfərin sonunda qonaq 3 saylı Bakı “ASAN xidmət” mərkəzinə gələrək mərkəzin fəaliyyəti və vətəndaşlara göstərilən xidmət növləri ilə ətraflı tanış olmuşdur. Dövlət orqanlarının hüquqi xidmətlər göstərməsində vətəndaşların razı salınmasına, şəffaflığın təmin edilməsinə, korrupsiya hallarının istisna olunmasına, müasir texnologiyaların, “bir pəncərə” prinsipinin tətbiqinə, dövlət məmuru-vətəndaş təmas nöqtələrinin minimuma endirilməsinə istiqamətlənmiş mərkəzlərin fəaliyyəti təqdirəlayiq hesab edilmiş, belə bir qurumun digər ölkələr üçün nümunə olması bildirilmişdir.

Yanvarın 24-də xanım Elizabet Hounun ölkəmizə səfəri başa çatmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

***

## Baş prokuror Zakir Qaralov Avropa Şurası Parlament Assambleyasının həmməruzəçilərini qəbul etmişdir



Yanvarın 21-də Baş prokuror Zakir Qaralov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasınınn (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Pedro Aqramunt de Mora və Jozef Debono Qrex ilə görüşmüşdür.

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında səmərəli əməkdaşlığın qeyd olunduğu görüşdə ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin icrası vəziyyəti müzakirə olunmuş, məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın yaradılması, prokurorluq orqanlarında köklü islahatların aparılması, o cümlədən müasir informasiya texnologiyalarının geniş tətbiqi və prokurorluğun kadr korpusunun gənc mütəxəssislər hesabına komplektləşdirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində zəruri tədbirlərin görülməsi və digər maraq kəsb edən məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılmışdır.

Həmməruzəçilər ölkəmizdə gedən demokratik prosesləri diqqətlə izlədiklərini, ötən prezident seçkilərinin azad, ədalətli və şəffaf keçirildiyini bildirərək Azərbaycan Prokurorluğu ilə səmərəli qarşılıqlı fəaliyyətə görə minnətdarlıqlarını ifadə etmişlər.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Zakir QARALOV: Beynəlxalq təşkilatlar korrupsiyaya qarşi mübarizə sahəsində ölkəmizdə güclü siyasi iradə olduğunu bildirir və bu istiqamətdə görülən işləri yüksək qiymətləndirirlər

*Azərbaycan Respublikasının Baş prokuroru,*
*I dərəcəli dövlət ədliyyə müşaviri*
*Zakir Qaralovun AzərTAc-a müsahibəsi*



- Cənab Baş prokuror, son günlər kütləvi informasiya vasitələrində «Prokurorluq haqqında» və «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» qanunlara əlavə və dəyişikliklər edilməsi barədə qanun layihələrinin Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə verilməsi barədə informasiyalar geniş yer almışdır. Bu əlavə və dəyişikliklərin mahiyyəti nədən ibarətdir?

- Öncə qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Prezident Administrasiyasından Milli Məclisə daxil olmuş hər iki qanun layihəsi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlıdır. Son illər dövlət başçısının siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmış, mühüm qanunverici və praktiki tədbirlər həyata keçirilmişdir. Həm inzibati, həm də vətəndaş-məmur təmas nöqtələrinin minimuma endirilməsinə yönələn qabaqlayıcı tədbirlər, o cümlədən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun tərkibində «ASAN xidmət» mərkəzlərinin yaradılması, elektron xidmətlərin sayının artırılması, korrupsiya hüquqpozmaları barədə müraciətlərin təxirəsalınmadan baxılmasının təmin edilməsi məqsədi ilə «161 nömrəli qaynar xətt» əlaqə mərkəzinin fəaliyyətə başlaması və bu kimi çoxsaylı kompleks tədbirlər nəticəsində ölkəmiz korrupsiyaya qarşı mübarizədə yüksək göstəricilərə nail olmuşdur.

Dövlət başçısının müvafiq fərman və sərəncamları, Nazirlər Kabinetinə verdiyi tapşırıqların icrası qaydasında Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin prokurorluq işçilərinin ümumi say tərkibi artırılmış, idarənin fəaliyyətinin səmərəli təşkili məqsədi ilə maddi-texniki təminatının yaxşılaşdırılması, əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı zəruri tədbirlər görülmüş, dövlət orqanlarının məlumat bazaları və informasiya sistemlərinə qoşulmanın təmin olunması ilə bağlı işlərə başlanılmışdır. Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi kimi mühüm funksiya ilə səlahiyyətlənmiş prokurorluq orqanları qısa müddətdə korrupsiya cinayətlərinin təhlükəli növlərindən olan və əksər hallarda latent xarakter daşıyan çoxsaylı rüşvət cinayətlərini aşkar etmək və qarşısını almaqla uğurlu nəticələr əldə etmişlər.

Təsadüfi deyildir ki, qazanılan nailiyyətlər nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da əksini tapmışdır. Korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyət göstərən beynəlxalq qeyri-hökumət təşkilatlarından olan «Transparensy İnternational»ın təqdim etdiyi 2013-cü ilin «Korrupsiya Qavranma İndeksi»ndə Azərbaycan əvvəlki illə müqayisədə 12 pillə irəliləmiş, eyni zamanda, ölkəmizin qiymətləndirmə balı 27-dən 28-ə yüksəlmişdir. Ötən il sentyabrın 23-25-də Parisdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının 12-ci Monitorinq Görüşü və Rəhbər

Qrupun 15-ci iclasında Azərbaycan Respublikası Şəbəkənin 3-cü raund dəyərləndirilməsini müvəffəqiyyətlə keçən ilk ölkə olmuşdur. Bu il yanvarın 17-də Bakıda Azərbaycanın dəyərləndirmə raundunun birinci mərhələsini müvəffəqiyyətlə keçməsi ilə bağlı hesabatın təqdimetmə mərasimində OECD təşkilatının rəsmiləri korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə güclü siyasi iradə olduğunu vurğulayaraq bu istiqamətdə görülən işləri yüksək qiymətləndirmişlər.

- Yeni dəyişikliklər idarənin strukturunda və səlahiyyətlərində necə əks olunacaqdır?

- Nəzərdə tutulan dəyişikliklərə əsasən, yeni qurum Baş İdarə səlahiyyətinə malik olmaqla, idarənin rəisi, eyni zamanda, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumun yüksək statusuna uyğun olaraq vəzifəsinə görə Baş prokurorun müavini səlahiyyətlərini yerinə yetirəcəkdir. Eyni zamanda, qurumun rəis müavinləri və tərkibində yaradılacaq yeni idarələrin rəislərinin də təsnifat dərəcəsinin yüksəldilməsi nəzərdə tutulur. Mövcud dəyişikliklərdən sonra korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq funksiyasını yerinə yetirəcək Baş İdarənin əməliyyat işçiləri, o cümlədən prokuror, müstəntiq, əməliyyatçı və texniki işçilərin sayında əhəmiyyətli dəyişikliklər baş verəcəkdir ki, bütün bunlar qurumun korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətinin daha səmərəli qurulmasına şərait yaradacaqdır.

- Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin fəaliyyəti barədə nə deyə bilərsiniz?

- Azərbaycan Respublikasının BMT-nin «Korrupsiya əleyhinə» Konvensiyasına qoşulması ilə əlaqədar üzərinə götürdüyü öhdəliklərə müvafiq olaraq 2004-cü ildən yaradılan Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi fəaliyyətə başladığı andan mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərindən olan bu sosial hadisəyə qarşı kəskin və barışmaz mövqe nümayiş etdirməkdədir. Korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətinin formalaşdırılması funksiyasını yerinə yetirən Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyası ilə fəaliyyətini uğurla əlaqələndirən Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi fəaliyyətinin kəsərini ildən-ilə daha da artırmış, qurumun göstəriciləri və potensialı yüksələn xətlə inkişaf etmişdir. Korrupsiyaya məruz qalan sahələrin aşkar edilməsi, xarakterik korrupsiya hüquqpozmalarının müəyyənləşdirilməsi, onları doğuran səbəb və şəraitin aradan qaldırılması və belə pozuntuların baş verməməsi üçün konkret təklifləri özündə əks etdirən çoxsaylı preventiv təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur. Korrupsiyaya qarşı mübarizədə vətəndaşlar üçün ayrı-ayrı sahələr üzrə bələdçi və maarifləndirmə nəşrləri hazırlanmışdır. Eyni zamanda, müxtəlif kateqoriyadan olan korrupsiya cinayətlərinin istintaqına dair metodik tövsiyələr və müxtəlif kitablar buraxılmış, ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən uğurlu siyasət və onun nəticələrini əks etdirən, müxtəlif dillərdə hazırlanmış nəşrlərin beynəlxalq tədbirlərdə yayılması təmin edilmişdir. İstintaq olunan və tamamlanaraq məhkəməyə göndərilən işlərin sayı əhəmiyyətli dərəcədə artmış, vurulmuş ziyanın ödəmə məbləğində mühüm artım müşahidə olunmaqdadır. Artıq beynəlxalq təşkilatlar tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumun Azərbaycan modeli müsbət qəbul edilir və bir nümunə kimi təqdim olunur.

- Gözlənilən dəyişikliklərin zərurəti və Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin gələcək fəaliyyət hədəfləri barədə fikirləriniz də maraqlı olardı.

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin yeni inzibati binasının açılışında, Azərbaycan Respublikası Prezidentinin andiçmə mərasimində, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində, Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində hüquq-mühafizə orqanları və cəmiyyət üçün mühüm olan bir sıra tapşırıqlar vermişdir. Azərbaycan Prezidenti cəmiyyəti ən çox narahat edən bu sosial bəla ilə işin 2013-cü ildə daha böyük miqyasda getdiyini, bu istiqamətdə siyasi iradə olduğunu bir daha qeyd edərək həm inzibati, həm də qabaqlayıcı tədbirlərin vacibliyini vurğulamış, cəmiyyətin səyləri və dövlət siyasəti sayəsində korrupsiyaya qarşı daha ciddi mübarizə aparılacağını bəyan etmişdir.

Son 10 ildə həyata keçirilən müasirləşmə strategiyası və uğurlu sosial-iqtisadi siyasət nəticəsində ölkədə yüksək iqtisadi artım dinamikası formalaşmışdır. Dayanıqlı inkişafa yönəlmiş yeni strateji vəzifələrin həyata keçirildiyi respublikamızda korrupsiyaya qarşı mübarizə üsullarının daha da təkmilləşdirilməsi zərurəti yaranmışdır. Bu baxımdan korrupsiyaya qarşı mübarizənin kəsərinin artırılması barədə dövlət başçısının tapşırıqlarının daha

müvəffəqiyyətlə icrası üçün bu sahədə ixtisaslaşmış qurum olan Korrupsiyaya qarşı mübarizə idarəsinin statusu və səlahiyyətləri ilə bağlı dəyişikliklər zamanın tələbidir.

Qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsi üçün cinayət işlərinin istintaqının keyfiyyətinin yüksəldilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində profilaktik işin, xüsusilə də qabaqlayıcı tədbirlərin gücləndirilməsi, əməliyyat-axtarış fəaliyyətinin daha səmərəli həyata keçirilməsi, antikorrupsiya mühitinin yaxşılaşdırılması, vətəndaşlarda korrupsiyaya qarşı dözümsüzlük iradəsinin formalaşdırılması idarənin əsas hədəfləri sırasındadır.

Azərbaycan Prokurorluğunun kollektivi göstərilən yüksək etimadı uca tutaraq, dövlət başçısının siyasi iradəsinə uyğun olaraq bundan sonra da Korrupsiyaya qarşı mübarizə sahəsində qətiyyətli mübarizə tədbirlərinin görülməsini təmin edəcəkdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

***

## Prokurorluq orqanlarında vətəndaşlarin müraciətlərinə baxılması işi daim diqqət mərkəzindir

### Baş prokuror Zakir Qaralov Sumqayıt şəhərində vətəndaşları qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına müvafiq olaraq vətəndaşlara keyfiyyətli xidmət göstərilməsi, onların qəbulu və müraciətlərinə hər zaman qayğı və həssaslıqla yanaşılması dövlət təsisatlarının əsas vəzifələrindən biri kimi müəyyənləşdirilmişdir.

Yanvarın 24-də Baş prokuror Zakir Qaralov Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri, Abşeron, Qubadlı, Xızı və Zəngilan rayonlarında yaşayan vətəndaşların qəbulunu keçirmişdir.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül-çiçək düzmüş, xatirəsini ehtiramla yad etmişdir.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror 130-dan artıq vətəndaşın ərizə və şikayətlərini dinləmiş, qaldırılan məsələlərin həll edilməsi üçün qəbulda iştirak edən prokurorluğun müvafiq struktur rəhbərlərinə tapşırıqlar vermişdir.

Qəbul zamanı bölgə vətəndaşlarını narahat edən məsələlərin bir qismi yerində öz həllini tapmışdır. Vətəndaşların müraciətlərində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti üzrə müvafiq icra orqanlarında operativ həlli üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Yekunda tabe prokurorların iştirakı ilə müşavirə keçirilməklə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması, habelə vətəndaşların qəbulu işinin düzgün təşkili və onların müraciətlərinə obyektiv baxılması ilə bağlı konkret tapşırıqlar vermişdir.

## Baş prokuror Zakir Qaralov İsmayıllıda vətəndaşları qəbul etmişdir



Baş prokuror Zakir Qaralov fevralın 14-də İsmayıllı rayon prokurorluğunun inzibati binasında İsmayıllı, Ağsu, Şamaxı, Qobustan, Kürdəmir və Göyçay rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror ümummilli lider Heydər Əliyevin İsmayıllı şəhərindəki abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad etmişdir.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 50-yə yaxın vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun, dərhal və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilmişdir.

Gün ərzində Baş prokuror tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin böyük əksəriyyəti yerində öz həllini tapmışdır. Vətəndaşların ərizə və şikayətlərində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları ilə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti üzrə müvafiq icra orqanlarında operativ həlli üçün təxirəsalınmaz zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Eyni zamanda, qeyd edilən rayonların prokurorlarının iştirakı ilə müşavirə keçirilməklə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilmiş, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət

***

## Baş prokuror Zakir Qaralov Qusarda vətəndaşları qəbul etmişdir



Baş prokuror Zakir Qaralov martın 14-də Qusar rayon prokurorluğunun inzibati binasında Qusar, Quba, Xaçmaz, Şabran və Siyəzən rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror ümummilli lider Heydər Əliyevin Qusar şəhərindəki abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad etmişdir.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 30-a yaxın vətəndaşın müraciətlərində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlər üzrə onların qanunauyğun, dərhal və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər vermişdir.

Gün ərzində Baş prokuror tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin böyük əksəriyyəti yerində öz həllini tapmışdır. Qeyd edilən rayonların prokurorlarının iştirakı ilə müşavirə keçirilməklə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilmiş, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları onların diqqətinə çatdırılmışdır.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikası prokurorluğunda 2013-cü ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir



Fevralın 5-də Naxçıvan Muxtar Respublikasının Prokurorluğu orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının cinayət təqibi çərçivəsində müdafiəsi sahəsində 2013-cü ildə görülmüş işlərin yekunları və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev açaraq, geniş məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan dövlətinin, müstəqilliyinin mövcudluğu üçün xalqımız məhz ümummilli lider Heydər Əliyevə borcludur. Böyük öndərimiz tərəfindən müəyyən edilmiş siyasi kurs onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2013-cü ilin oktyabr ayında keçirilən Azərbaycan Respublikası Prezidentinin seçkilərində bütün prokurorluq işçiləri xüsusi fəallıq göstərərək, öz səlahiyyət hədləri çərçivəsində bu seçkinin ədalətli, demokratik, şəffaf və seçicilərin fəallığı şəraitində keçirilməsi üçün bütün qüvvələrini səfərbər etmişlər. Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları öz işlərini 2013-cü ildə Muxtar Respublikada elan olunmuş "Heydər Əliyev" ilində qarşıya qoyulmuş yüksək tələblər səviyyəsində qurmağa çalışmışlar.

Hesabat dövründə Muxtar Respublika ərazisində 16 cinayət hadisəsi baş vermiş, cinayətlərin sayı ötən illə müqayisədə 4 hadisə və ya 20 % azalmış, cinayətlərin açılması 100 % təmin olunmuşdur. Rayon (şəhər) prokurorları cinayətlərin baş vermədən qarşısının alınması üçün digər hüquq-mühafizə orqanları ilə birlikdə qabaqlayıcı profilaktiki tədbirləri daha da gücləndirməlidirlər.

Daxili işlər orqanları ilə əlaqəli şəkildə həyata keçirilən istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində keçmiş illərdə baş verib qapalı qalmış 3 cinayət hadisəsinin açılması təmin edilmişdir. Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar 4 cinayət faktı qeydə alınmışdır.

Muxtar Respublikanın Prokurorluq orqanlarında 4 cinayət işi üzrə ibtidai istintaq tamamlanmışdır. Xüsusi mülkiyyətə vurulmuş 1.088.897 manat ziyanın 390.713 manatı və ya 36%-i ibtidai istintaq mərhələsində ödətdirilmişdir. Prokurorluq orqanlarında 36 cinayət haqqında məlumat araşdırılaraq qanuni qərarların qəbul olunması təmin edilmişdir.

Qeyd olunmuşdur ki, Dövlət ittihamının müdafiəsi üzrə şöbənin əməkdaşlarının iştirakı ilə Muxtar Respublikanın 1-ci instansiya məhkəmələrində 18 şəxs barəsində 13 işə baxılaraq ittiham hökmləri çıxarılmış, məhkəmələrdə baxılmış cinayət işləri üzrə apellyasiya və kassasiya protestləri verilməmiş, məhkəmələrdə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında 29 şəxs barəsində 29 işə baxılaraq nəticə verilmişdir. "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 07.05.2013-cü il tarixli qərarının icrası ilə əlaqədar 38 şəxs barəsində amnistiya tətbiq olunmuşdur.

Hesabat dövründə daxili işlər orqanlarında 13 cinayət işi üzrə ibtidai istintaq tamamlanmış, cinayət işinin əlavə istintaq aparılması üçün qaytarılması, əsassız cinayət işi başlama, təqsirləndirilən şəxs qismində cəlb etmə, tutma hallarına yol verilməmişdir. Törədilmiş və ya hazırlanan cinayətlər haqqında 31 məlumat araşdırılmışdır. Cinayət törədərək istintaq və məhkəmə orqanlarından qaçıb gizlənmiş 5 şəxs axtarışda olmuş, onlardan 3-nün tutulub istintaq və məhkəmə orqanlarına təhvil verilməsi təmin edilmişdir. Tabe rayon (şəhər) prokurorları tərəfindən daxili işlər orqanlarında 29 əməliyyat-qeydiyyat işləri öyrənilmiş və bu sahədə aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması üçün 1 təqdimat və 5 yazılı göstərişlər verilmişdir. Hesabat dövründə 7 yol nəqliyyat hadisəsi baş vermiş, nəticədə 12 nəfər ölmüş, 4 nəfər isə xəsarət almışdır.

Naxçıvan Muxtar Respublikasının Milli Təhlükəsizlik Nazirliyində 1, Dövlət Gömrük Komitəsində 2 cinayət işi olunaraq nəticə verilmiş, Ədliyyə, Vergilər və Fövqəladə Hallar nazirliklərində isə cinayət işi istintaq olunmamış, prokurorluq orqanlarında 2 beynəlxalq tapşırıq həll edilmişdir.

Muxtar Respublika Prokurorluğu orqanlarının iş planlarında nəzərdə tutulmuş bütün məsələlər vaxtında və keyfiyyətli icra olunmuş, iş planlarının icrası zamanı inzibati qanunvericiliyin tələblərinin pozulması aşkar edildiyindən müvafiq orqanlara 13 təqdimat və 1 göstəriş göndərilmişdir. Muxtar Respublika Prokurorluğunun iş planlarına əsasən səlahiyyət müddətinin başa çatması ilə əlaqədar Naxçıvan şəhər prokurorunun, səlahiyyət müddətinin birinci yarısının başa çatması ilə əlaqədar Şahbuz rayon prokurorunun fəaliyyətləri Muxtar Respublika prokurorunun



müvafiq Sərəncamları əsasında yaradılmış komissiya tərəfindən fəaliyyətləri yoxlanılaraq qənaətbəxş hesab edilmişdir.

Prokurorluq orqanlarına vətəndaşlardan 23 müraciət daxil olmuşdur ki, onların 7-i və ya 30,4 %-i prokurorluq orqanlarında həll edilmiş, ötən illə müqayisədə daxil olan müraciətlərin sayı 6 halda və ya 20,6% azalmış, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun elektron poçt ünvanına (prokurorluq.nakhchivan.az) müraciət daxil olmamış, prokurorluq orqanlarında 333 nəfər vətəndaş müvafiq prokurorlar tərəfindən qəbul edilmişdir.

Qeyd olunmuşdur ki, prokurorluğun fəaliyyəti və qanunvericiliyin izahı ilə bağlı təbliğat işinə diqqət artırılmış, kütləvi informasiya vasitələrində 300 dəfə, o cümlədən televiziyada 79, radioda 37, mətbuatda isə 184 dəfə müxtəlif hüquqi mövzularda çıxışlar edilmişdir. Naxçıvan Dövlət televiziyasında "Qanunçuluq" televiziya proqramı hazırlanmışdır ki, həmin proqramda 30 dəfə müxtəlif hüquqi mövzularda verilişlər efirə getmişdir. Azərbaycan Respublikası Baş Prokurorluğunun 30.04.2013-cü il tarixli 13/179 saylı icmal məktubunda "Baş Prokurorluq üzrə "Prokurorluq orqanlarının kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq məsələləri haqqında" 27 iyun 2005-ci il tarixli 09/62 saylı əmrinin icrası ilə əlaqədar prokurorluq orqanları tərəfindən 2012-ci ildə görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması işinin vəziyyətinin ümumiləşdirilməsinə dair arayışda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun müsbət iş təcrübəsinin tabe qurumlarda yayılması məqsədəuyğun hesab olunmuş, bu sahədəki tədbirlər 2013-cü ildə də davam etdirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğunda elmi-praktiki konfrans, tabe rayon (şəhər) prokurorluqlarında isə tədbirlər keçirilmişdir. Kütləvi informasiya vasitələrində çıxışlar edilmiş, seçki qanunvericiliyinin izahı ilə bağlı Muxtar Respublika Prokurorluğu və tabe rayon (şəhər) prokurorluqları tərəfindən müvafiq seçki dairələrində mühazirələr oxunmuş, kütləvi informasiya vasitələrində çıxışlar edilmiş, Naxçıvan televiziyasında seçki qanunvericiliyinin izahı ilə bağlı "Aktual ekran"da verilişlər efirə getmişdir. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı), Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Ailə,Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən keçirilmiş tədbirlərdə hüquqi mövzularda çıxışlar edilmiş, Azərbaycan Respublikası Prokurorluq orqanlarının 95 illik yubileyi ilə əlaqədar Muxtar Respublika Prokurorluğunda və tabe rayon (şəhər) prokurorluqlarında tədbirlər keçirilmiş, kütləvi informasiya vasitələrində çıxışlar edilmişdir. Əməyin mühafizəsi və texniki təhlükəsizlik sahəsində kütləvi informasiya vasitələrində maarifləndirici çıxışlar edilmişdir.

28 prokurorluq əməkdaşı barəsində həvəsləndirmə tədbiri tətbiq olunmuş, intizam məsuliyyətinə cəlb ediləni olmamışdır. Azərbaycan Respublikası Prezidentinin 19.06.2001-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş və 23.11.2007-ci il tarixli Fərmanı ilə dəyişikliklər edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnaməyə və "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi Qaydaları"na müvafiq olaraq 5 nəfər Muxtar Respublika Prokurorluğu orqanlarına, 2 nəfəri isə Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğuna işə qəbul olunmuşlar. Muxtar Respublikanın prokurorluq orqanlarında keçirilmiş tədris məşğələlərində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun, bu məsələ ilə əlaqədar müvafiq əmrin, son dövrlərdə qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərin öyrənilməsi təmin edilmişdir.

Sonda əminliklə ifadə olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına müvafiq olaraq bundan sonra da fəal vətəndaşlıq mövqeyi nümayiş etdirərək, bütün qüvvələrini səfərbərliyə almaqla digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə dövlətçiliyimizin maraqlarını, ölkəmizdə bərqərar olmuş dayanıqlı ictimai-siyasi sabitlik və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş huquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirləri görəcək, Azərbaycan xalqına, onun dövlətçidiyinə və hakimiyyətə sədaqətlə xidmət edəcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olunmuşdur.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış etmişdir.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğu**
**Hüquqi təminat və informasiya şöbəsi**

*Alitur vitium vivitque tegendo (lat.)*
*(Gizli saxlanmaqla qüsur yaşayır və bəslənir)*

# İşin prokurora qaytarılması: institusional problemlər, praktiki nəticələr

"Cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması"[1] prosessual institutu barədə tənqidi fikirlər söylənməsinin başlanğıcı onun təsbit edildiyi ilk günlərə təsadüf edir. Bu institut cinayət prosesinin çox nadir məsələlərindəndir ki, ona biganə qalan demək olar ki, yoxdur. Müşahidələr göstərir ki, statusundan asılı olmayaraq cinayət prosesi iştirakçılarının əksəriyyəti – hakimlər, çəkişən ittiham və müdafiə tərəflərinin təmsilçiləri onu ədalətsiz hesab edir, təkmilləşdirilməsinə ehtiyac olduğunu bildirirlər. Hakimlər deyirlər ki, bu institut iş üzrə onların daxili inamlarına uyğun əsaslı və qanuni qərar çıxarmaq imkanlarını məhdudlaşdırır. İttiham və müdafiə tərəfinin nümayəndələri əminlik ifadə edirlər ki, bu institut çəkişməsiz tətbiq olunur, prosedurlar formal xarakter daşıyır, onların mövqeyi nəzərə alınmır. Müvafiq qərardan apellyasiya şikayəti vermək hüququnun olmaması isə, məhkəmənin onsuz da çox olan diskresyon imkanlarını ifrat səviyyəyə çatdırır. Prokurorlar, müstəntiqlər, təhqiqatçılar şikayətlənirlər ki, bu institut onların iştirakı olmadan, mövqeləri nəzərə alınmadan tətbiq edilir. Məcburi çıxarılan xüsusi qərarlara əsasən onların intizam məsuliyyətinə cəlb edilməsi ədalətsizlikdir, çünki, belə qərarlar cinayət prosesinin predmetinə aid olmayan bir prosedura üzrə çıxarılır. Bu prosedurada onlar iştirak etmir, dinlənilmirlər. Fəaliyyətlərinə formal əlamətlərə (sənədlərə) görə qiymət verilir. Mövqelərini müdafiə etmək üçün heç bir imkana malik deyillər.

Tənqidi fikirlər müşavirələrdə, konfranslarda, seminarlarda və digər rəsmi və qeyri-rəsmi forumlarda tez-tez səsləndirilir; onlar müzakirə edilir, təkmilləşdirmə yolları və onların arqumentləri barədə təkliflər irəli sürülür. Buna baxmayaraq, qeyd edilən məsələ ilə bağlı bu günə kimi ciddi elmi araşdırmalar aparılmamış, məhkəmə-istintaq təcrübəsi təhlil edilməmiş, təkliflər sistemləşdirilməmiş və dəyərləndirilməmiş, bir sözlə, vahid və məqbul yanaşma formalaşmamışdır. Qədim romalılar deyirdi: levius fit patifritia, quidquid corrigerfti ist nefas, düzəldilməsi mümkün (qismət) olmayana dözmək daha asandır. Görünür, problemə aidiyyəti olanlar da onu həll etməkdənsə, çətinliklərinə dözməyi daha rasional yol hesab edirlər.

Bu instituta prokurorluq işçilərinin daha həssas münasibətinin özəl səbəbləri var. İşin prokurora qaytarılmasına dair qərarla bərabər çıxarılan xüsusi qərarlara[2] prokurorluqda çox böyük əhəmiyyət verilir; onlar bir qayda olaraq prokurorluq işçisinə intizam tənbehi tətbiq olunmasına səbəb olur. Xüsusi qərarların araşdırılması və dəyərləndirilməsi üzrə prokurorluqda mükəmməl bir mexanizm yaradılmışdır. Baş Prokurorluq üzrə 28.07.2010-cu il tarixli 10/70 nömrəli "Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin səmərəliliyinin artırılması, istintaq və təhqiqat üzərində nəzarətinin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında" əmrin[3] 11-ci bəndində dövlət ittihamçılarının üzərinə belə qərarların çıxarılmasında fəallıq göstərmək vəzifəsi qoyulmuşdur: "Məhkəmə baxışı zamanı cinayət işlərinin ibtidai istintaqı gedişində ciddi qanun pozuntularına yol verilməsi halları aşkar edilərkən dövlət ittihamçıları tərəfindən həmin pozuntuları törətmiş şəxslər barəsində xüsusi qərarların çıxarılmasında təşəbbüs

---

1 Bax: Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi: "Maddə 300. Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində məhkəmə tərəfindən qəbul edilən qərarların növləri. 300.1. Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində aşağıdakı qərarlardan biri qəbul edilir: (...) 300.1.5. cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə; (...) Maddə 303. Cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının baxılmasına xitam verilməsi və onun prokurora qaytarılması. 303.1. Məhkəmənin hazırlıq iclasında məhkəməyədək icraat zamanı aradan qaldırılmadan müvafiq olaraq cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının mahiyyəti üzrə qanuni həll edilməsi mümkün olmayan kobud pozuntularına yol verildiyini müəyyən etdikdə məhkəmə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verir və onu ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarır."

2 Bax: Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi: "Maddə 300. Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində məhkəmə tərəfindən qəbul edilən qərarların növləri. 300.1. Məhkəmənin hazırlıq iclasının keçirilməsi nəticəsində aşağıdakı qərarlardan biri qəbul edilir: (...) 300.1.5. cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə; (...) Maddə 303. Cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının baxılmasına xitam verilməsi və onun prokurora qaytarılması. 303.1. Məhkəmənin hazırlıq iclasında məhkəməyədək icraat zamanı aradan qaldırılmadan müvafiq olaraq cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının mahiyyəti üzrə qanuni həll edilməsi mümkün olmayan kobud pozuntularına yol verildiyini müəyyən etdikdə məhkəmə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verir və onu ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarır."

3 Bax: A(11)12 Azərbaycan Respublikası Baş prokurorunun əsas əmr və göstərişləri (İki cilddə. I cild). Təkrar nəşr.- Bakı, "Azərbaycan" nəşriyyatı, 2012. 440 səh.

göstərilsin. Əmrin bu tələblərinə əməl etməyən dövlət ittihamçılarının ibtidai istintaq zamanı qanun pozuntularına yol vermiş müstəntiqlər və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlarla bərabər intizam məsuliyyətinə cəlb olunması təmin edilsin."

Xüsusi qərarlar xidməti yoxlama başlanması üçün əsaslardan biridir. Azərbaycan Respublikası Baş prokurorunun 12.09.2006-cı il tarixli 09/66 №-li əmri ilə təsdiq edilmiş (24.12.2010-cu il tarixli 10/117-11/15-s №-li əmrlə edilmiş əlavə ilə) "Prokurorluq işçiləri haqqında xidməti yoxlamaların aparılmasına dair" Qaydaların[4] 3-cü bəndində göstərilmişdir ki, «məhkəmələrdən daxil olmuş xüsusi qərarlar" prokurorluq işçiləri haqqında xidməti yoxlamalar aparılması üçün əsasdır. Müəyyən edilmişdir ki, belə yoxlamalar Təşkilat-analitik idarə tərəfindən aparılır və bu zaman qərar barədə Dövlət ittihamının müdafiəsi üzrə idarənin (şöbənin) və istintaqa nəzarəti həyata keçirən digər müvafiq qurumlarının rəyi nəzərə alınır. Həmin qurumların əsasnamələrində bununla bağlı vəzifələr müəyyənləşdirilmişdir. Məsələn, Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən 21.11.2007-ci il tarixdə təsdiq edilmiş (24.12.2010-cu il tarixli 10/117-11/15-s №-li əmrlə edilmiş əlavə və dəyişikliklərlə) "Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi haqqında" Əsasnamədə[5] qeyd edilmişdir ki, idarə "məhkəmələr tərəfindən prokurorlar və prokurorluğun müstəntiqləri barəsində çıxarılmış xüsusi qərarların öyrənilməsində iştirak edir, xüsusi qərarlar barədə rəy və təkliflərin verilməsini təmin edir".

Bu yazı qeyd edilənlərin birdəfəlik həlli iddiasından uzaq olmaqla, sadəcə, problemi bir daha diqqət mərkəzinə

## 1. Qısa tarixi ekskurs

"Cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması"nın (bundan sonra – işin prokurora qaytarılması) mahiyyətini düzgün müəyyən etmək üçün onun tarixinə nəzər salmaq, inkişaf dinamikasını izləmək, digər prosessual institutlar sistemində yerini müəyyənləşdirmək, cinayət mühakimə icraatının fundamental ədalət prinsiplərinə uyğun həyata keçirilməsində funksional iştirakını dəqiqləşdirməkdən başlamaq vacibdir.

İlk öncə, qeyd edilməlidir ki, bu institut boş yerdə yaranmamış, sovet, hətta çar Rusiyasının cinayət-prosessual qanunvericiliyinə və təcrübəsinə məlum olmuş, 2000-ci ilin sentyabr ayının 1-dək, yəni hazırda qüvvədə olan Cinayət-Prosessual Məcəlləsi (bundan sonra – CPM) qüvvəyə minənədək tətbiq edilmiş "əlavə təhqiqat və ya ibtidai istintaq aparılması üçün işin qaytarılması" institutunun müasir dövrün tələblərinə uyğun dialektik inkişafının nəticəsi kimi ortaya çıxmışdır. Bununla belə, tarixi bağlılığa və bəzi əlamətlərin oxşarlığına baxmayaraq, "əlavə təhqiqat və ya ibtidai istintaqa aparılması üçün işin qaytarılması" institutu özünün xələfindən - "cinayət işinin ...baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması"ndan əhəmiyyətli dərəcədə fərqlənir.

"Əlavə təhqiqat və ya ibtidai istintaq aparılması üçün işin qaytarılması" axtarış (inkvizisiya) xarakterli cinayət prosesinin elementi idi. Azərbaycan SSR 8 dekabr 1960-cı il tarixli Qanunu ilə təsdiq edilmiş CPM-nin 244-cü maddəsi (Maddə 244. Əlavə təhqiqat və ya ibtidai istintaq aparılması üçün işin qaytarılması) işin məhkəmə tərəfindən prokurora qaytarılması əsaslarını və qaydalarını müəyyən edirdi. Zahirən ibtidai istintaq zamanı yol verilmiş səhvlərin düzəldilməsinin, sübutlar sistemindəki probellərin aradan qaldırılmasının, həqiqətin müəyyən edilməsinin təminatı kimi görünsə də, işin prokurora qaytarılması, əslində, məhkəmənin ibtidai istintaq orqanlarına ittiham funksiyasını yerinə yetirməkdə yardımı mexanizmi kimi çıxış edirdi. Eyni institut SSRİ-yə daxil olan respublikaların hamısının qanunvericiliyində var idi. Sonradan onların əksəriyyətində bu institutdan hüquq islahatları çərçivəsində imtina edildi. Metamorfozun mahiyyəti RSFSR Ali Sovetinin 24.10.1991-ci il tarixli qərarı ilə təsdiq edilmiş

4 Bax: A(11)12 Azərbaycan Respublikası Baş prokurorunun əsas əmr və göstərişləri (İki cilddə. II cild). Təkrar nəşr.- Bakı, "Azərbaycan" nəşriyyatı, 2012. 648 səh.
5 Bax: orada.

"Rusiya Federasiyasında məhkəmə islahatı konsepsiyası"nda daha dəqiq göstərilmişdi. Konsepsiyada istintaqın yarımçıqlığı zamanı cinayət işini əlavə istintaq aparılması üçün prokurora qaytarılması vəzifəsi məhkəmənin ittihamedici rolunun rudimentlərindən biri kimi göstərilmişdi[6].

İşin prokurora qaytarılması institutu sovet cinayət prosesi modelinə, məhkəmələrin bu modeldəki yerinə uyğun idi. Sovet cinayət prosesindəki *vəzifələrin ümumiliyi prinsipi* məhkəməni cinayətkarlıqla mübarizəsinin vahid sistemində cinayət təqibini həyata keçirən orqanlarla birləşdirirdi. Məhkəmə cinayətkarlığa qarşı mübarizə sisteminin bir elementi kimi cinayət təqibi funksiyasına xas olan hüquqi vəzifələr daşıyırdı. Məsələn, 08.12.1960-cı il tarixli Cinayət-Prosessual Məcəlləsinin 3-cü maddəsində (Cinayət işi başlama və cinayəti açma vəzifəsi) müəyyən edilmişdi ki, prokuror, müstəntiq və təhqiqat orqanı ilə yanaşı məhkəmələr də *"öz səlahiyyətləri dairəsində cinayət işi başlamalı, cinayət hadisəsinin cinayəti etməkdə təqsiri olan şəxslərin müəyyən edilməsi və onların cəzalandırılması üçün qanunda nəzərdə tutulan bütün tədbirləri görməlidirlər."*

Əlavə təhqiqat və ya ibtidai istintaq aparılması üçün işin prokurora qaytarılması bu vəzifələrin icrası üsullarından biri idi və qeyd edilən sistemin elementləri arasında əlaqə yaradılması funksiyasını icra edən körpü rolunu oynayırdı. Bu mexanizmin hesabına sistemin daxilində yüklərin bölüşdürülməsi prosesi gedirdi, ittiham hakimiyyətinin zəifliyi istintaq orqanına səhvlərini göstərmək və bu səhvlərin aradan qaldırılmasını təmin etmək vəzifəsi daşıyan məhkəmənin səyləri ilə kompensasiya olunurdu. Təbii ki, belə qovuşma hüquqi dövlət ideyası, cinayət mühakiməsinin bərabər hüquqlara malik ittiham və müdafiə tərəfinin çəkişməsi, prosessual funksiyaların bölünməsi, hüququn aliliyi və müəyyənliyi kimi təməl prinsipləri ilə uyuşmazlıq təşkil edirdi. Azərbaycan SSR 8 dekabr 1960-cı il tarixli Qanunu ilə təsdiq edilmiş CPM-nin 244-cü maddəsinə *(Maddə 244. Əlavə təhqiqat və ya ibtidai istintaq aparılması üçün işin qaytarılması)*[7] əsasən, məhkəmə işi əlavə təhqiqat və ya ibtidai istintaq aparılmaq üçün prokurora öz təşəbbüsü ilə, yəni digər proses iştirakçılarının, o cümlədən, prokurorun, zərərçəkmiş şəxsin, müttəhimin, müdafiəçinin və s. fikrini dinləmədən göndərirdi. Müvafiq qərarın qəbul edilməsi üçün əsaslar - *"təhqiqat və ya ibtidai istintaq məhkəmə iclasında tamamlana bilməyəcək dərəcədə yarımçıq olduqda", "müqəssirə, ittihamnamədə göstəriləndən başqa digər ittihamı elan etmək və ya bu ittihamı daha ağır ittihamla və ya faktik hallarına görə ilk ittihamdan əhəmiyyətli dərəcədə fərqlənən ittihamla dəyişdirmək üçün işdə əsaslar olduqda" "əməlləri baxılan işlə sıx surətdə əlaqədar olan başqa şəxslərin, onlar haqda materialları ayırmaq mümkün olmazsa, cinayət məsuliyyətinə cəlb edilməsi üçün əsaslar olduqda", "iş düzgün birləşdirilmədikdə və ya düzgün ayrılmadıqda"* – ibtidai istintaqa prosessual rəhbərliyin və ya nəzarətin həyata keçirilməsi funksiyası predmetləri ilə eynilik təşkil edirdi. Yalnız bir əsası – *işin prokurora "təhqiqat və ya ibtidai istintaq orqanları tərəfindən cinayət-prosessual qanununun tələblərinin işin məhkəmə tərəfindən baxılmasına maneçilik törədəcək dərəcədə pozulmasına yol verildikdə"* qaytarılmasını cinayət mühakimə icraatının həyata keçirilməsi funksiyası hüdudlarında atılmış addım kimi dəyərləndirmək mümkün idi.

---

6 Bax: "Концепция судебной реформы в Российской Федерации / Сост. С.А. Пашин. - М.: Республика, 1992.

7 Bax: Azərbaycan SSR 8 dekabr 1960-cı il tarixli Qanunu ilə təsdiq edilmiş Cinayət-Prosessual Məcəlləsi: "Maddə 244. Əlavə təhqiqat və ya ibtidai istintaq aparılması üçün işin qaytarılması. Məhkəmə işi aşağıdakı hallarda əlavə təhqiqat və ya ibtidai istintaq aparılmaq üçün göndərir: 1) təhqiqat və ya ibtidai istintaq məhkəmə iclasında tamamlana bilməyəcək dərəcədə yarımçıq olduqda; 2) təhqiqat və ya ibtidai istintaq orqanları tərəfindən cinayət-prosessual qanununun tələblərinin işin məhkəmə tərəfindən baxılmasına maneçilik törədəcək dərəcədə pozulmasına yol verildikdə; 3) müqəssirə, ittihamnamədə göstəriləndən başqa digər ittihamı elan etmək və ya bu ittihamı daha ağır ittihamla və ya faktik hallarına görə ilk ittihamdan əhəmiyyətli dərəcədə fərqlənən ittihamla dəyişdirmək üçün işdə əsaslar olduqda; 4) əməlləri baxılan işlə sıx surətdə əlaqədar olan başqa şəxslərin, onlar haqda materialları ayırmaq mümkün olmazsa, cinayət məsuliyyətinə cəlb edilməsi üçün əsaslar olduqda; 5) iş düzgün birləşdirilmədikdə və ya düzgün ayrılmadıqda"

### *2. İşin prokurora qaytarılması məhkəmə-hüquq islahatları kontekstində (prosessual funksiyaların bölünməsi, tərəflərin çəkişməsi, məhkəmənin müstəqilliyi və bitərəfliyi)*

Məhkəmə-hüquq islahatları çərçivəsində "əlavə təhqiqat və ya ibtidai istintaq aparılması üçün işin qaytarılması" institutundan imtina edilməsi və qanunvericiliyə "cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının baxılmasına xitam verilməsi və onun prokurora qaytarılması" institutunun daxil edilməsi Azərbaycan Respublikasında həyata keçirilən məhkəmə-hüquq islahatının tərkib hissəsi olan cinayət-prosessual qanunvericiliyinin təkmilləşdirilməsi zəminində baş vermiş əsas novasiyalardan biri idi. Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının CPM-də artıq işin məhkəmə tərəfindən əlavə təhqiqat və ya ibtidai istintaq aparılması üçün prokurora qaytarılması institutu yoxdur. Bəzi praktiki işçilər CPM-nin 303-cü maddəsində təsbit edilmiş "cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının baxılmasına xitam verilməsi və onun prokurora qaytarılması" institutunu işin əlavə ibtidai istintaq aparılması üçün qaytarılması institutunun müasir tələblərə uyğunlaşdırılmış bir versiyası kimi qəbul edirlər. Nostalji baxışlar dayanıqlığı ilə seçilir, necə deyərlər, *"major c longinquo reverentia"* (lat.), uzaqlaşma lətafəti artırır. İşin prokurora qaytarılmasını "təkmili istintaq", "əlavə istintaq" və s. kimi, yəni tarixi "əlavə təhqiqat və ya ibtidai istintaq aparılması üçün işin qaytarılması" institutunun qısaldılmış adı kimi işlənməsi də bu fikrin möhkəmlənməsinə xidmət edir. Təbii ki, bu belə deyil. Düzdür, onların ortaq elementləri vardır və məhz onlar belə fikirlərin ortaya çıxmasına təkan verir.

Əslində, işin prokurora qaytarılması institutunun təkamülünün əsasında ölkədə həyata keçirilmiş məhkəmə-hüquq islahatlarından irəli gələn köklü səbəblər dururdu. Bir qədər əvvəl, yəni 1995-ci ilin noyabr ayının 12-də Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi cinayət-mühakimə icraatının liberal konstruksiyasının təməl prinsiplərini təsbit etmişdi. Bunlar hüquqi dövlət, hüququn aliliyi ideyalarının yaratdığı zərurətdən irəli gəlirdi. Konstitusiyanın 7-ci maddəsi (Maddə 7. Azərbaycan dövləti) dövlət hakimiyyətinin *"hakimiyyətlərin bölünməsi"* prinsipi əsasında təşkil edildiyini, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyət göstərdiyini və öz səlahiyyətləri çərçivəsində müstəqil olduqlarını vurğulamışdır. 127-ci maddə (Maddə 127. Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri) bəyan etmişdi ki, hakimlər müstəqildir; onlar işlərə tərəflərin hüquq bərabərliyi əsasında baxır və ən əsası, "məhkəmə icraatı *çəkişmə* prinsipi əsasında həyata keçirilir". Məhkəmələrin cinayət mühakimə icraatında rolunun yeri dəqiqləşdirilmiş, onun yalnız ədalət mühakiməsini həyata keçirmək olduğu vurğulanmışdı. (Maddə 125. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi). Bir sözlə, Konstitusiya Azərbaycanın cinayət prosesinin axtarış (inkvizisiya) modelindən çəkişmə modelinə keçidinin əsasını qoymuşdur.

CPM bu prinsipləri daha müfəssəl səviyyədə təsbit etdi. Ən mühüm məqam isə, məhkəmə və ittiham hakimiyyətinin prosessual funksiyalarının bir-birindən ayrılması idi. Bu, hüquqi dövlətin əsas ideyası olan "hakimiyyətlərin bölünməsi" konstitusion prinsipindən irəli gəlirdi və çəkişmə modelinin əsas elementlərini müəyyən edirdi. Funksiyalar bir-birindən ayrılmasa, təbii ki, onların çəkişməsi də mümkün deyildir. CPM-də məhkəmə "şəxsə qarşı irəli sürülmüş ittihama baxmaq və həmin ittihamın mahiyyəti üzrə hökm və ya digər yekun qərarı çıxarmaq", "qanuni qüvvəyə minməmiş və ya minmiş hökmdən və ya digər məhkəmə qərarından verilmiş şikayət və ya protestlərə baxmaq" səlahiyyətinə malik orqan, yəni cinayət hüquqi konfliktin həlli funksiyası daşıyan subyekt kimi müəyyən edilmişdi (CPM-nin 7.0.10, 7.0.11, 7.0.12-ci maddələri). Qanunverici qəti olaraq müəyyən etdi ki, məhkəmə yalnız cinayət-hüquqi konfliktlərin həlli funksiyasını daşıyır. Məhkəməni ənənəvi "cinayətkarlığa qarşı mübarizə" sisteminin elementi kimi səciyyələndirən bütün əlamətlər məhkəmənin vəzifələri və səlahiyyətləri dairə-

sindən çıxarıldı, "çəkişmə" modelli cinayət prosesinin əsas elementləri öz yerini tutdu. İlk dəfə olaraq tərəflərin prosessual çəkişməsinin konturları göstərildi. Müəyyən edildi ki, cinayət mühakimə icraatı ittiham və müdafiə tərəfinin çəkişməsi əsasında həyata keçirilir; bu məqsədlə öz mövqeyini müdafiə etmək üçün bərabər hüquqlara və imkanlara malik hər bir tərəf məhkəmədə təmsil olunur. Məhkəməyə isə, həmin mexanizmdə "arbitr" rolu ayrıldı, "cinayət prosesi tərəflərindən hər birinin vəsatəti ilə əlavə olaraq zəruri materialların əldə edilməsinə kömək göstərmək" səlahiyyəti verildi[8]. Bəyan edildi ki, cinayət-prosessual fəaliyyət daxilində hakimlərin müstəqilliyini və ədalət mühakiməsinin həyata keçirilməsində çəkişmə prinsipini pozan normativ hüquqi aktlar tətbiq edilə bilməz (CPM-nin 2.4-cü maddəsi).

Məhkəmələrin bitərəfliyini qorumaq üçün cinayət-prosessual qanunvericiliyində bir sıra təminatlar təsbit edildi. Məsələn, CPM-nin 28.2-ci maddəsinə əsasən, hakimlər cinayət mühakimə icraatını həyata keçirərkən qanunun mənafeyindən başqa hər hansı bir mənafeyi ifadə edə bilməzlər. Hakimin ittiham və ya müdafiə tərəfindən cinayət prosesinin hər hansı iştirakçısı ilə, habelə belə iştirakçının qanuni nümayəndəsi və ya nümayəndəsi ilə qohumluq, yaxud şəxsi asılılıq münasibətində olması onun cinayət prosesində bu qisimdə iştirakını istisna edir (CPM-nin 109.1.7-ci maddəsi).

Qeyd edilən zəmində baş vermiş pozitiv dəyişikliklərin mahiyyəti Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası CPM-nin 397.1 və 397.2-ci maddələrinin şərh edilməsinə dair" 12 may 2009-cu il tarixli qərarında belə dəyərləndirilmişdir: "Dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizdə baş vermiş siyasi, iqtisadi, sosial və digər dəyişikliklər yeni cinayət-prosessual qanunvericiliyinin qəbulunu şərtləndirmişdir. Azərbaycanda mövcud olan cinayət prosesini kontinental məhkəmə-hüquq sistemi daxilindəki cinayət prosesinin qarışıq formasına (növünə) aid etmək olar. Bu prosesdə məhkəməyədək icraat mərhələsində axtarış prosesinin elementləri, məhkəmə icraatı mərhələlərində isə çəkişmə prosesinə xas olan məhkəmə baxışının demokratik prinsipləri mövcuddur (açıqlıq, proses iştirakçılarının hüquq və azadlıqlarının məcburi təminatı, tərəflərin çəkişməsi və s.)." Qərarda vurğulanmışdır: "Cinayət mühakimə icraatı üzrə məhkəmə Konstitusiya və prosessual qanunla (CPM-in 8 - 36-cı maddələri) nəzərdə tutulmuş prinsip və şərtlər üzrə ədalət mühakiməsini həyata keçirən orqandır. Hakimlər cinayət mühakimə icraatında qanunun mənafeyindən başqa hər hansı bir mənafeyi ifadə edə bilməzlər. Ədalət mühakiməsinin əsas vəzifələrindən biri – təqsiri müəyyən edərkən cinayəti törətmiş şəxsləri cəzalandırmaqdan və təqsirsiz şəxslərə bəraət verməkdən ibarətdir. Ədalət mühakiməsi qaydalarının özbaşına dəyişdirilməsinə yol verilmir (CPM-in 8.0.5, 28.2 və 28.6-cı maddələri)."

Konstitusiya Məhkəməsi tərəfindən, həmçinin, cinayət prosesinin çəkişmə xarakterinə, prosessual funksiyaların bölünməsinə, hakimlərin müstəqilliyinə, bitərəfliyinə dair qanun müddəalarının məzmunu xeyli zənginləşdirilmişdir. "Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasının 7 iyul 2011-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" Məhkəmə Plenumunun 17 aprel 2012-ci il tarixli qərarında cinayət prosesində çəkişmə prinsipinin əlamətləri göstərilmişdir: "Çəkişmə prinsipi cinayət məhkəmə icraatının elə qurulmasını ehtiva edir ki, orada ədalət mühakiməsi (işin həll edilməsi) funksiyası ittiham və müdafiə funksiyalarından tamamilə ayrılmış olsun. İşin həll edilməsi funksiyası məhkəməyə aiddir. Məhkəmə işə ədalətlə və qərəzsiz baxılmasını təmin etməli, tərəflərə öz prosessual vəzifələrini həyata keçirmək və mövqelərini müdafiə etmək üçün bərabər imkanlar yaratmalıdır. Çəkişmə yalnız bitərəf məhkəmənin mövcudluğu halında mümkün olduğundan məhkəmənin tərəflərin prosessual funksiyalarını (ittiham, yaxud müdafiə) öz üzərinə götürməsi yolverilməzdir."

8 Bax: CPM-nin 32-ci maddəsi (Maddə 32. Cinayət prosesində tərəflərin çəkişməsi).

"Azərbaycan Respublikası Prokurorluğunun sorğusuna əsasən Azərbaycan Respublikası CPM-nin 43.1.1, 314.2-ci maddələrində nəzərdə tutulmuş "dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etdikdə" müddəasının şərh edilməsinə dair" 15 fevral 2008-ci il tarixli plenum qərarına hakimlər E.Məmmədov, F.Babayev və İ.Nəcəfovun birgə rəyində məhkəmə üçün qeyri-məqbul ittiham funksiyaları qeyd edilmişdir: "Məhkəmə əsla ittiham tərəfinin girovuna çevrilməməlidir. Məhkəmə dövlət ittihamçısı ilə münasibətlərini prosessual qanunun normaları əsasında qurmalı və ittiham funksiyasını daşımamaq üçün aşağıdakıları etməməlidir: məhkəmədə təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittiham olmadan ədalət mühakiməsini həyata keçirsin; bu ittiham üzrə təqsirləndirilən şəxsi məhkəməyə vermədən məhkəmə baxışını təyin etsin və işə mahiyyəti üzrə baxsın; məhkəmə iclasında ittiham aktını elan etsin; tərəflər bunu etmədən birinci olaraq sübutları araşdırsın, təqsirləndirilən şəxsi, zərərçəkmişi və şahidləri dindirsin; işi əlavə istintaqa qaytarmaq yolu ilə ittihamı təsdiq edən sübutların tamamlanmasına dair tədbirlər görsün; yeni ittiham üzrə və başqa şəxslər barəsində iş qaldırsın. (...) Hakimiyyət səlahiyyətlərinin lazımi qaydada yerinə yetirilməsi üçün, məhkəmələr, məhkəmə həllini gözləyən tərəflərin maraqlarından, bu maraqların xüsusi və ya ictimai olmasından asılı olmadan, tamamilə azad qalmalıdırlar. Konstitusiya və cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulmuş cinayət mühakimə icraatının demokratik prinsipləri və əsas şərtləri məhkəmədən tələb edir ki, o, tərəflərin təqsirləndirilən şəxsin əməllərinin tövsifi ilə bağlı ifadələrindən asılı olmadan ədalət mühakiməsinin qərəzsiz və obyektiv qoruyucusu olsun. Bu zaman qanunçuluq və təqsirə görə məsuliyyət prinsiplərinə əsasən məhkəmə: bir tərəfdən təqsirləndirilən şəxsin özünün təqsirsizliyinə haqq qazandırmaq istəməməsinə və ya dövlət ittihamçısının təqsirkara göz yummasına qulluq etməməli; digər tərəfdən isə hər hansı şəxsin əsassız və ya cinayət qanununun tələblərinə cavab vermədən, o cümlədən təqsirləndirilən şəxsin hərəkətlərinin səhv tövsifi səbəbindən məhkum edilməsinə yol verməməlidir." Bu qərarın nəticəvi hissəsində Konstitusiya Məhkəməsi prosessual funksiyaların bölünməsi prinsipini qanunçuluq və ədalət prinsiplərindən üstün tutmasını vurğulamışdır: "məhkəmə ittiham funksiyasını öz üzərinə götürə bilmədiyinə görə, ictimai ittiham üzrə məhkəmə baxışı zamanı dövlət ittihamçısının əməlin cinayət qanununun daha yüngül cəza nəzərdə tutan norması ilə tövsif edilməsi təklifi məhkəmə tərəfindən dövlət ittihamçısının təklifində irəli sürüləndən daha ağır cəza nəzərdə tutan cinayət qanunu norması üzrə məhkəmə aktı qəbul olunmasını istisna edir". Göründüyü kimi, Konstitusiya Məhkəməsinin mövqeyinə əsasən, *prosessual funksiyaların bölünməsi prinsipi daha yüksək sosial dəyərə malikdir*; hətta, dövlət ittihamçısının mövqeyini qanunsuz və ədalətsiz hesab etsə belə, məhkəmə ədalət mühakiməsini dövlət ittihamçısının müəyyən etdiyi çərçivə daxilində həyata keçirməlidir.

Saf çəkişmə modelli cinayət prosesində cinayət təqibinin geriyə dönüşünə yol verilmir. Bu modeldə bizim tanıdığımız "məhkəməyədək cinayət təqibi" mərhələsi yoxdur. "Məhkəmədən prokurora qaytarılmış iş üzrə icraat" adlı cinayət prosesi mərhələsi mövcud olmadığına görə işin əlavə ibtidai istintaq aparılması və ya kobud pozuntuların aradan qaldırılması üçün prokurora qaytarılması və s. zəruri edən məsələlərin hamısı bilavasitə məhkəmə prosesində həll edilir. İttiham sübutu qüsurludursa, qanunun pozulması yolu ilə əldə edilmişdirsə ittihamın arqumentləri sırasından çıxarılır. İttiham sübutlarındakı qüsurların, yarımçıqlıqların aradan qaldırılması, ittihamın möhkəmləndirilməsi üçün ittiham hakimiyyətinə əlavə "şans" verilmir. Dövlətlə fərd arasında cinayət-hüquqi konflikt qəti şəkildə həll edilir, bu ictimai münasibətlərə birdəfəlik hüquqi müəyyənlik gətirilir.

Nəzərə alınmalıdır ki, milli cinayət prosesinin epistemoloji əsasları obyektiv həqiqətin müəyyən edilməsi üzərində qurulmuşdur. Digər növlərdən ("konvension həqiqət", "prosessual həqiqət" və s.) fərqli olaraq "obyektiv həqiqət" mümkün olan bütün tədbirlərin həyata keçirilməsini, o cümlədən işin məhkəmədən geri

qaytarılmasını ehtiva edir, necə deyərlər, burada məqsədə (obyektiv həqiqətə) çatmaq üçün bütün sərhədlər hüdudsuz, vasitələr isə yararlı hesab edilir[9]. İrəli sürülmüş ittihamla hakimin daxili inamının sərbəstliyi arasında yaranan konflikt, bir qayda olaraq, sonuncunun, yəni “daxili inam”ın xeyrinə həll edilir[10]. “Prosessual həqiqət” isə keçmişdə baş vermiş cinayət hadisəsinin bütün hallarını olduğu kimi müəyyən etməyi məqsəd saymır. Burada diqqət mərkəzində prosesin özüdür, onun düzgün, qanuna, doktrinal qaydalara və s. uyğun aparılmasıdır; bu proses nə ilə yekunlaşsa, o da həqiqət hesab edilir[11]. Fikrimizcə, obyektiv həqiqətə çatma naminə ədalət mühakiməsinin prinsipləri pozulmamalıdır. Bu baxımdan işin prokurora qaytarılması institutunun mahiyyəti də “obyektiv həqiqət”ə çatma üsullarından biri kimi yozulmamalıdır. Məhkəmənin hazırlıq iclası bütövlükdə belə məqsəd daşımır. Onun məqsədi yalnız “məhkəmə baxışının təyin edilməsinin mümkünlüyünün yoxlanılması”dır[12] Cinayət prosesinin bu mərhələsinin institutları bu məqsəddən kənar müstəvidəki hədəflərə yönələ bilməzlər. Həqiqətin müəyyən edilməsi məhkəmə *baxışının* predmetidir, *hazırlıq* iclasının yox. Hazırlıq mərhələsi institutu kimi işin prokurora qaytarılması da, təbii ki, obyektiv həqiqətin müəyyənləşdirilməsi məqsədi daşıya bilməz.

Göründüyü kimi, CPM-nin 303-cü maddəsində təsbit edilmiş məhkəmənin hazırlıq iclasında cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilərək onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması institutu kontinental məhkəmə-hüquq sisteminin *qarışıq çəkişmə* prosesinə xas element olmaqla əsasən prosessual funksiyaların bölünməsi, tərəflərin çəkişməsi, məhkəmənin müstəqilliyi və bitərəfliyi prinsiplərinin ortaq məntiqi məhsuludur.

### *3. İşin prokurora qaytarılmasının hüquqi əsaslarının təhlili*

#### *3.1. Metodikanın əsaslandırılması*

İşin prokurora qaytarılması ilə bağlı tənqidi fikirlərin yaranmasının əsas səbəbini, təbii ki, məhkəmə-istintaq təcrübəsində axtarmaq düzgün olardı. Həqiqətin meyarı təcrübədir. Bunu əsas götürərək, prokurorluqda mütəmadi olaraq CPM-nin 303-cü maddəsinin tətbiqi təcrübəsi ümumiləşdirilir, təhlil olunur, istintaq fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş təkliflər hazırlanır, onların təcrübədə nəzərə alınması üçün tədbirlər həyata keçirilir. İndiyə kimi bu zəmində aparılmış işlərə baxmayaraq, CPM-nin 303-cü maddəsinin “düzgün tətbiqi” meyarlarını müəyyənləşdirmək mümkün olmamışdır. Məhkə-mələr tərəfindən də bu sahədə hər hansı bir nəticənin əldə edilməsi barədə məlumatlar yoxdur. Nə Konstitusiya Məhkəməsi, nə də Ali Məhkəmə işin prokurora qaytarılması institutu ilə bağlı ümumi xarakterli qərarlar qəbul etməmişlər. Fikrimizcə, bu vəziyyətin iki əsas səbəbi var. Birincisi, qanunvericiliyin qeyri-mükəmməlliyidir. İkincisi isə belə qanunvericilik əsasında formalaşan məhkəmə təcrübəsinin pərakəndəliyidir. İşin prokurora qaytarılması meyarlarının müəyyənləşdirilməməsi ucbatından müvafiq qərar-

9 Bax: Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 397.1 və 397.2-ci maddələrinin şərh edilməsinə dair” 12 may 2009-cu il tarixli qərarı; “Ədalət mühakiməsi vəzifələrini yerinə yetirərkən məhkəmə hərtərəfli, tam və obyektiv şəkildə iş üzrə əhəmiyyət daşıyan halları aydınlaşdırmalı, bunun üçün də təqsirləndirilən şəxsi həm ifşa edən və ya ona bəraət qazandıran, eləcə də onun məsuliyyətini ağırlaşdıran və yüngülləşdirən bütün halları araşdırmalıdır.”

10 Müəllif “Azərbaycan Respublikası Prokurorluğunun sorğusuna əsasən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 43.1.1, 314.2-ci maddələrində nəzərdə tutulmuş “dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etdikdə” müddəasının şərh edilməsinə dair” 15 fevral 2008-ci il tarixli plenum qərarı”nı qeyd edilən tezisə zidd nümunə kimi yox, cinayət prosesi modelləri (saf çəkişmə və axtarış) arasında dialektik ziddiyyətin, kompromisin təzahürü hesab edir.

11 Bəzi nəzəriyyəçilər “prosessual həqiqət” məqsədli cinayət prosesində şəxslərə işgəncə verilməsinin prinsipcə qeyri-mümkünlüyünü bu prosesin qnoseoloji özəllikləri ilə izah edirlər.

12 Bax: CPM: “299.1. Məhkəmənin hazırlıq iclası cinayət işində, məhkəməyədək sadələşdirilmiş icraatın materiallarında və ya xüsusi ittiham qaydasında şikayətdə, irəli sürülmüş ittihamın mahiyyəti üzrə cinayət prosesi tərəflərinin iştirakı ilə məhkəmə baxışının təyin edilməsinin mümkünlüyünün yoxlanılması məqsədi ilə ilkin dinləmələrdən ibarətdir.”

lar texniki normativlərin tətbiqinə bənzər məzmunda tərtib olunur. Müxtəlif qərarlarda oxşar arqumentlərə nadir hallarda təsadüf edilir. Qərarlarda yuridik faktların qiymətləndirilməsi həddən artıq subyektiv xarakterli olur. Ona görə də, məhkəmə təcrübəsinin tendensiyalarını, qanunauyğunluqlarını sezmək mümkün olmur.

Qeyd edilənləri nəzərə alaraq, öncə işin prokurora qaytarılması institutunun hüquqi əsaslarına nəzər salmağı, bu əsasları hamılıqla qəbul edilmiş ədalətli mühakimə prinsipləri ilə tutuşdurmağı, kənarlaşmaları göstərməyi və yalnız bundan sonra məhkəmə təcrübəsini təhlil etməyi düzgün strategiya hesab etmək olar.

### *3.2. Normanın məzmunu prosessual ardıcıllığın məntiqinə uyğun deyildir*

"Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 25.1-ci maddəsində (Maddə 25. Normativ hüquqi aktın tərtib edilməsi üslubu) vurğulanmışdır ki, "normativ hüquqi aktlar daxilən uzlaşdırılmalı, məntiqli qurulmalı və normayaratma texnikasına uyğun olmalıdır". CPM-nin 303.1-ci maddəsinin mətnini bu tələblər, eləcə də prosessual tamamlıq, bütövlük baxımından uğurlu hesab etmək çətindir. Bu mətn məhkəmənin sərbəstliyini məhdudlaşdırır; belə çıxır ki, statik şəkildə hansısa "*məhkəməyədək icraat zamanı aradan qaldırılmadan müvafiq olaraq cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının mahiyyəti üzrə qanuni həll edilməsi mümkün olmayan kobud pozuntuları*" mövcuddur, məhkəmənin vəzifəsi isə, sadəcə onları tapmaqdan ibarətdir. Əslində, belə deyildir. Cinayət-prosessual qanunvericiliyi "kobud pozuntu" siyahısını yox, onların əlamətlərini müəyyənləşdirmişdir. Məhkəmələr isə hər bir işin icraat materiallarını bu əlamətlər ilə tutuşdurur və hasil etdikləri nəticəyə görə qərar çıxarırlar.

Ardıcıllıq məntiqi tələb edir ki, məhkəmə əvvəlcə (1) pozuntunu aşkarlansın, sonra (2) onun kobud olduğunu yəqinləşdirsin, daha sonra isə (3) məhkəməyədək icraat zamanı aradan qaldırılmalı olduğunu müəyyən etsin və nəhayət, (4) müvafiq qərar çıxartsın. Maddənin redaksiyası bu məntiqə uyğun sadə və aydın dildə verilə bilərdi.

### *3.3. İşin prokurora qaytarılması institutunun məqsədi aydın göstərilməmişdir*

Məhkəmənin hazırlıq iclasının qərarı ilə işin prokurora qaytarılması institutu CPM-nin sona kimi işlənib hazırlanmamış, qeyri-müəyyənliyi ilə fərqlənən və məhkəmə-istintaq təcrübəsində çoxsaylı problemlər yaradan institutlarından biri, bəlkə də birincisidir.

İnstitutun normativləşdirilmiş tərifi yoxdur. CPM-nin 303.1-ci maddəsinin məzmununa əsaslanıb işin prokurora qaytarılmasının mahiyyəti barədə müəyyən təsəvvürlər əldə etmək mümkündür. Maddənin məzmunu belədir: "Məhkəmənin hazırlıq iclasında məhkəməyədək icraat zamanı aradan qaldırılmadan müvafiq olaraq cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının mahiyyəti üzrə qanuni həll edilməsi mümkün olmayan kobud pozuntularına yol verildiyini müəyyən etdikdə məhkəmə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verir və onu ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarır."

"Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 66.3-cü maddəsində vurğulanmışdır: "Normativ hüquqi aktın hüquqi tənzimləmənin həqiqi tələblərinə uyğun gələn aydın məqsədləri və prioritetləri olmalıdır." Qeyd edilən prosessual institutun mahiyyətini tam aydınlaşdırmaq üçün, ilk növbədə, onun təyinatının, məqsədinin nədən ibarət olması sualına cavab tapmaq gərəkdir. CPM-nin 303.1-ci maddəsinin mətnindən göründüyü kimi, bu yoxdur. İşi qəbul etmiş prokurorun, müstəntiqin, təhqiqatçının üzərinə heç bir prosessual vəzifə, o cümlədən "kobud pozuntuları aradan qaldırmaq" vəzifəsi qoyulmamışdır. Həmin vəzifələrə dair yalnız ehtimal irəli sürmək olar. Qəti fikir yürütmək çətindir, çünki normanın məzmunu alternativ, bəzi hallarda, hətta ekzotik fikirlər yürütməyə imkan yaradır. Məsələn, işin prokurora qaytarılması məhkəmənin belə

pozuntularla *işə baxmaqdan qəti imtina* etməsi kimi də şərh oluna bilər. Çünki, işin sonradan prokuror tərəfindən məhkəməyə göndəriləcəyi barədə heç bir göstəriş, işarə yoxdur (məsələn, CPM-nin 318.2-ci maddəsində nəzərdə tutulmuş mexanizmdən fərqli olaraq). Qaytarılmış iş üzrə ibtidai istintaq müddətinin əvvəllər aparılmış icraat müddətinə əlavə kimi hesablanması qaydası (CPM-nin 303.5-ci maddəsi) isə qaytarılmış iş üzrə icraatın mənasının aşkar edilmiş kobud pozuntuların aradan qaldırılması yox, icraatın "əvvəlki vəziyyətinə geri atılması", yəni mühakimədən imtina edilməsi təəssüratı yaradır.

Ədalətli məhkəmə araşdırması hüququ Konstitusiyanın 60-cı, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının (bundan sonra Avropa Konvensiyası) 6-cı maddələrində fundamental hüquq kimi təsbit edilmişdir. "Məhkəməyə müraciət hüququ" onun tərkib elementidir və subyekti bu hüququn verdiyi imkanlardan faydalanmaqdan məhrum etmək olmaz. Deməli, işin prokurora qaytarılması ədalətli məhkəmə baxışı hüququndan imtina kimi şərh edilməməli, onun tətbiqi isə, belə məna daşımamalıdır. Bunun təmin edilməsi isə, normativ qaydada müəyyənləşdirmə tələb edir. İlk növbədə işin prokurora qaytarılması institutunun təyinatına, məqsədinə aydınlıq gətirilməlidir. Bunsuz cinayət təqibinin sözügedən mərhələsində bir çox məsələləri düzgün dərk etmək, onları şərh etmək, məhkəmə-istintaq təcrübəsini düzgün istiqamətə yönəltmək çox çətin bir işdir.

Ümumiyyətlə, hüquq tətbiq etmə prosesində normaların, institutların, konsepsiyaların, ideyaların və s. düzgün şərhi üçün "məqsəd"in rolu, metodoloji əhəmiyyəti əvəzedilməzdir. Avropa Məhkəməsinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, digər məhkəmələrin, bəzi hallarda prokurorların, müstəntiqlərin qərarlarında bunu asanlıqla müşahidə etmək olar. Avropa Məhkəməsi konvension hüquqlara müdaxilənin pozuntu olub-olmamasını müəyyən etmək üçün universal metodika işləyib hazırlamışdır. Bu metodikanın əsas elementlərindən biri – müdaxilənin məqsədinin müəyyənləşdirilməsidir. Bunun üçün şərh prosesində (1) Konvensiyanın, onun kataloquna daxil olan (2) hüquqların və onlara (3) müdaxilənin məqsədlərini aydınlaşdırmaq lazım gəlir. Konvensiyanın və kataloqa daxil olan hüquqların bir hissəsinin məqsədləri bilavasitə bu sənədin mətnində əks etdirilmişdir. Konvensiyanın mətnində ifadə edilməmiş məqsədlərin məzmunu isə, Avropa Məhkəməsi tərəfindən aydınlaşdırılmışdır.

Məsələn, məqsədlər Avropa Konvensiyasında "Həyatdan məhrumetmə, aşağıdakı məqsədlər üçün güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda, bu maddənin pozulması hesab edilmir" (Maddə 2); "Bu maddənin məqsədləri üçün «məcburi və ya icbari əmək» termini aşağıdakıları ehtiva etmir" (Maddə 4); "milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaş və ya cinayətlərin qarşısını almaq üçün, sağlamlığı yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün" (Maddə 8); "öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün" və s. sözləri ilə ifadə edilmişdir.

Məhdudiyyətlərin Konvensiyada nəzərdə tutulmamış məqsədlər üçün tətbiq edilməsi yolverilməz elan olunmuşdur. Konvensiyanın 18-ci maddəsində (Maddə 18. Hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri) göstərilmişdir ki, "Qeyd olunan hüquq və azadlıqlarla *(Konvensiyanın kataloquna daxil olan hüquq və əsas azadlıqlar nəzərdə tutulur – N.B.)* bağlı bu Konvensiyada yol verilən məhdudiyyətlər, nəzərdə tutulduğundan başqa, hər hansı digər məqsəd üçün tətbiq olunmamalıdır".

Avropa Məhkəməsinin təcrübəsində "məqsəd"lərin məzmununa dair presedent mövqe formalaşır, həm də onlardan çox səmərəli istifadə edilir. Məsələn, Məhkəmənin məlum "Konvensiyanın məqsədi nəzəri və ya xəyali hüquqları deyil, praktiki və səmərəli hüquqları təmin etməkdir", "məhdudiyyət qanuni məqsəd daşımırsa və tətbiq edilən vasitələrlə qarşıya qoyulan məqsəd arasında ağlabatan əlaqə

yoxdursa, həmin məhdudiyyət 6-cı maddənin 1-ci bəndinə uyğun ola bilməz" standartları təhlil və dəyərləndirmə prosesində özül konstruksiya rolunu oynayır.

İşin prokurora qaytarılması institutu da hüquqa müdaxilədir (ədalətli məhkəmə araşdırması hüququna), onun məhdudlaşdırılmasıdır. Onun da məqsədi qanunda təsbit edilməli, digər məqsədlərlə onun tətbiqinin qarşısı normativ qaydada alınmalıdır. Yalnız bu halda cinayət təqibinin bu mərhələsində hüquqi müəyyənlik prinsipinin təmin edildiyini, insan hüquqlarının müdafiəsi üçün lazımi zəmin yarandığını söyləmək olar.

### *3.4. Tərəflərə məhkəməyə müraciət etmək hüququ verilməmişdir*

Azərbaycan Respublikasının Konstitusiyası və beynəlxalq hüquq aktlarının tələblərinə görə ədalət mühakiməsi mahiyyət etibarilə ədalət anlayışına cavab verməli və hüquqların təsirli şəkildə bərpa olunmasını təmin etməlidir[13]. Avropa Konvensiyasının 13-cü maddəsində (Maddə 13. Səmərəli hüquqi müdafiə vasitələri hüququ) göstərilmişdir ki, "hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir". Səmərəlilik cinayət-mühakimə icraatının bütün mərhələlərinə, o cümlədən hazırlıq iclası mərhələsinə də aid olmaqla çəkişən tərəflərə hüquqlarını müdafiə etmək üçün təsirli imkanlar yaradılmasını ehtiva edir.

Avropa Məhkəməsi dəfələrlə vurğulamışdır ki, "Konvensiyanın məqsədi nəzəri və ya xəyali hüquqları deyil, praktiki və səmərəli hüquqları təmin etməkdir. Ədalətli məhkəmə araşdırması hüququnun demokratik cəmiyyətdə mühüm yer tutduğunu nəzərə alsaq, bunu xüsusən məhkəmələrə müraciət hüququna aid etmək olar[14]. Məhkəməyə müraciət ilkin və artıq başlanmış prosesin gedişində hüquqların səmərəli müdafiəsi üçün şəxsə məhkəməyə müraciət etmək prosessual imkanı verilməsini ehtiva edir.

"Məhkəməyə müraciət hüququ" ("ədalətli məhkəmə araşdırması" hüququnun aspektlərindən biri kimi) mütləq hüquq deyil. O, dolayısı ilə yol verilən məhdudiyyətlərə məruz qala bilər, çünki məhkəməyə müraciət hüququ öz təbiətinə görə dövlət tərəfindən tənzimlənmə tələb edir. Proses iştirakçılarının "mülki hüquq və vəzifələrinin" müəyyən edilməsi üçün onların məhkəmələrə səmərəli müraciət hüququnu təmin edən Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndi bu məqsədlə istifadə edilməli olan vasitələrin seçilməsini dövlətin ixtiyarına buraxır. Təbii ki, bu, Avropa Məhkəməsinin milli dövlət tərəfindən Konvensiyanın tələblərinə riayət edilib-edilmədiyi barədə qəti qərar vermək səlahiyyətinə heç bir təsir etmir. Öz təcrübəsində Avropa Məhkəməsi hüquqa qoyulan məhdudiyyətlə onun məqsədi və tətbiq edilən vasitələri arasında əlaqələrin xarakterinə xüsusi diqqət yetirir, qeyd edir ki, "müraciət hüququna qoyulan məhdudiyyət qanuni məqsəd daşımırsa və tətbiq edilən vasitələrlə qarşıya qoyulan məqsəd arasında ağlabatan əlaqə yoxdursa, həmin məhdudiyyət 6-cı maddənin 1-ci bəndinə uyğun ola bilməz"[15].

CPM-nin 303-cü maddəsinin bu tələblərə tam cavab verdiyini söyləmək mümkün deyil. CPM-nin 299.3-cü maddəsinə əsasən, hazırlıq iclasında həll edilən məsələlərə məhkəmə cinayət prosesi tərəflərinin iştirakı ilə baxır. Məsələlər siyahısında isə "cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması" adlısı yoxdur. CPM-nin 299.3.2-ci maddəsində göstərilən "aparılmış ibtidai araşdırma zamanı bu Məcəllənin tələblərinin pozulub-pozulmaması barədə" məsələnin həllini işin prokurora qaytarılması məsələsinin həlli ilə eyniləşdirmək olmaz. Ən azı ona görə ki, biri o birisinin nəticəsi ola (və ya olmaya) bilər, yəni qeyd edilən normaların biri səbəbdir, o birisi nəticə.

13 Bax: Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 420.3-cü maddəsinə dair" 19 aprel 2002-ci il tarixli qərarı.
14 Bax: Case of Kreuz v. Polland (ap. №28249/95) Judgment 19.07.2001 p.57.
15 Bax: orada, p.55.

Bir anlığa təsəvvür edək ki, CPM-nin 299.3.2-ci maddəsi həm də bu Məcəllənin 303-cü maddəsində təsbit edilmiş məsələləri əhatə edir. "Tərəflərin iştirakı" anlayışına nəzər salaq, onun məzmun elementlərinin nədən ibarət olmasını dəqiqləşdirməyə çalışaq. "İştirak" ən azı passiv və aktiv formalarda ola bilər. Məhkəmə iclasında passiv iştirak, sadəcə olaraq, məhkəmə iclasında olmaq, orada gedən prosesi müşahidə etməkdən ibarət ola bilər. Azərbaycan qanunlarına əsasən, məhkəmə iclasları açıq keçirilir və istənilən vətəndaş bu proseslərdə iştirak etmək hüququna malikdir. Belə hallarda vətəndaş "məhkəmədə iştirak" funksiyasını yerinə yetirirmi? Prosessual mənada bunu iddia etmək olmaz, çünki onların prosessual hüquq və vəzifələri yoxdur.

Bəs "prosessual iştirak" nədə ifadə olunmalıdır? Məhkəmənin hazırlıq iclasında "tərəflərin iştirakı"nın xarakterinə aydınlıq gətirilməsində Avropa Məhkəməsinin presedent mövqeyi də əhəmiyyətlidir. Bu mövqeyə görə, ədalətli məhkəmə araşdırma hüququ nəinki ittiham olunan şəxsin məhkəmə iclasında olmaq, həm də bu iclasda "səmərəli şəkildə iştirak etmək hüququnu təmin edir"[16]. "Səmərəli iştirak", yuxarıda qeyd edildiyi kimi, "nəzəri və ya xəyali" yox, "praktiki və səmərəli" olmalıdır. Prosessual səlahiyyətin olmaması isə təbii ki, "səmərəli iştirak"ı tam istisna edir.

Deməli, qanunun hərfi mənasına görə, işin prokurora qaytarılması tərəflərin iştirakı ilə həll edilən məsələ sayılmır. CPM-nin 303-cü maddəsinin məzmununda bu maddədə tənzimlənən məsələnin həlli zamanı çəkişən tərəflərin hər hansı bir səlahiyyətə malik olmalarına dair göstəriş yoxdur. Tərəflər bu məsələ ilə bağlı nə təşəbbüs qaldıra, nə də münasibət nümayiş etdirə bilərlər. Məsələ tamlıqla məhkəmə tərəfindən öz mülahizəsinə əsasən (düzdür, əsaslandırılmış qərar çıxarmaqla) təkbaşına həll edilir.

Bu mexanizm ilk növbədə cinayət prosesinin çəkişmə xarakterinə və bu prosesdə məhkəmənin arbitr roluna uyğun gəlmir. Çəkişmə tərəflərin iştirakını nəzərdə tutur. "İştirak"ın bir forması olmalıdır və o, prosessual sənədlərdə (konkret halda qərarda) əksini tapmalıdır. Məsələn, qərarda yazılmalıdır ki, müzakirə olunan məsələ ilə bağlı ittiham tərəfinin mövqeyi necədir, müdafiə tərəfinin mövqeyi necədir. İkincisi, çəkişmə ehtiva edir ki, hər bir tərəf öz maraqlarını ifadə etsin, onun müdafiəsi ilə məşğul olsun. Bunlarla məhkəmə məşğul olmamalıdır. Məhkəmə tərəflərdən birinin (və ya hər ikisinin) təşəbbüsü olmadan qərar çıxarmaqla "tərəfə çevrilmiş", tərəflərin maraqlarını ifadə etmiş olur. Məsələn, təqsirləndirilən şəxs müdafiə hüququnun pozulduğunu hesab etmir, müvafiq məsələ qaldırmır, məhkəmə isə, əksini iddia edir, bunu əsas götürüb qərar qəbul edir. Faktiki olaraq məhkəmə müdafiə tərəfinin maraqlarının ifadəçisinə çevrilmiş olur. Hüququn vəzifədən fərqi həm də ondan ibarətdir ki, subyekt ikincidən imtina edə bilməsə də, birincidən (hüququndan) imtina edə bilər (bəzi istisnaları çıxmaq şərti ilə). O cümlədən, təqsirləndirilən şəxs müdafiə hüququnun müəyyən elementlərini bu və ya digər mərhələdə həyata keçirməkdən imtina edə bilər[17]. Üçüncüsü, tərəflərin hüquqlarının və qanuni maraqlarının məhkəməyədək mərhələdə təmin edilib-edilməməsini bu subyektlərin özündən soruşmadan müəyyən etmək əsaslandırılmış qərarın çıxarılmasını şübhə altına alır.

Qeyd edilən mexanizm fundamental hüquqların müdafiəsi baxımından da qüsurludur. CPM-nin 303-cü maddəsində tərəflərin "məhkəməyə müraciət" hüququnun məhdudlaşdırılmasının məqsədi aydın deyil, lakin birmənalı olaraq görünür ki, bu məqsəd qanuni xarakter daşımır. Məhkəmənin hazırlıq iclasında tərəflərin fəal iştirakı olmadan cinayət təqibinin məhkəməyədək mərhələsində yol verilmiş kobud pozuntuları aşkar etmək, onlara adekvat

16 Bax: Case of Maksimov v. Azerbaijan (ap.№ 38228/05) Judgment 8.10.2009, p.39.

17 Məsələn, təqsirləndirilən şəxs ibtidai istintaq materialları ilə məhkəməyədək mərhələdə tanış olmaqdan imtina edə bilər. CPM-nin 284.2-ci maddəsinə əsasən, müstəntiq təqsirləndirilən şəxsə və müdafiəçiyə cinayət işinin materialları ilə tanış olmaq üçün imkan yaradır. Onlar bu imkandan istifadə edə də, etməyə də bilərlər. Bəzi hallarda təqsirləndirilən şəxslər və onların müdafiəçiləri müdafiə taktikasını planlaşdırarkən icraat materialları ilə tanış olmanı və vəsatətlər verilməsini daha sonrakı mərhələlərə, məhkəmə mərhələlərinə saxlamağa üstünlük verirlər. Belə hallara təqsirləndirilən şəxs və onun müdafiəçinin təşəbbüsü, iddiası olmadan müdafiə hüququnun pozulması qiyməti verilməsinə əsas yoxdur

qiymət vermək tərəflərin iştirakı ilə etməkdən daha çətindir. Məqsəd kobud pozuntuların aradan qaldırılmasıdırsa, tərəflərin təşəbbüs göstərmələri və müzakirələrdə fəal iştirakı hər vəchlə stimullaşdırılmalıdır. Qeyd edilən maddədə isə bunun əksi müşahidə edilir. Ona görə də, şübhə yoxdur ki, çəkişən tərəflərin nümayəndələrinə, ilk növbədə təqsirləndirilən şəxsə və zərər çəkmiş şəxsə öz hüquqlarının pozulmasını məhkəməyə bildirmək və onların aradan qaldırılması üçün qanunda nəzərdə tutulmuş addımları atmaq barədə təşəbbüs qaldırmaq, onun müzakirəsinə və müvafiq qərarlar qəbul olunmasına nail olmaq imkanlarının məhdudlaşdırılması qanuni məqsəd daşımır; bu məhdudiyyətlərlə "kobud pozuntuların aradan qaldırılması" məqsədi arasında ağlabatan əlaqə görünmür.

Deməli, CPM-nin 303-cü maddəsində cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması məsələsinin həllinin tərəflərin təşəbbüsünə əsasən və onların iştirakı ilə həyata keçirilməsi nəzərdə tutulmalıdır.

Bu, məhkəmənin öz təşəbbüsü ilə işin baxılmasına xitam verilməsi və prokurora qaytarılması imkanlarını istisna etmir. Çünki, elə hallar müəyyən edilə bilər ki, onlar tərəflərin hüquqları ilə yox, saf ədalət mühakiməsi maraqları, məsələn, "işin düzgün həll edilməsi" marağı ilə bağlı olsun. Belə hallarda müvafiq məsələnin qaldırılması təşəbbüsü məhkəmənin üzərinə qoyula bilər. Lakin hər bir halda, işin baxılmasına xitam verilməsi və prokurora qaytarılması barədə məsələ onun məhkəmənin özü və ya tərəflərin (və ya tərəflərdən birinin) təşəbbüsü ilə qaldırılmasından asılı olmayaraq tərəflərin çəkişməsinin predmeti kimi qəbul edilməlidir.

Etiraf olunmalıdır ki, qanunvericilikdə qeyd edilən boşluqlara baxmayaraq, məhkəmə təcrübəsi tərəflərin mövqelərinin qərarlarda əks etdirilməsi istiqamətində formalaşmışdır. Bu da müvafiq normativləşdirmə aparmağın zəruriliyini təsdiqləyir. Hələ qədim romalılar deyirdilər ki, *"a communi observantia non est recedendum",* hamının qəbul etdiyi şeyə laqeyd yanaşmaq olmaz.

### *3.5.Tərəflərə apellyasiya hüququ verilməmişdir*

Cinayət-prosessual qanunvericiliyi məhkəmənin hazırlıq iclasının işin prokurora qaytarılması barədə qərarından apellyasiya şikayəti (protesti) vermək səlahiyyəti nəzərdə tutmamışdır. Yəni, belə qərarlar qəti saylır. Qədim Romada əmin idilər ki, səhv o qərardır ki onu dəyişmək mümkün deyil *("malum consilium est, quod inutari non potest").*

Bu fikrin indiki şəraitdə də rasionallığı mübahisəsizdir.

Hazırda qüvvədə olan CPM-də işin prokurora qaytarılması barədə hazırlıq iclasının qərarından apellyasiya şikayəti (protesti) vermək hüququ olmuş, 2000-ci ilin sentyabr ayının 1-dən 2005-ci ilin iyun ayının 14-nə kimi tətbiq edilmişdir. Sonra, 14 iyun 2005-ci il 939-IIQD nömrəli "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 686) ilə 300.5-ci maddədə «300.1.6 - 300.1.7-ci» rəqəmləri «300.1.6 və 300.1.7-ci» sözləri ilə əvəz edilmiş, apellyasiya şikayəti və ya protesti verilməsi mümkün olan qərarlar sırasından "cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə" qərar çıxarılmışdır.

Qanunvericinin bu addımının səbəbləri ictimaiyyətə açıqlanmasa da, ehtimal olunurdu ki, bu prosesin həddən artıq uzanması ilə bağlıdır. Təcrübədə ən çox mübahisə yaradan qərar elə bu növ - "cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə" qərarlar idi. Bu qərarlardan apellyasiya və kassasiya şikayətlərinin baxılması çox vaxt aparırdı. Təbii

ki, belə vəziyyət cinayət prosesinin səmərəlilik səviyyəsini aşağı salırdı. Məhkəmələr həddən artıq yüklənirdi. Onların icraatına daxil olan işlərin sayı ilə icraatına yekun vurulmuş işlərin miqdarı arasında fərq birincinin xeyrinə gün-gündən artırdı. Bu, işin keyfiyyətinə təsir etməyə bilməzdi. Ən başlıcası isə, proseslərin uzanması Avropa Konvensiyasının 6.1-ci maddəsində təsbit edilmiş ədalətli məhkəmə araşdırma hüququnun "ağlabatan"lıq tələbinin təmin olunmasını çətinləşdirirdi. Vəziyyətdən çıxış yolu tapmaq lazım idi və bu problem tərəflərin apellyasiya hüquqlarının ləğvi ilə aradan qaldırıldı. Əsas insan hüquqlarından biri olan "ədalətli məhkəmə araşdırması" hüququnun bir elementinin ("ədalət mühakiməsinin ağlabatan müddətdə həyata keçirilməsi) təmin edilməsi naminə o birisi (məhkəməyə müraciət etmək, məhkəmənin "əlçatanlığı") ləğv edildi. Əslində, bunu problemin həlli yox, başqası ilə əvəzlənməsi adlandırmaq olar.

CPM-nin 300.1.5-ci maddəsində nəzərdə tutulmuş qərardan apellyasiya şikayəti (protesti) vermək hüququnun ləğvini ədalətli saymaq olarmı?

Barəsində ittiham irəli sürülmüş şəxsin "ədalətli məhkəmə araşdırması hüququ" onun işinə baxan birinci instansiya məhkəməsinin hazırlıq iclasını da əhatə edir. Bu iclasın yekunu üzrə qəbul edilmiş qərarlardan apellyasiya şikayəti vermək hüququ "ədalətli məhkəmə araşdırması" hüququnun elementi olmuşdur. Bu elementin ləğvi (14.06.2005-ci il tarixdə) hüququn hüdudlarını kiçiltmiş, məzmununu azaltmış, subyektin imkanlarını xeyli məhdudlaşdırmışdır.

Vurğulamaq yerinə düşərdi ki, Avropa Konvensiyası bir çox hüquqların və əsas azadlıqların "qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan" məhdudiyyətlərə məruz qalmasına yol verir. Məhdudiyyətlərin əsasları müxtəlifdir - milli təhlükəsizlik və ictimai asayişin təmin edilməsi, ölkənin iqtisadi rifah maraqlarının qorunması, iğtişaş və ya cinayətlərin qarşısını almaq, sağlamlığı yaxud mənəviyyatı qorumaq, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi, ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək və s.

"Ədalətli məhkəmə hüququ"nu təsbit etmiş Konvensiyanın 6-cı maddəsinin mətnində onu məhdudlaşdıran müddəa yoxdur[18]. Lakin Avropa Məhkəməsinin presedent mövqeyi ondan ibarətdir ki, bu hüquq mütləq deyil, o da məhdudiyyətlərə məruz qalır. Məhkəmə bu məhdudiyyətlərin "qanunilik" meyarlarını müəyyənləşdirmişdir. Bellet Fransaya qarşı iş üzrə qərarda Məhkəmə özünün presedent təcrübəsini ümumiləşdirərək göstərmişdir: "Təminatı 6-cı maddənin 1-ci bəndində nəzərdə tutulmuş "məhkəməyə müraciət hüququ" mütləq deyil; o, sükutla yolverilən məhdudiyyətlərə məruz qala bilər, çünki o "cəmiyyətin, eləcə də konkret şəxslərin tələbləri və resurslarına uyğun olaraq yerindən və zamanından asılı olaraq öz təbiətinə görə dövlət tənzimlənməsi tələb edir". (...) Belə tənzimləmə həyata keçirərkən iştirakçı dövlətlər müəyyən ixtiyar azadlığına malikdirlər. Məhkəmə Konvensiyanın tələblərinə əməl edilməsi barədə son qərar qəbul edərkən əmin olmalıdır ki, tətbiq olunan məhdudiyyətlər məhkəməyə müraciət hüququnu, bu hüququn mahiyyətini zədələyən dərəcədə məhdudlaşmır. (...) Bundan başqa, belə məhdudiyyətlər o şərtlə 6-cı maddənin 1-ci bəndinə uyğun olacaq ki, qanuni məqsədə malik olsun və qoyulmuş məqsədlə tətbiq edilən vasitələr arasında ağlabatan uyğunluq mövcud olsun"[19] .

"Məhkəməyə müraciət hüququ"nun mahiyyətinə toxunmaq dedikdə nə başa düşülməlidir? Yəqin ki, bu, həmin hüququn tamamilə ləğvini nəzərdə tutmamalıdır, əks təqdirdə başqa ifadələrdən istifadə olunardı. Avropa Məhkəməsi də məhkəməyə müraciət hüququnun ləğvi ilə nəticələnən hər hansı ədalətli məhkəmə araşdırması hüququna müdaxiləni "qanuni"

18 Qeyd: Avropa Məhkəməsinin presedent təcrübəsinə əsasən, ədalətli məhkəmə hüququnun "məhkəmənin əlçatanlığı" elementinə münasibətdə "sükutla yol verilən məhdudiyyətlər"ə yol verilir, çünki ədalətli məhkəmə araşdırması hüququnun gerçəkləşdirilməsi dövlət tənzimlənməsi tələb edir. tənzimləmə prosesi isə bu və ya digər dərəcəli və növlü məhdudiyyətlərlə bağlı olur. Lakin belə məhdudiyyətlər Konvensiyanın 6-cı maddəsində təsbit edilmiş hüququn mahiyyətinə toxunmamalıdır. (of Levages v. France (App. 21920/93) Judgment 23.10.1996, p.40.

hesab etmir.

Avropa Məhkəməsi ədalətli məhkəmə araşdırması hüququnun iki elementi – "ağlabatan müddət" və "məhkəməyə müraciət etmək hüququ" arasında orqanik bağlılığa dəfələrlə diqqət yetirmişdir. Bu bağlılıq özündə bir-biri ilə mübarizə aparan ziddiyyət ehtiva etdiyindən dialektik xarakter daşıyır. Bununla belə, hər bir konkret işdə onların hansının daha önəmli olması sualına cavab vermək lazım gəlir. Düzgün nəticəyə gəlmək üçün isə, çıxış nöqtələri, prinsip və meyarlar lazım olur. Bəs, Avropa Məhkəməsinin mövqeyi necədir, o, bunların hansını daha önəmli sosial dəyər hesab edir?

Məhkəmənin fikrincə, "6-cı maddə məhkəmə araşdırmasının tezliyini tələb edir, lakin o, həm də daha ümumi prinsip - ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsini möhkəmləndirmişdir"[20]. Ona görə də, müvafiq hallarda "ağlabatan müddət" standartının ayrıca tətbiq edilməsi qeyd edilən hüququn pozulacağı ehtimalını artıra bilər. Təsadüfi deyildir ki, qədim dövrlərdə də məhkəmənin tələsdirilməsi məqbul sayılmırdı. Romalılar əmin idilər ki, ədalət mühakiməsini tələsdirmək bədbəxtliyi arzulamaqdır *(festinatio justitiae est noverca infortunii).*

Avropa Konvensiyasının 17-ci maddəsi (Maddə 17 Hüquqlardan sui-istifadənin qadağan olunması) də nəzərdən qaçmamalıdır. Orada deyilir ki, "Bu Konvensiyada heç nə hər hansı dövlətin, qrupun və ya şəxsin burada təsbit olunan hüquq və azadlıqlarının ləğvinə yönəlmiş hər hansı fəaliyyətlə məşğul olmaq və ya hər hansı əməl törətmək və ya onları Konvensiyada nəzərdə tutulandan daha artıq məhdudlaşdırmaq hüququna malik olması kimi şərh oluna bilməz."

Yuxarıda göstərilən arqumentlər baxımından məhkəmənin hazırlıq iclasının işi prokurora qaytarmaq barədə qərarından apellyasiya imkanlarının olmamasını "ədalətli məhkəmə araşdırması" hüququnun tələblərinə uyğun hesab etmək mümkün deyil.

Bundan başqa, dövlətin pozitiv öhdəliklərin yerinə yetirilməsi vəzifəsinin icra olunması baxımından da qeyd edilən məhdudlaşma düzgün addım sayıla bilməz. Özlüyündə, fundamental insan hüququnun məhdudlaşdırılmasına məhkəmə sistemində iş yükünün çoxluğu ilə haqq qazandırmaq açıq-aşkarcasına ədalətsiz görünür. Məhkəmələrin iş yükü çox ola bilər və bu hətta problem səviyyəsinə qədər böyüyə bilər. Lakin bu problemin həlli üçün dövlət adekvat tədbirlər görməlidir. Bu tədbirlər fundamental hüquqların mahiyyətini dəyişməməli, əksinə, onların daha səmərəli həyata keçirilməsinə xidmət göstərməlidir.

Avropa Məhkəməsi dəfələrlə vurğulamışdır ki, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi iştirakçı dövlətin üzərinə məhkəmə sistemini elə təşkil etmək öhdəliyi qoymuşdur ki, onun məhkəmələri işlərə ağlabatan müddət ərzində baxa bilsinlər[21]. Bu tələblərin təmin edilməsi mexanizmini, üsulunu dövlət özü müstəqil olaraq müəyyənləşdirir. Jarkov RF qarşı işdə Avropa Məhkəməsi bunun bir neçə üsulunu göstərmişdir: hakimlərin sayını artırmaq, müd-

---

19 Bax: Case of Bellet v. France, (Appl.no. 23805/94), Judgment 04.12.95, p.31: "31. Since establishing the principle of the right of access to a court in its judgment of 21 February 1975 in the case of Golder v. the United Kingdom (Series A no. 18, p. 18, para. 36) the Court has clarified its scope in the following terms: «(a) The right of access to the courts secured by Article 6 para. 1 (art. 6-1) is not absolute but may be subject to limitations; these are permitted by implication since the right of access 'by its very nature calls for regulation by the State, regulation which may vary in time and in place according to the needs and resources of the community and of individuals'. (b) In laying down such regulation, the Contracting States enjoy a certain margin of appreciation, but the final decision as to observance of the Convention's requirements rests with the Court. It must be satisfied that the limitations applied do not restrict or reduce the access left to the individual in such a way or to such an extent that the very essence of the right is impaired. (c) Furthermore, a limitation will not be compatible with Article 6 para. 1 (art. 6-1) if it does not pursue a legitimate aim and if there is not a reasonable relationship of proportionality between the means employed and the aim sought to be achieved.» (Fayed v. the United Kingdom judgment of 21 September 1994, Series A no. 294-B, pp. 49-50, para. 65, citing the Lithgow and Others v. the United Kingdom judgment of 8 July 1986, Series A no. 102, p. 71, para. 194, and the Ashingdane v. the United Kingdom judgment of 28 May 1985, Series A no. 93, pp. 24-25, para. 57)

20 Bax: Case of Boddaert v.Belgium, (appl.12919/87), Judgment 12.10.1992, p.39: "Article 6 (art. 6) commands that judicial proceedings be expeditious, but it also lays down the more general principle of the proper administration of justice."

21 Bax: Case of Leffler v. Austria) (N 2), (ap.N 30546/96), Judgment 04.03.2004, § 57.

dətləri avtomatik tətbiq etmək, sərəncamlar vermək və digərləri[22]. Göstərilən üsulların sayı çox olmasa da, onların ortaq əlamətlərini tapıb onları meyar kimi qəbul etmək, sonra isə, bu meyarı digər hallara tətbiq etmək və bu halın Avropa Məhkəməsinin mövqeyinə uyğun olub-olmamasını bilmək olar.

Hakimlərin sayının artırılması, müddətlərin avtomatik tətbiq olunması, sərəncamlar vermək texniki-təşkilati xarakterli üsullardır. Apellyasiya hüququnun ləğvini isə, məhkəmə-hüquq sisteminin fəaliyyətini təmin edən təşkilati-texniki xarakterli tədbir hesab etmək olmaz.

Milli qanunvericilikdə də işin prokurora qaytarılmasına dair hazırlıq iclası qərarından apellyasiya şikayəti vermək hüququnun ləğvinə mötəbər əsaslar tapmaq mümkün deyil. Azərbaycan Respublikası Konstitusiyası insan hüquq və azadlıqlarının məhkəmə müdafiəsinə məhdudiyyət qoymamışdır. Konstitusiyanın 60-cı maddəsinin I hissəsində (Maddə 60. Hüquq və azadlıqların məhkəmə təminatı) yazılmışdır: "Hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir". Maddənin məzmunundan açıq-aydın görünür ki, bu bütün hüquq və azadlıqları əhatə edir və bunun üçün hər hansı bir şərtin olması tələb edilmir. Hətta hər hansı istisnaların, məhdudiyyətlərin mövcudluğuna dəlalət edən ənənəvi "qanunla müəyyən edilmiş hallar istisna olmaqla", "qanunla müəyyən edilmiş hədlər", "qanunla müəyyən edilmiş qaydada və müddətlərdə" və s. kimi konstruksiyalardan istifadə edilməmişdir. Sual olunur: bu norma cinayət prosesində məhkəmənin hazırlıq iclası zamanı çıxarılmış qərarın (məsələn, işin prokurora qaytarılması haqqında) hüquqlarını pozulmuş hesab edən şəxsə də mənsubdurmu? Sualın cavabı yalnız müsbət ola bilər. Belə düşünməməyə heç bir, o cümlədən formal əsas da, yoxdur. Sözügedən hüquq pozuntusu (pozulduğu şəxs tərəfindən ehtimal edilməsi məsələnin mahiyyətini dəyişmir) unikaldır, cinayət prosesinin digər mərhələsində (və ya anında) bu təkrarlanmır. Onu sonradan bərpa etmək mümkün deyildir, çünki "cinayət prosesi" adından məlum olduğu kimi, bir prosesdir, müddət çərçivəsində davam edir. Başa çatmış bir proseduranın mexanizmində şikayət imkanı nəzərdə tutulmamışdırsa, onu sonrakı mərhələlərdə "reanimasiya" etmək mümkün deyildir. Konstitusiyanın 60-cı maddəsinin mənasına görə, işin prokurora qaytarılması haqqında hazırlıq iclası qərarından şikayət vermək hüququ tanınmalı və müdafiə edilməlidir, o cümlədən həmin qərardan apellyasiya şikayəti verməklə. Belə şikayət hüququ olmayan yerdə "maddi hüquq"un müdafiəsindən söhbət gedə bilməz.

Bəziləri etiraz edə bilərlər ki, apellyasiya şikayəti vermək hüququ birbaşa qanunda yazılmamışdırsa, deməli bu "maddi hüquq" yoxdur və Konstitusiyanın 60-cı maddəsi də belə hallar üçün tətbiq edilməzdir. Tezis çox asanlıqla təkzib edilir. "Littera occldit spiritus autem vivificat" (lat.) – hərf öldürür, ruh yaşadır. CPM-nin 303.2 və 303.4-cü maddələri müəyyən etmişlər ki, "cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onu ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması məhkəmənin əsaslandırılmış qərarı ilə həyata keçirilir"; bu qərarda "belə qərarın çıxarılması üçün əsaslar göstərilir". "Əsaslı qərar" elementi Avropa Konvensiyasının 6-cı maddəsində nəzərdə tutulmuş "ədalətli məhkəmə araşdırması" hüququnun tərkib hissəsidir. Qərar əsaslandırılmamışdırsa, deməli, bu hüquq təmin edilməmişdir. Hüquq varsa, deməli, Konstitusiyanın 60-cı maddəsinə əsasən, müdafiə edilməlidir.

İşin prokurora qaytarılması barədə məhkəmənin hazırlıq iclası qərarından apellyasiya şikayəti vermək hüququnun məhdudlaşdırılmasını dəyərləndirərkən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fundamental hüquqların məhdudlaşdırılması, bu hüquqların müdafiəsinin səmərəliliyi, qeyd edilən zəmində qanunçuluq prinsipinin əhəmiyyəti

22 Bax: Case of Zharkova v. Russian Federation (ap.N 32380/06) Judgment 17.09.2009, p.29: "The manner in which a State provides for mechanisms to comply with this requirement – whether by increasing the numbers of judges, or by automatic time-limits and directions, or by some other method – is for the State to decide".

kimi mövqeləri diqqətdən kənarda qalmamalıdır. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 420.3-cü maddəsinə dair" 19 aprel 2002-ci il tarixli qərarında yazılmışdır: "(...) Konstitusiya Məhkəməsi qeyd etməyi vacib bilir ki, Konstitusiyanın göstərilən normasına (60-cı maddə nəzərdə tutulur – N.B.) əsasən, şəxsin məhkəmə müdafiəsi hüququ hər hansı bir çərçivə ilə məhdudlaşdırıla bilməz və bütün məhkəmə instansiyalarına aiddir. Məhkəmə müdafiəsi beynəlxalq hüquqda (İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 8-ci maddəsi, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 14-cü maddəsinin 1-ci bəndi, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi) müstəqil məhkəmə tərəfindən ədalətli məhkəmə araşdırması əsasında hüquqların səmərəli bərpa edilməsi kimi qəbul olunur. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyası və beynəlxalq hüquq aktlarının tələblərinə görə ədalət mühakiməsi mahiyyət etibarilə ədalət anlayışına cavab verməli və hüquqların təsirli şəkildə bərpa olunmasını təmin etməlidir. Yanlış məhkəmə qərarı ədalət mühakiməsinin qanuna uyğun aktı kimi qəbul edilə bilməz və belə qərardan şikayət vermək hüququnun məhdudlaşdırılması ədalət prinsipinə zidd hesab olunmalıdır."

Tam aydın və birmənalı mövqedir. Onu sözügedən qərarlardan apellyasiya şikayəti vermək hüququnun olmasına güclü arqument kimi qəbul etmək olar.

Qeyd edilməlidir ki, Avropanın hüquq məkanına inteqrasiya olmuş keçmiş sovet birliyi ölkələrinin qanunvericiliyində məhkəmənin hazırlıq iclasından işin prokurora qaytarılması barədə qərarlarından apelyasiya şikayəti vermək nəzərdə tutulmuşdur[23].

Nəzərə almaq lazımdır ki, işin prokurora qaytarılması haqqında məhkəmənin hazırlıq iclası qərarından apellyasiya şikayəti (protesti) vermək səlahiyyəti ədalətli məhkəmə araşdırması hüququnun daha dolğun təmin edilməsi ilə məhdudlaşmır. Bu, həm də milli cinayət mühakimə icraatının təkmilləşdirilməsi, səhv məhkəmə qərarlarının düzəldilməsi üçün əhəmiyyətlidir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 397.1 və 397.2-ci maddələrinin şərh edilməsinə dair" 12.05.2009-cu il tarixli qərarında vurğulanmışdır ki, "qanuni qüvvəyə minməmiş birinci instansiya məhkəməsinin qərarına (o cümlədən hökmə) apelyasiya qaydasında yenidən baxılmasına məhkəmə səhvlərinin düzəldilməsinin vasitəsi kimi baxılmalıdır."

Bir məqamı da qeyd etmək yerinə düşərdi. İş ondadır ki, apellyasiya şikayəti hüququnun olmaması faktiki olaraq işin prokurora qaytarılması institutunun inkişafının qarşısını alır. CPM-nin 303-cü maddəsinin bu və ya digər müddəasının tətbiqi ilə bağlı yuxarı məhkəmə instansiyalarının (apellyasiya, kassasiya) ümumi mövqeyinin olmaması məhkəmə-istintaq təcrübəsinin düzgün istiqamətdə formalaşmasına lazım olan əsas vasitələrdən, zəmindən məhrum edir. Bütün dünyada presedent təcrübə məhz yuxarı instansiya məhkəmələrinin təcrübəsinə əsaslanmaqla formalaşır. Oriyentirlər müəyyənləşdirilməmiş mühitdə isə, hədəfi tapmaq çətindir, istənilən addımı yanlış istiqamətdə hərəkət kimi qəbul edənlərin haqsız (və ya haqlı) olduqlarını bildirmək mümkün olmur.

Beləliklə, cinayət-hüquqi konfliktin daha səmərəli həll edilməsi, cinayət prosesinin məhkəmənin hazırlıq mərhələsində fundamental insan hüquqlarının daha dolğun təmin olunması, eləcə də cinayət mühakimə icraatının təkmilləşdirilərək inkişaf etdirilməsi üçün işin prokurora qaytarılmasına dair məhkəmə qərarından apellyasiya şikayəti vermək hüququ bərpa olunmalıdır.

23 Bax: məsələn, RF CPM: "Статья 236. Виды решений, принимаемых судьей на предварительном слушании.1. По результатам предварительного слушания судья принимает одно из следующих решений: (...) 2) о возвращении уголовного дела прокурору; (...) 7. Судебное решение, принятое по результатам предварительного слушания, может быть обжаловано, за исключением судебного решения о назначении судебного заседания в части разрешения вопросов, указанных в пунктах 1, 3 - 5 части второй статьи 231 настоящего Кодекса.(часть седьмая в ред. Федерального закона от 30.10.2009 N 244-ФЗ)

### *3.6 "Kobud pozuntular"ın sübuti əhəmiyyəti və onların aradan qaldırılmasının mənası ziddiyyətlidir*

Normativ hüquqi akt ziddiyyətsiz olmalıdır[24]. Məhkəməyədək icraat zamanı yol verilmiş kobud pozuntuların hüquqi nəticələri CPM-nin 125.2-ci maddəsində sadalanmışdır. Bu maddədə sadalanmış, məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsini istisna edən 10 qrupa bölünmüş əsasın 7-si CPM-nin 303.3-cü maddəsində sadalanmış "kobud pozuntular"la, yəni, işin prokurora qaytarılması barədə qərar çıxarılması əsasları ilə oxşardır (eyni deyilsə). Digər tərəfdən, CPM-nin 125.3-ci maddəsi vurğulayır ki, "Bu Məcəllənin 125.2-ci maddəsində nəzərdə tutulmuş hallarda alınmış məlumatlar, sənədlər və əşyalar hüquqi qüvvəsi olmayan hesab edilir və onlar ittihamın düzgün həlli üçün hər hansı halın sübut olunmasında istifadə edilə bilməz." Eyni fikri daha ümumi məzmunda CPM-nin 9.2-ci maddəsi də ifadə edir: "Bu Məcəllə ilə müəyyən edilmiş hallarda cinayət prosesi prinsiplərinin və ya şərtlərinin pozulması cinayət təqibi üzrə başa çatmış icraatın etibarsız sayılmasına, onun gedişində qəbul edilmiş qərarların ləğvinə, yaxud toplanmış materialların sübutedici qüvvəsinin olmaması qənaətinə gəlməyə səbəb ola bilər."

Göründüyü kimi, eyni yuridik faktlar (kobud pozuntular) bir-birini istisna edən iki müxtəlif istiqamətli prosessual davranışa (işi geri qaytarmaq; icraat materiallarını etibarsız hesab etmək) əsaslar kimi təqdim edilir. Bu əsasların gerçəkləşdirilməsini təmin edəcək prosessual vəzifələr müəyyən edilmişdir. CPM-nin 299.4.3-cü maddəsində göstərilir ki, məhkəmənin hazırlıq iclası zamanı məhkəmə baxışından sübut kimi yolverilməz materialların xaric edilməsi barədə məsələ həll edilir. Bu Məcəllənin 303-cu maddəsinin məzmunundan isə, görünür ki, "kobud pozuntular"la əldə edilmiş materiallar cinayət təqibi üçün hələ itirilməmişdir; sadəcə onları sübut kimi istifadə etməyə yararlı edə biləcək lazımi kondisiyaya çatdırmaq üçün iş prokurora qaytarılır.

Eyni zamanda hər iki qrup normanı tətbiq etmək mümkün deyildir, yəni qeyd edilən normaların kolliziyası mövcuddur. Onun həlli qaydası "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu (Maddə 10. Normativ hüquqi aktların kolliziyasının həlli qaydaları), digər qanunlar, eləcə də doktrinalarla müəyyən edilir. Lakin ziddiyyətli normaların eyni hüquqi tənzimləmə sahəsinə aid olmaları, eyni hüquqi qüvvəyə malik olmaları, eyni vaxtda qəbul edilmələri və s. bu kimi amillər konkret olaraq bu halda kolliziyanın həllini çətinləşdirir. Faktiki olaraq məhkəməyə konkret halda tətbiq edilməli olan normaları sərbəst seçmək imkanı yaradalır, bu isə yolverilməzdir və sui-istifadəyə yol açır.

Məhkəməyədək icraat zamanı yol verilmiş "kobud pozuntular" müvafiq sübutların etibarsızlığına səbəbdirsə, icraatı məhkəmənin hazırlıq iclasından geri qaytarmağın mənası nədir? İş prokurora qaytarılandan sonrakı mərhələdə toplanmış materialların "reanimik" əhəmiyyəti çox azdır, demək olar ki yoxdur; onlar ilkin icraat zamanı yol verilmiş pozuntuların maddiyətini "təmizləyə"bilmir. Tutaq ki, ibtidai istintaq təqsirləndirilən şəxsin bilmədiyi dildə aparılmış, buna görə CPM-nin 303.3.2-ci maddəsinə əsasən iş prokurora qaytarılmış və müvafiq hərəkətlər onun bildiyi dildə təkrar aparılmış, eyni məzmunlu ifadələr alınmışdır. Bu ifadədən sübut kimi istifadə oluna bilərmi? Təcrübədə olunur, lakin qanunun mənasına görə, olunmamalıdır. Bu məlumatlar "zəhərli ağacın meyvələri" hesab edilir və onların sübutetmə prosesində istifadəsi yolverilməzdir; belə hallarda CPM-nin 125.2.3-cü maddəsinin nəzərə alınmaması mümkün deyildir. Hətta ilkin və sonrakı ifadələri yanaşı qoyası olsaq, təqsirləndirilən şəxsin xeyrinə olan normanın tətbiqinə imkan verən ifadəyə üstünlük verilməlidir, yəni ittiham sübutunu ləğv edən, onu etibarsız edən normanın tətbiqinə imkan

24 Bax: "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu: "Maddə 8. Normayaratma fəaliyyəti əsas prinsipləri. 8.0. Normayaratma fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I hissəsində göstərilən prinsiplərlə yanaşı, aşağıdakı prinsiplər əsasında həyata keçirilir: (...) 8.0.7. normativ hüquqi aktların ziddiyyətsizliyi;"

verən ifadəyə. Bunu təqsirsizlik prezumpsiyası tələb edir .

Təqsirləndirilən şəxsin sonrakı ifadəsi ilə əvvəlki ifadəsi arasında onun xeyrinə fərq olduqda isə məsələ birmənalı həll edilməli, əvvəlki ifadə nəzərə alınmamalıdır.

Bu məsələ ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin mövqeyi çox maraqlıdır. Eduard Çistyakov Rusiya Federasiyasına qarşı iş üzrə qərarda vurğulamışdır: "Avropa Məhkəməsi hesab edir ki, təqsirləndirilən şəxs milli orqanların səhvlərindən fayda götürməlidir. Başqa sözlə, cinayət təqibi və məhkəmə orqanları tərəfindən buraxılmış istənilən səhvə görə məsuliyyəti dövlət daşımalıdır və bu səhvlər maraqlı şəxsin hesabına aradan qaldırılmamalıdır". İşi prokurora qaytarmaqla məhkəmə şəxsi belə fayda götürməkdən məhrum edir.

Ona görə də, qeyd edilən uyğunsuzluğa normativ qaydada aydınlıq gətirilməlidir. Kobud pozuntu sübutla bağlıdırsa, bu, birmənalı olaraq onun sübut əhəmiyyətinin birdəfəlik və dönməz qaydada itirilməsi ilə nəticələnməlidir. Milli cinayət-prosessual qanunvericiliyində son günlər edilən dəyişikliklər göstərir ki, qanunverici kobud pozuntularla əldə edilmiş sübutların əhəmiyyətsizliyi tərəfdarıdır. "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 27.12.2013-cü il tarixli Qanunu ilə CPM 232.2-1, 232.2-2, 233.5-1 və 233.5-2-ci maddələr əlavə edilmişdir. Bu əlavələrə əsasən, "hüquqi yardım istədiyini bildirən tutulmuş şəxs və ya təqsirləndirilən şəxs hüquqi yardımı almayanadək dindirilməməli və ya onun dindirilməsi vəkilin iştirakı olmadan davam etdirilməməlidir. Müdafiəçidən imtina etməyən tutulmuş və ya həbs edilmiş təqsirləndirilən şəxsin müdafiəçinin iştirakı olmadan verdiyi etirafedici ifadələrə məhkəmə baxışı zamanı sübut kimi istinad edilə bilməz. Həmin ifadələrin bu Məcəllədə nəzərdə tutulmuş qaydada müdafiə tərəfinin vəsatəti əsasında sübut qismində qəbul edilməsinə yol verilir".

### *3.7 Kobud olmayan pozuntuların aradan qaldırılması mexanizmi yoxdur*

Məhkəmənin hazırlıq iclasında məhkəməyədək mərhələdə yol verilmiş elə pozuntular müəyyən edilə bilər ki, onların aradan qaldırılması hazırlıq prosedurları çərçivəsində, işi prokurora qaytarmadan da mümkün olar. Nəzəriyyəçilər arasında məhkəməyədək mərhələdə yol verilmiş bir sıra pozuntuların işi prokurora qaytarmadan, hazırlıq iclasında aradan qaldırılmasını səmərəli hesab edənlər kifayət qədərdir. CPM-nin 303.1-ci maddəsinə görə isə bu, mümkün deyildir, məhkəmə ya bu pozuntulara "göz yummalı" və ya qanun normalarını geniş şərh edərək onları da "kobud pozuntu" sinfinə aid etməklə işi prokurora qaytarmalıdır. Qanunvericinin məntiqinə görə isə məhkəmənin hazırlıq iclasında, ümumiyyətlə, pozuntu aradan qaldırıla bilməz.

Cinayət prosesində təsbit edilmiş prosedurların, bu prosedurlarda proses iştirakçılarının hüquq və vəzifələrinin sayı yüzlərlə ölçülür. Hər bir proseduradan kənarlaşma, prosessual vəzifələrin yerinə yetirilməməsi və ya layiqincə yerinə yetirilməməsi pozuntu sayılır. Ona görə də, potensial pozuntuların miqdarının çoxluğu normal qəbul edilir. Pozuntuların təsnifatı yoxdur. Yalnız CPM-nin 303-cü maddəsində onlardan "kobud pozuntular" aralanmış, onların aradan qaldırılması mexanizmi yaradılmışdır.

Bəs, məhkəmə kobud hesab etmədiyi qanun pozuntuları[25] barədə hansı tədbirlər görməlidir? Onları olduğu kimi saxlamalıdır və ya aradan qaldırmalıdır? Təbii ki, aradan qaldırmalıdır, çünki ədalət mühakiməsi belə pozuntuların saxlanması şərti ilə həyata keçirilə bilməz. Pozuntularla bağlı təfəkkür prosesi əvvəlcə bütün pozuntuların aşkar edilməsindən başlamalı, bundan sonra isə onların hansılarının "kobud pozuntu" standartlarına cavab verməsi ilə davam etməlidir. Bu o deməkdir ki, məhkəmə gələcəkdə kobud hesab etməyəcəyi pozuntu ilə rastlaşmaqdan sığorta oluna bilməz. Məhkəmələrin "kobud pozuntular"ı aşkarlamaq prosesi fəaliyyəti ilk öncə pozuntuların ümumi

25 Bax: CPM: "299.3. Hər bir halda cinayət prosesi tərəflərinin iştirakçı ilə məhkəmənin hazırlıq iclasında aşağıdakı məsələlərə baxılır: (...) 299.3.2. aparılmış ibtidai araşdırma zamanı bu Məcəllənin tələblərinin pozulub-pozulmaması barədə;"

kütləsini saf-çürük etməkdən, qanunla müəyyən edilmiş meyarlara əsaslanmraq seçim aparmaqdan başlayır. Digər tərəfdən, kobud olmayan pozuntuların aradan qaldırılması mexanizminin təsbit edilməsi onların əsassız olaraq "kobud pozuntular"qrupuna transferinin qarşısını kəsən əlavə bir mane olardı.

Ona görə də, cinayət-prosessual qanunu kobud olmayan pozuntuların dəyərləndirilməsi meyarlarını, mümkün olan hallarda elə məhkəmənin hazırlıq iclasındaca aradan qaldırılması qaydasını normativləşdirməlidir. Bu, cinayət prosesinin səmərəsini artıra, prosessual hüquqların daha dolğun təmin edilməsinə zəmin yarada bilər.

### *3.8. Prokurora qaytarılmış iş üzrə davranış alqoritmi müəyyənləşdirilməmişdir*

Prokurora qaytarılmış işin taleyinin necə həll ediləcəyi barədə CPM-də heç bir müddəa yoxdur. Qanun işin sonrakı hərəkətini müəyyən edən əsas və qaydalar təsbit etməmişdir. Əslində, bu çox vacib məsələdir. Qanunun mənasına görə, işin prokurora qaytarılması məhkəməyədək mərhələdə yol verilmiş "kobud pozuntular"ın aradan qaldırılması məqsədi daşıyır. Bu pozuntuları aradan qaldırmadan məhkəmə işi düzgün həll etmək iqtidarında deyildir. Eyni zamanda, onları məhkəmənin özü hazırlıq qaydasında aradan qaldıra bilmir. Bunun səbəbləri müxtəlif ola bilər, məsələn, məhkəmə bitərəfliyini itirə bilər, proses iştirakçılarının bəzi prosessual hüquqlarından faydalanmaq imkanı olmaz və sair. Mövcud mexanizm isə bunları - ədalətli mühakimənin fundamental tələblərini və maraqlar balansını nəzərə alır.

Məntiqə görə, prokurorun qaytarılan işlə bağlı fəaliyyəti işin məhkəmədə düzgün həll edilməsinə xidmət edir. Məhkəmə işi prokurora ona görə qaytarır ki, o, pozuntuları aradan qaldırsın və işi cinayət-hüquqi konfliktin həlli üçün yenidən məhkəməyə göndərsin. Bu mənada prokurorun prosessual sərbəstliyinin hüdudları və hərəkətlərinin alqoritmi normativləşdirilməlidir. Çünki, sözügedən mərhələdə prokurorun prosessual sərbəstliyinin mütləq səviyyəsi "ədalət məhkəməsindən imtina" anlamına gətirir (sanki məhkəmə prokurora deyir ki, göndərdiyin işin vəziyyəti məhkəmədə baxmaq üçün yaramır, ona görə də onu qaytarıram, özün necə bilirsən elə də həll et).

"Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 65.3-cü maddəsində (Maddə 65. Hüquqi boşluqların mövcudluğu ilə əlaqədar olan tipik sui-istifadə amilləri) dəqiqləşdirilir ki, "Hüquqi tənzimləmədə boşluqların mövcudluğu hüququn tətbiqi zamanı boşluğun dövlət orqanının (vəzifəli şəxsin) mülahizəsinə görə doldurulmasına imkan verməməlidir."

### *3.9. Qaytarılmış iş üzrə prosessual məhdudiyyətlər təsbit olunmamışdır*

Normativləşdirilmiş məhdudiyyətlərin (müddət, hərəkət və s.) yoxluğu cinayət prosesini həyata keçirən subyektləri ədalət mühakiməsi tələblərini, proses iştirakçılarının hüquqlarını nəzərə almadan özlərinin prosessual, bəzi hallarda isə, dar idarə maraqlarına uyğun davranmağa sövq edir. Praktiki müstəvidə "prosessual sərbəstlik" prinsipi təhrif edilmiş mənada, "prosessual özbaşınalıq" kimi başa düşülür və tətbiq edilir. Ona görə də, konstitusiya hüququnda, cinayət prosesində belə bir universal prinsip formalaşmışdır ki, fundamental insan hüquqlarına müdaxilə nəzərdə tutan prosedura mütləq bu müdaxiləni həyata keçirən subyektin (dövlət orqanlarının) sərbəstliyini məhdudlaşdıran normalar da müəyyən etməlidir[26].

Qeyd edilən mərhələnin normativləşdirilməsi praktiki səmərəlilik baxımından da əhəmiyyətlidir çünki, aydın və ədalətli prosedураların cinayət prosesinin effektivliyini artırması danılmaz bir həqiqətdir.

26 Bax, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 107.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 31 may 2012-ci il tarixli qərarı: "(...) Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, ümumi hüquqi tənzimləmə sistemində, müəyyənlik, aydınlıq, hüquq normalarının birmənalı və ardıcıl olması tələbləri cinayət və cinayət-prosessual qanunvericilikləri çərçivəsində xüsusi əhəmiyyət kəsb edir. Həmçinin qeyd olunmalıdır ki, CPM-in müddəalarının dəqiq və aydın olmasını tələb edən hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin ayrılmaz elementi olaraq, həm qanunvericilik, həm də hüquq tətbiqetmə fəaliyyətində, insan hüquqlarının səmərəli müdafiəsinin və prosessual ədalət prinsipinin təmin olunması üçün zəmanət yaradır."

Qaytarılmış iş üzrə hansı istintaq hərəkətləri aparıla, prosessual məcburiyyət və əməliyyat-axtarış tədbirləri tətbiq edilə bilər? Bu suala qanun cavab vermir. O, heç bir (nə konkret norma, nə dispozitiv seçim meyarı və s.) məhdudiyyət müəyyən edilmədiyinə görə, faktiki olaraq cinayət-prosessual qanunvericiliyin bütün arsenaldan istifadə edilir. Belə vəziyyəti ədalətli hesab etmək çətindir. Ən azı ona görə ki, bu mərhələdə proses iştirakçılarının fundamental hüquqları ilə bağlı məsələlər həll edilir. Məsələn, məhkəmədən qaytarılmış üzrə qətimkan tədbirinin ağırlaşdırılmasının qarşısı alınmalıdır.

Müşahidələr göstərir ki, bir çox hallarda məhkəmədən qaytarılmış iş üzrə cinayət təqibinin istiqaməti, ilkin ittihamın həcmi dəyişdirilir. Məsələn, təqsirləndirilən şəxsin barəsində cinayət təqibi üzrə icraata xitam verilir; ona qarşı yeni, daha ağır və ya daha yüngül ittiham irəli sürülür. Cinayət-prosessual qanunvericiliyində belə hərəkətləri qadağan edən normalar olmadığına baxmayaraq, belə hərəkətlər yolverilməzdir. Nəyə görə?

İlk öncə, belə qərarları ittiham sübutları ilə müəyyən manipulyasiyalar (toplama, qiymətləndirmə) etmədən çıxarmaq mümkün deyildir. Hətta, yeni ittiham sübutları toplamadan da (əslində, qanun bunu qadağan etmir) göstərilən qərarların qəbulu üçün sübutlar yenidən, bu dəfə fərqli yanaşmaqla qiymətləndirilməlidir. Bu isə, yolverilməzdir, çünki CPM-nin 303-cü maddəsi əlavə sübutların toplanması, mövcud sübutların yenidən qiymətləndirilməsi, bir sözlə ittiham sübutları ilə bağlı hər hansı bir hərəkətin edilməsini, qərarın qəbul olunmasını nəzərdə tutmur. Qaytarılmış iş üzrə ibtidai istindaq yalnız kobud pozuntuların aradan qaldırılmasına xidmət etməli, sübutlara toxunmamalıdır.

“Azərbaycan Respublikası Prokurorluğunun sorğusuna əsasən Azərbaycan Respublikası CPM-nin 43.1.1, 314.2-ci maddələrində nəzərdə tutulmuş “dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etdikdə” müddəasının şərh edilməsinə dair” 15 fevral 2008-ci il tarixli plenum qərarında (xüsusi rəy) vurğulanmışdır ki, məhkəmələr “işi əlavə istintaqa qaytarmaq yolu ilə ittihamı təsdiq edən sübutların tamamlanmasına dair tədbirlər” görməməlidir. Qeyd edilməlidir ki, postsovet məkanında da işin prokurora qaytarılmasının belə konsepsiyası üstünlük təşkil edir. Məsələn, RF Konstitusiya Məhkəməsinin 08.12.2003-cü il tarixli qərarında qəti müəyyən edilmişdir ki, cinayət işinin prokurora qaytarılması ibtidai istintaq və təhqiqatın natamamlığının aradan qaldırılması ilə bağlı olmamalıdır[27]. Bu mövqe bəzi dəyişikliklərə[28] məruz qalsa da, mahiyyəti eyni olaraq qalmışdır.

Digər tərəfdən, qaytarılmış iş üzrə ittihamın həcminin dəyişdirilməsi təqsirləndirilən şəxsin məhkəməyə göndərilmiş iş (ilkin) üzrə hüquqi statusunu qəti müəyyənləşdirmək imkanından məhrum olunması deməkdir. Qətilik baxımından məhkəmənin qəbul etdiyi yekun qərarlar hər bir halda təhqiqatçının, müstəntiqin və prokurorun qərarlarından daha üstündür. Qaytarılmış iş üzrə sübutların kəmiyyətinin və keyfiyyətinin artırılması, hətta, cinayət təqibinə xitam verilməsi təqsirləndirilən şəxsin bəraət almaq və ya daha yüngül məsuliyyətə cəlb olunmaq şanslarını xeyli azaldır. Bunlar

27 Bax: RF Konstitusiya Məhkəməsinin 08.12.2003-cü il tarixli qərarı: “Постановление от 8 декабря 2003 г. N 18-П по делу о проверке конституционности положений статей 125, 219, 227, 229, 236, 237, 239,246, 254, 271, 378, 405 И 408, а также глав 35 и 39 Уголовно-Процессуального Кодекса Российской Федерации в связи с запросом судов общей юрисдикции жалобами граждан. (...) Признать не противоречащей Конституции Российской Федерации часть первую статьи 237 Уголовно-процессуального кодекса Российской Федерации, поскольку содержащиеся в ней положения по своему конституционно-правовому смыслу в системе норм не исключают правомочие суда по ходатайству стороны или по собственной инициативе возвратить дело прокурору для устранения препятствий к его рассмотрению судом во всех случаях, когда в досудебном производстве были допущены существенные нарушения закона, не устранимые в судебном производстве, если возвращение дела не связано с восполнением неполноты проведенного дознания или предварительного следствия.”

28 Məsələn, bax: Постановление Конституционного суда РФ от 02.07. 2013 г. № 16-П/2013 “По делу о проверке конституционности положений части первой статьи 237 Уголовно-процессуального кодекса Российской Федерации в связи с жалобой гражданина Республики Узбекистан Б.Т. Гадаева и запросом Курганского областного суда”.

isə, ədalətli məhkəmə hüququnun potensial təzahürləridir.

Müşahidələr göstərir ki, müdafiə tərəfi, adətən, təcrübədə bu imkandan yararlanmağa maraq göstərmir, əksinə işin prokurora qaytarılmasına çalışır. Cinayət işinin prokurora qaytarılması obyektiv olaraq müdafiə tərəfinin marağına uyğun prosessual hərəkət deyil - nə qanunun məzmunu, nə də onun tətbiqi praktikası baxımından. Buna baxmayaraq, təcrübədə müdafiə tərəfi onu məhkəmənin hazırlıq iclasında az qala özünün prioriteti səviyyəsinə qaldırır. Belə taktikanın nə nəzəri əsası, nə də rasionallığı vardır. İttiham tərəfinə əlavə iş yükü verilməsi, bəzi vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi kimi müdafiə tərəfinin "qələbələr"i hüquqi müstəvidə elə də ciddi iz qoymur. Yenidən məhkəməyə göndərilən iş isə, bir qayda olaraq, əvvəlkindən daha təkmil olur və müdafiənin strateji şanslarını azaldır. Fikrimizcə, belə vəziyyət işin prokurora qaytarılması institutunun mahiyyətinin təhrif edilmiş şəkildə başa düşülməsi və tətbiq olunması ilə bağlıdır. Təbii ki, istisna hallar, yəni müdafiə taktikasının düşünülmüş şəkildə düzgün qurulması, müdafiənin strateji maraqlarının müvəqqəti üstünlüklərə qurban verilməməsi halları da mövcuddur.

### *3.10. Qaytarılmış iş üzrə müddət məhdudiyyətləri təsbit olunmamışdır*

CPM-nin 303.5-ci maddəsinə əsasən, prokurora qaytarılmış iş üzrə istintaq müddəti əvvəllər aparılmış məhkəməyədək icraat zamanı hesablanmış müddətə əlavə olaraq hesablanır. Bu mərhələ üçün ayrıca müddət müəyyən edilməmişdir. Müstəntiq (təhqiqatçı), prokuror faktiki olaraq istintaq müddətini diskresyon qaydada aylarla, illərlə uzatmaq imkanına malikdirlər[29].

"Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 64.3-cü maddəsində (Maddə 64. Dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə amilləri) vurğulanır ki, "Normativ hüquqi aktda diskresion səlahiyyətlərin geniş olması nəticəsində qərar qəbul etmə müddətlərinin müəyyən edilməməsinə və ya bu müddətin qeyri-müəyyənliyinə, bu və ya digər qərarın qəbul edilməsi şərtlərinin və əsaslarının qeyri-müəyyənliyinə, müxtəlif dövlət orqanlarının səlahiyyətlərinin bir-birini təkrarlamasına yol verilmir".

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 6-cı maddəsində (ədalətli məhkəmə araşdırması hüququ) göstərilir ki, "Hər kəs (...) ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, (...) ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir". İbtidai istintaq mərhələsinə qaytarılmış iş üzrə cinayət təqibinin müddəti qeyri-müəyyən olmamalıdır. Şəxsin "ədalətli məhkəmə araşdırması" hüququnun təmin edilməsi üçün "ağlabatanlıq" meyarı nəzərə alınmalıdır. Bu meyarın məzmununun konkret situasiya üçün müəyyənləşdirilməsi elə də çətin bir iş deyil. "Ağlabatan" ifadəsi Konvensiyanın orijinal (ingilis dilində) mətnində *"reasonable"* sözü ilə ifadə edilir, Azərbaycan dilinə hərfi tərcüməsi "əsası, izahı olan" deməkdir. Bizim dildə bəzən *"rezon"* sözündən istifadə edilir. Bunların hamısı konkret halda eyni məna daşıyır. Sərf edilən prosessual müddətlərin izahı, əsası, səbəbi, rezonu olmalıdır. Cinayət prosesini həyata keçirən hər bir subyekt (təhqiqatçı, müstəntiq, prokuror) bu müddətlərin zərurətini qanunun tələbləri və işin konkret halları ilə (yəni, obyektiv səbəblərlə) izah edə bilməlidir. Yalnız bu halda həmin müddət "ağlabatan" hesab edilə bilər. "Ağlabatanlığın" subyektiv mənada işlənməsi, ümumiyyətlə, yolverilməzdir.

İlk növbədə nəzərə alınmalıdır ki, qanun prokurorun (eləcə də təhqiqatçının, müstəntiqin) üzərinə bu mərhələdə yalnız ilkin ibtidai istintaq zamanı yol verilmiş kobud pozuntuları aradan qaldırmaq vəzifəsini qoyur. Bunun üçün tələb olunanların dairəsini təxmin etmək

29 Bax: CPM-nin 218-ci maddəsi.

mümkündür. Həmin dairədən kənara çıxan hərəkətlərin edilməsi "ağlabatan müddət" standartına cavab verməyəcəkdir. Zəruri hərəkətlərin isə, hansı müddət tələb etməsini müəyyənləşdirmək çətin deyil.

Bundan başqa, ibtidai istintaqla məhkəmənin hazırlıq iclasından prokurora qaytarılmış iş üzrə aparılan istintaq hərəkətləri arasında "müddət" meyarı əsasında bərabərlik işarəsi qoyulması bu hərəkətləri "əlavə ibtidai istintaq aparılması" institutuna daha da yaxınlaşdırır.

Beləliklə, cinayət təqibinin bu mərhələsində məhdudiyyətlərin tətbiqi vacibdir və onlar kobud pozuntuların aradan qaldırılmasına istiqamətlənmişlər istisna olmaqla, bütün istintaq hərəkətlərinə, xüsusən də mövcud ittiham sübutlarının qüsurlarının aradan qaldırılmasına, əlavə ittiham sübutlarının toplanmasına yönəlmiş istintaq hərəkətlərinə, prosessual məcburiyyət və əməliyyat-axtarış tədbirlərinə, ibtidai istintaq və təqsirləndirilən şəxsin həbsdə saxlanması müddətlərinə aid edilə bilər.

### *3.11. Prosessual və müddət məhdudiyyətlərinin təsbit olunması zəruri olmaqla yanaşı həm də mümkündür*

Qeyd edilən hüquqi qeyri-müəyyənliklərin aradan qaldırılması, institutun cinayət prosesi mexanizmində özəl yerini tutması, xüsusən də tarixi əlavə ibtidai istintaq aparılması üçün işin prokurora qaytarılması institutundan aralanması məqsədi ilə normativ qaydada müəyyən məhdudiyyətlərin tətbiqi zəruri görünür. Geniş mənada bu, ədalət mühakiməsinin, hüquq mədəniyyətinin inkişafına təkan verər, bu inkişafı düzgün istiqamətə yönəldə bilər.

Bəs bu məhdudiyyətlərin tətbiqi mümkündürmü? Mümkündürsə, hansı qaydada həyata keçirilməlidir? Onlar normativ qaydada müəyyən edilməlidir və ya hər bir konkret iş üçün ayrıca məhkəmə qərarının çıxarılması kifayətdir?

Əgər qanun norması ilə məhdudiyyət müəyyən edilərsə, məhkəmə qərarında onların təkrarlanmasına ehtiyac qalmaz. Belə normanın olmaması məhdudiyyətlərə dair məhkəmə qərarını hüquqi (daha dəqiq desək, qanuni) əsasdan məhrum edə bilər. Prinsip etibarı ilə məhkəmənin belə qərar qəbul etməyinə formal maneələr yoxdur. CPM-nin 303.2-ci maddəsi işin baxılmasına xitam verilməsi və prokurora qaytarılmasına dair qərarların əsaslandırılmasını tələb edir. Qanun, həmçinin, hakimlərin müstəqilliyini pozan normativ hüquqi aktların tətbiqini qadağan edir (CPM-nin 2.4-cü maddəsi). Hakimlər ədalət mühakiməsini həyata keçirərkən tam prosessual sərbəstliyə malikdirlər[30], cinayət prosesini həyata keçirən orqanların ibtidai araşdırmada gəldikləri nəticələrlə bağlı deyillər[31].

Digər tərəfdən, belə prosessual müstəqilliyə prokuror, müstəntiq və təhqiqatçı da malikdir[32]. Məhkəmənin qərarında təsbit olunmuş məhdudiyyətlərin nəzərə alınması barədə bilavasitə qadağanedici qanun normasının yoxluğu şəraitində çətin ki onlar qərarın tələbləri çərçivəsində hərəkət etsinlər, məhdudiyyətlərin çərçivəsindən kənara çıxmasınlar. Həm də, nəzərə alınmalıdır ki, məhkəmənin qərarındakı məhdudiyyətlər ibtidai araşdırmaya prosessual rəhbərliyi xatır-

30 Bax: CPM: "25.3. Hakimlər və andlı iclasçılar cinayət işlərini və ya cinayət təqibi ilə bağlı digər materialları məhkəmə iclasında cinayət prosesi tərəflərinin təqdim etdikləri sübutların tədqiqinə əsaslanan öz daxili inamı və hüquq düşüncəsi ilə həll edirlər."

31 Bax: orada: "25.2. Hakimlər və andlı iclasçılar cinayət prosesini həyata keçirən orqanların ibtidai araşdırmada gəldikləri nəticələrlə bağlı deyillər."

32 Bax : orada: "84.1. Cinayət təqibini həyata keçirərkən prokuror cinayət işinin bütün hallarının tədqiqi nəticəsinə əsaslanaraq yalnız qanunun tələblərini və daxili inamını rəhbər tutur. (...) 85.1. Cinayət təqibini həyata keçirərkən müstəntiq qanunun tələblərini rəhbər tutaraq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir, istintaq və ya digər prosessual hərəkətləri həyata keçirir. (...) 86.1. Cinayət təqibini həyata keçirərkən təhqiqatçı qanunun tələblərini rəhbər tutaraq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun göstərişlərinə və öz daxili inamına əsaslanaraq, zəruri prosessual qərarlar qəbul edir, öz səlahiyyətləri daxilində istintaq və ya digər prosessual hərəkətləri həyata keçirir."

latmamalıdır, yəni qərarı ilə məhkəmə ittiham funksiyasını icra etmiş olmamalıdır.

Göründüyü kimi, qanuni mexanizmin olmaması prosessual dalan yaradır. Deməli, məhdudiyyətlərin məhkəmə qərarı ilə tətbiqi istisna edilir. Qalır bu məhdudiyyətlərin normativ qaydada, yəni cinayət-prosessual qanunvericiliyi norması ilə müəyyənləşdirilməsi.

### *3.12. Fərdi hüquqa müdaxilə imkanlarının geniş təfsir olunmasına şərait yaradan əsaslar mövcuddur (CPM 303.3.6-cı maddəsi)*

İşin məhkəmənin hazırlıq iclasından ibtidai istintaq mərhələsinə, prokurora qaytarılması cinayət prosesinin normal gedişini, ahəngini pozur. Cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulan bütün "geriyə dönüş" halları prosesin məqsədini daha da uzaqlaşdırır. Lakin bunlar cinayət prosesinin əsas prinsiplərinin (qanunçuluq, ədalət və s.) təmin edilməsi üçün zəruri olan addımlardır. Belə hallar, eyni zamanda, cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarını məhdudlaşdırır, onlara müdaxilə edir. Məsələn, əgər təqsirləndirilən şəxsin barəsində həbs qətimkan tədbiri seçilmişdirsə, işin məhkəmənin hazırlıq iclasından prokurora qaytarılması onun azadlıq hüququnun məhdudlaşdırılmasını artırır (müddət baxımından). İşin məhkəmə mərhələsindən yenidən məhkəməyədək mərhələyə qaytarılması yekun məhkəmə qərarının vaxtını geri çəkməklə məhkəmə tərəfindən hər kəsin işinə ağlabatan müddətdə baxmaq hüququnu məhdudlaşdırır.

Nə qədər ki işin prokurora qaytarılması fundamental hüquqlara müdaxilədir, bu müdaxilənin hüdudları qanunla dəqiq müəyyənləşdirilməlidir.

İşin prokurora qaytarılmasının əsaslarından biri CPM-nin 303.3.6-cı maddəsində nəzərdə tutulmuş "cinayət işi üzrə ittiham aktının və ya məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun müvafiq olaraq bu Məcəllənin 289[33] və 290.3.2-ci[34] maddələrinin və ya 296.2-ci[35] maddəsinin tələblərinə uyğun olmaması"dır. Birinci maddə ittiham aktının, 3-cü maddə məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun məzmununa dair tələblər, ikinci maddə isə, prokuror tərəfindən ittiham aktına baxılarkən yoxlanılmalı olan hallar barədədir.

Qeyd edilən maddələr qeyri-müəyyən anlayışlar, normalar və mexanizmlərlə boldur. Məsələn, "məhkəmə xərcləri barədə arayış" (CPM-nin 289.5-ci maddəsi) dedikdə, qanunvericinin hansı məzmunlu arayışı nəzərdə tutduğu aydın deyil. Məhkəmə prosesi başlamamış onun xərclərini necə hesablamaq və bəri başdan bunu kimin üzərinə qoymaq olar? Əgər nəzərdə tutulan bunlar deyildirsə, bəs nədir?

CPM-nin 289.3.6-cı maddəsi tələb edir ki, ittiham aktında təqsirləndirilən şəxsin məsuliyyətini yüngülləşdirən hallar göstərilməlidir. Cinayət qanunu belə halların sayını məhdudlaşdırmır. Təcrübədə də CM-nin 59-cu maddəsində sadalanmamış halların məhkəmələr tərəfindən nəzərə alınması hallarına kifayət qədər tez-tez rast gəlmək mümkündür. Məsələn, hazırlıq iclası zamanı məhkəmə müəyyən edir ki, icraat materiallarında cəzanı yüngülləşdirən hal var, bu hal nə CM-nin 59-cu maddəsində qeyd edilməmiş, nə də ittiham aktında göstərilməmişdir. Qanunun hərfi mənasına görə, məhkəmə işi prokurora qaytarmalıdır.

CPM-nin 289.8.3-cü maddəsinə əsasən, ittiham aktına müsadirə olunması təklif edilən cinayət törədərkən istifadə olunan alət və va-

---

33 Bax: CPM: "Maddə 289. İttiham aktı".

34 Bax: orada: "Maddə 290. Prokuror tərəfindən ittiham aktına baxılması. 290.3. Cinayət işinin ittiham aktı ilə daxil olduğu vaxtdan 5 (beş) gün müddətində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror aşağıdakı qərarlardan birini qəbul etməlidir: (...) 290.3.2. öz qərarı ilə ittiham aktının məzmunundan ayrı-ayrı bəndləri xaric etmək, ittiham aktındakı tövsiflə müqayisədə əməli cinayət qanununa uyğun olaraq daha yüngül məsuliyyət nəzərdə tutan cinayətə tövsif etmək və bu dəyişikliklərlə ittiham aktını təsdiq etmək;"

35 Bax: orada: "Maddə 296. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılması nəticələrinə dair yekun protokolu. 296.2. Böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraatın aparılması nəticələrinə dair yekun protokolunda aşağıdakılar göstərilir:"

sitələr, cinayətin predmetləri, cinayət yolu ilə əldə edilmiş əmlak, habelə cinayət yolu ilə əldə edilmiş əmlak və ya cinayətin predmeti istifadə edildiyi, özgəninkiləşdirildiyi və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində təqsirləndirilən şəxsə məxsus olan pul və ya digər əmlak barədə arayış da əlavə edilməlidir. Burada dövlət nəfinə alına bilməməyin "başqa səbəblər"i nələri nəzərdə tutur? Və ya "digər əmlak" anlayışı nələri əhatə edir? Əgər təqsirləndirilən şəxsə məxsus bütün əmlak nəzərdə tutulursa, onda mətnin əvvəlki hissəsindəki təsnifata nə ehtiyac var idi; elə qısaca "təqsirləndirilən şəxsə məxsus müsadirə olunması təklif edilən əmlak" yazmaq yaxşı olmazdımı? Yəni, bunlar işin prokurora qaytarılması üçün istənilən sayda bəhanə tapmağa imkan yaradır.

CPM-nin 289, 290 və 296-cı maddələrinin qeyd edilən və edilməyən qeyri-müəyyənlikləri özlüyündə bəlkə də lazımlı normalardır və onlar hansısa zərurətlə bağlıdırlar. Problem o vaxt yaranır ki, onlar işin prokurora qaytarılması üçün əsas rolunda çıxış edirlər. Bu maddələrin məzmunu məhkəmələr tərəfindən geniş təfsir, ardınca isə proses iştirakçılarının hüquqlarına müdaxilə üçün sonsuz və qarşısıalınmaz imkanlar yaradır.

Cinayət mühakiməsinin ədalətlə həyata keçirilməsi isə, fərdi hüquqlara müdaxilənin məhdudlaşdırılmasını, bu hüdudların aydın göstərilməsini tələb edir. Avropa Məhkəməsi hüquqi müəyyənliyi Konvensiya hüququnun ayrılmaz xassəsi hesab etdiyini[36] və onun "hüququn aliliyinin əsas aspektlərindən biri" olaraq "məhkəmələr tərəfindən işlərin qəti həlli zamanı onların qərarlarının şübhə yaratmamasını" tələb etdiyini dəfələrlə vurğulamışdır[37]. Məhkəmənin qənaətinə görə, "məhkəmələr əsaslandıqları motivləri kifayət dərəcə aydınlıqla göstərməlidirlər. O cümlədən məhz bu, ittiham olunan şəxsə ona verilən şikayət hüququndan fayda ilə istifadəni mümkün edir[38] .

Bundan başqa, qeyd edilən maddələr CPM-nin 303.3.6 və 300.1.5-ci maddələri ilə birlikdə götürəndə məhkəmələrin üzərinə faktiki olaraq ittiham funksiyası yerinə yetirmək öhdəliyi qoyulduğu açıq-aydın görünür. İttiham hakimiyyətinin vəzifələri şəxslərin öz prosessual öhdəliklərini yerinə yetirmələrinə, qanunla yalnız onlara həvalə olunmuş hərəkətlərin edilməsinə və prosessual sənədlərin tərtibatına nəzarət etmək, bu fəaliyyəti "reviziya" etmək və s. - "ədalət mühakiməsini həyata keçirmək" funksiyasına aid olmayan vəzifələrdir. CPM-nin 84.8, 85.5-ci maddələrinin məzmunundan görünür ki, "cinayətin tövsifi, ittihamın həcmi, işin icraatına xitam verilməsi və ya məhkəməyə göndərilməsi" barədə prokurorun mövqeyi "yuxarı prokuror" tərəfindən düzəlişlərə məruz qala bilər. CPM-nin 290.3.2-ci maddəsi eyni imkanları məhkəməyə verir – "ittiham aktının məzmunundan ayrı-ayrı bəndləri xaric etmək, ittiham aktındakı tövsiflə müqayisədə əməli cinayət qanununa uyğun olaraq daha yüngül məsuliyyət nəzərdə tutan cinayətə tövsif etmək və bu dəyişikliklərlə ittiham aktını təsdiq etmək". Məhkəmənin və "yuxarı prokuror"un prosessual vəzifələri bu hissədə, demək olar ki, eynidir.

Prosessual funksiyaların bölünməsi, məhkəmənin bitərəfliyi və müstəqilliyi prinsiplərinin çəkişmə modelli cinayət prosesinin təməl prinsiplərindən olduğu yuxarıda qeyd edilmişdir. CPM-nin 2.4-cü maddəsində vurğulanmışdır ki, "cinayət-prosessual fəaliyyət daxilində insan və vətəndaş hüquq və azadlıqlarını ləğv edən və ya məhdudlaşdıran, hakimlərin müstəqilliyini və ədalət mühakiməsinin həyata keçirilməsində çəkişmə prinsipini

36 Bax: Case of Marckx v. Belgium (Appl.no. 6833/74), Judgment 13.06.1979, p.58: "the principle of legal certainty, (…) is necessarily inherent in the law of the Convention".
37 Bax: Case of Brumarescu v.Romania (Appl.no.28342/95), Judgment 28.10.1999, p.61: "One of the fundamental aspects of the rule of law is the principle of legal certainty, which requires, inter alia, that where the courts have finally determined an issue, their ruling should not be called into question."
38 Bax: Case of Hadjianastassiou v. Greece (Appl.no.12945/87), Judgment 16.12.1992, p.33: "The national courts must, however, indicate with sufficient clarity the grounds on which they based their decision. It is this, inter alia, which makes it possible for the accused to exercise usefully the rights of appeal available to him."

pozan, əvvəlcədən sübutlara müəyyən hüquqi qüvvə verən normativ hüquqi aktlar tətbiq edilə bilməz". CPM-nin 303.3.6-cı maddəsinin bu tələbləri ödədiyi açıq-aydın görünür.

### *3.13. Xüsusi qərar çıxarılması cinayət prosesinin fundamental prinsiplərinə uyğun deyil*

CPM-nin 300.3-cü maddəsində göstərilmişdir ki, bu Məcəllənin 300.1.5-ci maddəsində nəzərdə tutulmuş qərarı (cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə) çıxarmaqla yanaşı məhkəmə həmçinin məhkəməyədək icraat zamanı bu Məcəllənin 303.3-cü maddəsində göstərilən kobud pozuntulara yol vermiş şəxslər barəsində xüsusi qərar çıxarmalıdır. CPM-nin 307.2-ci maddəsində dəqiqləşdirilmişdir ki, xüsusi qərarda "işin mahiyyəti, dəqiq olaraq bu Məcəllənin 303.3-cü maddəsində nəzərdə tutulmuş kobud pozuntulardan hansı pozuntu və kimin tərəfindən yol verildiyi ətraflı göstərilməlidir". Daha sonra müəyyən edilmişdir ki, müvafiq "vəzifəli şəxslər həmin qərar onlara daxil olduqdan sonra 30 (otuz) gündən gec olmayan müddətdə" "Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq kobud pozuntulara yol vermiş şəxslərin məsuliyyəti məsələsini" həll etməli və "görülmüş tədbirlər barədə məhkəməyə məlumat vermə"lidirlər (CPM-nin 307.4-cü maddəsi).

Məhkəmələrin xüsusi qərar çıxarmalarının məqsədi qanunda aydın və birmənalı ifadə edilmişdir: kobud pozuntulara yol vermiş şəxslərin məsuliyyəti məsələsini həll etmək. Diqqət yetirin – kobud pozuntulara yol verilməməsi üçün qabaqlayıcı təşkilati tədbirlərin həyata keçirilməsi və s. bu kimi məqsədlər yox, konkret vəzifəli şəxslərin (və ya şəxsin) barəsində intizam tənbehi tətbiq etmək. Bu vəzifəli şəxslər hüquq mühafizə orqanlarının və ya prokurorluğun müstəntiqləri və ya prokurorlar ola bilər.

İşçilərin intizam tənbehinə cəlb edilməsi müvafiq orqanlarda, məsələn, prokurorluq orqanlarında qulluğun idarə olunmasında istifadə edilən vasitədir. "Prokurorluq orqanlarında qulluq keçmə" haqqında qanuna əsasən, intizam tənbehi prokurorluq işçisinə "xidməti intizamı pozduğuna və vəzifələrini layiqincə icra etmədiyinə görə" verilir (Maddə 26. İntizam məsuliyyətinin növləri) və işçi "verilmiş intizam tənbehindən nəticə çıxararaq nümunəvi davranarsa və xidməti vəzifələrini vicdanla yerinə yetirərsə intizam tənbehi vaxtından əvvəl götürülə bilər" (Qanunun 27.9-cu maddəsi). Qanunun mənasına görə intizam tənbehinin profilaktiki məqsədi işçiləri nümunəvi davranmağa, xidməti vəzifələri vicdanla yerinə yetirməyə stimullaşdırmaqdır.

Deməli, dolayısı ilə məhkəmə xüsusi qərarla bu məqsədə - prokurorluq orqanlarında işçilərin nümunəvi davranmalarını, xidməti vəzifələrini vicdanla yerinə yetirmələrini təmin etməkdə prokurorluğun rəhbərliyinə yardım etmək məqsədinə xidmət göstərmiş olur. Xüsusi qərarı məlumat xarakterli bir sənəd adlandırmaq mümkün deyil. "Görülmüş tədbirlər barədə məhkəməni məlumatlandırmaq" mexanizmi məhkəmənin bu orqanlarla bağlılığını daha da möhkəmləndirir. Belə məlumatı almış məhkəmə nəsə etməlidir, məntiq bunu tələb edir, əks təqdirdə, qanunla belə mexanizmin təsbit edilməsinin mənası olmazdı. Qanunda bu məsələyə aydınlıq gətirilməsə də, intizam məsuliyyətinə cəlb etmə mexanizminin səmərəli işləməsi üçün o, kifayət qədər təsirli vasitədir.

Cinayət-prosessual qanunvericiliyə görə, prokuror və prokurorluğun müstəntiqi ittiham hakimiyyətinin nümayəndələridir və cinayət prosesində ittiham tərəfini təmsil edirlər. İttiham hakimiyyətinin idarəçilik məsələlərinin daha səmərəli şəkildə həllinə yardım etməklə məhkəmə özünün bitərəfliyinə, eləcə də çəkişmə prinsipinə kölgə salmış olur.

Məhkəmənin üzərinə qoyulmuş bu vəzifə funksionallıq baxımından da qüsurludur. Prokurorluğun və hüquq mühafizə orqanlarının fəaliyyətini təkmilləşdirməyə kömək edən addım atmaqla məhkəmə faktiki olaraq cinayətkarlığa qarşı mübarizəyə yardım etmiş olur. Bu

isə ədalət mühakiməsinin həyata keçirilməsi funksiyası ilə bir araya sığmayandır. Məhkəmə cinayətkarlıqla mübarizə aparan orqan deyildir. Bu prinsip qanunvericilikdə əksini ardıcıllıqla tapmalıdır.

"Xüsusi qərar" institutunun prosessual-hüquqi mahiyyəti də mübahisəlidir, daha dəqiq ifadə etsək, qüsurludur. CPM-nin 1.1-ci maddəsində dəqiqləşdirilmişdir ki, "Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamağını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamağını, habelə cinayət qanunu ilə nəzərdə tutulmuş əməlləri törətməkdə şübhəli və ya təqsirləndirilən şəxsin cinayət təqibinin və müdafiəsinin hüquqi prosedurlarını müəyyən edir". Bu qanunvericiliyin təyinatında cinayət təqibini həyata keçirən şəxslərin öz vəzifələrini (xidməti və ya prosessual) layiqincə yerinə yetirməsi, cinayət təqibini həyata keçirən orqanlarda xidməti və icra intizamının möhkəmləndirilməsi və s. bu kimi məqsədlər bəyan edilməmişdir. Ortaya sual çıxır – bəs CPM-nin 307-ci maddəsinin təyinatı bu Məcəllənin 1.1-ci maddəsində göstərilənlər arasında yoxdursa, onun bu qanuna daxil edilməsində məntiq nədən ibarətdir?

Xüsusi qərar çəkişmənin predmetidir, yoxsa, yox? Onun çıxarılması direktiv qaydada məhkəmədən tələb edilsə də, bunun mexanizmi qanunda göstərilməsə də, məhkəmədə həll olunan məsələ kimi tərəflərin iştirakı ilə müzakirə edilməsi məntiqlidir. Məhkəmə prosedurlarını tam keçməmiş hər hansı bir məsələnin məhkəmənin adından tərtib edilmiş sənəddə əks etdirilməsi düzgün deyil. Belə olan halda, cinayət mühakiməsinin həyata keçirilməsi ilə bilavasitə əlaqəsi olmayan bir prosedurada tərəflərdən birinin digər tərəfin (ittiham tərəfinin) nümayəndəsinin intizam məsuliyyətinə cəlb olunması ilə nəticələnəcək fikirlər söyləməsini, onu konkret dəlillərlə əsaslandırmasını, bu yolla qərarın məzmununa təsir etməsini nə qədər ədalətli, balanslı yanaşma hesab etmək olar? İttiham tərəfinə də digər tərəfə münasibətdə eyni imkanlar yaradılmırsa, bu prosesi tərəflərin hüquq bərabərliyi ilə çəkişməsi adlandırmaq çətindir.

Qeyd edilənlər göstərir ki, işin prokurora qaytarılması zamanı məhkəmələr tərəfindən prokurorlar, müstəntiqlər və təhqiqatçılar barəsində xüsusi qərarlar çıxarılması onların statusuna, cinayət prosesinin fundamental prinsiplərinə uyğun deyil.

Məhkəmənin hazırlıq iclasının nəticələrinə dair xüsusi qərarın çıxarılmasına işin prokurora qaytarılması institutunun təhlilinə həsr edilmiş məqalədə yer ayrılması ilk baxışdan əsaslı görünmür. Xüsusi qərar CPM-nin 300.1.5-ci maddəsində göstərilən "qərarla yanaşı" çıxarılır, ən azı zaman baxımından onun mahiyyətinə təsir etmək imkanından məhrum olur, yalnız intizam məsuliyyəti məsələlərini həll edir. Əslində belə deyil, xüsusi qərarın iş üzrə cinayət mühakimə icraatına təsiri var və bu təsir əhəmiyyətlidir. Xüsusi qərar nəticəsində intizam məsuliyyətinə cəlb etmək təhdidi altında olan müstəntiq və ya prokurorun həmin iş üzrə "Azərbaycan Respublikası Prokurorluğu işçilərinin etik davranış Kodeksi"nin 14-cü maddəsinin tələblərinə uyğun olaraq "qərarlar qəbul edərkən və xidməti vəzifələrini yerinə yetirərkən ədalətli və qərəzsiz olmalı" tələbinə əməl edəcəkləri inandırıcı görünmür.

Adətən, müstəntiqin (təhqiqatçının) və prokurorun intizam məsuliyyətinə cəlb olunmaları xeyli vaxt aparır. Bu müddət ərzində iş yenidən məhkəməyə göndərilmiş olur (və ya digər yekun qərar qəbul edilir). Təcrübədə də, işçinin intizam məsuliyyətinə cəlb edilməsi məsələsi iş üzrə yekun qərar çıxarılan ana kimi təxirə salınır. İntizam məsuliyyətindən yaxa qurtarmaq və ya onun dərəcəsini azaltmaq üçün bu şəxslərin nəyin bahasına olursa-olsun əvvəlki mövqelərini həyata keçirəcəkləri məntiqlidir və praktikada da belə hallara rast gəlmək mümkündür. Bu isə ədalət mühakiməsinin məqsədləri ilə uzlaşmır.

*(ardı var)*

**Nazir Bayramov,**
*Elm-Tədris Mərkəzinin rəisi,*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

**Hörmətli oxucular!**

“Azərbaycan Prokurorluğu” jurnalının redaksiyası yeni – “Diskussiya klubu” adlı rubrika açır. Rubrikada qanunvericiliyin, məhkəmə-istintaq təcrübəsinin problemləri, elmi-nəzəri baxışlar, metodiki bilgilər və s. bağlı mövzular üzrə müzakirələr təşkil ediləcək. Maraqlı fikir və təkliflər jurnalda dərc olunacaq. Redaksiya heyəti oxuculara bu rubrika çərçivəsində daha fəal əməkdaşlığa dəvət edir.

## “Qəsdən sağlamlığa yüngül zərər vurma” əməlinin dekriminalizasiyası prespektivləri barədə

Cinayətkarlığa qarşı mübarizəyə ayrılan ictimai (dövlət) resursların miqdarı ilə cinayətin cinayət-hüquqi xarakteristikası və ağırlıq dərəcəsi arasında korrelyasiya əlaqəsi çox zəif və şərtidir. Demək olmaz ki, qəsdən adam öldürmə cinayətinə sərf olunan resurs xuliqanlıq cinayətinə sərf olunan resursdan çoxdur və ya az ağır cinayətə sərf olunan resurs xüsusilə ağır cinayətə sərf olunandan azdır. Təcrübə göstərir ki, bu, hər bir konkret işin xüsusiyyətlərindən asılı olur, bəzən böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərin açılmasına, istintaqına və s. daha ağır cinayətlərə sərf olunandan xeyli artıq resurs tələb edilir.

Qeyd edilənlərə əsasən, cinayətkarlığa qarşı mübarizəyə sərf olunan ictimai resursların (əməliyyat-axtarış, təhqiqat, istintaq, məhkəmə baxışı, cəza çəkmə, sosial reabilitasiya tədbirləri və s.) cinayətlərin xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olmayaraq bərabər paylanması prezumpsiyasının mövcudluğunu irəli sürmək olar. Bu prezumpsiya cinayətkarlıqla mübarizədə resursların ədalətli paylanmamasının əsasını təşkil edir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin internet səhifəsində yerləşdirdiyi statistik məlumatlara əsasən, 2013-cü ildə bütün uçot subyektləri üzrə 22381 cinayət qeydə alınmışdır. Daxili işlər və prokurorluq orqanları üzrə qeydə alınmış cinayətlər 20465 fakt təşkil etmişdir. Onların 52,7% (10781) az ağır, 33,1% (6774) böyük ictimai təhlükə törətməyən və 14,2% (2910) ağır və xüsusilə ağır növlərə aiddir.

Rəqəmlər göstərir ki, cinayətlərin əksər hissəsini ağır və xüsusilə ağır olmayan cinayətlər (85,8%) təşkil etmişdir. Belə cinayətlər dövlətin, cəmiyyətin və şəxsiyyətin maraqlarına elə də ciddi ziyan vurmur. Lakin cinayətkarlıqla mübarizəyə ayrılan dövlət resurslarının (insan, maddi-texniki, maliyyə və s.) əhəmiyyətli hissəsi bu cinayətkarlığa (böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətkarlıq) qarşı mübarizəyə yönəldilir. Böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərin ictimai təhlükəsizliyi nisbətən aşağı olmasına, dövlət və cəmiyyət üçün ciddi təhlükə törətməməsinə baxmayaraq, onlarla mübarizəyə cəmi cinayətkarlığa qarşı mübarizəyə yönəldilən resursların təxminən yarısı sərf olunur. Bu, ədalətsizlikdir, çünki, cinayətkarlıqla mübarizəyə yönəldilən resursların miqdarının mövcud və potensial təhdidlərin xarakterindən asılı olması daha məntiqlidir. Ona görə də, mövcud cinayət qanunvericiliyində böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər kimi təsnif edilən cinayətlərin sayının azaldılması, onlarla bağlı cinayət prosesinin sadələşdirilməsi istiqamətində əsaslı tədbirlər həyata keçirilməlidir.

İlk növbədə Cinayət Məcəlləsindən 128-ci maddəsinin[1] çıxarılmasına baxıla bilər. Bu maddədə nəzərdə tutulmuş əmələ görə cinayət məsuliyyətinin inzibati məsuliyyətlə əvəzlənməsi mümkündür. Belə əvəzləmə nəticəsində dövlətin, ictimaiyyətin və fərdlərin maraqlarına zərər təhdidi olmayacaqdır. Maddənin sanksiyası inzibati hüquqpozmalara görə nəzərdə tutulan sanksiyalardan əhəmiyyətli dərəcədə fərqlənmir. Digər tərəfdən, bu növ cinayətlərin araşdırılmasına, şəxslərin barəsində cinayət təqibi həyata keçirilməsinə, mühakiməyə, cəzanın çəkilməsinə və s. sərf olunan vəsaitə qənaət ediləcək.

Bunun üçün Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 38-1-ci maddəsində (Maddə 38-1. Döymə)[2] dəyişiklik etmək kifayətdir.

---

1 Bax: Azərbaycan Respublikasının Cinayət Məcəlləsi: “Maddə 128. Qəsdən sağlamlığa yüngül zərərvurma. Sağlamlığın qısa müddətə pozulmasına və ya ümumi əmək qabiliyyətinin cüzi itirilməsinə səbəb olmuş qəsdən sağlamlığa yüngül zərər vurma - üç yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır”

2 Bax: Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi: “Maddə 38-1. Döymə. Döymə və ya sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə - beş yüz manatdan min manatadək miqdarda cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla iki ayadək müddətə inzibati həbs tətbiq olunur. Qeyd: 1. Bu maddədə nəzərdə tutulmuş əməl sağlamlığa ağır, az ağır və ya yüngül zərər vurmaqla törədildikdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur. 2. Bu maddədə nəzərdə tutulmuş inzibati xəta haqqında iş üzrə icraat yalnız zərərçəkmiş şəxsin ərizəsi əsasında başlanılır. 3. Bu maddədə nəzərdə tutulmuş inzibati xətanı törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda inzibati xəta haqqında iş üzrə icraata xitam verilir.”

Maddənin "Qeyd"inin 1-ci bəndində göstərilmişdir ki, "Bu maddədə nəzərdə tutulmuş əməl sağlamlığa ağır, az ağır və ya yüngül zərər vurmaqla törədildikdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur." Bu mətndə "ağır, az ağır və ya yüngül" sözlərini "ağır və ya az ağır" sözləri ilə əvəz etməklə buna nail olmaq mümkündür.

Qəsdən sağlamlığa yüngül zərər vurma cinayətinin inzibati hüquqpozmalara aid edilməsi nəinki resurslara qənaət edilməsi, həmçinin, insan hüquqlarının daha dolğun və səmərəli müdafiəsi baxımından da zəruridir. Təklif olunan dəyişiklik zərərçəkmiş şəxslərin hüquqlarının daha səmərəli tanınmasına və müdafiəsinə yönəlmiş müasir kriminoloji tendensiyaya uyğundur. İXM-nin 38-1-ci maddəsinin "qeyd"ində göstərilmişdir: "2. Bu maddədə nəzərdə tutulmuş inzibati xəta haqqında iş üzrə icraat yalnız zərərçəkmiş şəxsin ərizəsi əsasında başlanılır. 3. Bu maddədə nəzərdə tutulmuş inzibati xətanı törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda inzibati xəta haqqında iş üzrə icraata xitam verilir." Bu əməl cinayət hesab edildikdə, zərərçəkmiş şəxsin prosessual hüquqları xeyli azdır. Məsələn, əməli törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda onun barəsində başlanmış icraata xitam verilmir. Bunun üçün müstəntiqin, təhqiqatçının və prokurorun ümumi razılığına da ehtiyac vardır. [3]

Digər tərəfdən, CM-nin 128-ci maddəsinin mövcud konstruksiyası yuridik texnika baxımından kifayət qədər qeyri-müəyyəndir. "Qısa müddət", "ümumi əmək qabiliyyəti", cüzi itirilmə" kimi anlayışlarda subyektivlik elementləri həddən artıqdır. Praktikada bu, hüquqi özbaşınalıqlara səbəb olur. Təcrübə göstərir ki, şəxsin məsuliyyətə cəlb edilib-edilməməsi məhkəmə-tibb ekspertizasının qeyri-müəyyən arqumentli rəyindən asılı olur. Qəsdən sağlamlığa yüngül zərər vurmanın "sağlamlığın qısa müddətə pozulmasına və ya ümumi əmək qabiliyyətinin cüzi itirilməsinə" səbəb olmuş və ya olmamış növləri arasında sərhəd yayğındır, obyektiv meyarlardan məhrumdur. Sağlamlığa vurulmuş zərərlərin izləri isə, qısa müddət ərzində itir. Rəy isə adətən, bu izlər itəndən sonra tərtib və təqdim edilir. Faktiki olaraq ekspert rəyini şübhə altına almaq, onu mübahisələndirmək imkanları olmur. Bu, cinayət prosesi iştirakçılarının (zərərçəkmiş şəxsin, təqsirləndirilən şəxsin) hüquqlarının hüdudlarını daraldır. Belə qeyri-müəyyən konstruksiyalı əmələ görə cinayət məsuliyyəti təsbit olunmasını proporsionallıq prinsipinə uyğun hesab etmək mümkün deyildir.

İnzibati hüquqpozmalar üzrə insan hüquqlarının təmin edilməsi, xüsusən də müdafiə standartları cinayətlər üzrə mövcud olan standartlardan fərqlidir. Sonuncular kifayət qədər yüksəkdir. Bunun səbəbi odur ki, cinayət nəticəsində insan hüquqlarına və azadlıqlarına təhdidlər daha real və ciddidir. Onları qarşılamaq üçün nəzərdə tutulan mexanizmlər də adekvat səviyyəli olmalıdır. CM-nin 128-ci maddəsinin qeyd edilən konstruktiv xüsusiyyətləri cinayətlər üçün müəyyənləşdirilmiş (məsələn, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ ilə) müdafiə standartlarına cavab vermir. Həmin xüsusiyyətlər inzibati hüquqpozmalar üçün məqbul hesab edilə bilər.

Göründüyü kimi, Cinayət Məcəlləsindən "qəsdən sağlamlığa yüngül zərər vurma" əməlinin çıxarılması dövlətin cinayətkarlıqla mübarizəyə ayırdığı resurslara xeyli qənaət edilməsinə, əməlin özünün xarakterini isə insan hüquqlarının müdafiə standartlarına uyğunlaşdırılmasına, subyektlərin hüquqlarının daha səmərəli müdafiəsinə səbəb ola bilər.

**Nazir Bayramov,**
*Elm-Tədris Mərkəzinin rəisi,*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

3 Bax: Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi: "37.3. İctimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti əsasında və ya bu Məcəllənin 37.5-ci maddəsində nəzərdə tutulmuş hallarda prokurorun təşəbbüsü ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (...) 128 (...) -ci maddələrində göstərilən cinayətlərə görə həyata keçirilir. 37.4. İctimai-xüsusi ittiham qaydasında cinayət təqibinə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-cü maddəsində nəzərdə tutulmuş hallardan başqa zərər çəkmiş şəxslə təqsirləndirilən şəxsin barışması ilə əlaqədar xitam verilə bilməz." (...) Maddə 40. Cinayət təqibinin həyata keçirilməməsinə imkan verən hallar. 40.1. Cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət məsuliyyətindən və cəzadan azad etmə hallarının mövcudluğu cinayət təqibinin həyata keçirilməməsinə imkan verir. 40.2. Şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72—74-cü maddələrində nəzərdə tutulmuş aşağıdakı hallarda təhqiqatçının və müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmaya və ya ona xitam verilə bilər: 40.2.1. səmimi peşmanlıq çəkdikdə; 40.2.2. zərər çəkmiş şəxslə barışdıqda; 40.2.3. şərait dəyişdikdə;"

*Nemo prudens punit, quia peccatum est,*
*sed ne pecsetur* [1]. *(Seneka)* [2]

## Cinayət məsuliyyətindən azad etmənin maddi-hüquqi əsaslarının dairəsi genişləndirilə bilər

Cinayət məsuliyyətindən azad etmənin cinayət-hüquqi əsasları Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72-74-cü maddələrində[3] təsbit olunmuşdur. Bu əsaslara görə ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs könüllü gəlib təqsirini boynuna aldıqda, cinayətin üstünün açılmasına fəal kömək etdikdə, cinayət nəticəsində dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri başqa yolla aradan qaldırdıqda və ya zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda, həmçinin, ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət və ya az ağır cinayət törətmiş şəxs şəraitin dəyişməsi nəticəsində törədilmiş əməlin və ya bu əməli törətmiş şəxsin ictimai təhlükəli olmadığı müəyyən edildikdə cinayət məsuliyyətindən azad edilə bilərlər.

Ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxslər müstəsna hallarda, yalnız Cinayət Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində bilavasitə müəyyən edilmiş hallarda səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad edilə bilərlər. Məsələn, Cinayət Məcəlləsinin 214-1-ci maddəsi (Terrorçuluğu maliyyələşdirmə) ilə nəzərdə tutulan əməli törətmiş şəxs hakimiyyət orqanlarını vaxtında xəbərdar etməklə və ya başqa üsulla bu cür terrorçuluq əməlinin qarşısının alınmasına yardım etdikdə və onun əməlində başqa cinayətin tərkibi olmadıqda, cinayət məsuliyyətindən azad edilir.

Azərbaycanın cinayət hüququ cinayətləri xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq 4 sinfə - böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır siniflərinə bölmüşdür[4]. Qeyd edilməlidir ki, bu təsnifat yeganə deyil. Diqqət yetirsək görərik ki, Cinayət Məcəlləsində "böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər" qrupu "ağır və xüsusilə ağır cinayətlər" qrupundan fərqləndirilir. Məsələn, cinayətin residivinin (CM-nin 18-ci maddəsi), cinayətdə iştirakçılığın (CM-nin 34.4-cü maddəsi) növlərinin, əlavə cəzanın (CM-nin 48-ci maddəsi), cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin (CM-nin 76.3.3-cü maddəsi), cəzanın təxirə salınmasının (CM-nin 79-cu maddəsi), məhkumluğun ödənilməsinin (CM-nin 92.0.2-ci maddəsi) mümkünlüyünün müəyyən edilməsində belə bölgüdən istifadə edilir. Bir sıra cinayət tərkiblərində "ağır və xüsusilə ağır cinayət" obyektiv cəhətin elementi kimi təsbit edilmişdir. Məsələn, böhtan belə cinayətlərdə ittiham edilmə ilə bağlıdırsa, başqa – CM-nin 147.2-ci maddəsinin tərkibi yaranır. Belə tərkiblərdə o, tövsifedici element rolunu oynayır. Bəzi hallarda isə, tövsifedici yox, əsas element kimi çıxış edir. Məsələn, cinayətkar birlik (təşkilat) yaratma cinayəti "ağır və ya xüsusilə ağır cinayətlər törətmək məqsədilə" edildikdə CM-nin 218.1-ci maddəsinin tərkibini yaradır. Belə təsnifatın aparılması, görünür, ağır və xüsusilə ağır cinayətlərinin xarakter və ictimai təhlükəlilik meyarları üzrə bir-birinə daha yaxın olmaları ilə bağlıdır. Qanunverici böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərin bu meyarlara görə ağır və xüsusilə ağır cinayətlərdən fərqini kriminoloji baxımdan əhəmiyyətli hesab edir. Belə olmasaydı, müxtəlif cinayət-hüquqi konstruksiyalarda onları bir-birindən ayırmazdı.

Böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərin özlərinin bir-birindən fərqləndirilməsi dərəcəsi xeyli aşağıdır. Cinayət Məcəlləsinin mətnində onlar daha çox birlikdə qeyd edilir. CM-nin 72-73-cü maddələri "böyük ictimai təhlükə törətməyən cinayət" qrupunun "az ağır cinayət" qrupundan ayrıca göstərildiyi az hallardandır. Onların məzmununun

1 Lat.: Hər ağıllı kəs cəzanı xətaya görə yox, həm də onun bir daha təkrarlanmamasına görə verir.

2 Seneka Lutsiy Anney - Roma filosofu, dövlət xadimi, stoisizmin tanınmış simalarından biri, şair. E.ə. 4-cü ilə anadan olmuş, eramızın 65-ci ildə imperator Neronun hökmü ilə özünü öldürmüşdür.

3 Bax: Azərbaycan Respublikasının Cinayət Məcəlləsi: Maddə 72. Səmimi peşmanlıqla bağlı cinayət məsuliyyətindən azad etmə. 72.1. İlk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs könüllü gəlib təqsirini boynuna aldıqda, cinayətin üstünün açılmasına fəal kömək etdikdə, cinayət nəticəsində dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri başqa yolla aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər. 72.2. Başqa növ cinayət törətmiş şəxs, bu Məcəllənin 72.1-ci maddəsində nəzərdə tutulmuş şərtlər mövcud olduqda, yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində bilavasitə müəyyən edilmiş hallarda cinayət məsuliyyətindən azad edilə bilər. Maddə 73. Zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad etmə. İlk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda cinayət məsuliyyətindən azad edilə bilər. Maddə 74. Şəraitin dəyişməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə. Şəraitin dəyişməsi nəticəsində törədilmiş əməlin və ya bu əməli törətmiş şəxsin ictimai təhlükəli olmadığı müəyyən edildikdə, ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət və ya az ağır cinayət törətmiş şəxs cinayət məsuliyyətindən azad edilə bilər."

4 Bax: orada: "Maddə 15. Cinayətlərin təsnifatı. 15.1. Bu Məcəllə ilə nəzərdə tutulmuş əməllər (hərəkət və ya hərəkətsizliklər) xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlərə bölünür."

təhlili, eləcə də CM-də birgə qeyd edilmə hallarının ayrıca qeyd edilmə hallarından miqdar çoxluğu onu deməyə əsas verir ki, cinayətlər xarakter və ictimai təhlükəlilik baxımından bu iki qrup bir-birinə yaxındırlar, nəinki uzaq. Yəni, bu münasibətləri "yaxın" adlandırmaq "uzaq" adlandırmaqdan daha düzgündür.

Böyük ictimai təhlükə törətməyən cinayətlərin az ağır cinayətlərdən fərqinin nədən ibarət olması sualına nə qanunda, nə də cinayət hüququ doktrinasında konkret cavab yoxdur. Cavab ümumi xarakterli, yalnız meyarlar üzrə birincinin ikincidən aşağı pillədə durmasını qeyd etməkdən ibarət ola bilər. Məsələn, belə: az ağır cinayətlər xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə görə böyük ictimai təhlükə törətməyən cinayətlərdən daha ağır və daha təhlükəlidir. Bu cinayət növləri arasında sərhəd qeyri-müəyyəndir.

CM-nin 15-ci maddəsində aparılmış təsnifat, əslində "hüquq fiksiyası"dır (fictio juris). Yəni bölgü şərti əlamətlər (qəsd, ehtiyatsızlıq, cəza müddəti) üzrə aparılmışdır. Ağırlıq və ictimai təhlükəlilik kateqoriyalarının qəsd, ehtiyatsızlıq, cəza müddəti və s. kimi amillər əsasında müəyyən edilməsi də şərtidir, subyektivdir. Bu baxımdan az ağır cinayət törətmiş şəxsin CM-nin 74-cü maddəsinə əsasən cinayət məsuliyyətindən azad olunması, 72 və 73-cü maddələrinə əsasən isə, azad oluna bilməməsinin izahının fundamental əsası yoxdur. Az ağır cinayət törətmiş şəxsi "şəraitin dəyişməsi nəticəsində törədilmiş əməlin və ya bu əməli törətmiş şəxsin ictimai təhlükəli olmadığı müəyyən edildikdə" cinayət məsuliyyətindən azad etmək mümkündürsə, nəyə görə onu "zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda", "könüllü gəlib təqsirini boynuna aldıqda, cinayətin üstünün açılmasına fəal kömək etdikdə, cinayət nəticəsində dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri başqa yolla aradan qaldırdıqda" cinayət məsuliyyətindən azad mümkün deyil? Bu amillər, əslində, şəxsin ictimai təhlükəli olmadığının əlamətləri hesab oluna bilər. Məsələn, şəxsin könüllü gəlib təqsirini boynuna alması, cinayətin üstünün açılmasına fəal kömək etməsi, ziyanı ödəməsi və s. onun ictimai təhlükəli olmamasının əlamətləridir. Ona görə də, müvafiq qərarlarda bunları qeyd edib (1) şəxsin ictimai təhlükəli olmadığını göstərmək, bunun əsasında isə, şəraitin dəyişməsi nəticəsinə gəlməklə şəxsi cinayət məsuliyyətindən azad etmək cinayət hüququ normasının pozuntusu hesab olunmur.

Nəzərə alınmalıdır ki, diskresion cinayət təqibinin tətbiq olunması əsasları beynəlxalq sənədlərdə bir-birindən ayrılmır (Azərbaycan Respublikası CM-nin 72-74-cü maddələrdən fərqli olaraq). Bu əsaslar bütövlükdə hamısı və ayrılıqda hər biri diskresion qərarların bütün mümkün növlərinin tətbiqi üçün yetərli hesab edilir. Məsələn, bu sahədə əsas beynəlxalq sənədlərdən hesab edilən Avropa Şurası Nazirlər Komitəsinin üzv-dövlətlərə "Cinayət mühakiməsinin sadələşdirilməsinə dair" R(87) 18 nömrəli 17.09.1987-ci il tarixli Tövsiyəsinin 6-cı maddəsində göstərilmişdir ki, "cinayət təqibindən imtinaya və ya onun xitam edilməsinə (...) şübhəli tərəfindən nümunəvi davranış, zərərçəkmişə pul məbləğlərinin və kompensasiyanın ödənilməsi, sınaq müddətini keçmə kimi müəyyən şərtlərə əməl edilməsi ilə yol verilə bilər".

Qeyd edilənlər göstərir ki, az ağır cinayət törətmiş şəxslərin də CM-nin 72 və 73-cü maddələrində göstərilən əsaslara görə cinayət məsuliyyətindən azad olunmalarına mane olacaq kriminoloji arqumentlər mövcud deyildir. Digər tərəfdən, az ağır cinayət törətmiş şəxslərin də səmimi peşmanlıq və zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad olunmaları təqsirləndirilən şəxsin, zərər çəkmiş şəxsin prosessual hüquqlarının hüdudlarını genişləndirər, onları daha dolğun təmin edilməsinə şərait yaradar, insanlar arasında barışığın və ictimai sülhün bərqərar olunması imkanlarını artırar, cinayətkarlıqla mübarizəyə sərf olunan resursların həcmini azaldar, onların digər, lazımi istiqamətlərə yönəldilməsinə imkan verər.

Qeyd edilməlidir ki, diskresion cinayət təqibi cinayət mühakimə icraatının sadələşdirilməsi formalarından biridir. Onun tətbiq dairəsinin genişləndirilməsi cinayətkarlıqla mübarizənin səmərələşdirilməsi üzrə müasir dünya tendensiyasıdır. Avropa Şurası Nazirlər Komitəsinin yuxarıda göstərilən Tövsiyəsində üzv dövlətlərə diskresion cinayət təqibinin genişləndirilməsi məsləhət görülmüşdür (1-ci bənd). Azərbaycanın bu tövsiyəyə uyğun tədbirlər həyata keçirməsi məqsədə uyğun görünür. Səmimi peşmanlıq və zərərçəkmiş şəxslə barışmaqla bağlı az ağır cinayət törətmiş şəxslərin cinayət məsuliyyətindən azad olunmalarına cinayət-hüquqi əsasların təsbit edilməsi bu zəmində atılacaq addımlardan biri ola bilər.

İdeyanı texniki-hüquqi cəhətdən reallaşdırmaq çox asandır. Bunun üçün CM-nin 72 və 73-cü maddələrində "törətməyən" sözündən sonra "və ya az ağır" sözlərini əlavə etmək kifayətdir.

**Nazir Bayramov,**
*Elm-Tədris Mərkəzinin rəisi,*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

## KRİMİNALİSTİKA YENİLİKLƏRİ

### Müşahidə vīdeo sistemlərinin kriminalistikada tətbiqi barədə

Müşahidə video sistemləri müxtəlif proses və hadisələrin obyektiv qeydiyyatında bir vasitə kimi praktiki fəaliyyətin bütün sahələrində, o cümlədən hüquq-mühafizə orqanların fəaliyyətində mühüm rol oynayır.

Ümumiyyətlə, müşahidə etmə video sistemləri iki istiqamətdə inkişaf etmişdir:

1. Mühafizə fəaliyyəti (televizor-monitor mühafizə sistemi)
2. İctimai yerlərdə, küçə və yollarda ictimai asayişin və təhlükəsizliyin təmin etmə fəaliyyəti

Hər iki halda ilə əldə olunmuş videoyazılar kriminalistik məqsədlərlə istifadə oluna bilər.

Binaların, ticarət və ya başqa sahələr üzrə fəaliyyət göstərən obyektlərin giriş hissələrində, şəhər daxili və ya magistral yollarda quraşdırılmış kameraların vasitəsi ilə müşahidə etmə video sistemlərində yazılıb yaddaşda saxlanılmış video görüntülərin əldə olunması sahəsində bir çox terror aktların qarşısının alınması, banklardan külli miqdarda pulları oğurlayan, partlayış və ya yol nəqliyyat hadisəsi törədib hadisə yerindən qaçmış cinayətkarların ifşa edilmələri mümkün olmuşdur.

Müşahidə video sistemləri cinayətlərin qarşısının alınmasında, cinayətin açılmasında və istintaqında effektiv vasitə kimi çıxış edir. Videokameranın "qərəzsiz" kamerası imkan verir ki, cinayət hadisəsi barədə real görüntülər, cinayətin törədilmə mexanizmi və cinayətkarların şəxsiyyəti barədə müfəssəl məlumatlar əldə olunsun. Videomüşahidə məlumatlarının sübuti dəyəri onun obyektiv xarakteri ilə bağlıdır. Belə sübut obyektiv həqiqətin müəyyən edilməsinə, bunun əsasında ədalətli qərarlar qəbul olunmasına, nəhayət, ibtidai və məhkəmə istintaqına sərf olunan resurslara qənaət etməyə imkan verir. Məsələn, vəzifəli şəxsin iş otağında məhkəmənin razılığı ilə gizli vedio kamera quraşdırılmış və onun iki ay ərzində rüşvət tələb etmə və bu mövzuda müxtəliv şəxslərlə apardığı danışıqlar əməliyyatçılar tərəfindən izlənilmiş və sonuncu dəfə iş otağında rüşvət pul götürərkən yaxalanmışdır. Öncə şəxs öz hərəkətlərini danmış, pulun onun iş otağına atıldığını, bunun ona qarşı təxribat olduğunu iddia etmiş, istintaqın ilk mərhələsində iki ay ərzində



aparılan video müşahidənin yazıları ona nümayiş edildikdə təkzibolunmaz faktlar qarşısında təqsirini etiraf etməyə məcbur olmuşdur. Cinayət hadisəsinin faktiki halları dəqiqliyi ilə müəyyən edilmiş, cinayət təqibi qısa müddətdə başa çatmışdır.

Videomüşahidə materiallarının əməliyyat-axtarış və profilaktiki əhəmiyyəti də böyükdür. Bir çox aparıcı ölkələrdə, o cümlədən ABŞ, Kanada, İngiltərədə müşahidə video sistemlərindən bu istiqamətdə səmərəli istifadə təcrübəsi formalaşmışdır. Cinayəti törətmiş şəxslərin "qaynar izlər"lə axtarılıb tapılmasında müşahidə görüntülərinin əhəmiyyəti əvəzsizdir. Video kamera quraşdırılan yerlərdə cinayətkar ifşa olunacağından ehtiyat edərək cinayət törətməkdən çəkinirlər. Profilaktik effekti gücləndirmək üçün müvafiq yerlərdə belə kameraların mövcudluğu barədə elanlar da yerləşdirilir. İşlək olmayan videokameralar da xəbərdaredici-profilaktik funksiyalar daşıyır.

Cinayət hadisələri baş vermiş yerlərin yaxınlığında olan binalarda, obyektlərdə mövcud stasionar müşahidə etmə video sistemlərinin kameraları ilə yazılmış video məlumatlar cavabdeh olan şəxslərdən götürülməklə həyata keçirilir. Cavabdeh şəxs video görüntünü könüllü olaraq təqdim etməkdən imtina etdikdə götürmə məhkəmənin qərarı ilə həyata keçirilir. Video görüntülər polis qurumlarında yerləşən müşahidə video sistemlərinin idarəetmə xidmətinin serverindən müvafiq faylların götürülməsi ilə əldə edilir. Əksər hallarda video müşahidələr rəqəmsal formatda həyata keçirilir və müəyyən müddət ərzində yaddaşda saxlanılır (avadanlığın texniki

imkanlarından asılı olaraq 1-30 gün ərzində), sonra isə avtomatlaşdırılmış qaydada yaddaşdan silinir. Bu səbəbdən məlumat daşıyıcıları prosessual qaydada mümkün qədər tez götürülməlidir. Bundan sonra həmin videomateriallara baxış keçirilir və müvafiq protokol tərtib edilir. Məqsəd müşahidə etmə video sistemlərinə cavabdeh şəxsin və mütəxəssisin iştirakı ilə məlumatın cinayət hadisəsi ilə əlaqəliliyini, tamlığını, yararlığını və texniki göstəricilərinin sazlığını müəyyən etməkdir. Müşahidə etmə video sistemlərinin fəaliyyətinə cavabdeh şəxslər cinayət hadisəsinə aid olan görüntülər və sistemin texniki göstəriciləri, iş prinsipi, sistemdə hər-hansı nasazlığın olub-olmaması və sair suallar ətrafında şahid qismində dindirilirlər. Əldə olunmuş videomateriallar müstəqil sübutetmə mənbəyi kimi ibtidai araşdırmanı aparan orqanın qərarı ilə cinayət işinə əlavə olunur və cinayət qanunvericiliyi ilə müəyyən edilmiş müddət ərzində saxlanılır.

Videomateriallarda olan məlumatlar mübahisə doğurduqda video görüntüdə olan şəxsin şübhəli şəxslə eyniləşdirilməsi tələb edildikdə məhkəmə-portret ekspertizası təyin olunur. Səs və ya danışıq tərzi ilə bağlı və ya video yazının montajı, yazıya olunan kənar müdaxilə, dəyişiklərin müəyyən edilməsi məqsədi ilə videoqrammaların tədqiqi üzrə ekspertizaların keçirilməsinə zərurət yaranarsa kompleks məhkəmə texniki, fonoqrafik və portret ekspertizaları keçirilə bilər.

Əfsuslar olsun ki, videmüşahidə məlumatlarının istifadəsində qarşıya texniki və metodiki xarakterli bəzi problemlər çıxır. Texniki cəhətdən qüsur o vaxt yaranır ki, video çəkiliş aşağı texniki göstəricilərə (piksel və s.) malik cihazlarla aparılır. Belə cihazla əldə edilmiş yazı insanları və predmetləri özəl əlamətlərə görə fərdiləşdirməyə imkan vermir, məsələn, şəxslərin zahiri anatomik xüsusiyyətlərinin məcmusu şəxsin prosessual qaydada tanınmasını aparmaq üçün kifayət etmir. Bəzi hallarda cihazlar kifayət qədər keyfiyyətli olanda da onların düzgün tətbiq edilməməsi əlavə çətinliklər yaradır. Kameraların düzgün quraşdırılmaması, məsələn, obyektlərdən xeyli aralıda yerləşdirilməsi, işıqlanmanın düzgün müəyyən edilməməsi video görüntüdə olan obyekti təhriflərə məruz qoyur, nəticədə tanınma və eyniləşdirmə mümkünsüz olur. Məsələn, video çəkilişdə ± 5 dərəcədən artıq kənarlaşma olduqda insanın üzünün qabaqdan görünüşü üzrə eyniləşdirilmə aparmaq olmur. Əksər müşahidə etmə video sistemləri bu tələblərə cavab vermir.

Müşahidə video sistemləri ilə əldə olunmuş materialların tədqiqinə dair kriminalistik biliklərin kifayət qədər olmaması da metodik səhvlərə səbəb olur. Hazırda videomateriallar üzrə şəxsin müəyyənləşdirilməsi üçün qabitoskopik metodlardan yalnız portret eyniləşdirməsi metodundan istifadə edilir. Bu, tam və dolğun nəticələrin əldə olunmasına imkan vermir. Halbuki, insanın xarici görünüşü və danışığı ilə bağlı funksional (dinamik) əlamətlərin video və audio yazılarda olan qeydlərlə (yerişi, jestləri, yəni əl-qol hərəkəti, danışanda əl-qolunu, başını tərpətmə və sair, boğaz səsləri) birgə təhlil edilib dəyərləndirilməsi daha dəqiq məlumat əldə olunmasını təmin edə bilər. Müvafiq tədqiqat texnikasının və bu texnikanın tətbiqi metodikasının yoxluğu geniş potensialdan bəhrələnməyə imkan vermir.

Bu problemlərin həlli yüksək texniki və intellektual göstəricilərə malik müasir funksional avadanlıqların tətbiqində ola bilər. İş yükünü çəkilən hadisə və predmetlərin xarakterinə və intensivliyinə uyğun olaraq dəyişə bilən, bununla resurslardan daha səmərəli istifadə etməyə imkan verən sistemlər vasitəsi ilə, hətta, axtarışda olan şəxsin və ya avtomaşınların dövlət qeydiyyat nişanlarına yerləşdirilmiş yaddaş kartların vasitəsi ilə avtomatlaşdırılmış qaydada tanınması mümkündür.

Daxili işlər orqanlarında odlu silahlardan atılmış giliz və güllələrin, hadisə yerindən götürülmüş əl-barmaq izlərinin, cinayəti törətmiş şəxslərin əl-barmaq izlərinin nümunələrinin arxivi ilə yanaşı, cinayət hadisəsinin statistik və dinamik əlamətlərini özündə əks edən video və audio materialların arxivinin də yaradılmasına zərurət vardır.

Videomüşahidənin kriminalistik imkanları informasiya texnika və texnologiyalarının inkişafı ilə paralel şəkildə genişlənməkdədir. Bu imkanlardan bacarıqla yararlanmaq cinayətkarlığa qarşı mübarizənin, ədalət mühakiməsinin həyata keçirilməsinin səmərəsini artıra bilər.

**Elxan Əsgərov,**
*Elm-Tədris Mərkəzi,*
*Kriminalistika kafedrasının prokuroru,*
*ədliyyə müşaviri*

# "Sumqayıt 1988: cinayət və cəza" kitabının təqdimatı keçirilmişdir




Fevralın 28-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə hazırlanmış "Sumqayıt 1988: Cinayət və cəza" kitabının təqdimatı keçirilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğu və Xarici İşlər Nazirliyi ilə birgə təşkil olunmuş tədbiri giriş nitqi ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə ilk növbədə Sumqayıt hadisələrinin gerçək mahiyyətinin üzə çıxarılmasının və dünya ictimaiyyətinə təqdim olunmasının ümummilli dövlət maraqlarının strateji əhəmiyyətindən danışmışdır. Akademik qeyd etmişdir ki, 26 il bundan əvvəl baş verən bu hadisənin əsasında erməni millətçilərinin saxta torpaq iddiaları ilə SSRİ rəhbərliyinin imperiya maraqlarının bir nöqtədə kəsişməsi dayanır. Bu niyyəti həyata keçirmək üçün Azərbaycan xalqını vəhşi, qaniçən, qeyri-tolerant obrazda dünya ictimaiyyətinə təqdim etmək istəyən erməni millətçiləri hətta öz soydaşlarını belə güdaza verməkdən çəkinmədilər.

Bildirilmişdir ki, bu hadisələrdə Azərbaycan xalqının mövqeyini xüsusi hazırlanmış xüsusi qrupların təsiri altına düşən bir neçə emosional gənclərin hərəkətində deyil, erməni qonşularını, yoldaşlarını erməni millətçilərinin terrorundan xilas edib evində, ailəsində sığınacaq verən azərbaycanlıların davranışında axtarmalıdır.

Akademik xüsusi vurğulamışdır ki, dünyanın diqqətinin Qarabağ həqiqətləri və Xocalı soyqırımına yönəldiyi bir vaxtda xalqımıza qarşı əks-təbliğat vasitəsi kimi istifadə olunan Sumqayıt hadisələrinin gerçək üzünün beynəlxalaq ictimaiyyətə çatdırılması hüquq mühafizə orqanları işçiləri ilə yanaşı, alimlərin, tarixçilərin, hüquqşünasların da üzərinə böyük məsuliyyət qoyur. Bu baxımdan tədqiqatçı jurnalist-alimlər Ramazan Məmmədov və Eyruz Məmmədov tərəfindən yazılan və üç dildə işıq üzü görən "Sumqayıt 1988: cinayət və cəza" adlı kitab xüsusi əhəmiyyətə malikdir.

Kitabın mühüm məziyyətlərindən bəhs edən akademik A.Əlizadə bildirmişdir ki, burada Sumqayıt hadisələrinin dövrün digər analoji prosesləri ilə müqayisədə işıqlandırılması çox təqdirə layiqdir. Sevindirici haldır ki, kitabda müxtəlif siyasi sənədlər, dövrü mətbuat yazıları, xatirələr, cinayət işi ilə bağlı ayrı-ayrı faktlar dövrün siyasi mənzərəsi kontekstində sistemləşdirilmişdir.

Kitabda SSRİ və Azərbaycan SSR Prokurorluqlarının əməkdaşları tərəfindən aparılmış istintaq materiallarından, cinayətin icraçılarının, zərərçəkənlərin və digər şahid ifadələrindən, həmçinin məhkəmə materiallarından istifadə olunmuşdur. Bununla belə, uydurma "Böyük Ermənistan" problemi, "erməni məsələsinə" həsr olunmuş çoxsaylı ədəbiyyatdan istifadə edilməklə, hadisələrin səbəb və nəticələri, cinayətin icraçılarının cəzalandırıldığı da göstərilir. Nəşrdə Sumqayıt iğtişaşlarının yaranma səbəbinin izahını verən, iştirakçılarını ifşa edən müəlliflərin öz obyektivliyi və subyektivliyi ilə seçilən fərziyyə, mühakimə və mülahizələri də yer almışdır.

Sonra Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubovun kitab haqqında məruzəsi dinlənilmişdir. Qeyd edilmişdir ki, kitabın hazırlanmasında əsas məqsəd Sumqayıt hadisələri haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır. Kitabda əsasən 1988-ci ilin fevralında baş vermiş Sumqayıt hadisələrinə gətirib çıxaran səbəblər, onu törədənlər, təşviq edən qruplar haqqında materiallar yerləşdirilməklə yanaşı, kitabın müəllifləri hadisələri sifariş verən və təşkil edən qüvvələrin izlərinin respublikanın hüdudlarından kənara çıxdığını göstərməyə çalışmışlar.

Uzun illər ərzində erməni tərəfi öz separatçı və işğalçı siyasətinə, Xocalı soyqırımına və Azərbaycan torpaqlarında törətdikləri terror və digər cinayətlərə bəraət qazandırmaq üçün Sumqayıt hadisələrinə



xarici ölkələrə müvafiq sorğular göndərilmiş, arxiv sənədləri açılmış, mətbuatda verilmiş məlumatlar təhlil edilmiş, digər zəruri istintaq-əməliyyat tədbirləri görülmüşdür.

Aparılmış istintaq nəticəsində Sumqayıt hadisələrinin həqiqi mahiyyəti üzə çıxmış, bu hadisələrin əsas sifarişçi və təhrikçiləri Qorbaçov, sovet rəhbərliyində təmsil olunmuş ermənipərəst dairələr və "Böyük Ermənistan" xülyası ilə yaşayan erməni millətçi və separatçı qüvvələrinin olması müəyyən edilmişdir.

Hazırda aparılan istintaqın əsas məqsədi də məhz Sumqayıt hadisələri ilə əlaqədar erməni yalanlarını üzə çıxarmaq, toplanmış sübutlarla bu hadisələrin əsl mahiyyətini açmaq, mümkün qədər cinayətin bütün iştirakçılarını, əsasən də təşkilatçılarını müəyyən etməkdir. Bu məqsədlə Baş prokuror cənab Zakir Qaralovun əmri ilə SSRİ Baş Prokurorluğunun istintaq qrupunun aparmış olduğu və icraatlarını dayandırdığı cinayət işlərinin öyrənilməsi üçün prokurorluğun təcrübəli işçilərindən ibarət komissiya yaradılmış və komissiya işləri öyrənərək həmin işlərin icraatlarının təzələnərək yenidən istintaq aparılmasını tövsiyə etmişdir. Aparılan istintaq zamanı Sumqayıt şəhərində yaşayan milliyyətcə erməni olan qadınlar dindirilmiş və onlar ifadələrində azərbaycanlıların həmin hadisələr zamanı yüzlərlə erməninin həyatını xilas etmələrini göstərmişlər.

Bildirilmişdir ki, Sumqayıt hadisələrinin SSRİ xüsusi xidmət orqanları tərəfindən təşkil edilməsi barədə məlumatlar hələ 1989-1990-cı illərdə aparılmış istintaq zamanı əldə edilmişdir. Belə ki, o vaxt başlanmış cinayət işinin materiallarında Sumqayıtda talanlar etmiş qrupa rəhbərlik edən, ermənilərin öldürülməsində, zorlanmasında, əmlaklarının məhv edilməsində fəal iştirak edən erməni Eduard Qriqoryanın kütləvi iğtişaşlar ərəfəsində şübhəli şəxslərlə görüşməsi, onlardan Sumqayıtda yaşayan ermənilərin siyahısını alması, hadisələr zamanı öz qrupunun üzvlərinə spirtli içkilər və psixotrop preparatlar paylaması barədə ifadələr var idi. Lakin bu məlumatlar SSRİ Prokurorluğunun istintaq qrupu tərəfindən araşdırılmırdı. Əksinə, kütləvi iğtişaşların təşkilatçılarını aşkara çıxara bilən məlumatlar ört-basdır edilirdi. Azərbaycanın hüquq mühafizə orqanlarının sorğularına Ermənistandan və Moskvadan mücərrəd, heç bir informasiya daşımayan cavablar göndərilirdi, Qriqoryanın erməni millətçiləri ilə əlaqələrinin müəyyən edilməsinə yönəlmiş əməliyyat-axtarış tədbirlərinin keçirilməsinə imkan verilmirdi. Belə şəraitdə talanların kimlər tərəfindən təşkil edilməsi, Sumqayıt iğtişaşlarının arxasında

istinad etmişdir. Təəssüflə vurğulanmışdır ki, Sumqayıt hadisələri ilə bağlı cinayətin iştirakçıları barəsində müvafiq cəza tədbirləri görülsə də, hətta ölüm cəzası verilsə də, Xocalı soyqırımını törətmiş erməni faşistləri bu günədək məhkəmə məsuliyyətinə verilməmişlər.

Qeyd olunan hadisələrdən uzun müddət keçməsinə baxmayaraq, ermənilər hələ də dünya ictimaiyyətini, beynəlxalq təşkilatları bu hadisələrin mahiyyəti ilə əlaqədar aldatmağa çalışmaqdan əl çəkmirlər. Onlar Sumqayıtda törədilmiş hadisələrin əsl mahiyyətini gizlədərək, Azərbaycan xalqını vəhşi, qaniçən və cinayətkar qismində dünyaya təqdim etmək üçün hər vəchlə çalışır.

Bildirilmişdir ki, hadisələrlə bağlı işin istintaqı tam, hərtərəfli və obyektiv aparılmamış, hadisələrin əsl mahiyyəti açılmamış, faktiki olaraq gizlədilmiş, cinayətlərin bütün iştirakçıları müəyyən edilməmiş, cinayətin baş vermə səbəb və şəraiti qətiyyən araşdırılmamışdır. Bütün bunlar Sumqayıt hadisələrinin yenidən araşdırılması zərurətini yaratmışdır.

Xüsusi vurğulanmışdır ki, cinayətin təşkilatçılarını məsuliyyətə cəlb etmək üçün müvafiq beynəlxalq orqanlara müraciət edilməsi və bunun üçün hüquqi əsasların müəyyən olunması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Baş Prokurorluq Sumqayıt şəhərində törədilmiş kütləvi ixtişaşlarla bağlı cinayət işləri üzrə istintaqı təzələmiş və istintaqın hərtərəfli aparılması üçün Baş prokurorun birinci müavininin rəhbərliyi ilə Baş Prokurorluğun, Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmışdır.

İstintaq qrupu tərəfindən Sumqayıt hadisələrinin çoxsaylı şahidlərinin, həmin hadisələrdən məlumatı olan digər insanların, o cümlədən SSRİ Prokurorluğunun istintaq qrupuna daxil olan şəxslərin ifadələri alınmış,

kimlərin olmaları ilə bağlı əsas suallar cavabsız qalmışdı.

Yeni açılmış hallar onu göstərir ki, Sumqayıtda baş vermiş kütləvi iğtişaşlar Eduard Qriqoryan, onun iki qardaşı, Dağlıq Qarabağdan xüsusi tapşırıqlarla gəlmiş emissarlar və DTK-nın agentləri tərəfindən təşkil olunmuşdur. Dağlıq Qarabağdan olan emissarlar Eduard Qriqoryanı ətraflı təlimatlandırmış, ona Sumqayıtda yaşayan və separatçıların yaratdığı "Qarabağ" və "Krunk" təşkilatlarına pul köçürməyən ermənilərin siyahısını və dəqiq ev ünvanlarını vermişlər. Bu emissarlar aqressivliyi artırmaq məqsədi ilə iğtişaş iştirakçılarına paylanması üçün Qriqoryanı psixotrop dərmanlar və spirtli içkilərlə təmin etmişlər. Hadisələr zamanı isə bu şəxslər Eduard Qriqoryan və onun qardaşı Albert Qriqoryan ilə birlikdə camaata soyuq silah paylayırdılar.

Dövlət Təhlükəsizlik Komitəsinin açılmış arxiv materiallarından məlum olmuşdur ki, Dağlıq Qarabağ separatçılarının emissarları, SSRİ DTK-nın agentləri olan Sarkisyan, Osipov (Osipyan) və digərləri Sumqayıt hadisələrində fəal iştirak etmiş və həmin hadisələrdən dərhal sonra Orta Asiya respublikalarına ezam olunmuşlar. Bu agentlərin izləri sonradan Özbəkistan və Qırğızıstandakı hadisələr zamanı aşkar olunmuşdur. Bu fakt Sumqayıtda, Fərqanədə, Oşda və keçmiş SSRİ-nin digər yerlərində baş vermiş təxribatların bir mərkəzdən təşkil və idarə edildiyini birmənalı təsdiqləyir.

Sumqayıtdakı kütləvi iğtişaşların əvvəlcədən təşkil edilmiş aksiya olmasını sübut edən faktlardan biri də talançıların hərəkət etdikləri marşrut üzrə yerləşdirilmiş naməlum şəxslər kütləvi iğtişaşlarda iştirak edənlərin bütün hərəkətlərinin videoçəkilişini aparmasıdır. Bu kadrlar Qərb ölkələrinin televiziya kanallarında operativ şəkildə göstərilmişdir. Şübhəsiz ki, çəkiliş aparan şəxslər talançıların planları haqqında əvvəlcədən məlumatlı idilər.

Sumqayıtda təxribatın hazırlanmasını göstərən növbəti sübut. Bir çox erməni şəhəri əvvəlcədən tərk edir, 1988-ci ilin yanvar-fevral aylarında ermənilər tərəfindən Sumqayıt şəhərindəki əmanət kassalarından pulların çıxarılması da kütləvi hal alır.

Digər tərəfdən, müəyyən olunmuşdur ki, Sumqayıt hadisələri ərəfəsində Ermənistandan və Dağlıq Qarabağdan Sumqayıt və Bakı şəhərlərinə çoxlu sayda milliyyətcə erməni olan şübhəli şəxslər gəlmiş, onların bir qismi mehmanxanalarda yığcam yerləşdirilmişdir. Həmin şəxslər Sumqayıtda yaşayan ermənilərlə çoxsaylı görüşlər keçirmiş, onları təlimatlandırmış, baş vermiş kütləvi iğtişaşlardan dərhal sonra isə yoxa çıxmışlar.

Baş prokurorun birinci müavini Rüstəm Usubov hazırda həmin iş üzrə tam və hərtərəfli istintaq aparılmaqla Rusiya Federasiyası, Ukrayna, Belarus və Moldova hüquq mühafizə orqanlarına SSRİ Prokurorluğunun istintaq qrupunun üzvləri barədə məlumatlar əldə edilməsi üçün sorğular verilməklə istintaq-əməliyyat tədbirlərinin davam etdirildiyini bildirdi.

Daha sonra akademik İsa Həbibbəyli, kitabın həmmüəllifləri Ramazan Məmmədov, Eyruz Məmmədov, professor Gövhər Baxşəliyeva, AMEA-nın müxbir üzvü Rafael Hüseynov və başqaları çıxış edərək kitabın ərsəyə gəlməsinin mühüm, əhəmiyyətli və eyni zamanda, gərgin bir fəaliyyətin məntiqi nəticəsi olduğunu qeyd etməklə, nəşrin Azərbaycan xalqının, Azərbaycan dövlətinin milli maraqlarına xidmət edən əsər olmasını xüsusi vurğulamışlar. Bildirilmişdir ki, bədnam qonşularla müharibə vəziyyətində olan Azərbaycan bütün sahələrdə Ermənistanı üstələsə də, tarixi hadisələrin dünya ictimaiyyətinə çatdırılması baxımından müəyyən boşluqlarla üzləşmişdir. Sumqayıt hadisələrini araşdıran istintaq-əməliyyat qrupuna AMEA-nın Tarix institutunun fəal köməklik etdiyini bildirən alimlər Gəncə quberniyasında, Zəngəzurda, Qarabağda, Naxçıvanda, İrəvanda və digər bölgələrdə ermənilərin törətdikləri soyqırımların bütövlükdə və sistemli şəkildə araşdırılaraq dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində respublikanın hüquq mühafizə orqanları ilə daha sıx əməkdaşlığın vacibliyi vurğulanmışdır.

Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidmətinin rəhbəri Elman Abdullayev təmsil olunduğu qurumun, o cümlədən Azərbaycanın xarici diplomatik korpuslarının Sumqayıt hadisələrinin reallıqlarını dünya ictimaiyyətinə çatdırmaq istiqamətində həyata keçirdikləri işlərdən ətraflı danışmışdır. Bildirilmişdir ki, Sumqayıtda törədilmiş cinayətlər, Xocalı soyqırımı və digər erməni vəhşiliklərinin dünya ictimaiyyətinə çatdırılması, bütün bunlara dünya birliyinin ədalətli mövqeyinə nail olunması nazirliyin fəaliyyətinin prioritet istiqamətlərindəndir. O, kitabın nəşrini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq aləmə çatdırmaq siyasətinin tərkib hissəsi hesab etmişdir.

Kitab haqqında geniş müzakirələr aparılmış, suallar ətraflı cavablandırılmışdır. Vurğulanmışdır ki, kitab ölkəmizin müasir tarixini, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini tam reallıqları ilə əks etdirir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Prokurorluq orqanlarına qulluğa qəbulla bağlı test imtahanı keçirilmişdir



Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmaqla və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr korpusunun şəffaf prosedurlar əsasında formalaşmasının ən sivil və demokratik yoludur. Bu yolla həyata keçirilən işə qəbul prokurorluğun kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaratmış, ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə olunması barədə Dövlət başçısının verdiyi tapşırıqların icrası yolunda mühüm vasitə olmuşdur.

Yanvarın 31-də prokurorluq orqanlarında vakant olan 100 ştat vahidinin layiqli gənc kadrlarla komplektləşdirilməsi məqsədilə Baş Prokurorluq tərəfindən Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnaməyə müvafiq olaraq elan edilmiş sayca 13-cü müsabiqənin ilkin mərhələsi olan test imtahanı keçirilmişdir.

Baş Prokurorluğun Müsabiqə Komissiyası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ilə birlikdə imtahanın aşkarlıq şəraitində, şəffaf üsullarla və beynəlxalq tələblərə uyğun keçirilməsi üçün bütün zəruri tədbirləri təmin etmişdir.

Prokurorluq orqanlarında işləmək arzusunda olan 360 gənc hüquqşünasın iştirakı ilə saat 10:00-dan başlayaraq 3 saat ərzində vahid auditoriyada – Azərbaycan Texniki Universitetinin İdman Sarayında keçirilən imtahanı dövlət qurumlarının nümayəndələri ilə yanaşı, qeyri-hökumət və beynəlxalq təşkilatların, kütləvi informasiya vasitələrinin nümayəndələri də müşahidə etmişlər.

İmtahan başa çatdıqdan sonra namizədlərin cavab kartları TQDK-da yoxlanılmış və müsabiqənin ikinci mərhələsi - yazılı imtahanda 105 namizədin iştirak etmək hüququ qazandığı müəyyən edilmişdir.

**Baş Prokurorluğun Kadrlar idarəsi**

# Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində 2013-cü il ərzində görülmüş işlərin müzakirəsinə və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Üçüncü Dəyərləndirmə Raundu ilə əlaqədar qəbul etdiyi hesabatın təqdimatına həsr edilmiş tədbir keçirilmişdir.

***Olqa SAVRAN: "Azərbaycan beynəlxalq qurumlara korrupsiyaya qarşı mübarizə sahəsində diqqətlə yanaşır və bu istiqamətdə kifayət qədər uğurlar əldə etmişdir. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin modeli digər ölkələr üçün bu sahədə nümunə ola bilər"***




"Azərbaycan beynəlxalq qurumlara korrupsiyaya qarşı mübarizə sahəsində diqqətlə yanaşır və bu istiqamətdə kifayət qədər uğurlar əldə etmişdir. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin modeli digər ölkələr üçün bu sahədə nümunə ola bilər."

Bu fikir yanvarın 17-də Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı tərəfindən ölkəmizin Üçüncü Dəyərləndirmə Raundunun birinci mərhələsini müvəffəqiyyətlə keçməsi ilə əlaqədar qəbul etdiyi hesabatın təqdimatında səslənmişdir.

Antikorrupsiya Şəbəkəsinin 2013-cü il sentyabrın 25-də Parisdə keçirilmiş 12-ci Monitorinq Görüşündə qəbul edilmiş hesabatın dəyərləndirmə prosesinin tərkib hissəsi kimi Azərbaycan ictimaiyyətinə təqdimatı ilə əlaqədar keçirilən tədbirdə OECD Katibliyinin Antikorrupsiya məsələləri üzrə baş müşaviri Olqa Savran və qurumun İstanbul Fəaliyyət Planının layihə rəhbəri Tetyana Xavanska, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin rəisi, ölkəmizin OECD ilə milli əlaqələndiricisi Kamran Əliyev, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov, ATƏT, Avropa İttifaqı, Avropa Şurası və digər beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin məsul əməkdaşları, müvafiq dövlət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak etmişlər.

Bildirilmişdir ki, OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planına müvafiq olaraq Azərbaycan Respublikası üzrə verilmiş tövsiyələrin icrası ilə əlaqədar 2013-cü il iyunun 3-dən 7-dək OECD Katibliyi, Litva, Ukrayna, Qazaxıstan və Tacikistandan ibarət nümayəndə heyəti Bakıda ölkəmizin 3-cü raund dəyərləndirilməsi üzrə səfərdə olmuşdur.

Həmin səfər çərçivəsində nümayəndə heyətinin üzvləri dövlət qurumunun əməkdaşları ilə çoxsaylı səmərəli və işgüzar görüşlər keçirmişlər. Görüşlərdə nümayəndə heyəti tərəfindən son illərdə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlər, həyata keçirilmiş qanunverici və praktiki tədbirlər, «ASAN xidmət» mərkəzlərinin fəaliyyətə başlaması, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin bu sahədə fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, istintaq olunan cinayət işləri və digər irəliləyişlər qeyd edilmişdir.



Ekspertlər qrupunun səfəri ilə əlaqədar hazırlanmış hesabat layihəsi OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının 2013-cü il sentyabrın 23-dən 25-dək Parisdə keçirilmiş 12-ci Monitorinq Görüşü və Rəhbər Qrupun 15-ci iclasında müzakirəyə çıxarılaraq qəbul edilmişdir. Bununla da Azərbaycan Respublikası Anti-korrupsiya Şəbəkəsinin 3-cü Raund Dəyərləndirilməsindən müvəffəqiyyətlə keçən ilk ölkə olmuşdur.

Təqdimat zamanı Şəbəkənin rəsmiləri tərəfindən Azərbaycanın Dəyərləndirmə Raundunun birinci mərhələsini müvəffəqiyyətlə keçən ilk dövlət olması qeyd edilməklə qəbul olunmuş hesabatda ölkəmizin antikorrupsiya qanunvericiliyi və onun icra səviyyəsi, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin modelinin uğurlu nümunə kimi tanınması, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun tabeliyində əsas məqsədi şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi olan, vətəndaş ilə məmur arasında təmasın minimuma endirilməsinə xidmət edən, «Azərbaycan brendi» hesab olunan «ASAN xidmət» mərkəzlərinin fəaliyyətinin təqdirəlayiq təcrübə olaraq göstərilməsi diqqətə çatdırılmışdır.

Hesabatda Şəbəkə tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyin daha da təkmilləşdirilməsi, bu sahədə mütəmadi olaraq treninqlərin, seminarların keçirilməsi, dövlət qulluğunda şəffaflığın daha da artırılması, etik-davranış kodekslərinə əməl edilməsi ilə bağlı treninqlərin keçirilməsi və digər məsələlərlə əlaqədar ölkəmizə ünvanlanmış 18 tövsiyənin uğurla icra ediləcəyinə əminlik ifadə olunmuşdur.

Tədbirdə Şəbəkənin rəsmiləri iştirakçıların çoxsaylı suallarını cavablandırmışlar.

Təqdimat mərasimindən sonra Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi tərəfindən 2013-cü ildə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı mətbuat konfransı keçirilmişdir.

Tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin rəisi Kamran Əliyev və Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov görülmüş işlər barədə ətraflı məlumat vermişlər.

Bildirilmişdir ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyev siyasi irsinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni müstəvidə reallaşdırılan dövlətçilik siyasəti nəticəsində ötən dövrlərdə olduğu kimi, 2013-cü ildə də ölkə həyatının bütün sahələrində yenidənqurma işləri davam etdirilmiş, möhtəşəm nailiyyətlər qazanılmaqla irimiqyaslı uğurlara imza atılmışdır.

Ötən dövrlərdə olduğu kimi, 2013-cü ildə də dövlət başçısının siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri daha intensiv xarakter almış, mütərəqqi institusional tədbirlər həyata keçirilmişdir.

Prezident İlham Əliyevin 2013-cü il sentyabrın 30-da «Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair Dövlət Proqramı»nın icrası qaydasında milli memarlıq üslubunda və müasir standartlar səviyyəsində inşa edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin yeni inzibati binasının açılış mərasimində iştirakı, kollektivi ilə görüşərək tapşırıq və tövsiyələr verməsi korrupsiyaya qarşı mübarizə sahəsində siyasi iradənin ən yüksək təzahürü olduğu bildirilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən kompleks və davamlı siyasətin real nəticəsidir ki, «Transparency International» təşkilatının «2013-cü il Qlobal Korrupsiya Barometri» adlı hesabatı Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində ciddi irəliləyişlərin olduğunu bir daha təsdiqləmiş,

çoxsaylı araşdırmalar və təhlillərə əsasən tərtib edilmiş hesabatın nəticələrinə görə ölkəmizdə bütün sahələrdə korrupsiyanın səviyyəsi azalmışdır. Bununla yanaşı, «Transparency International»ın təqdim etdiyi 2013-cü ilin «Korrupsiya Qavrama İndeksi»ndə Azərbaycan əvvəlki illə müqayisədə 12 pillə irəliləməklə qiymətləndirmə balı 28 olmuşdur. Bununla da ölkəmiz son illər ərzində korrupsiyaya qarşı mübarizə sahəsində dəyərləndirmələrdə irəliləyişini davam etdirməklə indeksə daxil edildiyi 2000-ci ildən ötən müddətdə ən yüksək nəticəni göstərmişdir.

Bundan başqa, 2013-cü il iyulun 15-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin regiona ilk səfəri çərçivəsində Bakıda keçirilən mətbuat konfransında ölkəmizdə əlverişli investisiya mühitinin yaradıldığını, korrupsiyanın aradan qaldırılması istiqamətində uğurlu addımlar atıldığını vurğulaması da xüsusi qeyd edilmişdir.

Hesabat dövrü ərzində korrupsiyaya qarşı ardıcıl və sistemli mübarizənin aparılması istiqamətində bir sıra mühüm qanunvericilik və praktiki tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Avropa Şurasının «Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında» Konvensiyasının Əlavə Protokoluna qoşulması ilə əlaqədar ölkədaxili prosedurlar həyata keçirilərək Milli Məclis tərəfindən 2013-cü il 1 fevral tarixli qanunla qəbul edilmiş, habelə «Korrupsiyaya qarşı mübarizə haqqında» Qanunda korrupsiya hüquqpozmalarına görə fiziki və hüquqi şəxslərin məsuliyyətini müəyyənləşdirən norma 2013-cü il 30 aprel tarixli qanunla yeni redaksiyada verilməklə daha da təkmilləşdirilmişdir.

Korrupsiya halları haqqında məlumat verən şəxslərin müdafiəsi, hüquqi şəxslər barədə cinayət-hüquqi tədbirlərin tətbiqi qaydaları, korrupsiya ilə bağlı müraciət, ərizə və şikayətlərə baxılması qaydalarının təkmilləşdirilməsi istiqamətində qanun layihələri hazırlanmışdır.

Bildirilmişdir ki, prokurorluq orqanları korrupsiya ilə mübarizəni öz fəaliyyətinin prioritet xətti kimi müəyyənləşdirmiş, eyni zamanda, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi əvvəlki illərdə olduğu kimi, fəaliyyətini 2013-cü ildə də uğurla davam etdirmişdir.

Həmin müddətdə idarə tərəfindən vətəndaşların 1860 müraciətinə baxılmış, həmçinin 230 cinayət xarakterli material araşdırılmışdır. Həmin cinayət xarakterli materialların 69 faizi üzrə cinayət işi başlanmış, digər məlumatlar üzrə isə zəruri qabaqlayıcı tədbirlərin görülməsi təmin edilmişdir.

İdarənin 161 saylı «Qaynar xətt» əlaqə mərkəzinə bu müddət ərzində 5311 müraciət daxil olmuş, həmin müraciətlərin 26-sı üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanmaqla istintaq aparılmış, onlardan 16-sı üzrə ibtidai istintaq yekunlaşdırılaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir. Həmçinin əlaqəli dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həll olunması təmin edilməklə vətəndaşların pozulmuş hüquqları bərpa edilmiş və aşkarlanmış qanun pozuntularının aradan qaldırılması məqsədilə müvafiq təşkilatlara təqdimatlar göndərilmişdir. Bununla yanaşı, korrupsiya ilə əlaqədar olmayan müraciət müəlliflərinə mülki, ailə, mənzil, inzibati və digər hüquq sahələrində pozulmuş hüquqlarının bərpası ilə bağlı ətraflı izahlar verilmişdir.

Bildirilmişdir ki, 2013-cü il ərzində idarənin növbətçi prokurorları tərəfindən korrupsiya və digər hüquqpozmalar barədə müraciət etmiş 205, idarə rəisi tərəfindən isə 25 vətəndaş qəbul olunmaqla ərizələri alınmış, həmin ərizələr üzrə tam və hərtərəfli araşdırmalar aparılmaqla obyektiv qərarların qəbul edilməsi təmin olunmuşdur.

Hesabat dövrü ərzində törədilmiş və ya hazırlanan cinayətlər barədə idarənin əməliyyat qurumları tərəfindən 424 müraciət araşdırılmışdır. Həyata keçirilmiş əməliyyat tədbirləri nəticəsində cinayət başında yaxalanmış şəxslər barəsində 18, o cümlədən korrupsiya hüquqpozmaları ilə əlaqədar toplanmış materiallar üzrə 7 cinayət işi başlanmışdır. Həmin işlərdən 19-u üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Diqqətə çatdırılmışdır ki, 2013-cü il ərzində idarənin istintaq şöbəsi tərəfindən 367 şəxs barəsində 201 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Həmin cinayət işlərindən 3 şəxs barəsində 2 iş rüşvət vermə (aktiv rüşvətxorluq), 41 şəxs barəsində 16 iş rüşvət alma (passiv rüşvətxorluq), 66 şəxs barəsində 36 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 5 şəxs barəsində 4 iş vəzifə səlahiyyətlərini aşma, 8 şəxs barəsində 4 iş səhlənkarlıq, 124 şəxs

barəsində 65 iş mənimsəmə və israf etmə, bir şəxs barəsində bir iş təbii qaz, elektrik və istilik enerjisini talama, 17 şəxs barəsində 7 iş qanunsuz və yalançı sahibkarlıq, 2 şəxs barəsində 2 iş vergidən yayınma, 84 şəxs barəsində 51 iş dələduzluq, 16 şəxs barəsində 13 iş isə digər faktlarla əlaqədar olmuşdur.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə vurulmuş 40 milyon 92 min manat ziyandan istintaq müddətində 17 milyon 236 min manatı və ya 42,9 faizi ödənilmiş, qalan ziyanın təqsirləndirilən şəxslərin əmlakları üzərinə həbs qoyulmaqla ödənilməsi üçün qanunla nəzərdə tutulmuş tədbirlər görülmüşdür.

Qeyd edilmişdir ki, hesabat dövründə də korrupsiyaya qarşı mübarizə sahəsində idarə əməkdaşları tərəfindən bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilmişdir. Əhalinin sosial müdafiəsi, səhiyyə, nəqliyyat və digər sahələrdə aşkar edilmiş pozuntuların aradan qaldırılması ilə əlaqədar təkliflər hazırlanıb aidiyyəti qurumlara təqdim edilmiş, həmçinin bir sıra hallarda vəzifəli şəxslər tərəfindən «Korrupsiyaya qarşı mübarizə haqqında» qanunun tələblərinin pozularaq cinayət xarakteri daşımayan pozuntulara yol verildiyi müəyyənləşdirildiyindən həmin şəxslər barəsində «Prokurorluq haqqında» qanuna müvafiq olaraq aidiyyəti üzrə təqdimatlar verilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyini nəzərə alaraq hesabat dövrü ərzində idarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq-mühafizə orqanları ilə əlaqələrin daha da genişlənməsinə xüsusi diqqət yetirilmişdir.

Hesabat dövründə BMT-nin Korrupsiya Əleyhinə Konvensiyasının implementasiyası çərçivəsində beynəlxalq əməkdaşlığa xüsusi önəm verilmişdir. 2013-cü ilin aprel-may ayları ərzində BMT-nin Korrupsiya Əleyhinə Konvensiyasının İmplementasiyası üzrə Nəzarət Qrupunun 2012-ci ilin iyun ayında keçirilmiş sessiyasında qəbul etdiyi qərara əsasən, Meksika Birləşmiş Ştatları tərəfindən həmin konvensiyanın bir sıra maddələrinin implementasiyasını dəyərləndirəcək iki dövlətdən biri kimi Azərbaycan Respublikası müəyyən edildiyinə görə, Meksikanın cinayət qanunvericiliyində korrupsiyanın kriminallaşdırılması vəziyyəti və hüquq-mühafizə sisteminin dəyərləndirilməsi idarə əməkdaşı tərəfindən həyata keçirilməklə ekspert rəyi hazırlanmışdır.

Görülən işlərin davamı olaraq 2013-cü il avqustun 18-dən 22-dək İdarənin əməkdaşı Beynəlxalq Ekspertlər Qrupu tərkibində Mexikoda Dəyərləndirmə iclasında iştirak etmişdir. Tədbirdə Meksika hökumətinin özünüdəyərləndirmə toplusuna hazırladığı cavablar Azərbaycan mütəxəssisi tərəfindən öyrənilərək qiymətləndirilmiş, cavabdeh ölkəyə ekspert rəylərinin layihələri təqdim olunmuşdur.

Bildirilmişdir ki, 2013-cü ildə Beynəlxalq Antikorrupsiya Akademiyası (İACA) ilə əmək-daşlıq genişləndirilmiş, idarənin əməkdaşları İACA-nın təşkil etdiyi tədbirlərə qatılmışlar.

Ötən il dekabrın 9-dan 11-dək Tailand Krallığının paytaxtı Banqkokda keçirilmiş Beynəlxalq Antikorrupsiya Akademiyasının Beynəlxalq Təşkilat kimi təsis edilməsi haqqında sazişi ratifikasiya etmiş ölkə və təşkilatların yüksək vəzifəli nümayəndələrinin 2-ci Assambleyasında növbəti il üçün Assambleyanın rəhbər orqanı olan büroya üzvlərin seçilməsi ilə əlaqədar keçirilmiş seçkilərdə Azərbaycan nümayəndəsi də səs alaraq büroya üzv seçilmişdir.

Vurğulanmışdır ki, 2013-cü il ərzində Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO) ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq uğurla davam etdirilmişdir. GRECO-nun ölkəmiz üzrə 3-cü raund dəyərləndirmə hesabatında verilmiş tövsiyələrin icrası istiqamətində bir sıra mühüm addımlar atılmışdır. GRECO tərəfindən ünvanlanmış son hesabat layihəsində ölkəmizə korrupsiya cinayətlərinin kriminallaşdırılması və siyasi partiyaların maliyyələşdirilməsi üzrə verdiyi 17 tövsiyədən kriminallaşdırma sahəsində icra edilməmiş səlahiyyətli orqanlara məlumat vermiş aktiv rüşvət verən şəxslərin cəzadan avtomatik və tam olaraq azad edilməsi məsələsinə dair müvafiq normativ-hüquqi aktların layihələri idarə tərəfindən hazırlanmışdır.

Hesabat dövründə Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası (İAACA) ilə əməkdaşlıq diqqət mərkəzində saxlanılmış, 2013-cü il aprelin 12-dən 14-dək Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (İAACA) prezidenti Çao Cianminqin rəhbərlik etdiyi

nümayəndə heyəti Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur.

Səfər çərçivəsində Çao Cianminq Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralov ilə görüşmüş və ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlıq əlaqələrinin perspektivlərini müəyyənləşdirən Anlaşma Memorandumu imzalanmışdır.

Ötən il noyabrın 22-dən 24-dək Panama Respublikasında keçirilmiş Beynəlxalq Anti-korrupsiya Orqanları Assosiasiyasının 7-ci il-lik Konfransı və Ümumi iclasında ölkəmizin nümayəndə heyəti iştirak etmiş, tədbir zamanı assosiasiya prezidentinin, vitse-prezidentlərinin və İcraiyyə Komitəsi üzvlərinin seçkisi keçirilmişdir. Çin Xalq Respublikasının baş prokuroru yenidən qurumun prezidenti, Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov isə vitse-prezidenti seçilmişlər.

Bundan başqa, 2013-cü il oktyabrın 16-dan 19-dək Krans Montana Forumunun təşkilatçılığı ilə Belçikanın paytaxtı Brüsseldə keçirilmiş Transmilli cinayətkarlıq üzrə 15-ci Beynəlxalq Sammitdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərovun rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir.

Tədbirdə korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş sessiyada çıxış edən idarə rəisi Azərbaycan Respublikasında həyata keçirilən sistemli antikorrupsiya siyasəti, habelə idarə tərəfindən son illər aparılan cinayət təqibi barədə ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, 2013-cü il ərzində idarə tərəfindən, həmçinin Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM, Avropa İttifaqının «Şərq tərəfdaşlığı» nəzdində yaradılmış «Korrupsiyaya qarşı mübarizə üzrə Panel», Avropa İttifaqı (Aİ) - Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməklə idarə əməkdaşları həmin istiqamətlər üzrə konfrans, seminar, treninq, təlim və «dəyirmi masa»larda fəal iştirak etmişlər.

İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə fəaliyyətində qeyri-hökumət təşkilatları ilə sıx münasibətlərin qurulmasına xüsusi önəm verilmiş, qurumun fəaliyyəti, bu sahədə son vaxtlar qəbul edilmiş qanunvericiliyin tələbləri, beynəlxalq əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu və digər mühüm məsələlər ilə əlaqədar idarə əməkdaşlarının kütləvi informasiya vasitələrində məqalələri dərc olunmuşdur.

Dövlət başçısı İlham Əliyevin Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin yeni inzibati binasının açılışında, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Azərbaycan xalqına təbrikində və cari il yanvarın 9-da Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında rüşvətxorluq və korrupsiya kimi mənfi təzahürlərə qarşı daha ciddi mübarizə aparılması barədə tapşırıq və tövsiyələrinə uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi tərəfindən bundan sonra da korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyənləşdirilməsi və cinayətlərin qarşısının alınması istiqamətində sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdirilməsi təmin olunacaqdır.

Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxış edərək korrupsiyaya qarşı mübarizə sahəsində Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin 2013-cü il ərzində gördüyü işləri müsbət dəyərləndirmişlər.

QHT-nin və KİV-in nümayəndələrinin sualları ətraflı cavablandırılmışdır.

Tədbirin sonunda korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə tədbirləri çərçivəsində idarə tərəfindən hazırlanaraq nəşr edilmiş bülleten, buklet, kitablar, metodiki vəsaitlərin təqdimatı keçirilmişdir. Tədbir iştirakçılarına paylanan nəşrlər böyük marağa səbəb olmuşdur.

**Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi**

## Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində rayon, şəhər və ərazi hərbi prokurorlarının iştirakı ilə seminar keçirilmişdir





Fevralın 6-da Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsində "Korrupsiyaya qarşı mübarizədə prokurorluğun rolu və əsas vəzifələri" mövzusunda seminar keçirilmişdir.

Tədbirdə Baş prokurorun birinci müavini Rüstəm Usubov, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi Vüsal Hüseynov, Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin rəisi Kamran Əliyev, idarənin əməkdaşları, rayon, şəhər və ərazi hərbi prokurorları iştirak etmişlər.

Seminardan əvvəl tədbir iştirakçıları Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin inzibati binasının foyesində ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək unudulmaz xatirəsini ehtiramla yad etmiş, daha sonra bina ilə tanış olmuşlar.

Tədbiri giriş sözü ilə açan Baş prokurorun birinci müavini Rüstəm Usubov son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş sistemli və davamlı tədbirlər barədə ətraflı məlumat verməklə prokurorluq orqanlarının korrupsiya ilə mübarizəni fəaliyyətinin prioritet xətt kimi müəyyən etdiyini bildirmişdir. Korrupsiyaya qarşı mübarizə tədbirlərinin daha da gücləndirilməsinin zəruriliyini və prokurorluq orqanlarının əməkdaşları qarşısında mühüm vəzifələrin durduğunu bildirən natiq, dövlət başçısının siyasi iradəsinə uyğun olaraq bu sahədə prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələ biləcəklərinə əminliyini ifadə etmişdir.

Tədbirdə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov çıxış edərək "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası, o cümlədən prokurorluq orqanları tərəfindən bu sahədə görülmüş işlər və qarşıda duran vəzifələr, habelə Milli Fəaliyyət Planının icrası ilə əlaqədar gözlənilən nəticələr barədə ətraflı məlumat vermişdir.

Seminarda həmçinin, idarənin şöbə rəisləri Vüqar Əliyev və Elşən Abbasov dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizə ilə bağlı prokurorluq orqanlarının əsas vəzifələri və prokurorluq əməkdaşları tərəfindən Etik Davranış Kodeksinin tələblərinə əməl edilməsinin vəziyyəti barədə çıxışlar etmişlər.

İnteraktiv şəraitdə keçirilən tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi ilə rayon, şəhər və ərazi hərbi prokurorluqları arasında əlaqələrin daha da genişləndirilməsinin, korrupsiyaya qarşı mübarizədə səylərin artırılmasının, birgə istintaq qruplarının yaradılmasının zəruriliyi vurğulanmış və bu sahədə fəaliyyətin daha kəsərli və səmərəli qurulması istiqamətində faydalı müzakirələr aparılmışdır.

**Baş prokuror yanında
Korrupsiyaya qarşı mübarizə idarəsi**

## Baş prokurorluqda MONEYVAL Komitəsinin Dəyərləndirmə missiyası ilə görüş keçirilmişdir



Fevralın 17-də Avropa Şurasının çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəliklərin icrasına nəzarət edən qurumu olan MONEYVAL komitəsinin ölkəmizin bu sahədə IV raund dəyərləndirilməsi çərçivəsində Azərbaycanda səfərdə olan dəyərləndirmə missiyası ilə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində görüş keçirilmişdir.

MONEYVAL Katibliyinin nümayəndələrindən, habelə Böyük Britaniya, Rumıniya, Xorvatiya və Makedoniyanın ekspertlərindən ibarət dəyərləndirmə missiyası ilə görüşdə Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin rəisi Kamran Əliyev və idarənin məsul əməkdaşları iştirak etmişlər.

Tədbirdə Prezident cənab İlham Əliyevin siyasi iradəsinə müvafiq olaraq korrupsiyaya qarşı mübarizənin dövlət siyasətinin prioritet xəttini təşkil etməsi, bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər, ölkəmizin hüquq sistemi, idarənin fəaliyyəti və ona əməliyyat-axtarış səlahiyyətlərinin verilməsi, idarə ilə Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidmətinin qarşılıqlı əməkdaşlığı, habelə çirkli pulların yuyulması cinayətləri ilə əlaqədar idarədə ibtidai istintaqı aparılmış cinayət işləri barədə ətraflı məlumat verilmişdir.

Görüşdə dəyərləndirmə missiyasının nümayəndələrini maraqlandıran suallar cavablandırılmış, bu sahədə mövcud olan çatışmazlıqlara dair səmərəli fikir mübadiləsi aparılmaqla onların aradan qaldırılması yolları müzakirə edilmişdir.

Qonaqlara təqdim edilmiş Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işləri özündə əks etdirən bukletlər böyük maraqla qarşılanmışdır.

**Baş prokuror yanında**
**Korrupsiyaya qarşı mübarizə idarəsi**

## Tabe rayon prokurorluqlarının əməkdaşları üçün «Arxiv işinin təşkili» mövzusunda seminarlar keçirilmişdir



Martın 17-da «Arxiv işinin təşkili» mövzusunda Ağsu rayon prokurorluğunda seminar keçirilmişdir.

Seminarda Ağsu, Şamaxı, İsmayıllı, Qəbələ, Göyçay Kürdəmir və Qobustan rayon prokurorluqları ekspert komissiyalarının sədrləri və dəftərxana müdirləri iştirak etmişlər.

Məşğələdə Müraciətlərə baxılması idarəsinin böyük prokuroru – arxiv müdiri Zöhrə Məmmədova çıxış edərək prokurorluq orqanlarında arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və arxivlərin fəaliyyəti barədə məlumat vermiş, Azərbaycan Respublikası Baş prokurorunun 04.12.2001-ci il tarixli 08/160 №-li əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının prokurorluq orqanlarında kargüzarlığın aparılması Qaydaları haqqında» Təlimatın və Azərbaycan Respublikası Baş prokurorunun 25.06.2002-ci il tarixli 08/61 №-li əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Prokurorluğu orqanlarında sənədlərin saxlanılması müddətlərinə dair Siyahı»nın müddəalarını şərh etməklə arxiv işinin təşkilinə dair tövsiyələr vermişdir.

Seminarda tabe prokurorluqların ekspert komissiyaları tərəfindən tərtib edilən sənədlərin məhv edilməsinə dair aktlarda daha çox yol verilən nöqsanlar təhlil edilərək seminar iştirakçılarına müvafiq izahlar verilmiş, müvafiq normativ sənədlərin öyrənilməsi və tələblərinin yerinə yetirilməsi zəruriliyi vurğulanmışdır.

Sonda maraq doğuran suallar cavablandırılmışdır.

***

## Baş Prokurorluqda hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə məşqlərin keçirilməsi davam edir



Sentyabrın 19-da Baş Prokurorluğun inzibati binasında Müraciətlərə baxılması idarəsinin prokuroru Vahid Məmmədov hərbiləşdirilməmiş mülki müdafiə dəstələri üzvlərinin iştirakı ilə növbəti məşğələ keçirmişdir.

Tədbirdə prokurorluq əməkdaşları ilə yanaşı, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə idarəsinin Əhalinin xəbərdarlığın təşkili şöbəsinin rəisi Əlitaleh Qasımov və həmin idarənin Tədris Mərkəzinin rəisi Valeh Tahirov da iştirak etmişlər.

Məşğələdə hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin fövqəladə hallar zamanı yerinə yetirdikləri hərəkətlərin məqsəd və mahiyyəti, aralarında təşkil edilən əlaqələndirmənin zəruriliyi, dəstə komandirlərinin əsas vəzifələri, ilkin qərarların qəbul edilməsi qaydası və digər taktiki məsələlər barədə məlumat verilmişdir. Bildirilmişdir ki, hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin şəxsi heyəti ilə xəbərdarlıq və toplanış məşqlərinin keçirilməsində məqsəd şəxsi heyətin komplektləşdirilməsi, təchizatın, rabitə və xəbərdarlıq sisteminin hazırlığı vəziyyətinin yoxlanılmasının təmini, onların təkmilləşdirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsidir.

Sonra mülki müdafiə dəstələrinin şəxsi heyətinin qarşısına qoyulmuş vəzifələrə aid nəzəri biliklərə yiyələnməsinin vəziyyəti, zəruri vərdişlərin mənimsənilməsinin keyfiyyəti yoxlanılmışdır. Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmış, fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorluğun**
**Müraciətlərə baxılması idarəsi**

## Baş Prokurorluğun nümayəndəsi Azərbaycan Respublikası Prokurorluğunu "İnsan alveri ilə əlaqədar cinayətlərin qarşısının alınması konsepsiyası" layihəsinin müzakirəsində təmsil etmişdir



Fevralın 11-12-də Minsk şəhərində "Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin insan alverinə qarşı mübarizəyə yönəlmiş sosial, informasiya, təhsil və lisenziyalaşdırma siyasətinin formalaşdırılması və həyata keçirilməsinin ümumi prinsiplərini nəzərə almaqla insan alveri ilə əlaqədar cinayətlərin qarşısının alınması konsepsiyası" layihəsinin müzakirəsi çərçivəsində ekspert qrupunun iclası keçirilmişdir.

Azərbaycan, Rusiya, Ukrayna, Belarus, Qazaxıstan və MDB iştirakçısı olan digər dövlətlərin nümayəndələrinin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikası tərəfindən layihənin mətninə dair irəli sürülmüş təkliflər nəzərdən keçirilərək qəbul edilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Prokurorluğunu Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəis müavini Erkin Əlixanov təmsil etmişdir.

**Baş Prokurorluğun**
**Beynəlxalq əlaqələr idarəsi**

***

## Baş Prokurorluğun nümayəndəsi antikorrupsiya şəbəkəsinin İstanbul fəaliyyət planı üzrə tədbirində iştirak etmişdir



Fevralın 17-19-da Düşənbə şəhərində İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı tərəfindən Tacikistan Respublikasının korrupsiyaya qarşı mübarizə siyasəti, o cümlədən, korrupsiyanın kriminallaşdırılması, qarşısının alınması və digər istiqamətlər üzrə gördüyü işlərin 3-cü raund dəyərləndirilməsinin monitorinqi keçirilmişdir.

Antikorrupsiya Şəbəkəsi İstanbul Fəaliyyət Planının layihə rəhbərinin, OECD Katibliyi əməkdaşının, həmçinin Qazaxıstan, Moldova və Litvanın nümayəndələrinin də daxil olduğu monitorinq qrupunda ölkəmizi ekspert qismində Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsi, Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyev təmsil etmişdir.

Dəyərləndirmə səfəri çərçivəsində monitorinq qrupunun üzvləri Tacikistan Respublikasının Baş prokuroru, Dövlət maliyyə Nəzarəti və Korrupsiya ilə mübarizə Agentliyinin direktoru, Ombudsman, parlament üzvləri və OECD tərəfindən verilmiş tövsiyələrin icrasına məsul olan dövlət qurumlarının nümayəndələri ilə görüşlər keçirmiş, korrupsiyaya qarşı mübarizə sahəsində ölkədə görülmüş işlərə dair məlumat toplamışlar.

Tacikistan Respublikasının 3-cü raund dəyərləndirilməsi çərçivəsində növbəti görüşün cari ilin aprelində keçirilməsi nəzərdə tutulmuşdur.

**Baş prokuror yanında**
**Korrupsiyaya qarşı mübarizə idarəsi**

# TƏYİNATLAR

**2014-cü ilin yanvar-mart aylarında aşağıda adlari çəkilən prokurorluq işçiəri yuxarı təsnifat vəzifələrə təyin olunmuşlar.**

1. **Məmmədov Nurəli Əmralı oğlu** - Azərbaycan Respublikası Başprokurorunun 12 fevral 2014-cü il tarixli 11/37-k №-li əmri ilə Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini vəzifəsinə təyin edilmişdir.

Nurəli Məmmədov 1960-cı ildə anadan olmuş, 1988-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmiş, 1993-cü ildə Azərbaycan Respublikasının prokurorluq orqanlarında qulluğa qəbul olunaraq, Qəbələ rayon prokurorunun köməkçisi vəzifəsi üzrə stajor, 1994-cü ildən Balakən rayon prokurorunun köməkçisi vəzifəsi üzrə stajor işləmiş, həmin rayon prokurorunun köməkçisi, 1995-ci ildən Ağdaş rayon prokurorunun köməkçisi, 1996-cı ildən Gəncə şəhər prokurorunun köməkçisi, 2000-ci ildən Sumqayıt şəhər prokurorunun köməkçisi, 2001-ci ildən Sumqayıt şəhər prokurorunun müavini vəzifələrində işləmiş, 2004-2011-ci illərdə Azərbaycan Respublikasının vergi orqanlarında müxtəlif vəzifələrdə xidmət keçmiş, 2011-ci ildə prokurorluq orqanlarında yenidən qulluğa qəbul olunmaqla, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı mübarizə idarəsinin Mütəxəssislər qrupunun rəhbəri (Baş prokurorun köməkçisi) vəzifəsində çalışmışdır.

Baş ədliyyə müşaviri xüsusi rütbəsindədir.

2. **Əhmədov Mahir Sabir oğlu** - Azərbaycan Respublikası Baş prokurorunun20 fevral 2014-cü il tarixli 11/48-k №-li əmri ilə Azərbaycan Respublikası HərbiProkurorluğunun Silahlı Qüvvələrdə qanun pozuntuları barədə məlumatlarınaraşdırılması şöbəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

Mahir Əhmədov 1956-cı ildə anadan olmuş, 1982-ci ildə Azərbaycan Dövbt Universitetinin hüquq fakültəsini bitirmiş, 1987-ci ildə Azərbaycan Respublikasının prokurorluq orqanlarında qulluğa qəbul olunaraq, Bakı şəhəri 26 Bakı komissarı adına (hazırkı Səbail) rayon prokurorunun köməkçisi vəzifəsi hesabına stajor işləmiş, 1989-cu ildən həmin rayon prokurorunun köməkçisi, 1990-cı ildən Bakı şəhər prokurorluğunun Təsərrüfat fəaliyyətində, sosial və ekoloji sahələrdə qanunların icrasına nəzarət şöbəsinin prokuroru, 1991-ci ildən Respublika Prokurorluğunun Ümumi nəzarət idarəsinin prokuroru, 1992-ci ildən həmin idarənin böyük prokuroru, 1993-cü ildən Baş Prokurorluğun Ümumi nəzarət idarəsinin Qanunların icrasına və hüquqi aktların qanuniliyinə nəzarət şöbəsinin böyük prokuroru, Baş Prokurorluğun Ümumi nəzarət idarəsinin rəisi, 1994-cü ildən Hava Hücumundan Müdafiə və Hərbi Hava Qüvvələrində qanunların icrasına nəzarət üzrə hərbi prokurorun müavini, 2000-ci ildən İxtisaslaşdırılmış hərbi prokurorun müavini, 2001-ci ildən Respublika Hərbi Prokurorluğunun Təşkilat-analitik şöbəsinin böyük prokuroru, 2006-cı ildən Respublika Hərbi prokurorunun kadr məsələləri üzrə böyük köməkçisi, 2009-cu ildən Respublika Hərbi Prokurorluğunun Kadrlar şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

Ədliyyə polkovniki hərbi rütbəsindədir.

3. **Quliyev Elsevər Aydın oğlu** - Azərbaycan Respublikası Baş prokurorunun21 fevral 2014-cü il tarixli 11/53-k №-li əmri ilə Naxçıvan Muxtar Respublikası Naxçıvan şəhər prokuroru vəzifəsinə təyin edilmişdir.

Elsevər Quliyev 1965-ci ildə anadan olmuş, 2003-cü ildə Naxçıvan Dövlət Universitetini hüquqşünaslıq ixtisası üzrə bitirmiş, 1996-2004-cü illərdə Naxçıvan Muxtar Respublikasının ədliyyə orqanlarında qulluq keçmiş, 2004-cü ildə Azərbaycan Respublikasının prokurorluq orqanlarında qulluğa qəbul olunaraq, Naxçıvan Muxtar Respublikası Kəngərli rayon prokurorluğunun müstəntiqi, 2005-ci ildən Şərur rayon prokurorluğunun böyük müstəntiqi, 2007-ci ildən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət şöbəsinin prokuroru, 2011-ci ildən Şərur rayon prokurorunun müavini vəzifələrində çalışmışdır.

Ədliyyə müşaviri xüsusi rütbəsindədir.

4. **Əsgərov Əsrafil Cəfər oğlu** - Azərbaycan Respublikası Baş prokurorunun 21 fevral 2014-cü il tarixli 11/54-k №-li əmri ilə Naxçıvan Muxtar Respublikası Babəkrayon prokuroru vəzifəsinə təyin edilmişdir.

Əsrafil Əsgərov 1966-cı ildə anadan olmuş, 2000-ci ildə Naxçıvan Dövlət Universitetini hüquqşünaslıq ixtisası üzrə bitirmiş, 1989-2003-cü illərdə Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanlarında xidmət keçmiş, 2003-cü ildə Azərbaycan Respublikasının prokurorluq orqanlarında qulluğa qəbul olunaraq, Naxçıvan Muxtar Respublikası Babək rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsi üzrə stajor işləmiş, 2005-ci ildən Şərur rayon prokurorluğunun böyük müstəntiqi, 2004-cü ildən Babək rayon prokurorluğunun böyük müstəntiqi, 2005-ci ildən Babək rayon prokurorunun müavini vəzifələrində çalışmışdır.

Ədliyyə müşaviri xüsusi rütbəsindədir.

**Baş Prokurorluğun Kadrlar idarəsi**

# AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

## Ə M R

**№ 10/15**

**Bakı şəhəri** **18 mart 2014-cü il**

**Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə «Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin səmərəliliyinin artırılması, istintaq və təhqiqat üzərində nəzarətin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında» 28.07.2010-cu il tarixli 10/70 nömrəli əmrə dəyişiklik edilməsi barədə**

İbtidai araşdırma zamanı prosessual rəhbərliyin həyata keçirilməsi mexanizmini dəqiqləşdirmək, ədalət mühakiməsi prinsiplərinin ardıcıl həyata keçirilməsini və cinayət prosesi iştirakçılarının hüquqlarının daha səmərəli müdafiə olunmasını təmin etmək məqsədi ilə, «Prokurorluq haqqında» Qanunun 10-cu maddəsini rəhbər tutaraq,

**Ə M R  E D İ R Ə M:**

1. Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə «Prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyinin səmərəliliyinin artırılması, istintaq və təhqiqat üzərində nəzarətin gücləndirilməsi və bu sahədə işin daha da təkmilləşdirilməsi haqqında» 28.07.2010-cu il tarixli 10/70 nömrəli əmrə aşağıdakı məzmunda 22.1-ci bənd əlavə edilsin:

«22.1. İbtidai araşdırmaya prosessual rəhbərlik belə araşdırma respublika tabeliyində olan rayonların (şəhərlərin) prokurorları tərəfindən aparıldıqda Baş prokurorun birinci müavini; ərazi hərbim prokurorları tərəfindən aparıldıqda Azərbaycan Respublikasının hərbi prokurorunun müvafiq müavini; Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarının prokurorları tərəfindən aparıldıqda Naxçıvan Muxtar Respublikasının prokuroru; Bakı şəhəri tabeliyində olan rayonların prokurorların tərəfindən aparıldıqda Bakı şəhər prokuroru tərəfindən həyata keçirilsin.

2.Əmr elan və icra olunması üçün Baş Prokurorluğun bütün struktur qurumlarına və tabe prokurorluqlara göndərilsin, «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri** **Zakir Qaralov**

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629; 2013, № 7, maddə 777; № 8, maddə 888) 329-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 327-ci maddədə “Fiziki şəxslərin” sözləri “15 yaşına çatmış vətəndaşın” sözləri ilə əvəz edilsin;

1.2. 329-cu maddə üzrə:

1.2.1. adından “və ya yaşayış yeri üzrə qeydiyyatdan keçmədən” sözləri çıxarılsın;

1.2.2. dispozisiyasından “, habelə həmin müddət ərzində yaşayış yeri üzrə qeydiyyatdan keçmədən yaşamasına” sözləri çıxarılsın.

2. Bu Qanun 2015-ci il dekabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 3 dekabr 2013-cü il**
**№ 836-IVQD**

**“Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq qərara alır:

“Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №10, maddə 569; 2001, №12, maddə 736; 2005, № 8, maddə 692; 2006, №11, maddə 928; 2007, №6, maddə 560; 2008, №8, maddə 695, №11, maddə 960; 2009, №12, maddə 966; 2013, №4, maddə 357) aşağıdakı dəyişiklik edilsin:

1. 6-cı maddəyə aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

“Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası üzrə işlərin aparılması xərclərinə ayırmalar müvafiq sığorta haqlarının 10 faizi

miqdarında müəyyən edilir.";

2. 7-ci maddənin birinci hissəsinin "a" və "b" bəndlərinin birinci yarımbəndlərindən müvafiq olaraq"notariat qaydasında təsdiq olunmuş" və "notariat qaydasında təsdiq edilmiş" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 dekabr 2013-cü il**
**№ 846-IVQD**

**"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 14 may tarixli 649-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alır:

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, №7, maddə 572; 2011, №12 maddə 1089; Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 805-IVQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 7.1.6-cı maddəyə "şikayət" sözündən əvvəl "sığorta nəzarəti orqanına və məhkəməyə" sözləri əlavə edilsin;

2. 9.1.2-ci maddədə "qanunvericiliyə uyğun olaraq" sözləri "inzibati qaydada və" sözləri ilə əvəz edilsin;

3. 10.0.1-ci maddədə "qanunvericililə" sözü "müvafiq icra hakimiyyəti orqanı tərəfindən" sözləri ilə əvəz edilsin;

4. 11.4-cü maddədə "qanunvericiliklə" sözü "Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanunu və bu Qanunla" sözləri ilə əvəz edilsin;

5. 11.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"11.9. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 908-ci maddəsində nəzərdə tutulmuş əsaslar mövcud olduqda, sığorta müqaviləsi bağlanıldığı andan etibarsız hesab edilir.";

6. 16.1-ci maddədə "verilə bilər" sözləri "verilir" sözü ilə əvəz edilsin;

7. 17.3-cü maddədə "lazımi sənədləri" sözləri "arayışı sığortalıdan" sözləri ilə, "lazım olan" sözləri "müvafiq" sözü ilə əvəz edilsin;

8. 17.6-cı maddə çıxarılsın;

9. aşağıdakı məzmunda 18.12-ci maddə əlavə edilsin:

"18.12. Sığorta olunanların həyatına və sağlamlığına dəyən zərər nəticəsində onların peşə əmək qabiliyyətinin itirilməsi və ya ölümü ilə bağlı bu Qanunla müəyyən edilmiş qaydada sığorta ödənişinin həyata keçirilməsi "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 32.1.1-ci maddəsində nəzərdə tutulmuş halda mümkün olmadıqda, İcbari Sığorta Bürosu tərəfindən kompensasiya ödənişi verilir.";

10. 21-ci maddə üzrə:

10.1. 21.1-ci maddədən "Azərbaycan Respublikasının sığorta qanunvericiliyinə uyğun olaraq" sözləri çıxarılsın;

10.2. 21.2-ci maddədən "qanunvericiliyə uyğun olaraq" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 dekabr 2013-cü il**
**№ 847-IVQD**

**"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alır:

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 58; 2010, № 3, maddə 178, № 4, maddə 276; 2011, № 12, maddə 1104) 4.0.9-cu maddəsində "qeyri-hökumət təşkilatı"

sözlərindən sonra “, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliyi” sözləri və 6.1.5-ci maddəsində “qeyri-hökumət təşkilatları” sözlərindən sonra “, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 dekabr 2013-cü il**
**№ 851-IVQD**

**“Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 9, № 8, maddə 598, № 9, maddə 668; 2007, № 4, maddə 320, № 5, maddə 446, № 7, maddə 712, № 11, maddə 1078; 2008, № 6, maddə 470, № 7, maddə 608; 2010, № 7, maddə 590; 2011, № 4, maddə 266, № 11, maddə 982; 2012, № 6, maddə 521) 71.2-ci maddəsində “1.785.0” rəqəmləri “2120” rəqəmləri ilə əvəz edilsin.

Maddə 2. Bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş dəyişiklik 2013-cü il dekabrın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 855-IVQD**

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246, 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr

1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888; Azərbaycan Respublikasının 2013-cü il 22 oktyabr tarixli 772-IVQD, 779-IVQD, 785-IVQD nömrəli, 29 oktyabr tarixli 789-IVQD, 797-IVQD, 807-IVQD nömrəli və 3 dekabr tarixli 839-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 53.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"53.1. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə - fiziki şəxslər min manatdan üç min manatadək miqdarda, vəzifəli şəxslər üç min manatdan beş min manatadək miqdarda, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək miqdarda cərimə edilir.".

2. 53-cü maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bu Məcəllənin 53.1-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 876-IVQD**

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600; Azərbaycan Respublikasının 2013-cü il 30 sentyabr tarixli 745-IVQD nömrəli, 22 oktyabr tarixli 771-IVQD nömrəli və 29 oktyabr tarixli 798-IVQD nömrəli qanunları) aşağıdakı məzmunda 162-1-ci maddə əlavə edilsin:

"Maddə 162-1. Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi

162-1.1. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi — yeddi min manatdan on min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

162-1.2. Eyni əməllər təkrar törədildikdə — üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Qeyd: Bu maddədə "xeyli sayda" dedikdə, on nəfər və ondan çox olan işçilərin sayı nəzərdə tutulur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 878-IVQD**

**Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 16-cı bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101; Azərbaycan Respublikasının 2013-cü il 30 sentyabr tarixli 749-IVQD №-li Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddənin 3-cü hissəsindən “hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan” sözləri çıxarılsın.

2. 3-cü maddəyə aşağıdakı məzmunda 5-1-ci hissə əlavə edilsin:

“5-1. Əmək müqaviləsi bildirişi - bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək müqaviləsinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və ya xitam verilməsinin müvafiq icra hakimiyyəti orqanının elektron informasiya sistemində (bundan sonra - elektron informasiya sistemi) elektron qaydada qeydiyyata alınması məqsədi ilə işəgötürən tərəfindən həmin elektron informasiya sisteminə daxil edilən elektron sənəd.”.

3. 7-ci maddənin 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin və həmin maddəyə aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

“2. Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək münasibətləri elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra yaranır.

2-1. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş dövlət orqanlarında müvafiq vəzifələrə (peşələrə) qəbul edilən (götürülən) işçilərlə işəgötürənlər arasında əmək münasibətləri əmək müqaviləsi kağız üzərində yazılı formada bağlandıqda yaranır.”.

4. 9-cu maddənin “n” bəndində nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda “o” bəndi əlavə edilsin:

“o) elektron informasiya sistemindən onunla bağlı qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etmək.”.

5. 12-ci maddənin “ğ” yarımbəndində nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda “h” yarımbəndi əlavə edilsin:

“h) əmək müqaviləsi bildirişini elektron informasiya sisteminə daxil etmək (bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla).”.

6. 15-ci maddəyə aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

“7. Müvafiq icra hakimiyyəti orqanı elektron informasiya sisteminə müvafiq icra hakimiyyəti orqanının real vaxt rejimində inteqrasiya olunmasını təmin etməlidir.”.

7. 43-cü maddənin 2-ci hissəsinin “a” bəndi aşağıdakı redaksiyada verilsin:

“a) işçinin soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, onun seriya və nömrəsi, pin kodu, verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;”.

8. 43-cü maddənin 2-ci hissəsinin “b” bəndi aşağıdakı redaksiyada verilsin:

“b) işəgötürən hüquqi şəxs olduqda onun adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), hüquqi ünvanı, fiziki şəxs olduqda onun adı, soyadı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN), ünvanı, şəxsiyyətini təsdiq edən sənədin adı, seriyası, nömrəsi, pin kodu və ya fərdi identifikasiya nömrəsi (FİN), verildiyi tarix, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı;”.

9. 43-cü maddənin 2-ci hissəsinin “ğ” bəndi “x” bəndi hesab edilsin və aşağıdakı məzmunda “ğ” və “h” bəndləri əlavə edilsin:

“ğ) ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, işçinin dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN);

h) işçinin iş yerinin əsas və ya əlavə iş yeri olması barədə qeyd.”.

10. 49-cu maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 49. Əmək müqaviləsinin hüquqi qüvvəyə minməsi

1. Bu Məcəllənin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallar istisna olmaqla, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektro1sisteminə daxil

edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir.

2. Elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınması barədə 1 iş günündən gec olmayaraq sistem vasitəsilə işəgötürənə elektron qaydada məlumat göndərilir.

3. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş dövlət orqanlarında müvafiq vəzifələrə (peşələrə) qəbul edilən (götürülən) işçilərlə işəgötürənlər arasında bağlanılmış əmək müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, o, tərəflərin imzaladığı gündən hüquqi qüvvəyə minir. Həmin əmək müqaviləsinin hər hansı dövlət orqanında və ya digər qurumlarda qeydiyyata alınması, təsdiq edilməsi yolverilməzdir.

4. Əmək müqaviləsi bildirişinin forması və onun elektron informasiya sisteminə daxil edilməsi qaydaları, əmək müqaviləsi bildirişinin qeydiyyata alınması ilə bağlı işəgötürənə göndərilən məlumat forması, habelə qeydiyyata alınmış əmək müqaviləsi bildirişinin məlumatlarını real vaxt rejimində əldə etməklə bağlı qaydalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

Maddə 2. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə 1-ci əlavənin (əmək müqaviləsinin (kontraktının) nümunəvi formasının) 1-ci paraqrafında aşağıdakı dəyişikliklər edilsin:

1. 1.1-ci bənddə "idarənin, müəssisənin, təşkilatın adı" sözlərindən sonra ", vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN)" sözləri, "vəzifəsinin adı" sözlərindən sonra ", adı, atasının adı və soyadı" sözləri əlavə edilsin, 2-ci halda "adı, atasının adı və soyadı" sözləri "(işəgötürən fiziki şəxs olduqda onun adı, atasının adı, soyadı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), sığortaedənin uçot nömrəsi (SUN), dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN), şəxsiyyətini təsdiq edən sənədin adı, onun seriyası, nömrəsi, pin kodu və ya fərdi identifikasiya nömrəsi (FİN), verildiyi tarix, şəxsiyyət vəsiqəsini verən orqanın adı)" sözləri ilə əvəz edilsin, "vətəndaşlığı, şəxsiyyətini təsdiq edən sənəd, onun nömrəsi, verildiyi tarix və onu verən orqanın adı" sözləri "vətəndaşlığı, şəxsiyyətini təsdiq edən sənədin adı, onun seriya və nömrəsi, pin kodu, verildiyi tarix və onu verən orqanın adı" sözləri ilə əvəz edilsin, "təhsili, ixtisası, sənəti, peşəsi, bitirdiyi təhsil müəssisəsinin adı" sözlərindən sonra ", ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla, dövlət sosial sığorta şəhadətnaməsinin nömrəsi (SSN)" sözləri əlavə edilsin.

2. 1.2-ci bənddə "iş yerinin və vəzifənin, peşənin adı" sözləri "iş yerinin adı, onun əsas iş yeri və ya əlavə iş yeri olması barədə qeyd, vəzifənin, peşənin adı" sözləri ilə əvəz edilsin.

Maddə 3. Keçid müddəalar

Bu Qanun qüvvəyə mindiyi günədək yazılı bağlanılmış və qüvvədə olan əmək müqavilələri barədə əmək müqaviləsi bildirişləri müvafiq icra hakimiyyəti orqanının elektron informasiya sistemində qeydiyyata alınması məqsədi ilə işəgötürənlər tərəfindən 2014-cü ilin 1 iyul tarixinədək həmin elektron informasiya sisteminə daxil edilməlidir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 875-IVQD**

**"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndinə əsasən qərara alır:

Maddə 1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21) 106-cı maddəsinin birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci abzasda "1.785,0" rəqəmləri "2070" rəqəmləri ilə əvəz edilsin;

1.2. beşinci abzasda "60 " rəqəmləri "70" rəqəmləri ilə əvəz edilsin.

Maddə 2. Bu Qanunun 1.1-ci maddəsində nəzərdə tutulmuş dəyişiklik 2013-cü il dekabrın 1-dən, 1.2-ci maddəsində nəzərdə tutulmuş dəyişiklik isə 2014-cü il yanvarın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 856-IVQD**

**Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №8, I kitab, maddə 583; 2001, №7, maddə 454, №9, maddə 576, №12, maddə 734; 2002, №5, maddə 249, №12, maddə 707; 2003, №8, maddə 425, №12, I kitab, maddə 671; 2004, №1, maddə 1, №11, maddə 887, №12, maddə 980; 2005, № 2, maddə 61, №8, maddə 688, №12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, №1, maddə 4, №6, maddə 597, №8, maddə 745, №11, maddə 1053, №12, maddə 1192; 2008, №7, maddə 602, №11, maddə 960; 2009, №7, maddə 506; 2011, №1, maddə 14, №7, maddələr 588, 603, №12, maddə 1115; 2012, №6, maddələr 500, 513, №7, maddə 652, №9, maddə 841, №12, maddə 1226; 2013, №2, maddə 91, №4, maddə 366; Azərbaycan Respublikasının 2013-cü il 22 oktyabr tarixli 762-IVQD nömrəli və 22 noyabr tarixli 827-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 50.1.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"50.1.7. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi hallarının aşkar edilməsi;".

2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 58.10-cu maddəsi aşağıdakı redaksiyada verilsin:

"58.10. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 877-IVQD**

**Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №8, I kitab, maddə 583; 2001, №7, maddə 454, №9, maddə 576, №12, maddə 734; 2002, №5, maddə 249, №12, maddə 707; 2003, №8, maddə 425, №12, I kitab, maddə 671; 2004, №1, maddə 1, №11, maddə 887, №12, maddə 980; 2005, №2, maddə 61, №8, maddə 688, №12, maddə 1081; 2006, №12, maddələr 1005, 1026; 2007, №1, maddə 4, №6, maddə 597, №8, maddə 745, №11, maddə 1053, №12, maddə 1192; 2008, №7, maddə 602, №11, maddə 960; 2009, №7, maddə 506; 2011, №1, maddə 14, №7, maddələr 588, 603, №12, maddə 1115; 2012, №6, maddələr 500, 513, №7, maddə 652, №9, maddə 841, №12, maddə 1226; 2013, №2, maddə 91, №4, maddə 366; Azərbaycan Respublikasının 2013-cü il 22 oktyabr tarixli 762-IVQD nömrəli və 22 noyabr tarixli 827-IVQD nömrəli qanunları) 102.1.6-cı maddədə "200" rəqəmləri "250" rəqəmləri və "2400" rəqəmləri "3000" rəqəmləri ilə əvəz edilsin.

Maddə 2. Bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmuş dəyişikliklər 2013-cü il sentyabrın 1-dən tətbiq edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 881-IVQD**

**Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddə 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620; Azərbaycan Respublikasının 2013-cü il 22 oktyabr tarixli 764-IVQD nömrəli və 29 oktyabr tarixli 804-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 144.2-1-ci maddədə “sonra” sözü “dərhal sonra onu elektron formada informasiya sistemləri vasitəsi ilə,” sözləri ilə əvəz edilsin və “müddətində” sözündən sonra “isə” sözü əlavə edilsin.

2. 144.3-cü maddənin ikinci cümləsində “ərizəsini” sözü “ərizəsinin” sözü ilə əvəz edilsin, “birlikdə” sözündən sonra “elektron formada informasiya sistemləri vasitəsi ilə ərizənin təsdiq edildiyi gün, iki iş günü müddətində isə həmin sənədləri sifarişli poçt göndərişi vasitəsi ilə” sözləri əlavə edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Həmin ərizənin surəti müqavilənin notariat qaydasında təsdiqlənməsi haqqında müraciət edən şəxsə verilir.”.

3. 146.4-cü maddə ləğv edilsin.

4. Aşağıdakı məzmunda 148.3-cü maddə əlavə edilsin:

“148.3. Daşınmaz əmlakın təsviri, bu əmlak üzərində daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayış qanunla müəyyən edilmiş hallarda və qaydada notarius tərəfindən daşınmaz əmlakın dövlət reyestrindən elektron informasiya sistemləri vasitəsi ilə real vaxt rejimində əldə edilir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 879-IVQD**

**Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ni “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 352-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 347; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 133, № 5, maddə 312; 2007, № 8, maddə 754, № 11, maddə 1078; 2008, № 8, maddə 709; 2010, № 12, maddə 1056; 2011, № 2, maddə 71; 2012, № 5, maddə 408) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 29-cu maddənin birinci hissəsində “tutulmuş” sözündən sonra “və ya həbs edilmiş” sözləri əlavə edilsin.

2. Həmin nizamnamənin “Hauptvaxt haqqında” 4 nömrəli əlavəsi üzrə:

2.1. 3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Cinayət prosesini həyata keçirən orqan tərəfindən

tutulmuş və ya həbs edilmiş hərbi qulluqçular üçün hauptvaxtlar müvəqqəti saxlama yerlərinin funksiyalarını həyata keçirir.";

2.2. 32-ci maddənin mətni həmin maddənin ikinci hissəsi hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda birinci hissə əlavə edilsin:

"Tutulmuş və ya həbs edilmiş hərbi qulluqçular Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və müddətlərdə hauptvaxtlarda saxlanılırlar.";

2.3. aşağıdakı məzmunda 32-1-ci maddə əlavə edilsin:

"32-1. Tutulmuş və həbs edilmiş hərbi qulluqçuların hauptvaxtlarda hüquqlarının və qanuni mənafelərinin qorunmasına, onların üzərinə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə və onların təcrid edilməsinə yönəlmiş qaydaları təmin edən rejim müəyyən edilir. Hauptvaxtda rejim bu əlavə və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.";

2.4. 33-cü maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Tutulmuş və həbs edilmiş hərbi qulluqçular Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hüquq və azadlıqlardan istifadə edir və vəzifələr daşıyırlar.";

2.5. 33-cü maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilsin:

"Hauptvaxtın rəisi Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi və "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müvəqqəti saxlama yerlərinin müdiriyyəti üçün müəyyən edilmiş vəzifələri daşıyır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 869-IVQD**

## "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

"Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Polis haqqında" Azərbaycan Respublikasının Qanununu "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 352-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Polis haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 611; 2001, № 11, maddə 699, № 12, maddə 731; 2002, № 3, maddə 118, № 6, maddə 328; 2003, № 1, maddə 22, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 2, maddələr 74, 75, № 11, maddə 927; 2007, № 8, maddə 756; 2008, № 4, maddə 251, № 7, maddə 602, № 8, maddə 696, № 10, maddə 883; 2009, № 6, maddələr 399, 401; 2010, № 2, maddə 74, № 3, maddə 171) aşağıdakı dəyişikliklər edilsin:

1. 14-cü maddənin 4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"4) Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və müddətlərdə tutulmuş və ya həbs edilmiş şəxsi müvəqqəti saxlama yerində saxlamaq;".

2. 23-cü maddənin 5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"5) tutulmuş və ya həbs edilmiş şəxs həbs yerinə gətirildikdən dərhal sonra ona tutulduğu və ya həbsə alındığı və harada saxlanıldığı barədə yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla və ya digər vasitələrlə məlumat vermək imkanını yaratmalıdır (tutulmuş və ya həbs edilmiş şəxsin qocalığı, yetkinlik yaşına çatmaması, sağlamlıq və psixi vəziyyəti ilə bağlı hallar istisna olmaqla, belə məlumatları öz təşəbbüsü ilə verməməlidir); əgər tutulmuş və ya həbs edilmiş şəxs əcnəbi, yaxud vətəndaşlığı olmayan şəxsdirsə, onun vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasında olan diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud ona himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilata bu barədə dərhal məlumat verməli və bu cür məlumatın verildiyini qeydə almalıdır;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 870-IVQD**

**“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununu “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 352-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 612; 2002, № 5, maddə 250, № 6, maddə 328; 2004, № 3, maddə 133; 2005, № 12, maddə 1079; 2006, № 2, maddə 64, № 11, maddə 933, № 12, maddə 1005; 2007, № 6, maddə 560; 2008, № 4, maddə 252, № 6, maddə 462; 2010, № 3, maddə 172, № 6, maddə 487; 2011, № 4, maddələr 252, 268, №11, maddə 989) aşağıdakı məzmunda 14-2-ci maddə əlavə edilsin:

“Maddə 14-2. Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyəti

I. Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış tədbirləri bu Qanunla müəyyən edilmiş qaydada tətbiq edilir.

II. Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyətini müvafiq olaraq həbs yerlərinin və cəzaçəkmə müəssisələrinin müdiriyyəti həyata keçirir. Müvafiq icra hakimiyyəti orqanları öz səlahiyyətlərinə aid edilmiş cinayət işləri üzrə əməliyyat-axtarış fəaliyyətini həbs yerlərinin və ya cəzaçəkmə müəssisələrinin müdiriyyəti ilə birgə həyata keçirirlər.

III. Həbs yerlərində və cəzaçəkmə müəssisələrində əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi zamanı qanunların icrasına nəzarəti bu Qanunun 20-ci maddəsi ilə müəyyən edilmiş qaydada prokurorluq orqanları həyata keçirirlər.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 871-IVQD**

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsini “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 352-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600; Azərbaycan Respublikasının 2013-cü il 30 sentyabr tarixli 745-IVQD nömrəli, 22 oktyabr tarixli 771-IVQD nömrəli və 29 oktyabr tarixli 798-IVQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 292-ci maddənin adında “həbsdə” sözü “həbs yerində” sözləri ilə əvəz edilsin.

2. 292.2-ci maddədən “və ya həbsdə saxlama” və “iki ildən” sözləri çıxarılsın.

3. Aşağıdakı məzmunda 292.2-1-ci maddə əlavə edilsin:

“292.2-1. Bilə-bilə qanunsuz həbs yerində saxlama dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.”.

4. 292.3-cü maddədə “292.1 və ya 292.2-ci”

sözləri "292.1-ci, 292.2-ci və ya 292.2-1-ci" sözləri ilə əvəz edilsin.

5. 304-cü maddənin adında "yerindən, həbsdən və ya" sözləri "və ya həbs yerindən, yaxud" sözləri ilə əvəz edilsin;

6. 304.1-ci maddədə "və ya ibtidai həbsdə olan şəxsin azadlıqdan məhrum etmə yerlərindən, həbsdən və ya" sözləri ", həbs edilən və ya tutulan şəxsin azadlıqdan məhrum etmə və ya həbs yerindən, yaxud" sözlər ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 872-IVQD**

**Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsini "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 352-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786; Azərbaycan Respublikasının 2013-cü il 30 sentyabr tarixli 746-IVQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 7.0.38-1-ci maddə əlavə edilsin:

"7.0.38-1. həbs yerləri – tutulmuş və ya həbs edilmiş şəxsin saxlanılması üçün nəzərdə tutulmuş müvəqqəti saxlama yerləri, istintaq təcridxanaları və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin qarnizon hauptvaxtlarıdır;".

2. 7.0.40-cı maddədə "həbsdə saxlanılma yerində (istintaq təcridxanalarında)" sözləri "həbs yerlərində" sözləri ilə əvəz edilsin.

3. 90.7.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"90.7.6. tutulduqdan dərhal sonra tutulduğu və harada saxlanıldığı barədə yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla və ya digər vasitələrlə məlumat vermək; əgər tutulmuş şəxs əcnəbi, yaxud vətəndaşlığı olmayan şəxsdirsə, onun vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasında olan diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud ona himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilata bu barədə dərhal məlumat vermək;".

4. 90.7.24-cü, 90.11.7-ci, 91.5.42-ci, 91.8.9-cu və 153.1-ci maddələrdə "bu Məcəllədə" sözlərindən sonra ", habelə "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda" sözləri əlavə edilsin.

5. 91.5.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"91.5.6. tutulduqdan dərhal sonra tutulduğu və ya həbsə alındığı və harada saxlanıldığı barədə yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla və ya digər vasitələrlə məlumat vermək; əgər tutulmuş şəxs əcnəbi, yaxud vətəndaşlığı olmayan şəxsdirsə, onun vətəndaşı olduğu və daimi yaşadığı dövlətin Azərbaycan Respublikasında olan diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud ona himayədarlığı öz üzərinə götürmüş milli, yaxud beynəlxalq təşkilata bu barədə dərhal məlumat vermək;".

6. Aşağıdakı məzmunda 148.5-ci maddə əlavə edilsin:

"148.5. Cinayət törətməkdə şübhəli olduğu üçün tutulmuş şəxsin müvəqqəti saxlama yerində saxlanılması cinayət prosesini həyata keçirən orqanlar tərəfindən tərtib edilmiş tutulma haqqında protokol əsasında həyata keçirilir.".

7. 152.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"152.1. Hökmün və ya məhkəmənin digər yekun

qərarının icrası yerinə məcburi göndərilməsi və ya təyin olunmuş cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin ləğvi məsələsinin həlli məqsədi ilə məhkumun tutulması yalnız məhkəmənin qərarına əsasən həyata keçirilir. Məhkumun tutulması barədə məhkəmə qərarının çıxarılması üçün aşağıdakı hallarda cəzanı icra edən müəssisənin və ya orqanın vəsatəti əsasında prokuror tərəfindən müvafiq təqdimat verilir:”.

8. 153.2.12-ci maddədə “161.0.1–161.0.8, 161.0.10-cu maddələrində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək” sözləri “153.3-cü maddəsində nəzərdə tutulmuş hallarda tutulmuş şəxsi dərhal azad etmək” sözləri ilə əvəz edilsin.

9. Aşağıdakı məzmunda 153.2-1-ci maddə əlavə edilsin:

“153.2-1. Müvəqqəti saxlama yerinin müdiriyyəti həmçinin bu Məcəllənin 161-ci maddəsində (161.1.5-ci, 161.1.15-ci – 16.1.17-ci maddələr istisna olmaqla) nəzərdə tutulmuş vəzifələri daşıyır.”.

10. 153.4-cü maddədə “həbsdə saxlama yeri üzrə müdiriyyətin rəhbəri tərəfindən azad edilə bilər” sözləri “saxlama yerinin rəisi tərəfindən azad edilir” sözləri ilə əvəz edilsin.

11. 157.3-cü maddədə “bu müddət keçənədək” sözləri “bu müddət bitənədək o,” sözləri ilə əvəz edilsin və mötərizədəki sözlər aşağıdakı redaksiyada verilsin:

“(şəxsin nəqliyyat vasitələri ilə istintaq təcridxanasına aparılması müddəti göstərilən müddətə daxil deyildir)”.

12. Aşağıdakı məzmunda 159-1-ci maddə əlavə edilsin:

“Maddə 159-1. Həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi

159-1.1. İstintaq təcridxanasının yerləşdiyi yaşayış məntəqəsindən uzaq yerdə istintaq hərəkətlərinin aparılması və ya həbs edilmiş şəxsin məhkəmə icraatında iştirakının təmin edilməsi zərurəti olduqda və onun hər gün gətirilib aparılması mümkün olmadıqda, həbs edilmiş şəxs məhkəmənin əsaslandırılmış qərarı ilə 1 ayda 10 gündən artıq olmayan müddətə istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilə bilər. Həbs edilmiş şəxsin vəsatəti əsasında həmin müddət məhkəmənin əsaslandırılmış qərarı ilə məhkəmə icraatının sonunadək uzadıla bilər.

159-1.2. İstintaq təcridxanasının yerləşdiyi yaşayış məntəqəsindən uzaq yerdə istintaq hərəkətlərinin aparılması məqsədi ilə həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsini zəruri hesab edən müstəntiq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora bu barədə əsaslandırılmış vəsatət verir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror təqsirləndirilən şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi zərurəti ilə razılaşdıqda, bu barədə həbs qətimkan tədbiri haqqında qərarı çıxarmış məhkəməyə təqdimatla müraciət edir. Məhkəmə təqsirləndirilən şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi barədə təqdimata məhkəmə nəzarəti qaydasında baxır və həbs edilmiş şəxsin müddəti göstərilməklə istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi və ya bundan imtina edilməsi barədə qərar qəbul edir.

159-1.3. Həbs edilmiş şəxsin məhkəmə icraatında iştirakının təmin edilməsi zərurəti ilə bağlı, onun istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi məhkəmə baxışı zamanı tərəflərin vəsatəti əsasında məhkəmənin qərarı ilə həyata keçirilir.

159-1.4. Həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi və ya bundan imtina edilməsi barədə məhkəmənin qərarından cinayət prosesinin tərəfləri apellyasiya instansiyası məhkəməsinə şikayət verə bilərlər. Apellyasiya instansiyası məhkəməsinin bu məsələyə dair qərarı qətidir.

159-1.5. Həbs edilmiş şəxs istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirildikdə və geri qaytarıldıqda tibbi müayinədən keçirilir.

159-1.6. Həbs edilmiş şəxsin əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi məqsədi ilə istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi qadağandır.”.

13. 161-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 161. İstintaq təcridxanasının müdiriyyətinin vəzifələri

161.1. İstintaq təcridxanasının müdiriyyətinin aşağıdakı vəzifələri vardır:

161.1.1. istintaq təcridxanasına gətirilmiş həbs edilmiş şəxsi qəbul etmək və dərhal aşağıdakı məlumatları qeydə almaq:

161.1.1.1. adı, atasının adı, soyadı, anadan olduğu tarix və yer, yaşadığı ünvan;

161.1.1.2. şəxsin həbs edilməsinin əsası və onun həbs edilməsi barədə qərarı qəbul etmiş orqan;

161.1.1.3. istintaq təcridxanasına gətirilmənin tarixi və vaxtı;

161.1.1.4. həbs edilmiş şəxsə məxsus olan və saxlanılmaq üçün anbara təhvil verilən əşyaların siyahısı;

161.1.1.5. həbs edilmiş şəxsin üzərində müşahidə olunan hər hansı bədən xəsarətləri və onun istintaq təcridxanasına daxil olanadək məruz qaldığı hər hansı işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar barədə şikayəti;

161.1.1.6. həkim sirrinə aid tələblər nəzərə alınmaqla, həbs edilmiş şəxsin özünün və ya digər şəxslərin saxlanılması şəraitinə təsir göstərə biləcək psixi və fiziki qüsurları barədə məlumatlar;

161.1.2. həbs edilmiş şəxs istintaq təcridxanasına gətirildikdən dərhal sonra ona həbsə alındığı və harada saxlanıldığı barədə yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla və ya digər vasitələrlə məlumat vermək imkanını yaratmaq (istintaq təcridxanasının müdiriyyəti həbs edilmiş şəxsin qocalığı, yetkinlik yaşına çatmaması, sağlamlıq və psixi vəziyyəti ilə bağlı hallar istisna

olmaqla, belə məlumatları öz təşəbbüsü ilə verə bilməz) əgər həbs edilmiş şəxs əcnəbi, yaxud vətəndaşlığı olmayan şəxsdirsə, onun vətəndaşı olduğu və ya daimi yaşadığı dövlətin Azərbaycan Respublikasında olan diplomatik nümayəndəliyinə və ya konsulluğuna bu barədə dərhal məlumat vermək və bu cür məlumatın verildiyini qeydə almaq;

161.1.3. həbs edilmiş şəxsin istintaq təcridxanasına gətirildikdən sonra təxirə salınmadan tibbi müayinədən keçirilməsini təmin etmək;

161.1.4. həbs edilmiş şəxsləri hüquq və vəzifələri, daxili intizam qaydaları, istintaq təcridxanasında saxlanılma rejimi, təklif, ərizə və şikayətlərin verilməsi qaydası ilə tanış etmək və onlara bu barədə izahat vermək;

161.1.5. həbs edilmiş şəxslərin müdafiəçisi, qanuni nümayəndəsi, yaxın qohumları ilə və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərlə görüşlərini təmin etmək;

161.1.6. həbs edilmiş şəxslərin istintaq təcridxanasında şəxsi təhlükəsizliyini təmin etmək;

161.1.7. həbs edilmiş şəxslərin ünvanına daxil olan prosessual sənədlərin surətlərini həmin sənədlərin daxil olduğu gün, sənədlər gecə vaxtı daxil olmuşdursa, səhər saat 12-dək onlara vermək;

161.1.8. həbs edilmiş şəxslərin təklif, şikayət və ərizələrini qeydiyyata almaq;

161.1.9. həbs edilmiş şəxslərin məktub, teleqram, təklif, ərizə və şikayətlərinin qanunla müəyyən edilmiş qaydada göndərilməsini təmin etmək;

161.1.10. həbs edilmiş şəxslərin cinayət prosesini həyata keçirən orqana vaxtında çatdırılmasını təmin etmək;

161.1.11. eyni cinayət işi və ya əlaqəli bir neçə cinayət işi üzrə barəsində cinayət təqibi həyata keçirilən həbs edilmiş şəxsləri ayrılıqda saxlamaq, həbs edilmiş şəxsin digər həbs edilmiş şəxslərlə ünsiyyətinin qarşısını almaq, habelə həbs edilmiş şəxslərin qanunla müəyyən edilmiş saxlanılma rejiminə zidd olmayan digər məsələlər barədə cinayət prosesini həyata keçirən orqanın yazılı göstərişlərini yerinə yetirmək;

161.1.12. həbs edilmiş şəxslərin istintaq və ya digər prosessual hərəkətlərdə iştirak etməkdən imtina etməsi barədə protokol tərtib etmək;

161.1.13. cinayət prosesini həyata keçirən orqanın yazılı göstərişinə əsasən, həbs edilmiş şəxslərin iştirakı ilə istintaq təcridxanasında istintaq hərəkətlərinin, yaxud digər prosessual hərəkətlərin aparılmasına şərait yaratmaq;

161.1.14. həbs edilmiş şəxsləri məhkəmənin qərarına əsasən digər istintaq təcridxanasına köçürmək;

161.1.15. həbs edilmiş şəxsin telefonla danışmaq hüququnun təmin edilməsinə şərait yaratmaq;

161.1.16. həbs edilmiş şəxsin həbsdə saxlanılma müddətinin başa çatmasına 7 gün qalmış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora bu barədə məlumat vermək;

161.1.17. həbs edilmiş şəxsin notariusun xidmətlərindən istifadə etməsinə şərait yaratmaq;

161.1.18. bu Məcəllənin 162-ci maddəsində nəzərdə tutulmuş hallarda həbs edilmiş şəxsi dərhal həbsdən azad etmək.

161.2. İstintaq təcridxanasının müdiriyyəti həbs edilmiş şəxs həbs yerinə gətirildikdən sonra keçirilmiş tibbi müayinənin nəticələrinin onun sağlamlığı barədə qeydə alınmış məlumatlara əlavə olunmasını təmin etməlidir.

161.3. Həbs edilmiş şəxsin prosessual hərəkətlərdə iştirak etməsi ilə əlaqədar onun barəsində aşağıdakı məlumatlar qeydə alınır:

161.3.1. prosessual hərəkəti həyata keçirən orqan;

161.3.2. prosessual hərəkətin yeri və vaxtı;

161.3.3. prosessual hərəkətin keçirilməsindən əvvəl və sonra müşahidə olunan bədən xəsarətləri və prosessual hərəkət zamanı yol verilən hər hansı işgəncə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar barədə şikayət.".

14. 162.4-cü maddədə "həbsdə saxlanma yeri müdiriyyətinin rəhbəri" sözləri "həbs yerinin rəisi" sözləri ilə əvəz edilsin.

15. 162.5-ci maddədə "həbsdə saxlanılma yerinin rəhbəri" sözləri "həbs yerinin rəisi" sözləri ilə əvəz edilsin və həmin maddəyə "azad edir" sözlərindən əvvəl "dərhal" sözü əlavə edilsin.

16. 164.7-ci maddənin ikinci cümləsində "həbsdə saxlama yerinin rəhbərinə" sözləri "həbs yerinin rəisinə" sözləri ilə əvəz edilsin.

17. 175.4-cü maddədə "həbsdə saxlanılma yeri müdiriyyətinin rəhbərinə" sözləri "həbs yerinin rəisinə" sözləri ilə əvəz edilsin.

18. 202.4-cü maddənin birinci və ikinci cümlələrində, 452.2-ci və 452.5.1-ci maddələrdə "həbsdə saxlama yerinin" sözləri "həbs yerinin" sözləri ilə əvəz edilsin.

19. 214.2.2-ci maddədə (hər iki halda) "həbsdə saxlanılma yerlərinin" sözləri "həbs yerlərinin" sözləri ilə əvəz edilsin.

20. 226.4-cü maddədə "onların həbsdə saxlanıldığı yerin müdiriyyəti vasitəsi ilə çağırılırlar" sözləri "həbs yerinin müdiriyyəti vasitəsilə çağırılır" sözləri ilə əvəz edilsin.

21. Aşağıdakı məzmunda 232.2-1-ci, 232.2-2-ci, 233.5-1-ci və 233.5-2-ci maddələr əlavə edilsin:

"232.2-1. Hüquqi yardım istədiyini bildirən tutulmuş şəxs hüquqi yardımı almayanadək dindirilməməli və ya onun dindirilməsi vəkilin iştirakı olmadan davam etdirilməməlidir.

232.2-2. Müdafiəçidən imtina etməyən tutulmuş şəxsin müdafiəçinin iştirakı olmadan verdiyi etirafedici ifadələrə məhkəmə baxışı zamanı sübut kimi istinad edilə bilməz. Həmin ifadələrin bu Məcəllədə nəzərdə tutulmuş qaydada müdafiə tərəfinin vəsatəti əsasında sübut qismində qəbul edilməsinə yol verilir.

233.5-1. Hüquqi yardım istədiyini bildirən təqsirləndirilən şəxs hüquqi yardımı almayanadək dindirilməməli və ya onun dindirilməsi vəkilin iştirakı olmadan davam etdirilməməlidir.

233.5-2. Müdafiəçidən imtina etməyən tutulmuş və ya həbs edilmiş təqsirləndirilən şəxsin müdafiəçinin iştirakı olmadan verdiyi etirafedici ifadələrə məhkəmə baxışı zamanı sübut kimi istinad edilə bilməz. Həmin ifadələrin bu Məcəllədə nəzərdə tutulmuş qaydada müdafiə tərəfinin vəsatəti əsasında sübut qismində qəbul edilməsinə yol verilir.".

22. 442.2.1-ci və 448.4-cü maddələrə "tətbiq edilməsinə" sözlərindən sonra ", həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinə" sözləri əlavə edilsin.

23. 442.4.1-ci maddəyə, 446-cı maddənin adına, 446.1-ci, 446.1.2-ci, 446.2.4-cü, 446.2.5-ci və 446.3-cü maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi" sözləri, 446.2.6-cı, 446.2.10-cu və 446.4-cü maddələrə "tətbiq edilməsinin" sözlərindən sonra ", həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin" sözləri, 446.2.8-ci maddəyə isə "tətbiq edilməsini" sözlərindən sonra ", həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsini" sözləri əlavə edilsin.

24. 447-ci maddənin adına, 447.1-ci, 447.3-cü, 447.5-ci, 447.6-cı və 447.7-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi" sözləri əlavə edilsin.

25. 448-ci maddənin adına, 448.1-ci, 448.6-cı və 449.3.6-cı maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi" sözləri əlavə edilsin.

26. 448.1.3-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 448.1.4-cü maddə əlavə edilsin:

"448.1.4. həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi və ya bundan imtina edilməsi barədə.".

27. 448.8-ci maddəyə "tətbiq edilməsinə" sözlərindən sonra ", həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinə" sözləri, "tətbiq edilməsinin" sözlərindən sonra ", həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsinin" sözləri əlavə edilsin.

28. 448.6.3-cü və 453.8.3-cü maddələrdə "həbsdə saxlanılma yerinin" sözləri "saxlanıldığı həbs yerinin" sözləri ilə əvəz edilsin.

29. 449.1.2-ci maddədə "həbsdə saxlanılma yerlərində" sözləri "həbs yerlərində" sözləri ilə əvəz edilsin.

30. 449.3.3-cü maddədə "tutulmuş" sözündən sonra "və ya həbs edilmiş" sözləri əlavə edilsin.

31. 452.1.3-cü maddədə "həbsdə saxlanılma yeri" sözləri "həbs yerinin" sözləri ilə əvəz edilsin.

32. 453.9-cu maddədə "Həbsdə saxlanılma yerinin" sözləri "Həbs yerinin" sözləri ilə əvəz edilsin.

33. 454-cü maddəyə "həyata keçirilməsi" sözlərindən sonra "həbs edilmiş şəxsin istintaq təcridxanasından müvəqqəti saxlama yerinə keçirilməsi məsələsi və ya bundan imtina edilməsi," sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 27 dekabr 2013-cü il**
**№ 873-IVQD**

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №8, (II kitab), maddə 585; 2001, №7, maddə 455; 2002, №1, maddə 9, №5, maddə 233, №8, maddə 463; 2003, №6, maddə 276; 2004, №5, maddə 321, №7, maddə 505, №8, maddə 598, №10, maddə 761, №11, maddə 890; 2005, №1, maddə 4, №4, maddə 278, №6, maddə 462, №8, maddə 686, №10, maddə 874, №12, maddə 1079; 2006, №1, maddə 3, №2, maddə 64, №5, maddə 390, №10, maddə 847, №11, maddə 929, №12, maddə 1032; 2007, №2, maddələr 65, 68, №6, maddə 560, №7, maddə 712, №8, maddə 756, №11, maddə 1049, №12, maddə 1221; 2008, №6, maddə 462, №7, maddələr 606, 607, №12, maddələr 1045, 1049; 2009, №5, maddə 315, №7, maddə 517, №12, maddə 966; 2010, №3, maddələr 171, 173, 178, №7, maddə 593, №12, maddə 1058; 2011, №6, maddə 480, №7, maddələr 589, 599; 2012, №7, maddə 674, №11, maddə 1062, №12, maddə 1215; 2013, №2, maddə 77, №6, maddələr 616, 626, №7, maddə 786, №11, maddə 1265) 215.3.1-ci maddəsində "317-1.2," rəqəmlərindən sonra "318-1," rəqəmləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 3 fevral 2014-cü il**
**№ 897-IVQD**

**Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 584; 2001, № 1, maddə 24, № 3, maddə 139, № 7, maddə 455, № 11, maddələr 680, 698, № 12, maddə 731; 2002, № 1, maddə 9, № 4, I kitab, maddə 165, № 5, maddələr 234, 237, 239, № 6, maddə 326, № 8, maddə 463, № 12, maddə 692; 2003, № 1, maddələr 3, 13, 23, № 4, maddələr 177, 178, № 5, maddə 228, № 6, maddələr 257, 276, 279, № 8, maddələr 407, 425, № 12, I kitab, maddələr 676, 696, II kitab, maddələr 713, 714; 2004, № 1, maddələr 6, 7, 10, 13, № 4, maddələr 200, 201, 204, № 5, maddələr 313, 314, 317, 321, № 6, maddə 397, № 8, maddələr 596, 597, № 10, maddələr 762, 779, № 11, maddə 900, № 12, maddə 973; 2005, № 1, maddələr 5, 6, № 2, maddə 61, № 4, maddələr 272, 273, 275, 278, № 6, maddələr 462, 466, № 7, maddə 576, № 8, maddələr 691, 692, № 10, maddələr 875, 877, 904, № 11, maddələr 993, 994, 995, № 12, maddələr 1083, 1085; 2006, № 2, maddələr 64, 68, № 3, maddələr 219, 220, 223, 225, № 5, maddə 385, № 6, maddə 478, № 11, maddələr 923, 924, 932, № 12, maddələr 1005, 1020, 1024; 2007, № 1, maddələr 3, 4, № 2, maddələr 65, 68, № 5, maddələr 397, 398, 401, 440, № 6, maddələr 560, 561, 562, 579, № 8, maddə 757, № 10, maddələr 935, 936, 938, 940, № 11, maddələr 1048, 1049, 1053, 1070, 1077, 1080, 1089, 1091, № 12, maddələr 1195, 1211, 1217, 1218, 1221; 2008, № 2, maddə 47, № 3, maddələr 146, 152, 159, № 4, maddə 249, № 5, maddə 340, № 6, maddələr 454, 460, 461, 464, № 7, maddələr 601, 602, 605, № 8, maddələr, 699, 701, 711, № 10, maddələr 884, 885, № 11, maddələr 956, 957, № 12, maddələr 1045, 1047, 1049; 2009, № 2, maddələr 36, 45, 49, 52, 53, № 5, maddələr 309, 315, № 6, maddələr 404, 405, № 7, maddələr 517, 518, 519, № 8, maddə 611, № 12, maddələr 953, 954, 966, 971; 2010, № 2, maddələr 70, 71, № 3, maddələr 167, 171, 178, № 4, maddələr 275, 276, № 5, maddələr 379, 380, № 6, maddə 483, № 7, maddələr 577, 591, 594, 595, 598, 600, № 10, maddə 838, № 11, maddələr 936, 938, 949, № 12, maddə 1059; 2011, № 2, maddələr 70, 71, № 3, maddələr 162, 164, 167, 168, 170, № 4, maddələr 246 və 254, № 6, maddələr 470, 479, 487, № 7, maddələr 596, 614, № 10, maddə 881, № 11, maddə 981, № 12, maddələr 1094, 1095, 1099, 1103, 1106; 2012, № 1, maddə 3, № 2, maddə 50, № 3, maddə 194, № 4, maddə 271, № 5, maddə 404, № 6, maddə 499, № 7, maddələr 649, 665, 667, № 9, maddə 843, № 11, maddələr 1046, 1047, 1055, 1064, 1069; 2013, № 1, maddələr 12, 13, 23, № 2, maddələr 90, 100, № 3, maddələr 205, 218, 220, 225, № 4, maddələr 354, 361, № 5, maddələr 461, 473, 480, № 6, maddələr 601, 617, 627, 629, № 7, maddə 777, № 8, maddə 888; № 11, maddələr 1287, 1294, 1300, 1304, 1311; Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 807-IVQD nömrəli, 22 noyabr tarixli 821-IVQD nömrəli və 3 dekabr tarixli 836-IVQD, 839-IVQD nömrəli qanunları) aşağıdakı məzmunda 25.6-1-ci, 425.1.1-1-ci, 426.1.5-1-ci və 426-1-ci maddələr əlavə edilsin:

“25.6-1. Bu Məcəllənin 426-1.1-ci maddəsində müəyyən edilmiş hallarda inzibati cərimə şərti olaraq tətbiq edilir.”;

“425.1.1-1. inzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında;”;

“426.1.5-1. inzibati cərimə şərti olaraq tətbiq edildikdə, hüquqpozmanın aradan qaldırılması üçün müəyyən edilmiş müddət və bu müddət ərzində hüquqpozma aradan qaldırıldığı təqdirdə cərimənin ödənilməməsi barədə qeyd;”;

“Maddə 426-1. İnzibati cərimənin şərti olaraq tətbiq edilməsi

426-1.1. Eyni inzibati xətanı il ərzində təkrar törədən şəxslər istisna olmaqla, bu Məcəllənin 116.0.1-ci, 194-cü, 195-ci, 196.0.4-cü, 196.0.6-cı, 316-cı və 317.2-ci – 320-1-ci maddələrində nəzərdə tutulan inzibati xətanı törətmiş şəxs barəsində səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında qərar çıxarır.

426-1.2. İnzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında qərarda şəxsin törətdiyi hüquqpozmanı aradan qaldırması üçün müddət nəzərdə tutulur. Bu müddət bir ayadək, yaxud hüquqpozmanın aradan qaldırılmasının mürəkkəbliyi və bunun üçün əlavə vaxtın tələb olunması nəzərə alınaraq bir aydan iki ayadək müəyyən olunur.

426-1.3. Bu Məcəllənin 426-1.2-ci maddəsində nəzərdə tutulan müddət ərzində hüquqpozma aradan qaldırılarsa, inzibati cərimə ödənilmir. Əks təqdirdə, inzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında qərarda nəzərdə tutulan cərimə ödənilməlidir. Cərimənin ödənilməsi şəxsi törətdiyi hüquqpozmanın aradan qaldırılması öhdəliyindən azad etmir.

426-1.4. İnzibati xəta törətmiş şəxs hüquqpozmanı aradan qaldırdıqda, bu Məcəllənin 426-1.2-ci maddəsində nəzərdə tutulan müddət ərzində inzibati xəta haqqında işə baxan səlahiyyətli orqana (vəzifəli şəxsə) bu barədə məlumat verməlidir. Həmin məlumatın verildiyi gündən bu Məcəllənin 426-1.2-ci maddəsində nəzərdə tutulan müddətin axımı dayanır. İşə baxan səlahiyyətli orqan (vəzifəli şəxs) ona məlumatın verildiyi gündən 5 iş günü müddətində bu məlumatın düzgünlüyünü araşdırır və araşdırmanın nəticəsi barədə inzibati xəta törətmiş şəxsə yazılı bildiriş göndərir (verir). Məlumatın səhv olduğu müəyyənləşdirildikdə, inzibati cərimənin şərti olaraq tətbiq edilməsi haqqında qərarda nəzərdə tutulan cərimə ödənilməlidir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 fevral 2014-cü il**
**№ 908-IVQD**

**“Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**
**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

“Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin dördüncü abzasında “korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanının” sözləri “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin” sözləri ilə əvəz edilsin.

2. 8-ci maddənin birinci hissəsinin üçüncü - səkkizinci abzasları müvafiq olaraq dördüncü - doqquzuncu abzaslar hesab edilsin və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

“Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi;”.

3. Aşağıdakı məzmunda 11-1-ci maddə əlavə edilsin:

“Maddə 11-1. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi (bundan sonra - Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi) ixtisaslaşdırılmış prokurorluq orqanı olmaqla, korrupsiya hüquqpozmaları ilə əlaqədar məlumatlara baxır, korrupsiya ilə bağlı cinayətlər üzrə ibtidai istintaq, əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, korrupsiyaya qarşı mübarizənin vəziyyətini təhlil edir, ümumiləşdirir və bu sahədə işin səmərəliliyinin artırılması üçün təklif və tövsiyələr hazırlayır, həmin fəaliyyəti həyata keçirərkən normativ hüquqi aktlarda və onların layihələrində korrupsiya hüquqpozmalarına şərait yaradan hallar müəyyən etdikdə, onların aradan qaldırılması üçün Baş prokuror qarşısında məsələ qaldırır, maarifləndirmə işlərini, profilaktik tədbirləri, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş əsasnaməsinə uyğun olaraq digər səlahiyyətləri yerinə yetirir.

Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi öz fəaliyyəti barədə Baş prokuror vasitəsilə müvafiq icra hakimiyyəti orqanına və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasına məlumat verir.

Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə vəzifəsinə görə Baş prokurorun müavini hesab edilən Baş İdarənin rəisi rəhbərlik edir. Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsinə uyğun olaraq vəzifəyə təyin və vəzifədən azad edilir.

Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində idarə, şöbə və digər struktur bölmələri yaradıla bilər. Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin tərkibində yaradılan struktur bölmələrinin səlahiyyətləri Baş prokuror tərəfindən müəyyən edilir. Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi rəisinin müavinləri və Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin idarə rəisləri Baş prokurorun böyük köməkçiləri, idarə rəislərinin müavinləri və şöbə rəisləri isə köməkçiləri hesab edilirlər.

Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin işçilərini Baş prokuror vəzifəyə təyin və vəzifədən azad edir. Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi həmin şəxslərin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə təqdimat verir.”.

4. 17-ci maddənin ikinci hissəsində “korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanı” sözləri “Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi” sözləri ilə əvəz edilsin.

5. 18-ci maddənin üçüncü hissəsində “korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluq orqanının” sözləri “Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 fevral 2014-cü il**
**№ 909-IVQD**

## "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 14 fevral tarixli 909-IVQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun Strukturu"nda dəyişikliklər edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 14 fevral tarixli 909-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 11-1-ci maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

4. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun Strukturu"nda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 428; 2004, № 1, maddə 19, № 12, maddə 1061; 2006, № 9, maddə 809; 2008, № 3, maddə 200; 2009, № 10, maddə 791; 2010, № 1, maddə 42) aşağıdakı dəyişikliklər edilsin:

4.1. dördüncü abzas beşinci abzas hesab edilsin və aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"Baş prokurorun müavini – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi";

4.2. 1-ci hissədə "İdarəsi" sözü "Baş İdarəsi" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 mart 2014-cü il**
**№ 126**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**
**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

# Q Ə R A R I

## "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının şərh olunmasına dair

**28 yanvar 2014-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Elməddin Hüseynovun,

maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Bağır Əsədovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin böyük məsləhətçisi Vasif Əmiraslanovun, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının baş müəllimi, hüquq üzrə fəlsəfə doktoru Mübariz Yolçuyevin, mütəxəssislər Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və informasiya idarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri Natiq Hüseynovun, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət sığorta nəzarəti xidmətinin lisenziyalaşdırma, ərizə və şikayətlər şöbəsinin müdiri Mahir Abdullayevin, Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin hüquq və kadr departamentinin müdiri Əfqan Mirzəyevin və Bakı Apellyasiya Məhkəməsinin hakimi Raqib Qurbanovun iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı üzrə açıq məhkəmə iclasında Azərbaycan Respublikası Ali Məhkəməsinin Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsi baxımından "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının şərh edilməsinə dair sorğusu əsasında konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin və mütəxəssislərin çıxışlarını, ekspertin rəyini dinləyib, iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikası Ali Məhkəməsinin (bundan sonra – Ali Məhkəmə) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) ünvanladığı sorğuda göstərilmişdir ki, 20 may 1997-ci ildə hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə onların həyatının və səhhətinin dövlət icbari şəxsi sığortası qaydalarını və şərtlərini müəyyən edən "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra - "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanun) qəbul edilmişdir. Həmin Qanunun 3-cü maddəsinə əsasən hərbi qulluqçuların sığortaçısı Dövlət Sığorta Şirkətidir və həmin Şirkət hərbi qulluqçuların dövlət icbari şəxsi sığortasını həyata keçirir.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanuna dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2006-cı il tarixli Qanunu ilə hərbi qulluqçuların icbari sığorta məbləği artırılmışdır.

Bununla əlaqədar sığorta ödənişinin alınması üçün sığorta orqanına və məhkəmələrə müraciətlərin sayı çoxalmışdır.

Bu qəbildən olan işlərə baxarkən bəzi məhkəmələr Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 149-cu maddəsi nöqteyi nəzərindən iddiaların təmin edilməsi ilə bağlı qətnamələr qəbul etmiş, digər məhkəmələr isə həmin Qanunun özündə qanunun geriyə qüvvəsi ilə əlaqədar normanın olmamasına əsaslanaraq iddiaları rədd etmişlər.

Göstərilənləri nəzərə alaraq Ali Məhkəmə "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun bəzi müddəalarının şərh olunmasını

Konstitusiya Məhkəməsindən xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu, ilk növbədə, hərbi qulluqçuların sosial müdafiəsi sahəsində qəbul olunmuş normativ hüquqi aktlara ardıcıllıqla baxılmasını zəruri hesab edir.

"Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 sentyabr 1991-ci il tarixli 350 nömrəli Fərmanı ilə respublikada icbari sığortalanmanın bütün növlərinin həyata keçirilməsi Dövlət Sığorta Kommersiya Şirkətinə həvalə edilmişdir.

25 dekabr 1991-ci ildə "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

Bu Qanunun 2.1-ci maddəsinə əsasən hərbi qulluqçu statusuna Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, Azərbaycan Respublikasının sərhəd qoşunlarında və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə həqiqi hərbi xidmətdə olan Azərbaycan Respublikası vətəndaşları və başqa dövlətlərin vətəndaşları, habelə toplanışlarda olan hərbi vəzifəlilər malikdirlər.

Həmin Qanunun 27-ci maddəsinə görə hərbi qulluqçuların hərbi xidmət (toplanışlar) dövründə həlak olması (ölməsi), xəsarət (yaralanma, travma, kontuziya) alması, səhhətinin (sağlamlığının) pozulması (xəstəliklə əlaqədar sağlamlığına ziyan dəydikdə), habelə hərbi xidmət vəzifələrini yerinə yetirməsi ilə bağlı bədbəxt hadisələrin nəticələrinin ehtimalına qarşı hərbi qulluqçu statusunu əldə etdikləri gündən onlar dövlət tərəfindən icbari şəxsi sığorta edilirlər. Hərbi xidmət keçərkən əmək qabiliyyətini itirmiş şəxslərin sosial təminatına dövlət zəmanət verir.

Hərbi qulluqçuların dövlət tərəfindən mütləq sığortalanmasına dair Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və sərhəd qoşunlarında xidmətdə olan hərbi qulluqçuların, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə toplanışa çağırılmış hərbi vəzifəlilərin, Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrinin şəxsi heyətinin, Azərbaycan Respublikası milli təhlükəsizlik və daxili işlər nazirliklərinin rəis və sıravi heyətinin dövlət tərəfindən mütləq şəxsən sığortalanması haqqında" 8 fevral 1992-ci il tarixli 563 nömrəli Fərmanı ilə sığortalanmanın qaydasının, şərtlərinin və sığorta haqqının məbləğlərinin müəyyənləşdirib təsdiq edilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən qəbul edilmiş 15 fevral 1992-ci il tarixli 99-6 nömrəli və 4 avqust 1992-ci il tarixli 426-20 nömrəli Qərarlar ilə sığorta tədiyələrinin vaxtında və tam ödənilməsinə nəzarətin həyata keçirilməsi Dövlət Sığorta Kommersiya Şirkətinə həvalə edilmişdir.

20 may 1997-ci ildə hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə onların həyatının və səhhətinin dövlət icbari şəxsi sığortası qaydasını və şərtlərini müəyyən edən "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanun qəbul edilmişdir. Bu Qanunun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 22 noyabr 1998-ci il tarixli 27 nömrəli Fərmanı ilə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 1998-ci il tarixli 140 nömrəli Qərarı ilə müvafiq olaraq Azərbaycan Respublikası Prezidentinin 8 fevral 1992-ci il tarixli 563 nömrəli Fərmanı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 fevral 1992-ci il tarixli 99-6 nömrəli və 4 avqust 1992-ci il tarixli 426-20 nömrəli Qərarları qüvvədən düşmüşdür.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun 4-cü maddəsinə əsasən bu Qanuna uyğun olaraq hərbi qulluqçu qanunvericiliklə müəyyən edilmiş minimum əmək haqqının min misli məbləğində sığorta edilmişdir.

20 oktyabr 2006-cı il tarixdə göstərilən Qanuna dəyişikliklər və əlavələr edilmiş, Qanunun 4-cü maddəsində sığorta məbləği on bir min manat müəyyən edilmişdir.

Qeyd edildiyi kimi, məhkəmələr sığorta məbləğinin ödənilməsi ilə bağlı işlərə baxarkən bəzi hallarda Konstitusiyanın 149-cu maddəsinin VII hissəsinə əsaslanaraq "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunu, bu Qanun qüvvəyə minənədək həlak olmuş, xəsarət almış və sığorta məbləğini almamış hərbi qulluqçulara şamil etmişlər.

Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın 149-cu maddəsi ilə bağlı sorğuda qaldırılan məsələlərə münasibətdə hüquq normasının zamana görə qüvvəsi məsələsinə aydınlıq gətirilməsini vacib hesab edir.

Hüquq normasının zamana görə qüvvəsi məsələsi geniş təcrübi (praktiki) əhəmiyyətə malikdir. Onun düzgün həllindən çox zaman konkret münasibətlərə hansı – yeni və ya əvvəllər qüvvədə olmuş qanunun tətbiq edilməsi, onun müddəalarının necə həyata keçirilməsi asılı olur.

Məsələnin kifayət qədər böyük əhəmiyyətə malik olmasını onun Konstitusiyanın 149-cu maddəsi ilə tənzimlənməsi faktı da təsdiq edir. Həmin maddənin VII hissəsinə görə fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran, hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilir. Başqa normativ hüquqi

aktların qüvvəsi geriyə şamil edilmir.

Konstitusiyanın 149-cu maddəsinin VII hissəsi ümumi şəkildə aşağıdakı qaydaları müəyyən edir: normativ hüquqi akt yalnız gələcəyə dair qaydaları müəyyən edir, onun geriyə qüvvəsi yoxdur.

Bu qaydanın aydınlaşdırılması üçün Konstitusiyanın 149-cu maddəsinin VII hissəsində nəzərdə tutulmuş iki halı dəqiq şəkildə ayırmaq və onları ikincidən başlamaqla bir-birinin ardınca tədqiq etmək lazımdır.

Normativ hüquqi aktın geriyə qüvvəsi yoxdur. Bu qaydanın mahiyyəti ondan ibarətdir ki, məhkəmə, normativ hüquqi aktı, onun qüvvəyə minməsindən əvvəl baş vermiş faktlara (münasibətlərə), bu faktların yaratdığı hüquqi nəticələri dəyişmək və ya ləğv etmək məqsədilə tətbiq edə bilməz.

Normativ hüquqi akt, onu qəbul edənin diktəsidir, bu isə yalnız gələcək zamana təsir edə bilər. Vətəndaşdan bilmədiyi qaydaya riayət edilməsini tələb etmək olmaz. Bu prinsip hüquq münasibətlərinin subyektləri arasındakı münasibətlərin sabitliyini və hüquq qaydasının möhkəmliyini qoruyur. Prinsipin əksini qəbul etmək, həmin normativ hüquqi akta tabe olanların hafizəsində onun nüfuzunu sarsıtmaq demək olardı.

Yeni normativ hüquqi akt qüvvəyə mindiyi andan yalnız onun dərcindən sonra baş vermiş faktları və hadisələri əhatə edir.

Normativ hüquqi aktların qüvvəsinin geriyə şamil edilməsinin əsasları daha ətraflı təhlil edilərkən, ilk növbədə, hüquq normasının zamana görə ictimai münasibətlərə təsirinin təbiətinə aydınlıq gətirilməlidir.

Hüquq nəzəriyyəsində zamanın keçmiş, indiki və gələcək kəsiyinə müvafiq olaraq hüquq normalarının üç əsas tipi fərqləndirilir: geriyə təsir edən norma (olmuş, olan və gələcəkdə yaranacaq münasibətləri tənzimləyən); təxirəsalınmaz təsir edən norma (olan və gələcəkdə yaranacaq münasibətləri tənzimləyən); perspektiv təsirli norma (gələcəkdə yaranacaq münasibətləri tənzimləyən).

Hüquq normalarının zamana görə qüvvəsinin təsnifatı, ilk növbədə, hüquq normasının ictimai münasibətlərə təsirinin hüquqi qüvvəsinin əhəmiyyətini görməyə, digər tərəfdən isə əvvəlki və yeni normalar arasında zamana görə yarana biləcək ziddiyyətləri aşkar etməyə imkan yaradır.

Əksər normativ hüquqi aktların “lex retro non agit” prinsipinə əsasən geriyə qüvvəsi olmur. Həmin aktlar yalnız hüquqi qüvvəyə mindikdən sonra yaranan münasibətlərə tətbiq edilir. Normativ-hüquqi aktın hüquqi qüvvəsinin geriyə şamil olunmaması hüquq sistemində qayda və hüquqi təhlükəsizlik zəmanətini yaradır. Belə məhdudiyyət, ilk növbədə, qanunvericiliyin və təcrübədə normaları tətbiq edən orqanların fərdin subyektiv hüquqlarına haqqsız müdaxiləsindən qoruyur.

Qanunvericilikdə hüquqi müəyyənlik, yəni yeni hüquq normasının gözlənilməsi (əvvəlcədən gözlənilən, hüquq sisteminin dəyərləri və məntiqinə zidd olmayan) prinsipi hüquqi dövlətin əsas əlamətlərindən biridir. Hüquq normasının qüvvəsinin geriyə şamil olunmaması isə hüquqi müəyyənlik prinsipinin bir komponentidir.

Hüquq normasının hüquqi qüvvəsinin geriyə şamil edilməsinə məhdudiyyətin qoyulması hüquqi məsuliyyət institutu ilə bağlıdır. Hüquqi məsuliyyət hüquq münasibətlərinin subyektləri üçün neqativ təsirlə nəticələnir. Ona görə hüquq münasibətlərinin iştirakçıları qanunvericilik səviyyəsində neqativ nəticələnən münasibətlərin formal hüquqi tərkibini aydın təsəvvür etməlidirlər.

Qeyd edilənlərlə yanaşı, konstitusiya hüququ baxımından hüquq sistemində hüquq normasının qüvvəsinin geriyə şamil edilməsi istisna olunmur.

Hüquq normasının qüvvəsinin geriyə şamil edilməsi əvvəl mövcud olan münasibətlərə aid edilir və bir qədər təftişedici xarakter daşıyır. Bu təsir nəticəsində yeni normativ-hüquqi aktla artıq tənzimlənmiş münasibətlər və ya faktlar yenidən nəzərdən keçirilir.

Konstitusiyanın 149-cu maddəsinin VII hissəsində iki növ normativ hüquqi aktların qüvvəsinin geriyə şamil edilməsi nəzərdə tutulmuşdur:

fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran;

hüquq məsuliyyətini aradan qaldıran və ya yüngülləşdirən.

Konstitusiyanın 149-cu maddəsinin VII hissəsində “fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran” ifadəsinin nəyi nəzərdə tutması və bu ifadənin fiziki və hüquqi şəxslərin maddi vəziyyətinin yaxşılaşdırılmasını özündə ehtiva edib-etməməsinə dair sorğuda qaldırılan suala cavab olaraq Konstitusiya Məhkəməsinin Plenumu, ilk növbədə, “hüquqi vəziyyət” anlayışına aydınlıq gətirilməsini zəruri hesab edir.

Şəxsiyyətin “hüquqi vəziyyəti” və “hüquqi statusu” məfhumları eyni məna daşıyır. “Status” sözü latın dilindən tərcümədə kiminsə və ya nəyinsə vəziyyəti deməkdir. Bu halda şəxsiyyətin, insanın, vətəndaşın statusu nəzərdə tutulur.

Hüquqi status şəxsiyyətin cəmiyyətdə vəziyyətinin hüquqi cəhətdən təsbit edilməsidir. Hüquqi statusun əsasını faktiki sosial status, yəni mövcud ictimai münasibətlər sistemində insanın real vəziyyəti təşkil edir. Hüquq bu vəziyyəti qanunvericilik çərçivəsinə salaraq tənzimləyir.

Hüquqi statusun aşağıdakı növləri fərqləndirilir:

- vətəndaşın ümumi və ya konstitusiya statusu;
- müəyyən kateqoriya vətəndaşların xüsusi statusu;
- fərdi status və s.

Hüquqi statusun növləri çox olsa da, praktiki cəhətdən yuxarıda göstərilən üç növü əhəmiyyət kəsb

edir.

Ümumi hüquqi status dedikdə, dövlətin vətəndaşı, cəmiyyətin üzvü kimi şəxsin statusu başa düşülür. Ümumi hüquqi status Konstitusiya ilə müəyyən edilir və müxtəlif şərtlərdən (qulluq mövqeyindəki dəyişikliklərdən, ailə vəziyyətindən, vəzifəsindən, yerinə yetirdiyi funksiyalardan) asılı deyildir, hamı üçün vahid və eynidir, nisbi stabil və ümumi səciyyəyə malikdir.

Ümumi hüquqi status hüquq subyektlərinin bütün xüsusiyyətlərini, fərqlərini, səciyyəsini əhatə edə bilməz. Buna görə də hüquq subyektlərinin əmək fəaliyyətindən, daxil olduğu hüquq münasibətlərinin xarakterindən, digər vəziyyətlərdən asılı olaraq mütəmadi yaranan və xitam olunan çoxsaylı subyektiv hüquqlar və vəzifələr ümumi hüquqi statusa daxil deyildir.

Xüsusi status müəyyən kateqoriya vətəndaşların (məsələn, pensiyaçıların, tələbələrin, hərbi qulluqçuların, müəllimlərin, əlillərin, müharibə iştirakçılarının və s.) vəziyyətinin xüsusiyyətlərini əks etdirir. Göstərilən təbəqələr və qruplar vətəndaşın ümumi konstitusiya statusuna əsaslanan və mövcud qanunvericilikdə nəzərdə tutulan əlavə hüquqlara, vəzifələrə, güzəştlərə malik ola bilərlər.

Fərdi status ayrıca şəxsin səciyyəsini (məsələn, şəxsin cinsini, ailə vəziyyətini, yerinə yetirdiyi işi, digər xüsusiyyətlərini) əks etdirir. Fərdi status vətəndaşın fərdi hüquqlarının və vəzifələrinin məcmusudur. Fərdi hüquqi status dinamikdir, insanın həyatında baş verən dəyişikliklərə müvafiq olaraq dəyişir.

Xüsusi, fərdi və digər növ statuslar ümumi (konstitusiya) statusa zidd ola bilməz. Əksinə, onlar ilkin, başlıca status kimi ona əsaslanmalıdırlar.

"Hüquqi vəziyyət (status)" kateqoriyası hər hansı subyektin hüquq və vəzifələrinin məcmusunu xarakterizə edir. Bu anlayış qanun nöqteyi-nəzərindən subyektin cəmiyyətdə tutduğu mövqeyi və malik olduğu imkanları səciyyələndirir.

"Hüquqi vəziyyət (status)" hüququn ayrı-ayrı subyektləri (həmin subyektlər sırasına dövlət də aiddir) arasında qarşılıqlı əlaqələrin qurulmasının hüquqi prinsiplərinin əsasını təşkil edir.

Beləliklə, hüquqi vəziyyətin strukturunu bir-biri ilə dialektik əlaqədə olan şəxsiyyətin hüquqları, azadlıqları, hüquqi vəzifələri və məsuliyyəti təşkil edir.

Hüquq nəzəriyyəsində "fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini yaxşılaşdıran hallar" dedikdə, hüquq və azadlıqlara qoyulmuş məhdudiyyətlərin götürülməsi, şəxsin əvvəllər üzərinə qoyulmuş vəzifələrdən azad edilməsi, əvvəllər verilməmiş hüquqların verilməsi və s. başa düşülür.

"Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanununda, "Hərbi qulluqçuların statusu haqqında" Qanunda və başqa qanunvericilik aktlarında hərbi qulluqçuların hüquqları, vəzifələri və məsuliyyəti müəyyən edilmişdir. Bu qanunvericilik aktlarında hərbi qulluqçuların xüsusi statusu müəyyən edilmişdir.

Göstərilən qanunlara uyğun olaraq hərbi qulluqçuların siyasi hüquqları və azadlıqları, şəxsiyyətin toxunulmazlığı, əmək, istirahət, sağlamlığın mühafizəsi və sağlamlığa vurulmuş zərərin ödənilməsi, təhsil, xidmət yerini dəyişdirmək, müavinətlər və başqa güzəştlər almaq və s. hüquqları vardır.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun müvafiq maddələrində birdəfəlik sığorta məbləğinin artırılması hərbi qulluqçuların qanunvericiliklə müəyyən edilmiş hüquq və azadlıqlarının mahiyyətinə və həcminə təsir etmir, həmin hüquq və azadlıqlar olduğu kimi qalır. Bu baxımdan, birdəfəlik sığorta məbləğinin artırılması hərbi qulluqçuların Konstitusiyanın 149-cu maddəsinin VII hissəsində təsbit olunmuş "hüquqi vəziyyətini yaxşılaşdıran" hal kimi qəbul oluna bilməz.

Bununla belə, Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" 20 may 1997-ci il tarixli Qanun qüvvəyə minənədək həlak olmuş, itkin düşmüş, xəsarət almış, lakin hal-hazıra qədər bu əsaslara görə sığorta məbləğini almamış hərbi qulluqçulara münasibətdə bu Qanunla müəyyən edilmiş sığorta məbləğinin verilməsi məsələsi Konstitusiyanın 12, 16 və 25-ci maddələrinin tələbləri baxımından həll edilməlidir.

Belə ki, Konstitusiyanın 12-ci maddəsinin I hissəsinə görə insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

Konstitusiyanın 16-cı maddəsinin I hissəsinə əsasən Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır.

Konstitusiyanın 25-ci maddəsinin I və III hissələrində təsbit olunmuşdur ki, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir... Həmçinin, həmin maddənin IV hissəsində qeyd olunur ki, heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanun qüvvəyə minənədək həlak olmuş, itkin düşmüş, xəsarət almış və bu əsaslara görə sığorta

məbləğini almamış hərbi qulluqçulara və ya onların vərəsələrinə bu məbləğin ödənilməsindən imtina konstitusiya prinsipi olan bərabərlik hüququnu pozmuş olur. Belə ki, hərbi qulluqçular eyni kateqoriyaya aid və bərabər statusa malikdirlər və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanuna əsasən onlara eyni sığorta riskinə qarşı eyni təminatlar verilir. Konstitusiya prinsipi olan bərabərlik prinsipi isə bərabər şərtlər daxilində hüquq subyektlərinin bərabər vəziyyətdə olmalarını nəzərdə tutur və ən əsası eyni kateqoriyaya aid şəxslərə hər hansı obyektiv və ağlabatan izah olmadan ayrıseçkiliyin tətbiq olunmasını qadağan edir.

Şəxsin hərbi qulluqda olma, hərbi xidmət zamanı həlak olma (ölmə), itkin düşmə, xəsarət və əlillik qrupu alma, həmçinin yararsız kimi tərxis olunma tarixləri sığorta hadisəsinin baş vermə faktını inkar etmir və bu, sığorta ödənişinin ödənilməsindən imtina üçün müstəqil əsas ola bilməz. Əks təqdirdə, bu hal hərbi xidmət zamanı həlak olmuş (ölmüş), itkin düşmüş və sağlamlığını itirmiş şəxslər arasında sadəcə tarixə əsaslanmaqla ağlabatan olmayan differensasiyanın aparılmasına səbəb olar. Bu isə eyni kateqoriyaya aid olan şəxslərin sosial hüquqlarının fərqləndirilməsinə gətirib çıxararaq, insan və vətəndaş hüquq və azadlıqlarının mümkün məhdudlaşdırılmasına dair konstitusiya məqsədlərilə uyğunlaşmır və konstitusiya prinsipi olan bərabərlik hüququnun tələblərini pozur.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanun qəbul edilənədək Dövlət Sığorta Kommersiya Şirkəti ilə Müdafiə Nazirliyi arasında hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası ilə bağlı müqavilənin olmaması xidmətdə olduğu zaman həlak olmuş (ölmüş), itkin düşmüş, xəsarət və əlillik qrupu almış, xidmətə yararsız kimi tərxis olunmuş hərbi qulluqçulara sığorta ödənişi aparmaqdan imtina üçün əsas verib-verməməsinə dair sorğuda qaldırılan məsələ ilə əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıları qeyd edir.

Göstərildiyi kimi, "Hərbi qulluqçuların statusu haqqında" 25 dekabr 1991-ci il tarixli Qanuna görə hərbi qulluqçuların hərbi xidmət (toplanışlar) dövründə həlak olması (ölməsi), xəsarət (yaralanma, travma, kontuziya) alması, səhhətinin (sağlamlığının) pozulması (xəstəliklə əlaqədar sağlamlığına ziyan dəydikdə), habelə hərbi xidmət vəzifələrini yerinə yetirməsi ilə bağlı bədbəxt hadisələrin nəticələrinin ehtimalına qarşı hərbi qulluqçu statusunu əldə etdikləri gündən onlar dövlət tərəfindən icbari şəxsi sığorta edilirlər.

Qanunvericiliyin tələblərinə uyğun olaraq hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası sığorta müqaviləsinə əsasən həyata keçirilir. Hərbi qulluqçuların dövlət icbari şəxsi sığorta müqaviləsi sığortalı ilə sığortaçı arasında üçüncü şəxsin, yəni sığorta olunanın (faydalanan şəxsin) xeyrinə bağlanır və həmin müqavilədə sığorta olunan (faydalanan şəxslər) barədə məlumatlar, sığortalının və sığortaçının vəzifələri və məsuliyyəti, sığorta olunan şəxsə sığorta ödənişinin verilməsi qaydası, habelə sığortalı tərəfindən sığorta haqlarının ödənilməsi qaydası və s. öz əksini tapır.

Müvafiq icra hakimiyyəti orqanı ilə müqavilə bağlayaraq sığortaçı sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda, sığorta olunana (faydalanan şəxsə) qanunvericiliklə müəyyən olunmuş sığorta ödənişini vermək öhdəliyini öz üzərinə götürür. Sığortaçının bu öhdəliyi mülki hüquq müqaviləsindən irəli gəlsə də, o, sığorta ödənişini edərkən sığorta olunanla (faydalanan şəxslə) münasibətlərdə dövlətin adından çıxış edir, Konstitusiyadan irəli gələn həmin şəxslərin həyatına və yaxud sağlamlığına vurulmuş zərərə görə dövlətin kompensasiya ödəmək vəzifəsini həyata keçirərək, həm də publik funksiyanı yerinə yetirir.

Sığortaçının bu funksiyanı öz üzərinə götürməsi sığortalını müqavilə üzrə öhdəliklərini yerinə yetirmək, dövləti isə həmin xərclərin lazımi qaydada maliyyələşdirilməsini təmin etmək vəzifəsindən azad etmir.

Hərbi qulluqçuların və onlara bərabər tutulmuş şəxslərin həyatının və sağlamlığının dövlət icbari şəxsi sığortası həyata keçirilərkən müqavilənin bağlanmaması nəticə etibarilə dövlətlə hərbi xidmətdə olduğu zaman həyatına və yaxud sağlamlığına zərər dəymiş şəxs arasında mövcud olan hüquqların və vəzifələrin mahiyyətini (təbiətini) dəyişdirə bilməz.

Konstitusiyanın 7-ci maddəsinin III hissəsinə görə Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir.

Hakimiyyətlərin bölünməsi prinsipi azad, müstəqil hakimiyyət qollarının mahiyyətcə fərqli hakimiyyət funksiyalarını yerinə yetirməsini nəzərdə tutur. Hakimiyyətlərin bölünməsi prinsipinin məqsədi hakimiyyətin bir qolu tərəfindən digərinin səlahiyyətlərinin mənimsənilməsinə yol verməməkdən ibarətdir.

Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 16-cı bəndinə əsasən sosial təminat məsələlərinə dair ümumi qaydaların müəyyən edilməsi Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətinə aid edilmişdir.

Bununla əlaqədar Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" 20 may 1997-ci il tarixli Qanun qüvvəyə minənədək həlak olmuş, itkin düşmüş, xəsarət almış, lakin hal-hazıra qədər sığorta məbləğini almamış hərbi qulluqçulara, həmin məbləğin ödənilməsi qaydasının və şərtlərinin müəyyən edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir.

Qanunverici bu mexanizmin qaydasını və şərtlərini tənzimləyərkən, sığorta məbləğinin ödənilməsinin müxtəlif üsullarını seçə bilər, lakin qanunvericiliklə 2006-cı ildə artıq müəyyən edilmiş sığorta məbləğinin ödənilməsi həcmi ləğv edilə və ya azaldıla bilməz,

bu həcm şərtsiz gözlənilməlidir. Bunun əksi, hüquqi tənzimlənmənin ağlabatan sabitliyi və qüvvədə olan hüquq normaları sisteminə əsassız dəyişikliklərin edilməsinin yolverilməzliyini nəzərdə tutan vətəndaşların qanuna olan etimadının gözlənilməsi prinsipinin pozulmasına səbəb olar.

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanun qüvvəyə minənədək artıq sığorta məbləği almış şəxslərə şamil olunub-olunmamasına dair sorğuda qaldırılmış suala cavab olaraq Konstitusiya Məhkəməsinin Plenumu qeyd etdiyi kimi, Konstitusiyanın 149-cu maddəsinin VII hissəsinin müddəaları hazırkı vəziyyətdə bu münasibətlərə şamil olunmur.

Plenum bir daha qeyd edir ki, qanunvericiliyin tələblərinə görə sığorta münasibətləri tərəflər arasında sığorta müqaviləsi bağlanmaqla həyata keçirilir.

Qanunvericiliyin tələblərinə və müqavilə şərtlərinə görə sığorta müqaviləsinə müqavilənin müddətinin başa çatması ilə, yaxud da sığorta hadisəsinin baş verməsi və buna müvafiq sığorta ödənişinin sığortaçı tərəfindən sığortalıya ödənilməsi ilə xitam verilir. Sığorta ödənişi həmin vaxt qüvvədə olan qanunvericiliklə müəyyən edilmiş qaydada ödənilir. Bu baxımdan, birdəfəlik sığorta ödənişini almış və bu əsasla sığorta müqaviləsinə xitam verilmiş şəxslərə sığorta ödənişinin təkrarən verilməsi qanunvericiliyin tələblərinə zidd olardı.

Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələlərə dair aşağıdakı nəticələrə gəlir:

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun müvafiq maddələrində birdəfəlik sığorta məbləğinin artırılması hərbi qulluqçuların qanunvericiliklə müəyyən edilmiş hüquq və azadlıqlarının mahiyyətinə və həcminə təsir etmir, həmin hüquq və azadlıqlar olduğu kimi qalır. Bu baxımdan, birdəfəlik sığorta məbləğinin artırılması hərbi qulluqçuların Konstitusiyanın 149-cu maddəsinin VII hissəsində təsbit olunmuş "hüquqi vəziyyətini yaxşılaşdıran" hal kimi qəbul oluna bilməz;

Konstitusiyanın 12, 16 və 25-ci maddələrinin tələblərinə uyğun olaraq "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" 20 may 1997-ci il tarixli Qanun qüvvəyə minənədək həlak olmuş, itkin düşmüş, xəsarət almış, lakin hal-hazıra qədər sığorta məbləğini almamış hərbi qulluqçulara qanunvericilikdə nəzərdə tutulmuş sığorta məbləği ödənilməlidir. Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 16-cı bəndinə əsasən bu məbləğin ödənilməsi qaydasının və şərtlərinin qısa müddətdə müəyyən edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilməlidir;

sığorta ödənişini almış və bu əsasla sığorta müqaviləsinə xitam verilmiş şəxslərə sığorta ödənişinin təkrarən verilməsi qanunvericiliyin tələbləri baxımından yolverilməzdir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

QƏRARA ALDI:

1. "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun müvafiq maddələrində birdəfəlik sığorta məbləğinin artırılması hərbi qulluqçuların qanunvericiliklə müəyyən edilmiş hüquq və azadlıqlarının mahiyyətinə və həcminə təsir etmir, həmin hüquq və azadlıqlar olduğu kimi qalır. Bu baxımdan, birdəfəlik sığorta məbləğinin artırılması hərbi qulluqçuların Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsində təsbit olunmuş "hüquqi vəziyyətini yaxşılaşdıran" hal kimi qəbul oluna bilməz.

2. Azərbaycan Respublikası Konstitusiyasının 12, 16 və 25-ci maddələrinin tələblərinə uyğun olaraq "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının 20 may 1997-ci il tarixli Qanunu qüvvəyə minənədək həlak olmuş, itkin düşmüş, xəsarət almış, lakin hal-hazıra qədər sığorta məbləğini almamış hərbi qulluqçulara qanunvericilikdə nəzərdə tutulmuş sığorta məbləği ödənilməlidir. Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndinə əsasən bu məbləğin ödənilməsi qaydasının və şərtlərinin qısa müddətdə müəyyən edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

3. Sığorta ödənişini almış və bu əsasla sığorta müqaviləsinə xitam verilmiş şəxslərə sığorta ödənişinin təkrarən verilməsi qanunvericiliyin tələbləri baxımından yolverilməzdir.

4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

5. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**